

# Mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək


RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 280 (8873) CÜMƏ, 24 dekabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




# QÜDRƏTLİ PREZİDENT, GÜCLÜ LİDER, MÜZƏFFƏR KOMANDAN

Hər bir xalqın, hər bir dövlətin tarixində onun sonrakı inkişaf yolunu, müstəqillik yolunu müəyyənləşdirən taleyüklü məqamlar, tarixi qərarlar olmuşdur. Azərbaycan dövlətçilik tarixində də belə tarixi anlar olmuş və xalqımız bu məqamlarda doğru qərarlar qəbul edərək, öz taleyinə sahib çıxmışdır.

Azərbaycan xalqı müdrik xalqdır. 1993-cü ildə müstəqilliyimiz, dövlətçiliyimiz təhlükə qarşısında qalanda Azərbaycan xalqı böyük müdriklik nümayiş etdirərək, ən düzgün qərarı qəbul etmiş və ən doğru ünvana üz tutmuşdur. Xalqımız həmin məşəqqətli günlərdə Azərbaycanın dövlət müstəqilliyini, xalqımızın gələcəyini xilas etmək üçün inandığı, etimad göstərdiyi böyük lider Heydər Əliyevə müraciət edəndə də, 2003-cü ildə - yeni əsrin və yeni minilliyin başlanğıcında tarixi seçim anında Heydər Əliyev siyasətinə dəstək verəndə də eyni müdrikliyi, əzmi və qətiyyəti nümayiş etdirmişdir.

## Yeni əsrin yeni LİDERİ

Ümummilli Lider Heydər Əliyev 2003-cü il oktyabrın 1-də Azərbaycan xalqına tarixi müraciətində tam haqlı olaraq cənab İlham Əliyevə böyük etimadını ifadə etmiş və bildirmişdir: *"İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək".* Azərbaycan xalqı isə heç bir tərəddüd etmədən və əminliklə Ümummilli Liderin bu müraciətinə dəstək vermişdir. Ona görə ki, xalq özünün böyük lideri Heydər Əliyevə sarsılmaz inam bəsləyir, Onun göstərdiyi yolun ən düzgün yol olduğunu birmənalı qəbul edirdi.

Azərbaycan xalqı o reallığı da dərk edirdi ki, qarşıdakı dövrdə ölkəmizin gələcəyi naminə Heydər Əliyev siyasətinin davam etdirilməsi taleyüklü və həlledici amildir və Heydər Əliyev siyasətini davam etdirmək gücündə və iqtidarında olan, başlanılan qlobal işləri, transmilli layihələri uğurla həyata keçirə biləcək, Azərbaycanı Ulu Öndərin görmək istədiyi zirvələrə qaldıracaq yeganə lider möhtərəm Prezident İlham Əliyevdir. Azərbaycan xalqının bu tarixi seçimini şərtləndirən digər vacib amil isə şübhəsiz ki, yeni əsrin yeni LİDERİ kimi xarakterizə olunan cənab İlham Əliyevin ali kürsüdə fəaliyyətə başlayana qədər də bütün dövləti vəzifələri çox böyük uğurla həyata keçirməsi, nümayiş etdirdiyi xarizmatik liderlik və yüksək idarəçilik məharəti ilə istisnasız hər kəsin inamını qazanması olmuşdur.


***Ardı 3-cü səh.***


**Si CİNPİN,**
***Çin Xalq Respublikasının Sədri:***



- Mən Çin-Azərbaycan münasibətlərinin inkişafına böyük əhəmiyyət verir, ikitərəfli dostluq və əməkdaşlıq əlaqələrinin ölkələrimizin, xalqlarımızın rifahı naminə yeni səviyyəyə yüksəlməsi üçün Sizinlə birgə səy göstərməyə hazıram.

**Nursultan NAZARBAYEV,**
***Qazaxıstan Respublikasının birinci Prezidenti - Elbası:***



- Ölkənizin ərazi bütövlüyünün bərpası xüsusi sevinc doğurmuşdur. Cənubi Qafqazda uzunmüddətli sülhün bərqərar olmasında Sizin səyləriniz regionda təhlükəsizliyə və sabitliyə töhfə verir.

**Kasım-Jomart TOKAYEV,**
***Qazaxıstan Respublikasının Prezidenti:***



- Əminəm ki, Azərbaycan Sizin strateji kursunuzla bundan sonra da dayanıqlı inkişaf yolu ilə irəliləyəcək, güclü və firavanlaşan dövlət quruculuğu işində yeni zirvələr fəth edəcək.

**Şavkat MİRZİYOYEV,**
***Özbəkistan Respublikasının Prezidenti:***



- Ötən dövrdə Siz həqiqi lider, beynəlxalq aləmdə böyük nüfuz və etimad qazanmış, öz ölkəsinin inkişafına və onun xalqının firavanlığına qiymətli töhfə vermiş dövlət xadimi kimi layiqincə tanınmısınız.

**Aleksandr LUKAŞENKO,**
***Belarus Respublikasının Prezidenti:***



- Sizin dostluğunuzu, etimadınızı, dəstəyinizi, Belarusun mənafeyinə şəxsən diqqət yetirməyinizi çox yüksək qiymətləndirirəm. Görüşlərimizi səmimiyyətlə xatırlayır, qonaqpərvər Belarus torpağında Sizi tez-tez görməyə ümid edirəm.

**Emoməli RƏHMON,**
***Tacikistan Respublikasının Prezidenti:***



- Sizin həyat yolunuz, xalqınızın rifahı naminə fəal və fədakar əməyiniz ölkəyə vicdanla xidmətin parlaq nümunəsidir.

**Qurbanqulu BERDİMƏHƏMMƏDOV,**
***Türkmənistanın Prezidenti:***



- Bu gün Azərbaycanın ictimai-siyasi həyatının bütün sahələrində qazanılmış böyük uğurlar, ölkənizin iqtisadi inkişafında mühüm nailiyyətlər, dünya arenasında onun nüfuzunun möhkəmlənməsi ayrılmaz surətdə Sizin adınızla bağlıdır.

**İrakli QARİBAŞVİLİ,**
***Gürcüstanın Baş naziri:***



- Azərbaycanın uğurlu bir dövlət kimi qurulmasında Sizin xidmətləriniz və rolunuz ölçüyəgəlməzdir.

Gürcüstanla Azərbaycan arasında qardaşlıq, dostluq, tərəfdaşlıq əlaqələri inkişaf edir, dərinləşir və bu işdə Sizin şəxsi töhfəniz çox böyükdür.

# Prezident İlham Əliyev Bosniya və Herseqovina Nazirlər Şurası sədrinin müavini və xarici işlər nazirini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də Bosniya və Herseqovina Nazirlər Şurası sədrinin müavini və xarici işlər naziri Bisera Turkoviçi qəbul edib.

AZƏRTAC xəbər verir ki, qonaq Bosniya və Herseqovinanın Rəyasət Heyətinin sədri Şefik Caferoviçin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev Bosniya və Herseqovinanın Rəyasət Heyətinin sədrinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Şefik Caferoviçə çatdırmağı xahiş etdi.

Dövlətimizin başçısı bu yaxınlarda Bosniya və Herseqovinanın Rəyasət Heyətinin sədri Şefik Caferoviçlə görüşünü məmnunluqla xatırladı. Prezident İlham Əliyev Bosniya və Herseqovinanın Azərbaycanın ərazi bütövlüyünə və Vətən müharibəsi dövründə ölkəmizə verdiyi dəstəyi bir daha yüksək qiymətləndirdi, bunu dostluq və tərəfdaşlıq əlaqələrinin mühüm göstəricisi kimi dəyərləndirdi. Prezident İlham Əliyev öz növbəsində Azərbaycanın da Bosniya və Herseqovinanı dəstəklədiyini vurğuladı. Dövlətimizin başçısı azad olunmuş ərazilərimizdə ermənilər tərəfindən 30 ilə yaxın davam edən işğal dövründə şəhərlərin, kəndlərin, tarixi və dini abidələrin darmadağın edildiyini bildirərək indi ölkəmizin həmin ərazilərdə həyata keçirdiyi geniş yenidənqurma və bərpa işlərindən danışdı.



Bosniya və Herseqovina Nazirlər Şurası sədrinin müavini və xarici işlər naziri Bisera Turkoviç ölkəmizin əldə etdiyi böyük nailiyyətlər münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı və inkişaf proseslərinin onda dərin təəssürat doğurduğunu qeyd etdi.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Doğum gününüz münasibətilə Sizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Son illərdə Çin-Azərbaycan münasibətləri sürətli və sabit şəkildə inkişaf edir, qarşılıqlı siyasi etimad gündən-günə möhkəmlənir, müxtəlif sahələrdə əməkdaşlıq isə uğurla və səmərəli surətdə irəliləyir. Bu ilin iyun ayında telefon danışığımız zamanı biz ikitərəfli əlaqələrin inkişafı və əsas istiqamətlər üzrə əməkdaşlığın dərinləşdirilməsi ilə bağlı mühüm razılıqlar əldə etdik. Mən Çin-Azərbaycan münasibətlərinin inkişafına böyük əhəmiyyət verir, ikitərəfli dostluq və əməkdaşlıq əlaqələrinin ölkələrimizin, xalqlarımızın rifahı naminə yeni səviyyəyə yüksəlməsi üçün Sizinlə birgə səy göstərməyə hazıram.

Sizə möhkəm cansağlığı və firavanlıq arzu edirəm.

*Hörmətlə,*

***Si CİNPİN,***
***Çin Xalq Respublikasının Sədri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Altmış illik yubileyiniz münasibətilə səmimi təbriklərimi və xoş arzularımı qəbul edin.

Siz bu yubiley gününü haqlı olaraq öz xalqınızın tanınmış, Azərbaycan dövlətçiliyinin möhkəmlənməsinə, ölkənin sosial-iqtisadi inkişafında mühüm nailiyyətlərə və beynəlxalq arenada nüfuzunun artırılmasına tarixi töhfə vermiş lideri kimi qarşılayırsınız.

Əminəm ki, Azərbaycan Sizin strateji kursunuzla bundan sonra da dayanıqlı inkişaf yolu ilə irəliləyəcək, güclü və firavanlaşan dövlət quruculuğu işində yeni zirvələr fəth edəcək.

Qazaxıstanda Sizin Qazaxıstan-Azərbaycan münasibətlərinin dərinləşməsinə verdiyiniz şəxsi töhfənizi yüksək qiymətləndirir və iki ölkə arasında çoxillik dostluq, qarşılıqlı dəstək və strateji tərəfdaşlıq tellərinin bundan sonra da möhkəmlənməsinə böyük əhəmiyyət verirlər.

Hörmətli İlham Heydər oğlu, bu əlamətdar gündə Sizə məsul dövləti fəaliyyətinizdə böyük nailiyyətlər, qardaş Azərbaycan xalqına isə rifah və tərəqqi arzulayıram.

*Hörmətlə,*

***Kasım-Jomart TOKAYEV,***
***Qazaxıstan Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu,

Altmış illik yubileyiniz münasibətilə Sizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan çox məmnunam.

Ötən dövrdə Siz həqiqi lider, beynəlxalq aləmdə böyük nüfuz və etimad qazanmış, öz ölkəsinin inkişafına və onun xalqının firavanlığına qiymətli töhfə vermiş dövlət xadimi kimi layiqincə tanınmısınız.

Bu gün Sizin rəhbərliyinizlə Azərbaycanda genişmiqyaslı sosial-iqtisadi islahatlar və səmərəli quruculuq işləri həyata keçirilir.

Cari ilin noyabr ayında İstanbulda Türk Şurasının Zirvə Toplantısında layiq görüldüyünüz "Türk Dünyasının Ali Ordeni" qardaş xalqlarımızın birliyinin təmin olunması və regionda sabitlik yaradılması üçün Sizin həyata keçirdiyiniz genişmiqyaslı fəaliyyətin etiraf edilməsinə parlaq sübutdur.

Biz çox məmnunuq ki, son illərdə siyasi, ticari-iqtisadi, nəqliyyat, kənd təsərrüfatı, mədəniyyət və humanitar sahələrdə strateji tərəfdaşlıq əlaqələri xalqlarımızın ortaq tarixi, dini və mədəni kökləri əsasında, həmçinin qarşılıqlı etimad və hörmət ruhunda fəal inkişaf edir.

Yüksək və ali səviyyələrdə danışıqlar aparılması mütəmadi xarakter daşıyır, xüsusən bu ilin noyabr ayında keçirilmiş səmərəli dialoqlar və görüşlər, heç şübhəsiz, Özbəkistan ilə Azərbaycan arasında strateji tərəfdaşlığın dərinləşməsinə xidmət edəcək, çoxşaxəli əməkdaşlığın miqyasının daha da genişlənməsinə şərait yaradacaq.

Hörmətli İlham Heydər oğlu, fürsətdən istifadə edib, Sizi həyatınızın bu unudulmaz günü münasibətilə bir daha təbrik edirəm. Sizə uzun ömür, möhkəm cansağlığı, ailə xoşbəxtliyi, məsul dövləti fəaliyyətinizdə yeni uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, firavanlıq və daha böyük tərəqqi arzulayıram.

*Hörmətlə,*

***Şavkat MİRZİYOYEV,***
***Özbəkistan Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Sizi 60 illik yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Bir dəfə Siz çox düzgün qeyd etmisiniz: Əgər gələcək haqqında fikirləşməsən, bu günün məsələlərini həll etmək çox çətindir. Azərbaycan bu prinsipi əsas tutaraq sosial-iqtisadi inkişaf sahəsində sanballı uğurlar qazanmış, beynəlxalq miqyasda öz mənafelərini qətiyyətlə müdafiə edən güclü və nüfuzlu dövlətə çevrilmişdir.

Minsk ilə Bakı arasında strateji tərəfdaşlıq münasibətlərinin uğurla davam etməsini məmnuniyyətlə qeyd edirəm.

Əminəm ki, nəzərdə tutduğumuz irihəcmli infrastruktur layihələrinin reallaşması çoxplanlı əməkdaşlığın dərinləşməsi üçün möhkəm təməl olacaq.

Sizin dostluğunuzu, etimadınızı, dəstəyinizi, Belarusun mənafeyinə şəxsən diqqət yetirməyinizi çox yüksək qiymətləndirirəm. Görüşlərimizi səmimiyyətlə xatırlayır, qonaqpərvər Belarus torpağında Sizi tez-tez görməyə ümid edirəm.

Hörmətli İlham Heydər oğlu, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, uzun ömür, ali dövləti vəzifənizdə həyata keçirdiyiniz quruculuq işlərində yeni uğurlar arzulayıram.

*Hörmətlə,*

***Aleksandr LUKAŞENKO,***
***Belarus Respublikasının Prezidenti***

Zati-aliləri.

Doğum gününüz münasibətilə Sizi təbrik edir, möhkəm cansağlığı, Azərbaycan Respublikasının firavanlığı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

Sizinlə ümumi dəyərlər və qarşılıqlı hörmət ruhunda əməkdaşlığa böyük əhəmiyyət verirəm. Həm dövlətlərarası, həm şəxsi münasibətlərimizin yaxınlığı Qoşulmama Hərəkatının 60 illik yubileyinin qeyd olunması ilə bağlı birgə təşkilatçılıqda bir daha təsdiqləndi. Mənə çox xoşdur ki, Siz çıxışınızda beynəlxalq hüquq çərçivəsində ölkələrin ərazi bütövlüyü və suverenliyinə dair məsələləri xüsusi qeyd etdiniz. Bu mənada mən Kosovonun birtərəfli qaydada elan etdiyi müstəqilliyi tanımamaqla bağlı qəti mövqeyinizə, həmçinin beynəlxalq təşkilatlarda bu məsələ ilə əlaqədar Serbiyanı dəstəklədiyinizə görə Sizə bir daha təşəkkürümü bildirirəm. Serbiya da öz növbəsində suverenlik və ərazi bütövlüyünə hörmət prinsipinə sadiqdir və Qarabağ probleminin tənzimlənməsini alqışlayır.

Hörmətli cənab Prezident, Azərbaycanla strateji tərəfdaşlıq Serbiya üçün böyük əhəmiyyət kəsb edir. Coğrafi məsafəyə baxmayaraq, bizim ölkələrimizi və xalqlarımızı ənənəvi dostluq və tərəfdaşlığın bütün sahələrdə möhkəmlənməsi üçün böyük potensial birləşdirir. Serbiya əlaqələrin daha da möhkəmlənməsinə qəti şəkildə sadiqdir. Ona görə də ümid edirəm ki, Azərbaycan ümumi məqsədlərin reallaşmasında gələcəkdə də bizim etibarlı tərəfdaşımız olaraq qalacaqdır.

Zati-aliləri, yeni görüşlər ümidi ilə xahiş edirəm ən yüksək ehtiramımı qəbul edəsiniz.

*Hörmətlə,*

***Aleksandr VUÇİÇ,***
***Serbiya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm. Sizə cansağlığı, xoşbəxtlik və ali dövləti fəaliyyətinizdə nailiyyətlər arzulamaqdan şərəf duyuram.

Cənab Prezident, xalqınızın rifahı və tərəqqisi üçün qarşıya qoyulan məqsədlərə çatmaqda Sizə uğurlar arzu edirəm.

Əminəm ki, Xorvatiya və Azərbaycan bundan sonra da qarşılıqlı dostluğu və ikitərəfli əməkdaşlığı möhkəmləndirəcək və dərinləşdirəcəkdir. Buna görə də iqtisadi əlaqələrin təkmilləşdirilməsi istiqamətində birgə fəaliyyətimiz xüsusi əhəmiyyət kəsb edir.

Cənab Prezident, Sizə ən dərin ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Zoran MİLANOVİÇ,***
***Xorvatiya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Sizi 60 illik yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edir və ən xoş arzularımı bildirirəm.

Bu gün Azərbaycanın ictimai-siyasi həyatının bütün sahələrində qazanılmış böyük uğurlar, ölkənizin iqtisadi inkişafında mühüm nailiyyətlər, dünya arenasında onun nüfuzunun möhkəmlənməsi ayrılmaz surətdə Sizin adınızla bağlıdır.

Siz bütün varlığınızı doğma ölkənizin mənafelərinin qorunmasına, ümummilli hədəflərin və proqramların gerçəkləşməsinə həsr etmisiniz. Xalqa bu cür sədaqətli xidmət yüksək qiymətə layiqdir.

Ölkələrimiz arasında strateji və mehriban qonşuluq münasibətlərinin inkişafına, xalqlarımızın səmimi dostluğunun və qardaşlığının möhkəmlənməsinə Sizin şəxsi diqqətinizi və hərtərəfli dəstəyinizi xüsusi qeyd etmək istərdim.

Hörmətli İlham Heydər oğlu, bu xoş fürsətdən istifadə edərək Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik və ailə firavanlığı, ölkənizin qardaş xalqına bundan sonra da sülh, tərəqqi və inkişaf arzulayıram.

*Dərin hörmətlə,*

***Qurbanqulu BERDİMƏHƏMMƏDOV,***
***Türkmənistanın Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Doğum gününüz münasibətilə səmimi təbriklərimi və ən xoş arzularımı Zati-alinizə çatdırmaqdan böyük məmnunluq hissi duyuram.

Xahiş edirəm, Sizə möhkəm cansağlığı və xoşbəxtlik arzularımı qəbul edəsiniz.

*Hörmətlə,*

***II Abdullah,***
***İordaniyanın Kralı***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Həyatınızın əlamətdar günü - 60 illik yubileyiniz münasibətilə ən səmimi və ürəkdən gələn təbriklərimi qəbul edin.

Bu xoş gündə qeyd etmək istəyirəm ki, Sizin həyat yolunuz, xalqınızın rifahı naminə fəal və fədakar əməyiniz ölkəyə vicdanla xidmətin parlaq nümunəsidir. Dost Azərbaycan xalqı sosial-iqtisadi dəyişikliklərin reallaşmasında, əhalinin layiqli həyat səviyyəsinin təmin edilməsində, habelə respublikanın beynəlxalq aləmdə nüfuzunun möhkəmlənməsində Sizin rəhbərliyinizlə qazanılmış uğurlara görə haqlı olaraq fəxr edə bilər.

İkitərəfli qarşılıqlı əlaqələrin yüksək etimad səviyyəsi ilə səciyyələnən keyfiyyətcə yeni inkişaf mərhələsinə çatmasını Tacikistanda Sizin adınızla bağlayırlar.

Bu xoş fürsətdən istifadə edib vurğulamaq istəyirəm ki, biz ölkələrimiz arasında dostluq və çoxtərəfli əməkdaşlıq münasibətlərinin hərtərəfli möhkəmlənməsi və genişlənməsi üçün Sizinlə bərabər bütün tədbirləri görmək əzmindəyik.

Əziz dost, Sizə səmimi-qəlbdən uzun ömür, möhkəm cansağlığı, ailə səadəti və qardaş Azərbaycanın firavanlığı naminə bundan sonrakı fəaliyyətinizdə yeni uğurlar diləyirəm.

*Hörmətlə,*

***Emoməli RƏHMON,***
***Tacikistan Respublikasının Prezidenti***

Hörmətli cənab Prezident.

Sizi 60 illik yubileyiniz münasibətilə təbrik edir və cansağlığı arzulayıram.

Bu yaxınlarda Brüsseldə Şərq Tərəfdaşlığı Sammiti çərçivəsində keçirilmiş görüşümüzdə açıq və konstruktiv söhbətimizi xatırlayıram.

Bu əlamətdar günlə əlaqədar əminliyimi bildirirəm ki, Moldova Respublikası ilə Azərbaycan Respublikası arasında mövcud ənənəvi dostluq və əməkdaşlıq münasibətləri gələcəkdə ölkələrimizin, xalqlarımızın rifahı naminə daha da inkişaf edəcəkdir.

Zati-aliləri, xahiş edirəm ən yüksək ehtiramımı qəbul edin.

*Hörmətlə,*

***Maya SANDU,***
***Moldova Respublikasının Prezidenti***

❖ ❖ ❖

Əziz dostum.

Hörmətli cənab Prezident.

Sizi Gürcüstan hökuməti və gürcü xalqı adından 60 illik yubileyiniz münasibətilə xüsusi şərəf hissi ilə ürəkdən təbrik edirəm. Sizə güc-qüvvət, cansağlığı və uğurlar arzulayıram.

Azərbaycanın uğurlu bir dövlət kimi qurulmasında Sizin xidmətləriniz və rolunuz ölçüyəgəlməzdir.

Gürcüstan-Azərbaycan münasibətlərinin möhkəmləndirilməsi və inkişaf etdirilməsi istiqamətində Sizin şəxsi səylərinizi nə qədər yüksək qiymətləndirdiyimizi xüsusi qeyd etmək istərdim.

Gürcü və Azərbaycan xalqları arasında ənənəvi dostluq Gürcüstan üçün çox dəyərlidir. Bu, ölkələrimizin mehriban qonşuluq və yaxın tərəfdaşlıq münasibətlərinin inkişafı üçün mühüm amildir.

Qətiyyətlə inanıram ki, ölkələrimiz arasında mövcud olan strateji tərəfdaşlıq həmişə regionun sabitliyinə, tərəqqisinə və rifahına güclü təminat olacaqdır.

Şadam ki, xüsusən son dövrlərdə əməkdaşlığımızın yüksək səviyyəsi ümumi maraq kəsb edən bir sıra sahələrdə birgə uğurlu işlərimiz üçün möhkəm zəmin yaratmışdır.

Məmnunluq hissi ilə qeyd etmək istərdim ki, Gürcüstanla Azərbaycan arasında qardaşlıq, dostluq, tərəfdaşlıq əlaqələri inkişaf edir, dərinləşir və bu işdə Sizin şəxsi töhfəniz çox böyükdür. Belə bir nümunəvi qardaşlığa görə Sizə bir daha təşəkkür edirəm. Əminəm ki, əlaqələrimiz Gürcüstan-Azərbaycan dostluğunun və əməkdaşlığının möhkəmlənməsinə yeni və daha güclü təkan verəcək, son nəticədə ölkələrimizə firavanlıq, sabitlik gətirəcəkdir. Ölkələrimiz gürcü və Azərbaycan xalqlarının çoxəsrlik mehriban qonşuluğa və dostluğa əsaslanan uğurlu əməkdaşlığını bundan sonra da davam etdirəcəklər.

Əziz dostum, hörmətli Prezident, icazə verin Sizə öz səmimi ehtiramımı bir daha ifadə edim. Sizə rifah və Azərbaycan Prezidenti kimi qarşıya qoyduğunuz məqsədlərə çatmaqda uğurlar arzulayıram.

*Hörmətlə,*

***İrakli QARİBAŞVİLİ,***
***Gürcüstanın Baş naziri***

❖ ❖ ❖

Əziz İlham Heydər oğlu.

Yubileyiniz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Sizin 60 yaşınız hələ cavanlıqdır. Mən bunu asanlıqla isbat edə bilərəm. Hamıya məlumdur ki, bu yaxınlarda 30 illiyini qeyd etmiş müstəqil Azərbaycan gənc dövlətdir. Deməli, əgər 30 yaş cavanlıqdırsa, onda 60 yaş ikiqat cavanlıqdır.

Bu zarafatda həqiqət çoxdur. Ona görə ki, Siz həqiqətən gəncsiniz. Gördüyünüz hər işdə cəsarət və enerji buna sübutdur.

Əziz dostum, mənim ikiqat gənc dostum, Sizə tükənməz enerji arzu edirəm. Bu enerji Sizə atanızın layiqli oğlu kimi onun başladığı işləri sona çatdırmaq və xalqının sədaqətli oğlu kimi bu xalqın böyük gələcəyini qurmaqda davam etmək üçün lazımdır.

*Hörmətlə,*

***Leonid KUÇMA,***
***Ukraynanın sabiq Prezidenti***

❖ ❖ ❖

Çox hörmətli İlham Heydər oğlu.

Əlamətdar yubileyiniz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Nüfuzlu dövlət xadimi, müdrik rəhbər, görkəmli şəxsiyyət olan atanızın layiqli davamçısı kimi Siz uzun illərdir doğma Azərbaycanın uğurlu inkişafını və rifahını təmin edirsiniz. Sizin qətiyyətiniz, strateji təfəkkürünüz, siyasi iradəniz xüsusi olaraq qeyd edilməlidir.

Xoş münasibətlərimizi yüksək qiymətləndirir, qardaş respublikalarımızın Heydər Əliyevlə birlikdə əsasını qoyduğumuz hərtərəfli əməkdaşlığının inkişafına görə Sizə dərin minnətdarlığımı bildirirəm.

Sizə səmimi-qəlbdən uzun ömür, Azərbaycan xalqının rifahı naminə gələcək fəaliyyətinizdə uğurlar arzu edirəm. Sizə, nəcib xanımınıza və yaxınlarınıza möhkəm cansağlığı və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***Mintimer ŞAYMİYEV,***
***Rusiya Federasiyası Tatarıstan Respublikasının birinci Prezidenti***

Hörmətli İlham Heydər oğlu.

Altmış illik yubileyiniz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Siz dövlət başçısı kimi atanız - mənim dostum Heydər Əliyevin başlatdığı işi davam etdirərək xalqın rifahının yüksəldilməsində, ölkənin iqtisadiyyatının inkişafında və beynəlxalq aləmdə nüfuzunun möhkəmlənməsində böyük nailiyyətlər əldə etmisiniz.

Ölkənizin ərazi bütövlüyünün bərpası xüsusi sevinc doğurmuşdur. Cənubi Qafqazda uzunmüddətli sülhün bərqərar olmasında Sizin səyləriniz regionda təhlükəsizliyə və sabitliyə töhfə verir.

Azərbaycanın parlaq gələcəyi, 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair milli prioritetlərə uyğun olaraq məqsəd və planların uğurla reallaşdırılması üçün məsul işinizdə Sizə uğurlar arzulayıram.

Əminəm ki, Qazaxıstan ilə Azərbaycan arasında qarşılıqlı hörmət və mehriban qonşuluq ənənələrinə əsaslanan hərtərəfli strateji tərəfdaşlıq bundan sonra da xalqlarımızın rifahı naminə dinamik şəkildə yüksələcək və inkişaf edəcəkdir.

Sizinlə görüşlərimizi həmişə səmimiyyətlə xatırlayıram, münasibətlərimizin gələcəkdə də davam edəcəyinə ümidvaram.

Hörmətli İlham Heydər oğlu, yubileyiniz münasibətilə Sizə möhkəm cansağlığı, ailə səadəti, məsul dövləti fəaliyyətinizdə uğurlar, qardaş Azərbaycan xalqına isə sülh və firavanlıq diləyirəm.

*Ən xoş arzularla,*

***Nursultan NAZARBAYEV,***
***Qazaxıstan Respublikasının birinci Prezidenti - Elbası***

❖ ❖ ❖

Zati-aliləri, cənab Prezident.

Sizi doğum gününüz münasibətilə təbrik edir və ən xoş arzularımızı çatdırırıq.

Bu il həm Sizin üçün, həm də bütövlükdə Azərbaycan üçün əlamətdar bir il oldu. Ölkəniz işğaldan azad edilmiş ərazilərdə keçmiş məcburi köçkünlərin yenidən öz normal həyatlarına qayıtmaları, iqtisadi fəaliyyətlərini bərpa etmələri üçün şəhərlərin, yaşayış məntəqələrinin, oradakı tarixi abidələrin bərpası və yenidən qurulması kimi çətin, lakin fərəhləndirici fəaliyyətə başladı. Artıq Şuşaya həyat qayıdır. Sizinlə birgə həmin ərazilərdə gəzərkən qazandığınız tarixi nailiyyətlərə, həyata keçirilən yenidənqurma işlərinə şahidlik etmək, eləcə də regionun gözəl təbiəti ilə tanış olmaq imkanı əldə etdik.

Pandemiya səbəbindən hələ də davam edən çətinliklərə baxmayaraq, bu il Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ailəsi üzvlərinin iştirakı ilə Qlobal Bakı Forumunun müvəffəqiyyətlə keçirilməsi bizi çox sevindirdi. Ümid edirik ki, gələn il keçiriləcək forum bundan da uğurlu olacaq. Fürsətdən istifadə edərək, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə göstərdiyiniz yüksək inam və etimada, həmçinin davamlı böyük dəstəyə görə Sizə dərin minnətdarlığımızı bildiririk.

Zati-aliləri, Sizi doğum gününüz və Yeni il münasibətilə bir daha təbrik edir, cansağlığı, xoşbəxtlik diləyirik.

*Dərin hörmətlə,*

***Vayra Vike-FREYBERQA,***
***1999-2007-ci illərdə Latviya Respublikasının Prezidenti,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri***

***İsmail SERAGELDİN,***
***1992-2000-ci illərdə Dünya Bankının vitse-prezidenti,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri***

***Rosen PLEVNELİYEV,***
***2012-2017-ci illərdə Bolqarıstanın Prezidenti***

***Əmr MUSA,***
***2001-2011-ci illərdə Ərəb Dövlətləri Liqasının Baş katibi***

***Petar STOYANOV,***
***1997-2002-ci illərdə Bolqarıstanın Prezidenti***

***İv LETERME,***
***2008, 2009-2011-ci illərdə Belçikanın Baş naziri***

***Zlatko LAQUMCİYA,***
***2001-2002-ci illərdə Bosniya və Herseqovinanın Baş naziri***

***Eka TKELAŞVİLİ,***
***2010-2012-ci illərdə Gürcüstanın Baş nazirinin müavini***

***Viktor YUŞENKO,***
***2005-2010-cu illərdə Ukraynanın Prezidenti***

***Katerina YUŞENKO,***
***2005-2010-cu illərdə Ukraynanın birinci xanımı***

***Filip VUYANOVİÇ,***
***2003-2018-ci illərdə Monteneqronun Prezidenti***

***Boris TADİÇ,***
***2004-2012-ci illərdə Serbiyanın Prezidenti***

***İvo YOSİPOVİÇ,***
***2010-2015-ci illərdə Xorvatiyanın Prezidenti***

***Rövşən MURADOV,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Baş katibi***

# QÜDRƏTLİ PREZİDENT, GÜCLÜ LİDER, MÜZƏFFƏR KOMANDAN



*Əvvəli 1-ci səh.*

Ali kürsüdə ilk gündən cənab Prezident İlham Əliyev bəyan etmişdir ki, Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıca şərt ölkədə Heydər Əliyevin siyasətinin davam etdirilməsidir. Çünki təcrübəli siyasətçi, geniş dünyagörüşünə malik müasir lider və böyük strateq kimi cənab Prezident İlham Əliyev çox dəqiq müəyyən etmişdir ki, yalnız Heydər Əliyev strategiyasını həyata keçirməklə, Onun qoyduğu siyasi yolu davam etdirməklə Azərbaycanı güclü dövlətə çevirmək mümkündür. Zaman bir daha Azərbaycan xalqını haqlı çıxardı və Ulu Öndərin şah əsəri olan müstəqil Azərbaycan 18 ildir ki, uğurla inkişaf edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə özünün dövlət quruculuğu və idarəçiliyinin növbəti şərəfli mərhələsini yaşayır. Möhtərəm Prezident İlham Əliyevin təbirincə, *"Heydər Əliyev siyasəti Azərbaycanda yaşayır, davam etdirilir, zənginləşir və ölkəmiz uğurla inkişaf edir"*.

## Prezident İlham Əliyevin modern milli inkişaf doktrinası

18 il dövlətçilik baxımından elə də böyük bir dövr olmasa da, bu zaman keçidi xalqımızın dövlətçilik tarixində ölkəmizin qarşısında duran hədəflərin reallaşdırılması, respublikamızın ardıcıl inkişafının təmin edilməsi, müstəqilliyinin daha da möhkəmləndirilməsi, tarixi nailiyyətlərin əldə olunması kontekstində ən parlaq, ən şanlı dövrlərdən birini təşkil edir. Dövlətimizin başçısı cənab İlham Əliyev yeni minillikdə və müasir çağırışlar fonunda Azərbaycanı modernləşdirmək, ölkəmizi yeni inkişaf mərhələsinə qovuşdurmaq missiyasını çox uğurla yerinə yetirmişdir.

Cənab İlham Əliyevin şəxsiyyətinin böyüklüyü həm də ondadır ki, O, xalqı milli amallar və məqsədlər naminə öz ətrafında böyük ustalıqla birləşdirə bilmişdir. Ötən illər ərzində ölkəmizdə mövcud olan ictimai-siyasi sabitlik və vətəndaş həmrəyliyinin əsasında da bu inam dayanır. Sarsılmaz birlik, xalqın öz liderinə sonsuz inamı, liderin isə öz xalqına arxalanması Azərbaycanın qazandığı bütün uğurların dayaq nöqtəsini təşkil etmişdir.

Son 18 il ərzində Azərbaycan modernləşərək yeni bir keyfiyyət mərhələsinə qədəm qoymuş, ölkənin siyasi, iqtisadi, mədəni həyatı yeniləşərək tamamilə dəyişmişdir. Möhtərəm Prezident İlham Əliyevin praqmatik, çevik siyasəti, sistemli və ardıcıl strateji kursu ölkəmizin müasir inkişafını təmin etmişdir. Əgər Ulu Öndər Heydər Əliyev xilaskarlıq missiyasını böyük məharətlə yerinə yetirərək, Azərbaycan dövlətçiliyini, müstəqilliyimizi qoruyub yeni minilliyə uğurla çıxarmışdısa, möhtərəm Prezident İlham Əliyev bu müstəqilliyi daha da möhkəmləndirmiş, inkişaf etdirmiş, ölkəmizi regionun lider dövlətinə çevirmişdir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan yeni əsrin əvvəllərində keçid iqtisadiyyatı ilə vidalaşaraq yeni tərəqqi və milli inkişaf arxitekturası üzərində möhkəmlənən iqtisadi modelin tətbiqinə başlamış, postsovet ölkəsi fazasından çıxaraq yüksək inkişaf proqnozları ilə irəliləyən innovativ və modern iqtisadiyyata malik ölkə kimi inamla inkişaf etmişdir. Bu illər ərzində iqtisadiyyatın dinamik inkişafı, uzunömürlü tərəqqi, dayanıqlı makroiqtisadi sabitlik təmin edilmiş, iqtisadiyyatın şaxələndirilməsinə nail olunmuş, həyata keçirilən dövlət proqramları bütün bölgələrin hərtərəfli və tarazlı sosial-iqtisadi tərəqqisinə və qeyri-neft sektorunun inkişafına yol açmışdır. Prezident İlham Əliyevin milli inkişaf doktrinasının başlıca hədəflərini təşkil edən modern və innovativ iqtisadiyyatın idarə olunması şəffaflığa və açıq cəmiyyətin təmin edilməsinə əsaslanmışdır. Ölkəmizdə makroiqtisadi sabitliyin qorunub saxlanılması, milli istehsalın və ixracın genişləndirilməsi, regional inkişaf proqramlarının uğurlu icrası və iqtisadi aktivlik coğrafiyasının regionlara doğru genişlənməsi, modern sənaye quruculuğu, qeyri-neft sektorunun sabit inkişafının təmin olunması kimi başlıca strateji vəzifələr uğurla yerinə yetirilmişdir.

## Azərbaycanda siyasi və iqtisadi islahatlar vəhdət təşkil edir

Azərbaycanda iqtisadi islahatlar uğurlu siyasi islahatlarla tamamlanır. Başqa sözlə, Azərbaycanda siyasi və iqtisadi islahatlar vəhdət təşkil edir. Möhtərəm Prezidentin prinsipiallığı bu sahədə də ciddi uğurların əldə olunmasını təmin etmişdir. Onun *"Biz çalışmalıyıq ki, dünyanın demokratik baxımdan ən inkişaf etmiş ölkələrinin standartlarına yaxınlaşaq və bunu edəcəyik"* fikri ölkənin liderinin demokratik proseslərinin ardıcıllığının və dönməzliyinin təmin edilməsi ilə bağlı tələbkarlığının ifadəsidir. Müasir Azərbaycan 1993-cü ildə *"Yolumuz demokratiya yoludur"* deyən Ulu Öndərin görmək istədiyi respublikaya çevrilmişdir.

Bu gün hakimiyyətin bütün qollarında - qanunverici, icraedici və məhkəmə hakimiyyətlərində dərin islahatlar həyata keçirilir. Möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə siyasi sistemin təkmilləşdirilməsi və siyasi dialoq mühitinin möhkəmləndirilməsi, yeni siyasi konfiqurasiyanın yaranması, demokratik təsisatların fəaliyyətinə geniş imkanların yaradılması, plüralizmin, insan hüquq və azadlıqlarının təmin edilməsi, vətəndaş cəmiyyəti institutlarının gücləndirilməsi, söz və məlumat azadlığının təmin olunması, məhkəmə-hüquq sisteminin fəaliyyətinin daha da təkmilləşdirilməsi istiqamətində həyata keçirilən ardıcıl siyasət Azərbaycanın demokratik sütunlarının daha da möhkəmlənməsini şərtləndirmişdir.

## Xalqa ləyaqətlə xidmət etmək nümunəsi

*"Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır"*. Möhtərəm Prezident İlham Əliyevin dilindən dəfələrlə səslənən bu fikir ölkəmizdə həyata keçirilən sosial siyasətin mahiyyətini çox dəqiq ifadə edir. Azərbaycanda görülən bütün işlər, əldə olunan nailiyyətlər ölkə vətəndaşları, onların ali mənafeyi üçündür. Azərbaycan xalqı əmindir ki, cənab İlham Əliyevin Prezident kimi fəaliyyətinin qayəsini *"xalqa ləyaqətlə xidmət etmək"* prinsipi təşkil edir.

Ötən 18 ildə Azərbaycanın iqtisadi imkanlarının genişlənməsi və iqtisadi qüdrətinin artması daha səmərəli və çoxşaxəli sosial müdafiə tədbirlərinin həyata keçirilməsinə imkan vermişdir. Məqsədyönlü sosial tədbirlər nəticəsində əhalinin sosial müdafiəsinin gücləndirilməsinə, rifah halının yüksəlməsinə xidmət edən, vətəndaşların ali mənafeyinin üstün tutulduğu uğurlu sosial dövlət modeli formalaşdırılmış, işsizliyin və yoxsulluğun səviyyəsinin aşağı salınmasına nail olunmuş, əməkhaqları, pensiya və təqaüdlər əsaslı şəkildə artırılmışdır. Möhtərəm Prezident İlham Əliyevin cari il oktyabr ayının 16-da "Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında" sərəncam imzalaması, bir neçə gün öncə isə yeni sərəncam və fərmanlarla əhalinin həssas qruplarına yönələn sosial ödənişlərin artırılması istiqamətindəki islahatların uğurla davam etdirilməsi bir daha Azərbaycanda vətəndaşların rifah halının yüksəldilməsinin və sosial müdafiə tədbirlərinin genişləndirilməsinin qarşıdakı illərdə də prioritet olacağını söyləməyə əsas verir.

## Mehriban xanım Əliyevanın uğurlu və çoxşaxəli fəaliyyəti ölkəmizin tərəqqisinə mühüm töhfələr verir

Azərbaycanın hərtərəfli inkişafını xarakterizə edən mühüm məsələlərdən biri də bütün sahələri əhatə edən geniş və innovativ proqramların icrası, konseptual yanaşmanın tətbiqidir. Möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən yeni nəsil və modern islahatlar strategiyası Azərbaycanın dinamik inkişafını təmin edən mühüm şərtlərdən biridir. Qabaqcıl institusional islahatlar sırasında isə Birinci vitse-prezidentlik institutunun yaradılması müstəsna əhəmiyyətə malikdir. Ötən dövr göstərdi ki, ölkədə vitse-prezidentlik təsisatının yaradılması və hörmətli Mehriban xanım Əliyevanın Birinci vitse-prezident təyin edilməsi sonrakı mərhələdə vətəndaşlara dövlət diqqəti və qayğısının gücləndirilməsində, cəmiyyətin bütün təbəqələrini əhatə edən uğurlu sosial siyasətin davam etdirilməsində mühüm amil olmuşdur. Mehriban xanım Əliyevanın uğurlu və çoxşaxəli fəaliyyəti, ölkəmizin tərəqqisi ayrı-ayrı sahələrdə mühüm inkişaf göstəricilərinin əldə olunması baxımından böyük önəmə malikdir. Onun sosial və humanitar sahələrdə təşəbbüsləri, gördüyü mühüm işlər ölkəmizdə həyata keçirilən sosial müdafiə tədbirlərinin miqyasının genişlənməsində əhəmiyyətli rol oynayır. Mehriban xanım Əliyevanın istər 44 günlük Vətən müharibəsi dövründə Ordumuza dəstək, Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində, istərsə də pandemiya ilə mübarizədə həyata keçirdiyi tədbirlər milli həmrəyliyimizin daha da möhkəmlənməsi üçün əvəzsiz töhfədir.

Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu dahi Heydər Əliyevin ölməz ideyalarını yaşadır, bu ideyalar işığında mənsub olduğu xalqa ləyaqətlə xidmət edir. Fondun milli-mənəvi dəyərlərin, multikulturalizm ənənələrimizin, mədəni irsimizin qorunmasında və dünyada təbliğində mühüm rolu, elm, təhsil, mədəniyyət, səhiyyə və idman sahələrinin inkişafına verdiyi əvəzsiz töhfələr, xüsusi qayğıya ehtiyacı olan insanlara əl tutması onun xalqın hər kəsiminin böyük sevgisini qazanmasına səbəb olmuşdur. Fondun bir çox ölkədə həyata keçirdiyi humanitar təşəbbüslər isə Azərbaycanın adının dünyada daha çox tanıdılmasına xidmət edir.

## Azərbaycan Prezidentinin sülh və əməkdaşlıq missiyası

Ötən 18 ildə bütün digər istiqamətlərdə olduğu kimi, xarici siyasət sahəsində də Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu prinsiplər uğurla tətbiq olunmuş, milli maraqlara söykənən müstəqil xarici siyasət həyata keçirilmişdir. Möhtərəm Prezident İlham Əliyev həmişə milli mənafe və maraqların qorunmasında uzaqgörənlik və prinsipiallıq nümayiş etdirmiş, hər zaman öz xalqına arxalanmışdır. Dövlət başçısının qətiyyəti, yüksək diplomatik səriştəsi, həmçinin bütün məsələlərdə beynəlxalq hüquqa və ədalətə istinad edən mövqeyi sayəsində Azərbaycanın beynəlxalq nüfuzu getdikcə yüksəlmiş, 2011-ci ildə 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilmiş, 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına üzv qəbul edilmişdir və təşkilata uğurla sədrlik etməkdədir. Digər nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlıq Azərbaycana inteqrasiyanın dərinləşməsinə, ölkə reallıqlarını dünya ictimaiyyətinə obyektiv və dolğun çatdırmağa imkan vermişdir. Azərbaycan Prezidentinin sülh və humanizm, birgə geniş əməkdaşlığı təmin edən xeyirxah missiyası qlobal məkanda birliyin, tolerantlığın, sivilizasiyalararası dialoqun, multikulturalizmin dərinləşməsinə töhfə verir, dövlətlərarası səmimi münasibətlərin təmas nöqtələrinin trayektoriyasını müəyyən edir. Azərbaycanın dövlət başçısının təşəbbüsləri ən yüksək səviyyədə qəbul olunur, Onun təşəbbüsü ilə BMT, Qoşulmama Hərəkatı və digər mühüm beynəlxalq təşkilatların vacib tədbirləri keçirilir. Möhtərəm Prezident İlham Əliyev həm də adı bütün dünyada böyük ehtiram və hörmətlə səslənən qlobal miqyaslı dövlət xadimidir.

## Azərbaycan Avrasiyanın nəqliyyat habına çevrilmişdir

Möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dünyada enerji və kommunikasiya təhlükəsizliyinin təmin olunmasına da əhəmiyyətli töhfələr verir. Son 18 ildə Prezident İlham Əliyevin təşəbbüsü və ölkəmizin müəllifliyi ilə nəhəng transmilli energetika layihələri həyata keçirilmiş, Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, XXI əsrin ən böyük infrastruktur layihələrindən biri olan "Cənub qaz dəhlizi" kimi enerji təhlükəsizliyində mühüm rol oynayan nəhəng layihələr Avropanın enerji xəritəsini dəyişdirmişdir. Həmçinin Azərbaycanın təşəbbüsü ilə qlobal əhəmiyyət daşıyan transnəqliyyat, kommunikasiya layihələri reallaşdırılmış, Avropanı Asiya ilə birləşdirən "Şərq-Qərb" və "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması təmin edilmiş, Azərbaycan dünyada sayı məhdud olan kosmik ölkələr sırasına qoşulmuşdur. Həyata keçirilən qlobal layihələr nəticəsində Azərbaycan Avrasiyanın nəqliyyat habına çevrilmişdir. Hazırda ölkəmizdə altı beynəlxalq hava limanı var və Ermənistanın işğalından azad olunmuş ərazilərdə daha üç beynəlxalq hava limanı olacaqdır. Artıq Füzuli rayonunda bu limanların birinin açılışı olmuşdur. Davos Forumunun reytinqinə əsasən, Azərbaycan yolların keyfiyyətinə görə 27-ci, hava nəqliyyatı xidməti və dəmir yolu nəqliyyatı xidmətinə görə 11-ci və 12-ci yerlərdə qərarlaşmışdır. Hazırda bu istiqamətdə əsas prioritetlərdən biri Zəngəzur dəhlizinin yaradılmasıdır. Həmin dəhliz Azərbaycandan Ermənistana və oradan Azərbaycanın Naxçıvan Muxtar Respublikasına gedərək Türkiyə və Avropaya qədər uzanır. Şübhəsiz ki, bu dəhliz yeni nəqliyyat qovşağı üçün çox geniş imkanlara malik alternativ marşrut olacaqdır. Beləliklə, Prezident İlham Əliyevin təşəbbüsü və ölkəmizin müəllifliyi ilə həyata keçirilən nəhəng enerji və nəqliyyat layihələri dövlətimizin güclənməsinə və beynəlxalq mövqelərinin möhkəmlənməsinə geniş imkanlar yaratmaqla yanaşı, daha geniş bir coğrafiyada əməkdaşlığın və təhlükəsizliyin təmin olunmasına mühüm töhfələr verir və Azərbaycan bu sahədə də güclü aktor rolunu məharətlə icra edir.

## Müharibə və sülh dövrünün qəhrəmanı

Uzun illər ərzində Azərbaycanın xarici siyasət institutunun qarşısında duran bir nömrəli məsələ artıq tarixə qovuşmuş Qarabağ münaqişəsinin həlli olmuşdur. Cənab Prezident İlham Əliyev bu istiqamətdə də vəzifəni konkret müəyyənləşdirərək, qeyd etmişdir ki, *"Azərbaycan heç vaxt öz ərazi bütövlüyünün pozulması ilə barışmayacaq, torpaqlarında ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəkdir. Ölkəmizin ərazi bütövlüyü tam bərpa edilməli, azərbaycanlılar əzəli yurdlarına qayıtmalıdırlar"*. 2020-ci ildə 44 günlük Vətən müharibəsində Azərbaycan möhtərəm Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə özünün zəfər salnaməsinə daha bir möhtəşəm səhifə əlavə edərək, qalib dövlət kimi dünyaya öz gücünü göstərmişdir. Bu gün müzəffər Ali Baş Komandan İlham Əliyev dünyanın tanınmış ictimai-siyasi xadimləri tərəfindən haqlı olaraq müharibə və sülh dövrünün qəhrəmanı kimi qiymətləndirilir.

İstər Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, istərsə də möhtərəm Prezident İlham Əliyevin fəaliyyətinin əsas qayəsini, nüvəsini torpaqlarımızın işğaldan azad olunması təşkil etmişdir. Artıq tarixdə qalmış münaqişənin sülh yolu ilə həll edilməsi üçün dövlət başçıları və nümayəndə heyətləri ilə ikitərəfli, eləcə də çoxtərəfli görüşlərdə, ATƏT-in Zirvə toplantılarında, Minsk qrupunun həmsədrləri ilə aparılan müzakirələrdə və digər bütün platformalarda, eyni zamanda qarşı tərəflə birbaşa danışıqlarda göstərilən səylər ardıcıl və məqsədyönlü siyasətin mühüm tərkib hissəsi kimi diqqət çəkir. Bütün danışıq və görüşlərdə Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması, işğal faktının aradan qaldırılması məsələləri qətiyyətlə irəli sürülmüş, ölkəmizin ədalətli mövqeyinin bütün beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənməsi və qəbul olunması üçün mümkün olan bütün addımlar atılmışdır. Nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən Dağlıq Qarabağ münaqişəsinə dair mühüm qərarların qəbul edilməsinə nail olunmuş, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörmət ifadə edilmiş, münaqişənin məhz bu prinsiplər əsasında həllinin vacibliyi qeyd olunmuşdur. Azərbaycan münaqişənin sülh yolu ilə həllinə dair bütün təşəbbüsləri dəstəkləmiş, problemin ölkəmizin ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı, beynəlxalq hüququn norma və prinsiplərinə uyğun həlli istiqamətində lazımi iradə ortaya qoymuşdur.

## Azərbaycan Ordusu dünya miqyasında 50 ən güclü ordu sırasındadır

Biz Vətən müharibəsində əldə etdiyimiz qələbəni təmin edən bir çox amilləri qeyd edə bilərik. Birmənalı olaraq vurğulaya bilərik ki, ən mühüm amil son 28 il ərzində Azərbaycanda bərqərar olmuş səriştəli, etibarlı və məsuliyyətli siyasi rəhbərlik fenomenidir. Möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə müasir dövrün reallıqlarına və çağırışlarına uyğun, böyük məharətlə həyata keçirilən siyasət, ölkəmizin güclü iqtisadi əsaslara malik olması Vətən müharibəsində qələbəni təmin edən ən mühüm məsələlərdən biri olmuşdur. Ölkəmizdə iqtisadiyyatın dinamik inkişafı, davamlı tərəqqi, dayanıqlı makroiqtisadi sabitlik təmin edilmişdir, Azərbaycanın iqtisadi sütunları möhkəmdir, kifayət qədər böyük iqtisadi və maliyyə imkanlarına malikdir. Dayanıqlı iqtisadi inkişaf Azərbaycanda bütün sahələrdə olduğu kimi, qüdrətli ordu quruculuğu istiqamətində də genişmiqyaslı tədbirlər həyata keçirməyə imkan vermiş, ölkəmizin müasir dövrün ən yüksək standartlarına cavab verən Silahlı Qüvvələri formalaşdırılmışdır. Vətən müharibəsində torpaqlarımızın azadlığı uğrunda döyüşən əsgər və zabitlərimizin əksəriyyəti məhz müstəqillik dövründə dünyaya gəlmiş gənclərimiz olmuşdur. Son illərdə Ordumuzun maddi-texniki bazası əsaslı şəkildə gücləndirilmiş, Silahlı Qüvvələrimiz ən müasir döyüş texnikaları ilə, silah-sursatla təmin olunmuşdur. Görülən məqsədyönlü tədbirlər nəticəsində dünya miqyasında 50 ən güclü ordu sırasında olan Azərbaycan Ordusunun texniki imkanları böyük dərəcədə artmış və İkinci Qarabağ müharibəsində bunu bir daha nümayiş etdirdi. Azərbaycan Ordusunun Vətən müharibəsində göstərdiyi şücaət, yüksək döyüş qabiliyyəti və apardığı əməliyyatlar dünya hərb tarixinə qızıl hərflərlə yazılmışdır. 44 gün ərzində 5 şəhər, 4 qəsəbə, 300-ə yaxın kənd, çoxsaylı strateji yüksəkliklər azad olunmuş, Ermənistan ordusu şanlı Azərbaycan Ordusu tərəfindən darmadağın edilmişdir. Eyni zamanda biz ölkəmizdəki sabitliyi, milli birliyi, həmrəyliyi, xalqımızın öz lideri ətrafında "dəmir yumruq" kimi birləşməsini tarixi zəfərin əsas səbəblərindən biri kimi dəyərləndirə bilərik.

## Xalqımıza çoxəsrlik tarixinin ən böyük uğurunu və qələbəsini yaşatmış müzəffər sərkərdə

Əlbəttə, Vətən müharibəsində əldə etdiyimiz qələbə Azərbaycan tarixində, Azərbaycan xalqının yaddaşında əbədi yaşayacaq. Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı bu qələbə sayəsində qalib xalq kimi özünü dünyaya ləyaqətlə təqdim etmişdir. Ali Baş Komandan Ulu Öndər Heydər Əliyevin vəsiyyətini yerinə yetirərək, xalqımıza özünün çoxəsrlik tarixində ən böyük uğuru və xoşbəxtliyi yaşatmışdır. Bu gün Azərbaycan xalqı müzəffər xalq kimi, Azərbaycan dövləti qalib dövlət kimi yaşayır və əbədi yaşayacaqdır.

Ölkəmizin gələcəklə bağlı hədəfləri də kifayət qədər aydındır. Möhtərəm Prezident İlham Əliyev yeni dövrü quruculuq, inkişaf dövrü kimi xarakterizə etmişdir. Azərbaycan münaqişə sonrası bərpa və yenidənqurma mərhələsinə qədəm qoymuşdur. Söhbət işğaldan azad olunan ərazilərimizin yenidən qurulması ilə yanaşı, regionda yeni proseslərin başlanmasından gedir. Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 10 noyabr 2020-ci il tarixli birgə bəyanatı xüsusilə regionda kommunikasiya xətlərinin açılması ilə əlaqədar olan 11 yanvar 2021-ci il tarixli üçtərəfli Bəyanatla daha da inkişaf etdirilmiş, regionda nəqliyyat kommunikasiya xətlərinin açılması üçün konkret istiqamətlərdə fəaliyyətə başlanılmışdır. Nəqliyyat, kommunikasiya, infrastruktur layihələri regionda sülh, təhlükəsizlik və inkişafa töhfə verəcək və bütün türk dünyası eyni zamanda digər ölkələr üçün də əlavə imkanlar yaradacaqdır. Regionda yeni kommunikasiya və nəqliyyat dəhlizlərinin, o cümlədən çox önəmli Zəngəzur dəhlizinin yaradılması əməkdaşlığı daha da gücləndirəcək, habelə ticarət dövriyyəsinin artmasına xidmət edəcəkdir. Füzulidə yeni beynəlxalq aeroportun inşası, gələcəkdə Zəngilan və Laçında da tikintisi davam edən beynəlxalq hava limanlarının istismara verilməsi regionun nəqliyyat imkanlarını daha da genişləndirəcək.

Azərbaycan müasir şəhərsalma üsulları, "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarını tətbiq edərək, işğaldan azad olunmuş ərazilərimizdə sıfırdan yeni şəhərlər və kəndlər inşa edir. Xüsusi olaraq qeyd etmək lazımdır ki, Azərbaycan bütün bu işləri öz maddi imkanları hesabına görür. Bölgənin zəngin yeraltı və yerüstü təbii ehtiyatlara malik olması, gələcəkdə əlverişli investisiya mühitinin yaradılması onun iqtisadi potensialını daha da artıracaqdır. Həyata keçiriləcək tədbirlər milli iqtisadiyyatımızın da inkişafına təkan verəcəkdir. Çünki azad edilmiş bölgələrin iqtisadi potensialı kifayət qədər böyükdür və ölkəmiz bu potensialdan məharətlə istifadə edərək Qarabağ bölgəsini nəinki Azərbaycanın, dünyanın ən gözəl bölgələrindən birinə çevirəcəkdir.

## Bütün Azərbaycan xalqının Prezidenti

Təbii ki, işğaldan azad olunmuş ərazilərimizin bərpası və dirçəldilməsi, məcburi köçkünlərimizin öz dədə-baba torpaqlarına təhlükəsiz şəkildə qayıtması ilə yanaşı, ölkəmizdəki inkişaf dinamikasının qorunub saxlanılması, əhalinin sosial-müdafiəsinin və rifahının yüksəldilməsi, ölkəmizin beynəlxalq mövqelərinin daha da genişləndirilməsi, təhlükəsizlik və sərhədlərimizin möhkəmləndirilməsi kimi vacib məsələlər də qarşıdakı dövrdə ölkəmizin əsas prioritetləri sırasında olacaqdır.

Bəli, bu gün Azərbaycan möhtərəm Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ən uca zirvələri fəth edir. Azərbaycan xalqı xoşbəxtdir ki, onun cənab İlham Əliyev kimi görkəmli dövlət xadimi, qüdrətli, güclü, dünyada böyük nüfuza və hörmətə malik milli Lideri var.

*Tam əminliklə söyləyə bilərik ki, dünya tarixində iz buraxmış böyük dövlət xadimlərinə xas olan liderlik bacarığı, səriştəli idarəçilik qabiliyyəti, qətiyyətlilik və prinsipiallıq, humanizm və digər yüksək keyfiyyətləri Azərbaycanın dövlət başçısında müşahidə edirik. O, 2003-cü ildə ali kürsüdə vəzifəsinin icrasına başlayanda "Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm" demişdi. Bu gün isə Azərbaycan xalqı, hər bir Azərbaycan vətəndaşı öz Prezidenti ilə fəxr edir!*

**Sahibə QAFAROVA,**

***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Sizi doğum gününüz münasibətilə təbrik edir, cansağlığı və xoşbəxtlik arzulayırıq.

Sevinirik ki, bu il Qlobal Bakı Forumu çoxlu tanınmış şəxsi bir araya gətirərək böyük uğurla təşkil olundu. Biz özümüzü Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ailəsinin üzvləri hesab edirik. Bakıya səfər etmək imkanımız olmasa da, tədbirdə onlayn formatda iştirak etdik. Forumda şəxsən iştirak edən həmkarlarımız kimi, biz də onun böyük müvəffəqiyyətlə keçdiyi qənaətindəyik. İnanırıq ki, gələn il keçiriləcək forum daha uğurlu olacaq.

Cənab Prezident, fürsətdən istifadə edərək Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə göstərdiyiniz inam və etimada, davamlı böyük dəstəyə görə Sizə dərin minnətdarlığımızı bildiririk.

Sizi doğum gününüz münasibətilə bir daha ürəkdən təbrik edir, Yeni ildə ən xoş arzularımızı çatdırırıq.

*Hörmətlə,*

***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin İdarə Heyətinin üzvləri:***

***Marianna VARDİNOYANNİS,***
***UNESCO-nun xoşməramlı səfiri***

***Kerri KENNEDİ,***
***Robert F.Kennedi İnsan Hüquqları Fondunun prezidenti***

***Jan BADERŞNEYDER,***
***“Müasir Köləliyə Son Qoyaq” Qlobal Fondunun idarə heyətinin sədri, 2000-2013-cü illərdə “ExxonMobil” şirkətinin vitse-prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Sizi 60 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edir, cansağlığı, xoşbəxtlik arzularımızı çatdırırıq.

Biz Azərbaycanın dostları olaraq ölkənizin inkişafı üçün göstərdiyiniz davamlı səylərin şahidi olmuşuq. Tanrı Sizi və gözəl ailənizi daim qorusun, xalqınız və bütün bəşəriyyət naminə nəcib istəkləriniz, arzularınız həyata keçsin.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə göstərdiyiniz davamlı dəstəyə görə Sizə səmimi təşəkkürlərimizi bildiririk. Mərkəz dünyada daha yaxşı qarşılıqlı anlaşmaya töhfə verən aktual beynəlxalq məsələlərin müzakirə olunduğu mühüm platformaya çevrilmişdir.

*Hörmətlə və xoş arzularla,*

***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri:***

***Petre ROMAN,***
***1989-1991-ci illərdə Rumıniyanın Baş naziri***

***Çiril QABURİCİ,***
***2015-ci ildə Moldovanın Baş naziri***

***Yadranka KOSOR,***
***2009-2011-ci illərdə Xorvatiyanın Baş naziri***

***İqor LUKŞİÇ,***
***2010-2012-ci illərdə Monteneqronun Baş naziri***

***Rəşid ALİMOV,***
***2016-2019-cu illərdə Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Sizi 60 illik yubileyiniz münasibətilə təbrik etməkdən və ən xoş arzularımızı çatdırmaqdan çox məmnunuq. Sizə möhkəm cansağlığı, xoşbəxtlik, fəaliyyətinizdə uğurlar diləyirik.

Fürsətdən istifadə edərək Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə göstərdiyiniz böyük dəstəyə görə Sizə dərin minnətdarlığımızı bildiririk.

*Hörmətlə,*

***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri:***

***Tzipi LİVNİ,***
***2006-2009-cu illərdə İsrailin xarici işlər naziri***

***Amina Qurib-FAKİM,***
***2015-2018-ci illərdə Mavrikinin Prezidenti***

***Kolinda Qrabar-KİTAROVİÇ,***
***2015-2020-ci illərdə Xorvatiyanın Prezidenti***

***Giorgi MARQVELAŞVİLİ,***
***2013-2018-ci illərdə Gürcüstanın Prezidenti***

***Raymonds VEYONİS,***
***2015-2019-cu illərdə Latviyanın Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Altmış illik yubileyiniz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Uzun illərdir ki, mən Sizi istedadlı və mehriban insan, müdrik və uzaqgörən siyasi xadim, parlaq və səriştəli rəhbər kimi tanıyıram. Siz həyatınızı Vətənə fədakarcasına xidmətə həsr etmisiniz və bunun müqabilində ən yüksək mükafata - Azərbaycan xalqının səmimi sevgisinə və ehtiramına layiq görülmüsünüz. Siz milli həmrəyliyi və çoxəsrlik ənənələri qoruyub saxlamaqla ölkənizi tərəqqi və quruculuq yolu ilə inamla irəli aparırsınız, haqlı olaraq beynəlxalq arenada nüfuz və hörmət qazanmısınız.

Azərbaycanın inkişafına və firavanlığına görə üzərinizə çox böyük məsuliyyət düşür və Siz bu mürəkkəb missiyanı parlaq şəkildə yerinə yetirirsiniz. Zəngin təcrübəniz və öz işinizə sədaqət Sizin ən mürəkkəb məsələlərin öhdəsindən gəlməyinizə, milyonlarla həmvətəninizin taleyinin asılı olduğu düzgün qərarlar qəbul etməyinizə kömək edir.

Rusiya Federasiyasında Sizin Azərbaycan Respublikası və onun vətəndaşları qarşısında mühüm xidmətləriniz haqqında bilirlər. Strateji tərəfdaşlığın möhkəmlənməsinə qiymətli töhfəniz ölkələrimizin möhkəm dostluğunun rəhni olub.

Rusiya və Azərbaycanın topladığı əməkdaşlıq təcrübəsi parlament xətti üzrə sabit əlaqələri əhatə edir. Əminəm ki, Sizin dəstəyinizlə bu mühüm qarşılıqlı əlaqə kanalı bundan sonra da bütün ikitərəfli münasibətlərin, regional və beynəlxalq gündəlikdəki aktual məsələlərdə birgə səylərin koordinasiyasının səmərəli vasitəsi kimi qalacaq.

Sizinlə görüşlərimizi və söhbətlərimizi həmişə səmimiyyətlə xatırlayıram, aramızda yaranmış inam və etimadı çox yüksək qiymətləndirirəm.

Hörmətli İlham Heydər oğlu, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, nikbinlik, ən cəsarətli planlarınızın reallaşmasında uğurlar və müvəffəqiyyətlər arzu edirəm. Qoy, Sizin liderlik keyfiyyətləriniz, tükənməz enerjiniz, xalqın Sizə inamı və dəstəyi gündən-günə firavanlaşan Azərbaycanın yeni nailiyyətlərinin möhkəm təməli olsun.

Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Valentina MATVİYENKO,***
***Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri***



❖ ❖ ❖

Möhtərəm cənab Prezident.

Sizi Türk Dövlətləri Təşkilatı adından və şəxsən öz adımdan 60 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi qəbul etməyinizi xahiş edirəm.

Xüsusi olaraq vurğulamaq istərdim ki, Sizin liderliyiniz və müdrik siyasətiniz sayəsində Azərbaycan Respublikası Cənubi Qafqazın aparıcı ölkəsi kimi regionumuzda sabitlik və əmin-amanlıq amili olaraq beynəlxalq aləmdə nüfuzunu daha da möhkəmləndirmiş və regional siyasətin formalaşdırılmasında strateji dövlətə çevrilmişdir.

Eyni zamanda, qardaş Azərbaycanın, habelə bütün türk dünyasının tarixində yeni bir səhifə açan 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan kimi qazandığınız şanlı Qələbə regionumuzda hərtərəfli əməkdaşlıq və davamlı inkişaf üçün yeni münasibətlərin təməlini qoymuşdur.

Qarabağın işğaldan azad edilməsi yolunda göstərdiyiniz səylərə və türk birliyinin daha da güclənməsi işinə verdiyiniz töhfələrə görə təşkilatımızın İstanbulda keçirilmiş VIII Zirvə Görüşündə dövlət başçıları tərəfindən “Türk Dünyasının Ali Ordeni” ilə təltif edilməyinizi qardaş xalqlarımız türk dövlətlərinin Azərbaycanla birlik və həmrəyliyinin bariz numunəsi kimi böyük rəğbətlə qarşılamışlar.

Azərbaycan Respublikasının Türk Dövlətləri Təşkilatının yaradılması və daha da gücləndirilməsində mühüm rol oynadığını bir daha qürurla vurğulayaraq qeyd etmək istərdim ki, sədrliyiniz dövründə türk dövlətləri arasındakı əməkdaşlıq yeni müstəviyə yönəlmiş və təşkilatımız regionda daha da cəlbedici platformaya çevrilmişdir.

Zati-aliləri, fürsətdən istifadə edib Sizə bir daha möhkəm cansağlığı, ali dövləti fəaliyyətinizdə davamlı uğurlar, qardaş Azərbaycan xalqına rifah, firavanlıq və xoşbəxtlik arzulayıram.

*Dərin ehtiramla,*

***Bağdad AMREYEV,***
***Türk Dövlətləri Təşkilatının Baş katibi***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Altmış illik yubileyiniz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Sizin adınız öz qanuni hüquqlarını qoruyan, haqlı olaraq beynəlxalq arenada layiqli yer tutan Azərbaycanın ən yeni tarixinin ayrılmaz hissəsidir. Sizin rəhbərliyinizlə yürüdülən ardıcıl, ölçülüb-biçilmiş xarici və daxili siyasət Azərbaycan Respublikasının nüfuzunun durmadan artmasına, onun mövqelərinin möhkəmlənməsinə imkan yaradır.

Çoxillik siyasi təcrübəniz, fədakar əməyiniz, yüksək peşəkarlığınız, məsuliyyətli fəaliyyətiniz və qətiyyətli qərarlarınız sayəsində ölkənin müasir simasını formalaşdırmış bir sıra vacib dəyişikliklər həyata keçirilmiş, onun milli maraqlarının hərtərəfli müdafiəsi təmin edilmiş, Azərbaycan xalqının rifahı naminə ictimai-siyasi, sosial-iqtisadi və mədəni-humanitar sahələrdə səmərəli nəticələr əldə edilmişdir.

Siz Azərbaycan Respublikasının Prezidenti vəzifəsində çalışdığınız müddətdə Vətənə sədaqətlə xidmətin parlaq nümunəsini göstərmiş, milyonlarla həmvətəninizin səmimi hörmətini qazanmış, həmçinin xaricdə də böyük nüfuz sahibinə çevrilmisiniz.

Tam əminliklə demək olar ki, 2021-ci ildə 20 yaşı tamam olan Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) birgə səylər sayəsində güclü transregional təşkilat kimi geniş beynəlxalq nüfuz qazanmışdır. Təşkilatın fəaliyyətinə Sizin şəxsi diqqətiniz, onun Katibliyinin işində fəal iştirakınız, dialoq üzrə tərəfdaş qismində Azərbaycanla qarşılıqlı fəaliyyətin yüksək səviyyəsi ŞƏT-in gələcək inkişafı üçün xüsusi əhəmiyyət kəsb edir.

İcazə verin, bu xoş fürsətdən istifadə edərək Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik, ölkənin rifahı naminə yeni müvəffəqiyyətlər, dost Azərbaycan xalqına isə sülh, firavanlıq və tərəqqi arzulayım.

*Dərin hörmətlə,*

***Vladimir NOROV,***
***Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

TÜRKSOY-un Baş Katibliyi, Türkdilli Ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurası adından və şəxsən öz adımdan Sizi əlamətdar yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Zati-alinizin yürütdüyü uzaqgörən və müdrik siyasət nəticəsində müstəqil Azərbaycan Respublikası siyasi, iqtisadi və mədəni sahələrdə yüksək nailiyyətlər əldə edərək beynəlxalq aləmdə nüfuzunu artırmış və regionda sülhün, tərəqqinin və əmin-amanlığın bərqərar olmasını təmin etmişdir.

Əminəm ki, Zati-alinizin apardığı təmkinli və ardıcıl fəaliyyət sayəsində azad edilmiş əzəli Azərbaycan torpaqlarında vaxtilə dağıdılmış, məhv edilmiş türk mədəni və tarixi irsi, mədəniyyət və incəsənət ocaqları çox qısa müddətdə bərpa edilərək Azərbaycan xalqının istifadəsinə veriləcək və Qarabağ torpağı yeni dahilər yetişdirib dünya mədəniyyətinə bəxş etdəcəkdir.

Fürsətdən istifadə edərək TÜRKSOY-a daim göstərdiyiniz diqqət və qayğıya görə Zati-alinizə minnətdarlığımı bildirir, bu əlamətdar gündə Sizə və ailənizə möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik və ali dövləti fəaliyyətinizdə yeni uğurlar arzulayıram.

*Ən dərin hörmət və ehtiramla,*

***Düsen KASEİNOV,***
***TÜRKSOY-un baş katibi***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu.

Altmış illik yubileyiniz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Siz haqlı olaraq Azərbaycanın tanınmış lideri, həm də dünya siyasətində parlaq simasınız. Sizin rəyiniz və mövqeyiniz ən mühüm regional problemlərin həllində müəyyənedici rol oynayır.

Sizin yüksək intellektual potensialınız, təfəkkür genişliyiniz və dövlət idarəçiliyi sahəsində çoxillik təcrübəniz dinamik dəyişən müasir reallıqlar şəraitində optimal həllər tapmağınıza imkan verir.

Azərbaycan iqtisadiyyatının inkişafı, insanların həyatının keyfiyyətinin yaxşılaşdırılması Sizin məsul dövlət vəzifəsində səmərəli işinizin dəyişməz prioritetləridir. Sizin rəhbərliyinizlə həyata keçirilən strateji kurs isə ölkənizin beynəlxalq arenada nüfuzunun və rolunun durmadan artmasına şərait yaradır.

Fürsətdən istifadə edərək Müstəqil Dövlətlər Birliyi məkanında tərəfdaş kimi qarşılıqlı fəaliyyətin möhkəmləndirilməsi məsələlərində ardıcıl və konstruktiv mövqeyinizə, MDB İcraiyyə Komitəsinin fəaliyyətini daim dəstəklədiyinizə görə Sizə səmimi minnətdarlığımı bildirirəm.

Möhtərəm İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, firavanlıq və doğma Azərbaycanın rifahı naminə işinizdə uğurlar arzulayıram.

*Dərin hörmətlə,*

***Sergey LEBEDEV,***
***MDB İcraiyyə Komitəsinin sədri - icraçı katibi***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Altmış illik yubileyiniz münasibətilə ən səmimi təbriklərimi və xoş arzularımı qəbul edin.

Ali dövləti vəzifədə çoxillik fəaliyyətiniz, əldə etdiyiniz genişmiqyaslı iqtisadi nəticələr və strateji siyasi nailiyyətlər Sizə həm doğma ölkənizdə, həm də beynəlxalq aləmdə böyük nüfuz qazandırıb. Bu gün müşahidə olunan ümumi qeyri-sabitlik fonunda Azərbaycanın müəyyən etdiyiniz uzunmüddətli hərtərəfli inkişaf xətti ilə inamla irəliləməsi və sabitlik nümayiş etdirməsi şəksiz olaraq Sizin xidmətinizin və qurucu fəaliyyətinizin sanballı nəticəsidir.

Qoy doğma ölkənizə səmimi sevginiz və dərin sədaqətiniz bundan sonra da Sizin fəaliyyətinizin hərəkətverici qüvvəsi və Azərbaycan Respublikasının rifahı naminə nəzərdə tutduğunuz bütün planlarınızın həyata keçirilməsinin rəhni olsun! Sizə səmimi-qəlbdən hər bir işinizdə uğurlar, möhkəm cansağlığı, uzun ömür və tükənməz enerji arzu edirəm.

Ümidvaram ki, Rusiya-Azərbaycan strateji tərəfdaşlığının mənafeyi və ümumi sülh naminə qardaş xalqlarımız arasında ticari-iqtisadi və humanitar əlaqələr daim genişlənəcək.

Sizə və yaxınlarınıza dərin hörmət hissi ilə xoşbəxtlik diləyirəm.

***Rüstəm MİNNİXANOV,***
***Rusiya Federasiyası Tatarıstan Respublikasının Prezidenti,***
***“Rusiya-İslam dünyası” Strateji Baxış Qrupunun sədri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Altmış illik yubileyiniz münasibətilə səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Azərbaycan Respublikasının Lideri kimi Sizin çoxillik səmərəli fəaliyyətiniz haqlı olaraq nüfuz və hörmət qazanıb. Müasir Azərbaycanın sosial-iqtisadi və ictimai-siyasi inkişafında, dünya arenasında nüfuzunun möhkəmlənməsində qazanılmış bütün möhtəşəm nailiyyətlər Sizin adınızla sıx bağlıdır.

Sizin atanız Heydər Əlirza oğlu Əliyevin yürütdüyü siyasət sayəsində dövlətinizin gələcək inkişafı üçün möhkəm təməl yaradılıb. Sizin rəhbərliyinizlə ölkəniz beynəlxalq münasibətlər sistemində layiqli yer tutur.

Dağıstanda Azərbaycan Respublikası ilə tarixən yaranmış çoxəsrlik dostluq, mehriban qonşuluq və qarşılıqlı hörmət ənənələrinə əsaslanan səmərəli qarşılıqlı fəaliyyəti yüksək qiymətləndirirlər.

Bizim böyük şair Rəsul Həmzətovun yazdığı kimi:

Bakı, Bakı, baş əyirəm qarşında,
Qardaş kimi əllərini sıxıram,
Xəzərin dalğalı pıçıltısında,
Dostluq nəğməsini mən dinləyirəm.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, tükənməz enerji, firavanlıq diləyir, Yeni ildə ən xoş arzularımı çatdırıram.

*Hörmətlə,*

***Sergey MƏLİKOV,***
***Rusiya Federasiyasının Dağıstan Respublikasının rəhbəri***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu.

İcazə verin, Sizi şanlı yubileyiniz - anadan olmağınızın 60 illiyi münasibətilə ürəkdən təbrik edim.

Qeyri-adi insani keyfiyyətləriniz, möhkəm mövqeyiniz, ölçülüb-biçilmiş qərarlar qəbul edilməsində və onların həyata keçirilməsində uzaqgörənliyiniz Sizə haqlı olaraq həm Vətəndə, həm də onun hüdudlarından kənarda nüfuz və hörmət qazandırıb.

Sizin rəhbərliyinizlə Azərbaycan Respublikası iqtisadi, sosial və mədəni sahələrdə sanballı uğurlar qazanıb.

Siz atanız, görkəmli dövlət xadimi, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əlirza oğlu Əliyevin işini layiqincə davam etdirirsiniz.

Sizin bütün həyatınız öz xalqına və ölkəsinə sədaqətlə xidmətin nümunəsidir.

Əminəm ki, Rusiya Federasiyasının Dağıstan Respublikası ilə Azərbaycan Respublikası arasında tarixən yaranmış dostluq münasibətləri bundan sonra da inkişaf edəcək və möhkəmlənəcək.

Sizə möhkəm cansağlığı, firavanlıq və Azərbaycan xalqının rifahı naminə bundan sonra da uğurlar arzu edirəm.

*Hörmətlə,*

***Zaur ASKENDEROV,***
***Rusiya Federasiyası Dağıstan Respublikası Xalq Məclisinin sədri***

❖ ❖ ❖

Çox hörmətli İlham Heydər oğlu.

Sizə ən yüksək ehtiramımı və yubileyiniz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Bu təntənəli və şad gününüzdə Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, uğurlar, tükənməz enerji, çoxşaxəli fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzu edirəm.

Siz haqlı olaraq dünya miqyaslı nüfuzlu siyasi xadimlərdən biri hesab edilirsiniz. Azərbaycan Respublikasının Prezidenti vəzifəsində uğurlu fəaliyyətiniz bunu təsdiq edir. İqtisadi baxımdan firavanlaşan dövlətin təşəkkülünə və xalqın rifahının yüksəldilməsinə yönəlmiş əməyiniz Sizə təkcə doğma ölkənizdə deyil, onun hüdudlarından kənarda da layiqli hörmət qazandırıb.

Həştərxan vilayəti ilə Azərbaycan Respublikası arasında ən müxtəlif fəaliyyət sahələrində dostluq əlaqələrinin inkişafına Sizin şəxsi töhfənizi qiymətləndirmək çətindir. Bizim qarşılıqlı faydalı ticari-iqtisadi və mədəni əməkdaşlığımız uzun illər boyu inkişaf edir və möhkəmlənir.

Fürsətdən istifadə edib Həştərxan vilayətinə göstərdiyiniz diqqətə, birgə layihələri fəal dəstəklədiyinizə, səmərəli qarşılıqlı inteqrasiya fəaliyyəti üçün ürəkdən çalışdığınıza görə Sizə dərin təşəkkürümü bildirirəm.

İcazə verin, Sizi bir daha təbrik edim və firavanlıq, tərəqqi, Azərbaycanın rifahı naminə nəzərdə tutduğunuz bütün planların və təşəbbüslərin həyata keçməsini diləyim.

*Dərin hörmətlə,*

***İqor BABUŞKİN,***
***Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu.

Əlamətdar yubileyiniz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Bütün dünyada Sizi görkəmli dövlət xadimi, dahi atanızın işinin mərd, müdrik və layiqli davamçısı kimi qəbul edirlər.

Qardaş Azərbaycan xalqı üçün Siz Azərbaycan Respublikasının illər boyu fasiləsiz inkişafını, beynəlxalq aləmdə onun nüfuzunun möhkəmlənməsini təmin edən tanınmış lidersiniz. Ölkənin ərazi bütövlüyünün və birliyinin təmin edilməsi həmişəlik Sizin adınızla bağlı olacaq. Mən fəxr edirəm ki, uzun illərdir bizi bir-birimizə dostluq və qarşılıqlı hörmət telləri, atalarımızın vəsiyyətləri bağlayır.

Bu əlamətdar gündə Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, sevinc, dostcasına ünsiyyət, əla əhvali-ruhiyyə və Azərbaycan xalqının rifahı naminə fəaliyyətinizdə yeni-yeni uğurlar arzu edirəm. Əminəm ki, Rusiyanı və qardaş Azərbaycanı birləşdirən sıx, qarşılıqlı faydalı iqtisadi və humanitar əlaqələr bundan sonra da inkişaf edəcək.

Sizə və yaxınlarınıza əmin-amanlıq diləyirəm.

*Daimi hörmətlə,*

***İlyas UMAXANOV,***
***Rusiya Federasiyasının senatoru***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Sizi 60 illik yubileyiniz münasibətilə “VTB Bank”ın İdarə Heyətinin, kollektivinin adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Sizin rəhbərliyinizlə Azərbaycan Respublikası iqtisadi və sosial sahələrdə böyük uğurlar əldə etmişdir. Bu uğurlar ölkənizin beynəlxalq aləmdə nüfuzunu daha da möhkəmləndirir və milli inkişaf potensialını dinamik şəkildə reallaşdırır.

Rusiyada Azərbaycan ilə strateji tərəfdaşlığı, müəssisələrin və işgüzar dairələrin geniş ticari-iqtisadi əlaqələrini, xalqlarımız arasında tarixən formalaşmış qarşılıqlı anlaşma və dostluq münasibətlərini yüksək qiymətləndirirlər. Azərbaycan Dövlət Neft Fondunun “VTB Bank”ın kapitalında iştirakı etibarlı ikitərəfli əməkdaşlığın parlaq nümunəsidir. Ölkələrimiz arasında əməkdaşlığa şəxsən verdiyiniz dəstəyi yüksək qiymətləndiririk.

Fürsətdən istifadə edərək “VTB Qrup”un respublikanızdakı planlarına göstərdiyiniz diqqətə və dəstəyə görə Sizə minnətdarlığımızı bildiririk. “VTB Bank” 10 ildən artıqdır ki, Azərbaycanda səmərəli şəkildə fəaliyyət göstərir, bunu vacib və perspektivli hesab edir.

Bu il Nizami Gəncəvinin yubileyini qeyd etməyiniz özlüyündə rəmzi xarakter daşıyır. Əminəm ki, görkəmli Azərbaycan şairi və mütəfəkkirinin bu beyti dövlət başçısı kimi Sizin üçün xüsusi əhəmiyyət kəsb edir: Kim üstün fikirlə qurub yaradar, ondan gözəl əməl qalar yadigar.

Hörmətli İlham Heydər oğlu, bütün respublikanız üçün bu əlamətdar gündə Sizə Azərbaycanın inkişafı naminə qurucu fəaliyyətinizdə müvəffəqiyyətlər, tükənməz enerji, möhkəm cansağlığı, yaxınlarınıza isə firavanlıq arzulayıram.

*Hörmətlə,*

***Andrey KOSTİN,***
***“VTB Bank” Publik Səhmdar Cəmiyyətinin prezidenti, İdarə Heyətinin sədri***

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

❖ ❖ ❖

Zati-aliləri.

Möhtərəm İlham Heydər oğlu.

Şəxsi həyatınızda əlamətdar gün - 60 illik yubileyiniz münasibətilə təbriklərimi qəbul edin.

Siz Azərbaycan Prezidenti vəzifəsində illər boyu səylə çalışaraq Qafqaz regionunda ictimai həmrəyliyin möhkəmlənməsinə sanballı töhfə verirsiniz. Sevindirici haldır ki, topladığınız qiymətli təcrübə respublikanızın xalqları üçün layiqli həyat şəraiti yaradılmasına və onların ahəngdar yaşayışına kömək edən mühüm strateji qərarlar qəbul etməyinizə imkan verir.

Rus Pravoslav Kilsəsinin Bakı Yeparxiyası ilə xoş qarşılıqlı münasibətə, həmçinin Azərbaycan, Rusiya və Ermənistanın dini liderlərinin Qarabağda sülhün bərqərar olmasına yönəlmiş birgə səylərinə göstərdiyiniz diqqətə görə Sizə minnətdaram.

Sizə möhkəm cansağlığı, firavanlıq və ali vəzifənizdə Tanrının bundan sonra da yardımçı olmasını arzu edirəm.

*Dərin hörmətlə,*

***KİRİLL,***
***Moskvanın və Bütün Rusiyanın Patriarxı***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Sizi 60 illik yubileyiniz münasibətilə təbrik etməkdən məmnunluq duyuram. Sizə cansağlığı, xoşbəxtlik, fəaliyyətinizdə uğurlar arzulayıram.

Cənab Prezident, bu xoş fürsətdən istifadə edib Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə göstərdiyiniz böyük dəstəyə görə Sizə səmimi-qəlbdən minnətdarlığımı bildirirəm.

*Hörmətlə,*

***Franko FRATTİNİ,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü,***
***İtaliyanın sabiq xarici işlər naziri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

İcazə verin, Rusiya Müsəlmanlarının Ruhani Məclisi adından və şəxsən öz adımdan Sizi həyatınızda əlamətdar hadisə - 60 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edim.

Yubiley, sadəcə, bayram deyil. Bu, keçilmiş həyat yolu barədə düşünmək, gələcək üçün planlar qurmaq, hələ fəth edilməyən yeni zirvələrə gedən yolları müəyyənləşdirmək üçün bir fürsətdir. Siz xeyirxahlıq, ədalət, quruculuq və qəbul edilən qərarların müdrikliyi prinsiplərini rəhbər tutaraq uzun illər boyu Azərbaycan Respublikasının və bütün Azərbaycan xalqının rifahı naminə yorulmadan çalışırsınız.

Sizin ən yüksək peşəkarlığa, zəngin həyat təcrübəsinə və insanlara həssas münasibətə əsaslanan çoxşaxəli fəaliyyətiniz həmişə qarşıya qoyulmuş vəzifələrin uğurla reallaşmasına gətirib çıxarıb. Sizin müdrik rəhbərliyiniz dövründə Azərbaycan xalqının tarixi ədaləti bərpa etmək barədə çoxdankı arzusu həyata keçib. Bunun sayəsində Azərbaycan Respublikası özünün siyasi, iqtisadi və mədəni inkişafında yeni qələbələrə doğru inamla irəliləyir.

Fərəhlə qeyd etməliyəm ki, qardaş ölkələrimiz arasında dialoq ən yüksək səviyyədədir. Bu, ənənəvi İslamın qorunub saxlanması və inkişafı üçün təməldir. Rusiya Müsəlmanlarının Ruhani Məclisi və Qafqaz Müsəlmanları İdarəsi dinlərarası və mədəniyyətlərarası dialoqun möhkəmlənməsi, sülh, təhlükəsizlik və sabitlik ideyalarının geniş yayılması sahəsində illər boyu sıx əməkdaşlıq edir. Biz ölkələrimizin müsəlmanları arasında dostluq münasibətlərini ürəkdən qiymətləndiririk.

Hörmətli İlham Heydər oğlu, bu təntənəli gündə Sizin ən sevindirici hisslərinizə şərik çıxaraq Sizə səmimi-qəlbdən dua edir, möhkəm cansağlığı, uzun və səmərəli ömür, enerji, tərəqqi, bütün planlarınızın gerçəkləşməsini, ruh yüksəkliyi və gözəl əhvali-ruhiyyə arzu edirik.

Ulu Tanrı Sizi və ailənizi qorusun, xoşbəxtlik bəxş etsin, xeyirxah əməllərinizin əvəzini versin.

*Hörmətlə və xoş dualarla,*

***Albir həzrət KRQANOV,***
***Moskvanın müftisi,***
***Rusiya Müsəlmanları Ruhani Məclisinin rəhbəri,***
***Rusiya Federasiyası İctimai Palatasının üzvü***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu.

Əlamətdar yubileyiniz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Siz parlaq diplomat və rəhbər, yüksək daxili mədəniyyətə malik bir insan kimi Azərbaycan Respublikasının inkişafına və XXI əsrin ən mürəkkəb problemlərinin həllinə böyük töhfə verirsiniz.

Siz Azərbaycan Respublikasında mədəniyyətin və incəsənətin inkişafına dair proqramlara ciddi dəstək verirsiniz. Bu, bir rəssam kimi mənim nəzərimdə xüsusi əhəmiyyət kəsb edir. Atanız, hər zaman mədəniyyət və incəsənət xadimlərinə səmimi rəğbət bəsləmiş görkəmli dövlət xadimi, unudulmaz Heydər Əliyevin adını daşıyan, müasir Azərbaycan mədəniyyətinin rəmzi sayılan Mərkəz çox cəhətdən Sizin səyləriniz sayəsində yaradılıb.

Rusiya Rəssamlıq Akademiyasının üzvlərinin aktual bədii layihələrinə və beynəlxalq fəaliyyətinə göstərdiyiniz diqqətə, Rusiya ilə Azərbaycan arasında mədəni əlaqələrin möhkəmlənməsinə dair birgə təşəbbüsləri dəstəklədiyinizə görə Sizə təşəkkür edirəm.

Möhtərəm İlham Heydər oğlu, Sizə öz ehtiramımı, dəyərli fəaliyyətinizin bütün sahələrində uğurlar, Sizə və ailənizə möhkəm cansağlığı, əmin-amanlıq və firavanlıq arzularımı bildirməyə ürəkdən şadam.

*Hörmətlə,*

***Zurab SERETELİ,***
***Rusiya Rəssamlıq Akademiyasının prezidenti,***
***Rusiyanın Xalq rəssamı***

Hörmətli cənab Prezident.

Doğum gününüz münasibətilə Sizə ən xoş arzularımı çatdırıram. Azərbaycanın qazandığı bütün uğurlar, o cümlədən idman sahəsində əldə etdiyi nailiyyətlər münasibətilə Sizi təbrik edirəm.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, həyatınızda və fəaliyyətinizdə yeni-yeni uğurlar diləyirəm.

*Dərin hörmətlə,*

***Marius VİZER,***
***Beynəlxalq Cüdo Federasiyasının prezidenti***

❖ ❖ ❖

Cənab Prezident, Müzəffər Ali Baş Komandan.

Türkiyənin müxtəlif şəhərlərində fəaliyyət göstərən 22 Azərbaycan dərnəyini özündə birləşdirən Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyası adından Sizi 60 illik yubileyiniz münasibətilə təbrik edirik. Siz Azərbaycanın dünya dövlətləri arasında layiqli yer tutması üçün Ulu Öndər Heydər Əliyev tərəfindən başlanılmış böyük bir tarixi missiyanı müvəffəqiyyətlə davam etdirirsiniz. Bu çətin və şərəfli yolda Sizə uğurlar diləyirik.

Otuz il işğal altında qalmış torpaqlarımız Sizin dəmir iradəniz və hərbi-siyasi uzaqgörənliyiniz sayəsində azad edildi. Siz illər ərzində qəlbimizdə sağalmaz yara kimi gəzdirdiyimiz yurd nisgilinə son qoydunuz. Buna görə hər bir azərbaycanlı Sizə sonsuz minnətdardır.

Türkiyədə yaşayan azərbaycanlılar adından bəyan etmək istəyirik ki, diasporun bir parçası olaraq doğma Vətənimizi burada layiqincə təmsil etmək, qardaş respublikanın ictimai-siyasi həyatına dərindən inteqrasiya etmək, ölkələrimiz arasında əlaqələrin daha da möhkəmlənməsinə töhfə vermək üçün bütün qüvvəmizlə çalışacağıq.

Cənab Prezident, Sizi bir daha təbrik edir, cansağlığı, xoşbəxtlik arzulayırıq. Tanrı Sizi hifz etsin!

*Dərin hörmətlə,*

***Ədalət TURAN,***
***Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyasının***
***İdarə Heyətinin sədri***



❖ ❖ ❖

Möhtərəm Prezident, cənab Ali Baş Komandan.

Amerika Azərbaycanlılarının Koordinasiya Şurası və Şuraya daxil olan təşkilatlar adindan Sizi 60 illik yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirik.

Vətənin rifahı naminə səmərəli fəaliyyətiniz, işgüzar və şəxsi keyfiyyətləriniz, mürəkkəb məsələləri effektiv həll etmək bacarığınız haqlı olaraq Sizə doğma Azərbaycanda və onun hüdudlarından kənarda böyük nüfuz və dərin hörmət qazandırıb.

Azərbaycanın tarixində çox böyük əhəmiyyəti olan Vətən müharibəsində qazanılan Qələbə nəticəsində Qarabağın işğaldan azad olunması Sizin uzaqgörənliyiniz, müdrik rəhbərliyiniz və dəqiq planlarınız, həmçinin cəsarətiniz, qətiyyətiniz, son məqsədə çatmağa olan qəti inamınız sayəsində əldə edilib.

Sizin xaricdəki Azərbaycan diaspor təşkilatlarının fəaliyyətlərinə verdiyiniz qiyməti yüksək dəyərləndiririk. Biz ABŞ-da fəaliyyətimizi daha da səmərəli təşkil edərək Azərbaycan həqiqətlərini Amerika ictimaiyyətinə çatdırmaqda davam edəcəyik, buradakı mənfur erməni diasporuna qarşı informasiya mübarizəmizi daha da kəskinləşdirəcəyik.

Fürsətdən istifadə edərək möhtəşəm Qələbə münasibətilə Sizi bir daha təbrik edir, Azərbaycanın inkişafı naminə fəaliyyətinizdə uğurlar arzulayırıq.

Yubileyiniz Mübarək Olsun!

*Dərin hörmətlə,*

***Samir NOVRUZOV,***
***Amerika Azərbaycanlılarının Koordinasiya Şurasının İdarə Heyətinin üzvü, ABŞ-Azərbaycan İnteqrasiya Mərkəzinin rəhbəri***

***Adika İQBAL,***
***Azərbaycan Dostluq Təşkilatının prezidenti***

***Aytac QASIMOVA,***
***Şimali Amerika Azərbaycan Gənclər Assosiasiyasının prezidenti***

***Əsmər QARAYEVA,***
***Yuta Azərbaycan İcmasının sədri***

***Ercan YERDELENLİ,***
***Azərbaycan Nyu York Assosiasiyasının prezidenti***

***Esmira BAYRAMOVA,***
***Florida Azərbaycan Amerika Cəmiyyətinin sədri***

***Günel RALLİS,***
***Minnesota Azərbaycan Assosiasiyasının prezidenti***

***Cəmilə Cavadova-SPİTZBERQ,***
***Azərbaycan Amerika Musiqi Fondunun icraçı direktoru***

***Mehriban MƏMMƏDOVA və Fərid MƏMMƏDOV,***
***Midvest Amerika Azərbaycan Mərkəzinin prezidenti,***
***vitse-prezidenti və həmtəsisçiləri***

***Minəvvər VAHABOVA,***
***Nyu-York Azərbaycan Amerika Qadın Assosiasiyasının prezidenti***

***Nərgiz ƏLİYAROVA,***
***Milli Musiqi və Qlobal Mədəniyyət Cəmiyyətinin sədri***

***Telman CƏLİL,***
***Azərbaycan Nyu York Mədəniyyət Mərkəzinin rəhbəri***

***Töhfə EMİNOVA,***
***Florida Azərbaycan Amerika Mədəniyyət Assosiasiyasının prezidenti***

❖ ❖ ❖

Qardaş Azərbaycan Respublikasının Prezidenti.

Zati-aliləri möhtərəm cənab İlham Əliyev.

Dekabrın 24-nə təsadüf edən doğum gününüz münasibətilə Zati-alinizə ən səmimi təbriklərimizi çatdırmaqdan çox məmnunuq. Sizə ən xoş arzularımızı bildirir, uzun ömür, cansağlığı, xoşbəxtlik və müvəffəqiyyətlər diləyirik.

Bütün dünya Sizin müdrik rəhbərliyiniz sayəsində Azərbaycan Respublikasının sürətli inkişafını, sülhün və tolerantlığın bərqərar olmasındakı rolunuzu, bölgənin tərəqqi və inkişafı naminə sərf etdiyiniz zəhməti görür.

Misir-Azərbaycan Dostluq Cəmiyyəti Misir və Azərbaycan xalqları arasında müxtəlif sahələrdəki əlaqələrin möhkəmləndirilməsi və əməkdaşlığın inkişaf etdirilməsi üçün maksimum səylər göstərir.

Xahiş edirik, ən səmimi arzularımızı və salamlarımızı qəbul edin.

*Hörmətlə,*

*Misir-Azərbaycan Dostluq Cəmiyyətinin İdarə Heyətinin üzvləri və təsisçiləri:*
***Prof. Dr. Əli CÜMƏ -*** *Misir Ərəb Respublikası parlamentinin Dini işlər və vəqflər komitəsinin sədri, əl-ƏZHƏR əl-Şərifin böyük alimlər heyətinin üzvü,*
***Prof. Dr. Usamə əl-ƏBD -*** *Misir parlamentinin Dini işlər və vəqflər komitəsi sədrinin müavini,*
***Əl-Seyyid Mahmud əl-ŞƏRİF -*** *Seyyidlər Həmkarlar İttifaqının sədri, Misir parlamenti sədrinin sabiq birinci müavini,*
***Dr. Bağdadi İMAM -*** *Misir Ərəb Respublikası Ali Təhsil Nazirliyinin Baş direktoru,*
***Müşavir Tövhid MƏHƏMMƏD -*** *vəkil, Misir əl-Xeyr Fondunun hüquq məsələləri üzrə direktoru,*
***Səfir Yusif əl-ŞƏRQAVİ -*** *Misir Ərəb Respublikasının Azərbaycan Respublikasındakı keçmiş səfiri,*
***Prof. Adil DƏRVİŞ -*** *Misirin Helvan Universitetinin professoru, Misir-Çin Universitetinin müşaviri,*
***General Midhət CAMAL -*** *Misir əl-Xeyir Fondunda "İbn əs-Səbil" layihəsinin rəhbəri,*
***Dr. Usamə ƏBDÜRRƏHMAN -*** *Helvan Universitetinin professoru,*
***Dr. Mona ZİDAN -*** *Helvan Universitetinin professoru,*
***Əhməd Əbdu TARABEK -*** *Orta Asiya və Qafqaz məsələləri üzrə tədqiqatçı və jurnalist,*
***Mustafa HİCAZİ -*** *"Orange" şirkətinin baş direktoru,*
***Dr. Seymur NƏSİROV -*** *İdarə Heyətinin və Misirdəki Azərbaycan diasporunun sədri, Qahirə Universitetində Azərbaycan dili müəllimi*

❖ ❖ ❖

Möhtərəm cənab Prezident.

Sizi 60 illik yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edir, uzun ömür, cansağlığı arzulayıram.

Mən Sizə bir hadisə barədə yazmaq istəyirəm. Vətən müharibəsinin getdiyi vaxtlar idi. Köln şəhərində çalışdığım klinikaya vəziyyəti kritik olan insult xəstəsi gətirildi və mən beyin əməliyyatına qərar verdim. Əməliyyat əla nəticə ilə bitdi. Xəstə ayıldı, mən ona yaxınlaşana qədər başına nə gəldiyini, ölümdən döndüyünü və onu kimin xilas etdiyini digər həkimlər demişdilər. Müayinəyə başlayıb tibbi suallar verəndə zəif, qırıq səslə "Azərbaycan" dedi və gözüyumulu gülümsədi. Təəccübləndim. Soruşdum ki, Azərbaycanı tanıyırsınız? Niyə gülümsəyirsiniz? Cavabında "İlham Aliyev" dedi və əli ilə "əla" işarəsini göstərdi. Öz-özümə dedim ki, pasiyent ayılandan sonra onunla mütləq bir də danışacağam. Səhər getdim yanına, halını soruşduqdan sonra "dünən Prezidentimizin adını çəkdiniz, onu tanıyırsınız?" - deyə soruşdum. "Bəli, tanıyıram, onun bütün müsahibələrini izləyirdim, düz danışır", - deyə cavab verdi. Söhbətimiz uzun oldu. O almanın həyatda qalmasında rolumun olmasına çox sevindim. Həm də çox qürurlu idim.

Cənab Prezident, Siz narkozdan ayılan bir əcnəbinin yanında Azərbaycanın adını çəkən kimi yada düşəcək qədər sevilirsiniz. Bu sevgini və hörməti Siz özünüz qazanmısınız.

Sizi bir daha təbrik edirəm.

*Hörmətlə,*

***Nuran ABDULLAYEV,***
***Almaniya-Azərbaycan Radioloji və***
***Neyroradioloji Cəmiyyətinin sədri,***
***Köln Universiteti Klinikasının Diaqnostik və***
***İnvaziv Radiologiya İnstitutunun şöbə müdiri,***
***tibb elmləri doktoru***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident.

Zati-alinizi əlamətdar yubiley - təvəllüdünüzün 60 illiyi münasibətilə təbrik etməkdən şərəf duyur, Azərbaycan xalqı və dövləti naminə misilsiz fəaliyyətinizə, beynəlxalq müstəvidə fövqəladə səylərinizə Uca Yaradandan uğurlar diləyirik.

Cənabınız ömrünün müdriklik məqamına elə bir möhtəşəm Qələbə ilə yetişmişdir ki, bu, dünya miqyasında hər bir dövlət xadiminin arzu etdiyi yüksəklikdir. Siz müdrikliyinizi yaşınızla, təvəllüd tarixinizlə deyil, əməllərinizlə, dövlətçilik təfəkkürünüzlə təsdiq etmiş dövlət xadimisiniz. Sizin Azərbaycan xalqına bəxş etdiyiniz Qarabağ Zəfəri uğurlu dövlət xadiminin, qalib sərkərdənin doğma xalqına əvəzsiz töhfəsi olub, bəşər tarixinə həkk olunacaq hadisə miqyasına malikdir. Vətənimizin, regionumuzun gələcəyi üçün bu Zəfərin dəyəri misilsiz, dünyanın inkişaf istiqamətləri baxımından taleyüklüdür.

Azərbaycan torpaqlarının işğaldan azad edilərək ərazi bütövlüyünün bərpası yönündə Ali Baş Komandan olaraq rəhbərlik etdiyiniz qalibiyyətli Vətən müharibəsi haqqın, ədalətin təntənəsi kimi tarixin salnamələrinə həkk oldu. Uca Yaradanın Lütfü ilə Siz Azərbaycan Ordusunun gücü, xalqın sarsılmaz həmrəylik və iradəsi, dövlət-xalq birliyinə əsaslanan müdrik siyasətinizlə Azərbaycanın haqq işinin qələbəsini təmin etdiniz. Azərbaycan xalqına Vətən müharibəsində böyük Zəfər yaşatmış müzəffər sərkərdə - Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi ömrünüzün əlamətdar mərhələsində bu sevinc və şərəfi ən çox haqq edən məhz Zati-alinizdir.

Biz fəxr edirik ki, dilindən və dinindən asılı olmayaraq ölkəmizin bütün vətəndaşlarına unudulmaz fəxarət anları yaşadan Qarabağ Zəfərinin müəllifi, Azərbaycan xalqının böyük oğlu, müdrik dövlət rəhbərimiz - Zati-alinizin qətiyyəti sayəsində dövlət bayrağımız azad Qarabağda dalğalandı, məscidlərimizin minarələrindən azan səsləri ucaldı, işğal dövründə vandalizmə məruz qalmış dini məbədlərimiz əsarətdən qurtuldu.

Uca Yaradan doğru yolda olanların səy və əməllərinə rəvac verir. Şükürlər olsun ki, Vətənimizə, millətimizə uğurlar yaşadan lider qismət olmuşdur. Böhranları üstələyə biləcək iqtisadiyyatı, örnək siyasi mədəniyyəti, dini-mənəvi dəyərləri ilə tanınan Azərbaycan gerçəkliyi dünyanın diqqətindədir. Bütün bunlar, heç şübhəsiz ki, Sizin güclü, ardıcıl siyasi iradənizin sayəsindədir. Bu gün Sizin rəhbərliyinizlə multikultural, bəşəri dəyərlərə sadiq Azərbaycan işğaldan azad olunmuş torpaqlarında erməni vandalizminin acı nəticələrini aradan qaldırır, möhtəşəm infrastruktur layihələri, genişmiqyaslı quruculuq işləri reallaşdırır. Allah evlərinin, məbəd və ibadət məkanlarının yenidən inşa-bərpası ilə bağlı qətiyyətli iradə və fəaliyyətiniz bizi hədsiz sevindirir.

Möhtərəm cənab Prezident, dini konfessiya rəhbərləri olaraq, Sizə ölkə daxilində və beynəlxalq müstəvidə təqdirəlayiq fəaliyyətinizə, Azərbaycandakı din-dövlət münasibətlərinin yüksək səviyyəsinin təmini istiqamətində əməli addımlarınıza görə dərin minnətdarlığımızı bildirməkdən şərəf duyuruq. Sizin həyatınızın şərəfli ildönümü bizə xoş fürsət verir ki, cənabınızın Azərbaycan dövləti və cəmiyyəti üçün böyük xidmətlərinə görə bütün Azərbaycan dindarlarının dərin təşəkkürlərini bir daha ifadə edək. Azərbaycandakı müxtəlif dini konfessiyaların nümayəndələri - dindarlar və din xadimləri fəxr edir və inanırlar ki, Azərbaycanı qalib ölkə, xalqını zəfər çalmış xalq yüksəkliyinə qaldırmış Zati-alinizin rəhbərliyi ilə Azərbaycan bundan sonra da yeni zirvələrə yüksələcək, hər zaman uğurlara imza atacaqdır. Azərbaycanın dövlət rəhbəri olaraq təvəllüd gününüzdə dünyanın müxtəlif nöqtələrindən təbriklər qəbul edən qalib xalqın müzəffər sərkərdəsi, Qarabağın fatehi, Ali Baş Komandan olaraq Sizin ən böyük mükafatınız xalqın dəstək və həmrəyliyi, sonsuz məhəbbət, dərin etimad və hədsiz minnətdarlığıdır. Var olun, hər zaman Zirvədə olun, uğur həmişə Sizə yar olsun! Zati-alinizi və Azərbaycanın əmin-amanlığını, tərəqqisini təmin edən siyasi dəstxətinizi dəstəkləyən, hər zaman diqqət, qayğı və himayənizi hiss edən biz dindarların duaları hər zaman Sizinlədir.

Möhtərəm cənab Prezident, Azərbaycanda fəaliyyət göstərən dini konfessiyaların Məşvərət Şurası adından Sizi - Azərbaycan dövlətinin müstəqbəl dövlət başçısını şərəfli ildönümü münasibətilə ürəkdən təbrik edir, ölkə dindarlarının iradəsini ifadə edərək Zati-alinizə və dəyərli ailənizə cansağlığı, xoşbəxtlik, dövlətçiliyimiz naminə fəaliyyətinizdə uğurlar diləyirik. Sizin qlobal müstəvidə dinlər və sivilizasiyalararası dialoq işinə verdiyiniz böyük əməli töhfələri yüksək dəyərləndirən nüfuzlu din xadimlərinin, o cümlədən Şimali Qafqaz müftilərinin şanlı yubileyiniz münasibətilə səmimi təbrik və xoş arzularını Zati-alinizə çatdırmaqdan məmnunluq duyuruq.

O Bir Olan Yaradanımız hər zaman yardımçınız olsun, öz Lütf və Mərhəmətini hər zaman Azərbaycan xalqı, dövləti və onun müdrik dövlət rəhbəri üzərində bərqərar etsin, Azərbaycanı hifz etsin! Amin!

*Dərin hörmət və ehtiramla,*

***Şeyxülislam Allahşükür PAŞAZADƏ,***
***Qafqaz Müsəlmanları İdarəsinin sədri***

***Milix YEVDAYEV,***
***Azərbaycandakı Dağ Yəhudiləri İcmasının rəhbəri***

***Müfti Salman MUSAYEV,***
***Qafqaz Müsəlmanları İdarəsi sədrinin birinci müavini***

***Arximandrit Aleksiy NİKONOROV,***
***Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının katibi***

***Yepiskop Vladimir FEKETE,***
***Roma Katolik Kilsəsinin Azərbaycandakı***
***Apostol prefekturasının ordinarisi***

***Aleksandr ŞAROVSKİ,***
***Bakıdakı Avropa Yəhudiləri İcmasının rəhbəri***

***Robert MOBİLİ,***
***Alban-udi Xristian Dini İcmasının sədri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

İcazə verin, 60 illik yubileyiniz münasibətilə Sizi Şimali Qafqaz Müsəlmanlarının Əlaqələndirmə Mərkəzi adından və şəxsən öz adımdan təbrik edim.

Sizin Azərbaycan və Rusiya xalqları arasında dostluğun möhkəmlənməsinə böyük töhfələrinizi yüksək qiymətləndiririk.

Bu əlamətdar doğum gününüzdə Azərbaycanın daha da inkişafı, sülh və rifah naminə məsul fəaliyyətinizdə Sizə uğurlar, yaxınlarınıza firavanlıq arzulayırıq.

Tanrı hər zaman köməyiniz olsun!

*Hörmətlə və xoş dualarla,*

***İsmayıl BERDİYEV,***
***Şimali Qafqaz Müsəlmanlarının Əlaqələndirmə Mərkəzinin sədri,***
***Qaraçay-Çərkəz Respublikasının müftisi***

***Salah-Hacı MEJİYEV,***
***Çeçenistan Respublikası Müsəlmanları Ruhani İdarəsinin sədri***

***Əhməd ABDULLAYEV,***
***Dağıstan Respublikası Müsəlmanları Ruhani İdarəsinin sədri***

***Hacımurad QATSALOV,***
***Şimali Osetiya-Alaniya Respublikası Müsəlmanları***
***Ruhani İdarəsinin sədri***

***Həzrətəli DZASEJEV,***
***Kabardin-Balkar Respublikası Müsəlmanları***
***Ruhani İdarəsinin sədri***

***Sultanəhməd KARALAYEV,***
***Kalmık Respublikası Müsəlmanları Ruhani İdarəsinin sədri***

***Askarbiy KARDANOV,***
***Adıgey və Krasnodar Respublikası Müsəlmanları***
***Ruhani İdarəsinin sədri***

***Muhammad RAXİMOV,***
***Stavropol diyarı Müsəlmanları Ruhani İdarəsinin sədri***



# Qurucu rəhbər, qlobal lider, müzəffər komandan

Dünyanın kiçik və ya böyük olmasından asılı olmayaraq, bütün dövlətlər müəyyən strateji dəyərə sahibdirlər. Hətta hansısa dövlətin strateji dəyəri yoxdursa və ya zəifdirsə, onu yaratmağa və inkişaf etdirməyə səy göstərirlər. Strateji dəyəri kifayət qədər yüksək olan dövlətlər isə onu qoruyub saxlamaq və daha da gücləndirmək üçün səylərini əsirgəmirlər.
ABŞ, Çin, Rusiya, Böyük Britaniya kimi böyük dövlətlər də, Lixtenşteyn və Lüksemburq kimi xırda ölkələr də bu istiqamətdə fəaliyyətə xüsusi önəm verirlər. Səbəb isə odur ki, beynəlxalq münasibətlər sistemində xarici ölkələr və aktorlar hər hansı bir digər ölkəyə münasibətdə onun strateji dəyərini nəzərə alırlar və bu dəyərin səviyyəsindən asılı olaraq həmin ölkəyə az və ya çox önəm verilir.
Strateji dəyərin yüksək olması ölkənin xarici siyasətinin məqsədlərinə müvəffəq olmaq səviyyəsini də artırır.



## Azərbaycanın strateji dəyərini yüksəldən şəxsiyyət

Azərbaycan da beynəlxalq aləmin fəal üzvü kimi öz strateji dəyərinin yüksək olmasında maraqlıdır. Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycanda hakimiyyətə qayıdanda ölkəmizin strateji dəyəri yox dərəcəsində idi. Uçurumda olan dövlətçiliyin xilası və Ermənistanın işğalçı qoşunlarının ərazilərimizin daha da dərinliyinə doğru təcavüzkarcasına irəliləməsinin dayandırılması ölkəmizin strateji dəyərinin təşəkkül tapması üçün ilkin zəmin yaratdı. Növbəti mərhələdə Ulu Öndərin böyük neft strategiyasının həyata keçirilməsinə başlaması dünyada enerji təhlükəsizliyinə töhfə verən ölkə kimi strateji dəyərimizin formalaşmasına xidmət etdi. 2000-ci ilin əvvəllərində isə Heydər Əliyevin uzaqgörən, çevik və iti zəkası sayəsində Azərbaycan qlobal terrorizmlə mübarizə və təhlükəsizliyin təmin olunması prosesinə fəal surətdə qoşuldu. Nəticədə Heydər Əliyev dövründə Azərbaycanın strateji dəyərinin inkişafı beynəlxalq enerji təhlükəsizliyi, terrorla mübarizə, sülh və təhlükəsizlik kimi həmin zamana xas olan fundamental faktorlarla bağlı oldu.

Cənab İlham Əliyevin 2003-cü ildə prezident seçilməsi ilə ölkəmizin strateji dəyərinin formalaşmasında yeni bir mərhələ başladı. İlham Əliyevin Ulu Öndərin başladığı yeni neft strategiyasını uğurla tamamlaması nəticəsində ölkəyə böyük gəlirlər daxil olmağa başladı. Amma məsələ təkcə neft gəlirlərində deyil. Nefti Azərbaycandan çox olan ölkələr var ki, bu, onlara problem və uğursuzluq gətirib, strateji dəyərlərini zəiflədib. Bu baxımdan əsas məsələ neftdən gələn gəlirlərin necə yönəldilməsində və istifadə edilməsindədir. Məhz İlham Əliyevin apardığı siyasət nəticəsində neft gəlirləri səmərəli istifadə edilərək ilk növbədə xalqımızın rifah və tərəqqisinə xidmət edir, həm də davamlılıq prinsipinə sadiq qalmaqla neft gəlirləri gələcək nəsillərin bəhrələnəcəyi sahələrin yaradılması üçün istifadə edilir. Eyni zamanda neft gəlirləri hesabına yeni layihələr həyata keçirildi, yeni işlər görüldü ki, onlar da nəticə etibarilə ölkənin strateji dəyərinin yeni istiqamətlərdə yüksəldilməsinə töhfə verir.

Son dövrdə həm ölkə daxilində, həm də ölkə xaricində bir sıra ekspertlər Azərbaycanın strateji dəyərində enerji təhlükəsizliyində oynadığı rolun aktuallığının azaldığını qeyd edirlər və bildirirlər ki, artıq Azərbaycanın strateji dəyərində başqa faktorlar daha çox rol oynayır. Amma bu cür yanaşma dolğun deyildir. Əslində İlham Əliyevin apardığı məqsədyönlü siyasət nəticəsində iqtisadiyyatın şaxələndirilməsi, neftdən asılılığın azaldılması və neftlə yanaşı, qaz və qızıl kimi təbii sərvətlərdən istifadə və onların ixracı istiqamətində nailiyyətlər əldə edilmişdir. Ona görə də ilk baxışda sanki neftin əhəmiyyətinin azaldığı və enerji təhlükəsizliyi məsələsinin az önəm daşıdığı təəssüratı yaranır. Əslində isə Azərbaycanda digər sahələrdə əldə edilmiş inkişaf fonunda neftin əvvəlki dominant mövqeyi zəifləyib. Hazırda Azərbaycanın regional nəqliyyat və logistika mərkəzinə çevrilməsi prosesi gedir, qitələri və bölgələri birləşdirən dəmiryolu xətləri, hava və su yolları və avtomobil magistralları ölkəmizdə kəsişir. Bundan əlavə, Prezidentin təşəbbüsü ilə Azərbaycanın həyata keçirdiyi və ya evsahibliyi etdiyi bir çox beynəlxalq və qlobal xarakterli humanitar, siyasi, sülh və təhlükəsizlik sahəsində tədbirlər Azərbaycanın beynəlxalq aktor kimi qlobal rolunu formalaşdırır. Mahiyyət etibarilə İlham Əliyevin prezidentliyi dövründə Azərbaycanın strateji dəyərinin formalaşması və yüksəlməsi təkcə enerji təhlükəsizliyi və terrorla mübarizə kimi amillərlə bağlı olmamış, bu sahədə yuxarıda qeyd etdiyimiz yeni istiqamətlər yaradılmışdı.

Bütün bunların fövqündə isə İlham Əliyevin 2020-ci ildə 44 günlük Vətən müharibəsində Ali Baş Komandan kimi göstərdiyi misilsiz hərbi və diplomatik liderlik keyfiyyətləri ona olan beynəlxalq ehtiramın dərinləşməsinə səbəb oldu. Müharibə 44 gün çəksə də, ona gedən hazırlıq yolu on illərlə görülmüş çoxşaxəli, planlı və sistemli fəaliyyətdən ibarətdir. Müharibədən sonrakı dövr də çağırışlarla doludur. Belə ki, döyüş meydanında qazanılmış Zəfərin nəticələrini möhkəmlətmək və onu beynəlxalq müstəvidə qəbul etdirmək vəzifəsi qarşıda durur. Bu vəzifəni müxtəlif xarici qüvvələrin Azərbaycana qarşı olan planları ilə üz-üzə qalaraq yerinə yetirmək işi daha da mürəkkəbləşdirir. Digər tərəfdən tamamilə dağıdılmış və minalanmış ərazilərimizin təmizlənməsi, bərpası, yenidən qurulması və doğma sakinləri ilə məskunlaşdırılması nəhəng miqyasda əmək, zəhmət, vaxt və resurslar tələb edir.

Müharibə zamanı BMT-nin 30 il ərzində icra edilməmiş qalan 4 qətnaməsini Azərbaycan özü təkbaşına 44 gün ərzində icra etdi. İndi isə bərpa, yenidənqurma, məskunlaşdırma və reinteqrasiya işlərini özü heç kəsin yardımı olmadan həyata keçirir. Bu çağırışların və qarşıda duran problemlərin təkbaşına həll edilməsi nəinki hər kiçik dövlətin, hətta hər böyük dövlətin də işi deyil. İkinci Dünya müharibəsindən də bildiyimiz kimi, müharibədən çıxmış ölkələrin köməyinə digər ölkələr və beynəlxalq təşkilatlar gəlməsələr, bu işləri etmək hətta mümkünsüz olur. ABŞ-ın Marşal planı buna misaldır. Müasir dövrdə də buna aid çoxlu nümunələr var. Azərbaycan o nadir ölkələrdəndir ki, bunu təkbaşına edir. Amma bunun ən müsbət tərəfi ondan ibarətdir ki, məhz buna görə bizim müstəqilliyimiz formal xarakter daşımır, həqiqi və faktiki müstəqillikdir və müstəqil daxili və xarici siyasət yürüdürük. Əlbəttə ki, digər dövlətlər və beynəlxalq aktorlar Azərbaycanın strateji dəyərini artıran bu fəaliyyətləri görürlər və ölkənin müstəqil siyasət yürütmə qabiliyyəti onun strateji dəyərini formalaşdıran əsas amillərdən biri kimi çıxış edir. Ölkəmizin hazırkı yüksək strateji dəyərinin memarı 60 illik yubileyini qeyd etdiyimiz Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevdir.

24 dekabrda Prezident İlham Əliyevin 60 yaşı tamam olur. Bu yubiley ərəfəsində onun insani xüsusiyyətləri və şəxsi keyfiyyətləri bir daha diqqət cəlb edir. İlham Əliyevin şəxsi keyfiyyətlərinin və xüsusiyyətlərinin ölkə rəhbəri kimi onun fəaliyyətində və xüsusən də Azərbaycanın strateji dəyərinin yüksəldilməsində nə dərəcədə əhəmiyyətli olması məsələsinə qısa nəzər salaq. O, keçmiş SSRİ-nin və dünyanın ən nüfuzlu ali məktəblərindən olan Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun məzunu olmuş və orada dərs demişdir. Belə yüksək səviyyəli təhsil, akademik və pedaqoji fəaliyyət İlham Əliyev şəxsiyyətinin formalaşmasında və yüksək intellektinin inkişafında mühüm rol oynamışdır. Buna görə də adətən İlham Əliyevin Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun məzunu olması və orada dərs deməsi haqlı olaraq xüsusi vurğulanır və doğrudan da, belə bir ali məktəbin məzunu və müəllimi olmaq böyük üstünlükdür. Bununla belə qeyd edilməlidir ki, cənab Prezident elə bir səviyyəyə və məqama yetişib ki, İlham Əliyevin onun məzunu olması və gənc yaşlarında orada mühazirə deməsi faktı artıq ölkə rəhbərindən daha çox həmin ali məktəbin özü üçün bir qürur mənbəyinə, prestijə çevrilib.

Hər şeydən əvvəl o, sözün əsl mənasında Heydər Əliyev məktəbinin yetirməsidir. Təkcə ona görə yox ki, o, Heydər Əliyevin oğludur, onun ailəsində, onun tərbiyəsi ilə böyüyüb. Hərçənd bu amil olduqca mühümdür. 1982-ci ildə Ulu Öndərin şair və Qarabağ xanının vəziri Molla Pənah Vaqifin məqbərəsini açmaq və Vaqif Poeziya Günlərini keçirmək üçün Şuşaya səfərləri zamanı gənc İlham Əliyev onun yanında olub. Belə bir mühit hələ həmin sovet dövründə onun gənc yaşlarından milli ruhda böyüməsi, tariximizi və tariximizin əhəmiyyətini dərindən dərk etməsi baxımından vacib rol oynamışdır. Həm də ona görə sözün əsl mənasında Heydər Əliyev məktəbinin yetirməsidir ki, o, Heydər Əliyevin dövlətçilik təcrübəsini yaxından izləmiş, müstəqillik dövründə isə Ulu Öndərin rəhbərliyi altında Azərbaycanda müxtəlif vəzifələrdə çalışmış, onunla birlikdə xarici tərəfdaşlarla neft sazişlərinin bağlanması üçün danışıqlarda yaxından iştirak etmişdir.

Belə bir deyim var ki, xoşbəxt, uğurlu müəllim o müəllimdir ki, şagirdi, tələbəsi özündən də böyük uğur qazansın. Bu mənada Ulu Öndərin ruhu şaddır. Rusiya Prezidenti Vladimir Putin məşhur çıxışında demişdi ki, Heydər Əliyev Azərbaycan çərçivəsinə sığan siyasətçi deyildi. Bu gün tam əminliklə demək olar ki, İlham Əliyev nəinki Azərbaycan, hətta region çərçivəsinə sığan siyasətçi deyil, onun siyasəti region hüdudlarını aşaraq transregional və qlobal xarakter daşıyır. Möhtərəm Prezidentin "peyvənd millətçiliyi" və pandemiya ilə mübarizə məsələsindəki qətiyyətli təşəbbüsləri, Qoşulmama Hərəkatının inkişafına verdiyi töhfələr, dünyada idman və olimpiya hərəkatına göstərdiyi xidmətlər, beynəlxalq sülh məramlı işinə və humanitar məsələlərə verdiyi dəstək, dinlər və sivilizasiyalar arasında əməkdaşlıq və dialoqa verdiyi təkan onun siyasətinin Azərbaycan və region hüdudlarını aşdığını təsdiq edir.

İlham Əliyevin şəxsi xüsusiyyətlərindən biri də onun daim zamanla, yeni şəraitlə ayaqlaşmaq qabiliyyətidirsə, digəri onun yeni reallıqlar yaratmağa qadir intellektual potensialı və bu potensialı daim inkişaf etdirmək bacarığıdır. Azərbaycanın Vətən müharibəsində qazandığı qələbə sayəsində regionda yeni geosiyasi reallıqlar yaratması bunun ən bariz nümunəsidir. Əgər müharibəyə qədər Şuşanın azad edilməsi xülya kimi görünürdüsə, Türkiyə ilə müttəfiqliyimizi rəsmiləşdirən Şuşa Bəyannaməsinin imzalanması və ya Zəngəzur dəhlizi heç mövzu da deyildi. Amma bu gün bütün bunlar xoş bir gerçəklikdir, İlham Əliyevin Prezident və Ali Baş Komandan kimi yaratdığı və xalqımıza yaşatdığı gerçəklikdir.

Yuxarıda vurğulandığı kimi, bu yeni reallıqlar da Azərbaycanın dünyadakı strateji dəyərinin və geosiyasi əhəmiyyətinin yüksəlməsinə böyük töhfədir. Azərbaycanın dünyanın müxtəlif hərbi, siyasi və iqtisadi qütblərində duran dövlətlər və təşkilatlarla konstruktiv, bərabərhüquqlu və məhsuldar tərəfdaşlıq münasibətlərində olması onun ayırıcı deyil, birləşdirici rol oynamasını və beynəlxalq sülh və əməkdaşlığa töhfə verən ölkə kimi çıxış etməsini şərtləndirir və bu birləşdirici rol ölkəmizin strateji dəyərini davamlı edir. Bunu əyani surətdə göstərmək üçün bir nümunə yetər. İlham Əliyev Azərbaycanı beynəlxalq münasibətlər sistemində unikal oyunçuya çevirib. Bir tərəfdən Rusiya ilə yüksəksəviyyəli strateji tərəfdaşlıq və mehriban qonşuluq münasibətləri qurub, digər tərəfdən isə Ulu Öndərin "Bir millət, iki dövlət" baxışını reallaşdıraraq NATO üzvü olan qardaş Türkiyə ilə müttəfiqlik münasibətləri qurmaqla gücümüzə güc qatıb. Bu baxımdan əlavə dəyər anlayışı iqtisadi termin olsa da, İlham Əliyevin yürütdüyü novator xarici siyasət nəticəsində əlavə dəyər anlayışı Azərbaycanın beynəlxalq münasibətlərində yeni anlam kəsb edib.

60 illik yubileyini Qarabağı, Şərqi Zəngəzur və Şuşanı azad etmiş qalib ordunun Müzəffər Ali Baş Komandanı kimi ölkəsinin beynəlxalq səviyyədə strateji dəyərini yüksəltmiş, ölkə səviyyəsində isə ərazi bütövlüyümüzü bərpa edərək milli qürurumuzu bərqərar etmiş rəhbər kimi qeyd edir.

*Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevi 60 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, ona şəxsi həyatında və ölkəmizin lideri, ordumuzun komandanı kimi yeni nailiyyətlər, yeni zirvələr fəth etməyi arzulayıram!*

***Adil ƏLİYEV,***
***Milli Məclis Sədrinin müavini***

## Beynəlxalq miqyasda dəstək qazanan təşəbbüslər

**Dünyanı cənginə alan koronavirus (COVID-19) pandemiyası artıq iki ildir ki, bəşəriyyəti ciddi şəkildə təhdid etməkdədir. Virusun ilk qeydə alındığı vaxtdan indiyədək 276 milyona yaxın insanın ona yoluxması, 5,3 milyon nəfərdən artıq insanın vəfat etməsi bu mərəzin nə qədər dəhşətli və təhlükəli olmasından xəbər verir.**

**Azərbaycan dünyaya açıq dövlət olduğundan 2020-ci il fevral ayının sonunda artıq bir çox ölkəyə ayaq basmış koronavirusun respublikamızda da qeydə alınması təəccüblü sayılmadı. Ən əsası o idi ki, Azərbaycan hökuməti ilk gündən koronavirusla mübarizənin ən effektiv nümunəsini ortaya qoya bilmişdi.**

### Qabaqlayıcı tədbirlər nəticəsiz qalmadı

Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən profilaktik və təxirəsalınmaz qərarların həyata keçirilməsi üçün Nazirlər Kabineti yanında aidiyyəti dövlət qurumlarından ibarət Operativ Qərargahın yaradılması, sərhədlərin bağlanılması, karantin rejiminin və hərəkət məhdudiyyətinin tətbiq olunması, sosial və məhdudlaşdırıcı izolyasiya tədbirlərinin həyata keçirilməsi, kütləvi yoluxmanın qarşısını almaq məqsədilə təhsil prosesinin, ticarət və əyləncə mərkəzlərinin fəaliyyətinin dayandırılması, bütün kütləvi tədbirlərin ləğv edilməsi kimi vacib addımlar Azərbaycan hökumətinin ilk gündən koronavirusla mübarizəyə olduqca diqqətli yanaşmasının göstəriciləri oldu.

Həmçinin qısa zamanda səhiyyə infrastrukturu koronavirusla mübarizəyə istiqamətləndirildi. COVID-19 virusuna yoluxmuş şəxslərin müalicəsi üçün 40-dan artıq xəstəxana müəyyən edildi, qısa zamanda modul tipli xəstəxanalar quraşdırılaraq istifadəyə verildi. Hazırda Azərbaycanın bütün bölgələrini əhatə etməklə çoxlu sayda tibb müəssisəsində COVID-19-a yoluxmanı təyin etmək mümkündür. Ötən ilin mart ayında isə Azərbaycanda virusa yoluxmanın qiymətləndirilməsinə imkan verən cəmi 6 laboratoriya var idi. Lakin koronavirusla mübarizənin effektivliyini artırmaq üçün onların sayı qısa müddətdə 40-ı ötdü. Habelə tibb müəssisələrinin diaqnostik və müalicə vasitələri ilə təminatı, xüsusi tibbi avadanlıqların, dərman preparatlarının, testlərin, süni tənəffüs aparatlarının, müasir ECMO cihazlarının alınaraq ölkəmizə gətirilməsi təmin edildi. Ən mühüm addımlardan biri də o oldu ki, ölkəmizdə qoruyucu vasitələrin, dezinfeksiya vasitələrinin istehsalı təşkil olundu və qısa müddətdə bu sahədə olan çatışmazlıqlar aradan qaldırıldı.

Koronavirusla mübarizədə qəhrəman həkimlərimizin əməyini xüsusi qeyd etmək istərdim. Respublikamızda ilk gündən böyük tibbi heyət koronavirusla mübarizəyə səfərbər olundu. Həkimlərimiz həm laboratoriyalarda, həm xəstəxanalarda, həm də karantin üçün ayrılmış xüsusi yerlərdə bu dəhşətli bəlaya qarşı qətiyyətlə mübarizə apardılar, infeksiyanın daha geniş yayılmaması üçün mücadiləyə qalxdılar, on minlərlə insanı yenidən həyata qaytardılar.

Onu da qeyd edim ki, virus Azərbaycanda qeydə alınan dövrdə dünyanın bir çox yüksək inkişaf səviyyəsinə malik ölkələrində hər gün COVID-19-dan on minlərlə insan dünyasını dəyişirdi. Faciəvi və gərgin mənzərə ondan xəbər verirdi ki, heç bir ölkə, səhiyyə və elmi-tədqiqat mərkəzi dünyanın nə zamansa belə bir vəziyyətlə üzləşəcəyini güman etmirmiş. Bu da təbii idi, çünki bəşəriyyət pandemiyalar dövrünü artıq tarixə qovuşmuş mərhələ sayırdı. Tibbin müasir inkişaf səviyyəsi qarşısında bir daha hər hansı belə kütləvi xəstəliklərin baş qaldıra bilməyəcəyinə böyük bir əminlik vardı.

Bütün bunlarla yanaşı, ilk vaxtlarda bəzi ölkələrdə problemə laqeyd yanaşılmasının acı nəticələri özünü kəskin şəkildə göstərdi. Xüsusən Avropa ölkələrində virusun yayıldığı ilk aylarda qısa müddətdə minlərlə insanın vəfat etməsi, sayı on mini aşan gündəlik yoluxmaların baş verməsi birinci növbədə xəstəliyə qarşı zamanında qabaqlayıcı addımların atılmamasının nəticəsi idi.

Azərbaycanda isə qabaqlayıcı və məhdudlaşdırıcı tədbirlərin sayəsində koronavirusun ciddi və faciəvi fəsadlar verməsinin qarşısı alındı. Respublikamızda xəstəlik dalğasına hazırlığı şərtləndirən əsas amillər həm də digər ölkələrdə baş verənlərdən düzgün nəticə çıxarılması, özünü maksimum doğruldan təcrübələrin tətbiqi üçün addımların vaxtında atılması oldu.

Ən mühümü odur ki, ölkə ictimaiyyəti ilk gündən Prezident İlham Əliyevin problemlə mübarizədə qətiyyətini, görülən tədbirlərlə, atdığı addımlarla insanların yanında olduğunu gördü. Onu da qeyd etmək yerinə düşər ki, bütün dünyada ilk dəfə Koronavirusla Mübarizəyə Dəstək Fondu Azərbaycanda yaradılıb. İlkin olaraq Prezidentin Ehtiyat Fondundan 20 milyon manat vəsait ayrıldı. Xalqımızın milli həmrəyliyi və dəstəyi ilə fonda 100 milyon manatdan artıq vəsait toplandı. Prezident və Birinci vitse-prezident 1 illik əməkhaqlarını fonda ianə etdilər.

Koronavirus infeksiyası ilə əlaqədar yaranmış vəziyyət Azərbaycanda tibbi xidmətin yüksək səviyyəsini, respublikamızın istənilən ekstremal hala qarşı hazırlıqlı olduğunu bir daha təsdiqlədi. Eyni zamanda ölkə ictimaiyyəti pandemiyanın sosial-iqtisadi sferaya mənfi təsirlərinin azaldılması istiqamətində də ilk gündən Prezident İlham Əliyevin prinsipial mövqeyini gördü. Dövlət başçısının tapşırığı ilə həm koronavirusla mübarizə, həm aztəminatlı insanların, həm sahibkarların və bütövlükdə iqtisadiyyatın bu qlobal pandemiya dövründə çətinlik çəkməməsi üçün nə lazımdırsa edildi. Xidmət və digər sahələrdə çalışan yüz minlərlə vətəndaşın və mikrosahibkarlıq subyektlərinin əməkhaqlarının böyük hissəsi dövlət tərəfindən ödənildi. Heydər Əliyev Fondunun təşəbbüsü ilə ölkənin bütün şəhər və rayonlarında yaşayan aztəminatlı, yaşı 65-dən yuxarı tənha və kimsəsiz yaşlılara, əlillərə sosial xidmətlər göstərildi, humanitar aksiyalar, qanvermə aksiyaları həyata keçirildi.

### Azərbaycan qlobal liderlik rolunu üzərinə götürdü

COVID-19 bütün dünyanı başına alan qlobal problemdir. Ona görə pandemiya ilə mübarizədə bütün ölkələrin həmrəyliyinə nail olunmasının vacibliyi ilk gündən meydana çıxan çağırış idi. Bu çağırışı ilk dəyərləndirən isə möhtərəm Prezident İlham Əliyev oldu.

Pandemiya qarşısında dünya ölkələrinin əksəriyyətinin özünə qapandığı dövrdə Azərbaycan qlobal liderlik rolunu üzərinə götürdü, pandemiyanın öhdəsindən gəlmək üçün beynəlxalq həmrəyliyi və əməkdaşlığı təbliğ edən ilk ölkələrdən oldu. Məhz cənab İlham Əliyev koronavirusla mübarizədə beynəlxalq həmrəyliyin əldə olunması üçün təşəbbüslərlə çıxış etdi. Ötən ilin aprel ayında dövlət başçısının təşəbbüsü ilə Türk Şurasının koronavirusla mübarizəyə həsr olunmuş Zirvə görüşünün keçirilməsi bu istiqamətdə baş tutan dünya dövlətləri arasında ilk beynəlxalq tədbir idi.

Azərbaycan Prezidenti ortaya qoyduğu məqsədyönlü mövqeyi, prinsipial yanaşmanı daha bir qlobal təşəbbüslə davam etdirdi. Türk Şurasının Zirvə görüşündən sonra Azərbaycanın təşkilatçılığı ilə koronavirusla mübarizə üzrə beynəlxalq həmrəylik niyyətli növbəti tədbir baş tutdu. 2020-ci ilin may ayında Qoşulmama Hərəkatının Təmas Qrupu formatında videokonfrans vasitəsilə "COVID-19-a qarşı birlikdəyik" mövzusunda Zirvə görüşü keçirildi.

Daha sonra 150-dən artıq ölkənin dəstəyi ilə BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyasının təşkili, Azərbaycanın Qoşulmama Hərəkatı adından BMT-nin İnsan Hüquqları Şurasında irəli sürdüyü "Bütün ölkələrin peyvəndlərə bərabər və universal çıxışının təmin edilməsi" adlı qətnamənin 2021-ci ilin mart ayında yekdilliklə qəbul olunması Prezident İlham Əliyevin koronavirusla mübarizədə qlobal həmrəyliyin təmin olunması istiqamətində fəaliyyətinin uğurlu nəticələri kimi tarixə düşdü. Bu qətnamədən göründüyü kimi, Prezident İlham Əliyevin qlobal həmrəyliyin təmin olunmasında diqqət yetirdiyi xüsusi məsələlərdən biri varlı və kasıb ölkələr arasında peyvəndlərin bərabər paylanılması, bu sahədə qeyri-bərabərliyə son qoyulmasıdır. Qoşulmama Hərəkatının sədri kimi də Azərbaycan Prezidenti "peyvənd millətçiliyi", varlı və kasıb ölkələr arasında peyvəndlərə əlçatanlıqla bağlı getdikcə dərinləşən qeyri-bərabərliyə qarşı mübarizəni daim gündəlikdə saxlayır. Bu ilin sentyabrında BMT Baş Assambleyasının 76-cı sessiyasının illik ümumi müzakirələrində videomüraciət vasitəsilə çıxış edən Prezident İlham Əliyev bir daha dünyada mövcud olan peyvənd millətçiliyini qınamış, iradlarını bildirmiş və Azərbaycan tərəfindən Qoşulmama Hərəkatı adından peyvəndlərə bərabər və universal çıxışın təmin edilməsi ilə bağlı BMT Baş Assambleyasında da qətnamənin irəli sürüləcəyini elan etmişdir.

Bu il noyabrın 18-də BMT Baş Assambleyanın üçüncü komitəsində "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamənin layihəsi müzakirə olunub və səsvermə ilə qəbul edilib. 171 ölkə qətnamənin lehinə səs verib. Sənəddə inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında COVID-19 əleyhinə peyvəndlərin bölgüsündə mövcud olan bərabərsizlikdən ciddi narahatlıq bildirilir və bunun Dayanıqlı İnkişaf Məqsədlərinin icrasına əngəl törədən başlıca amillərdən olduğu vurğulanır. O cümlədən COVID-19-a qarşı mübarizədə çoxtərəfliliyin, eləcə də beynəlxalq həmrəylik və əməkdaşlığın əhəmiyyətinə xüsusi vurğu edilir. Bu xüsusda bütün dövlətlər, özəl şirkətlər və digər aktorlar COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi istiqamətində konkret tədbirlər görməyə çağırılır. Bütün dövlətlər COVID-19 əleyhinə peyvəndlərin ixracı ilə bağlı mövcud olan əsassız maneələri aradan qaldırmağa və peyvəndlərin hazırlanması və səmərəli paylanması sahəsində əməkdaşlığa dəvət olunur. Həmçinin BMT Baş katibinə Baş Assambleyanın növbəti sessiyasına hazırkı qətnamənin icrası ilə bağlı hesabat təqdim etməsi tapşırılır.

Bütün bunların davamı kimi bu il dekabrın 16-da BMT-nin Baş Assambleyasında Azərbaycan tərəfindən Qoşulmama Hərəkatının adından irəli sürülmüş COVID-19 əleyhinə peyvəndlərə bütün ölkələrin bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığının təmin edilməsi ilə bağlı qətnamə qəbul edilib. 179 ölkənin dəstəyi ilə qəbul edilən qətnamənin əleyhinə heç bir ölkə səs verməyib.

"Peyvənd millətçiliyi"nin aradan qaldırılması COVID-19 pandemiyasına qarşı mübarizədə Prezident İlham Əliyevin irəli sürdüyü olduqca mühüm və tarixi qlobal təşəbbüsdür. BMT Baş Assambleyasında qəbul olunan qətnamə isə beynəlxalq ictimaiyyətin cənab İlham Əliyevin bu təşəbbüsünü dəstəklədiyini göstərir. Onu da xatırladaq ki, Azərbaycan hökuməti koronavirusla mübarizədə qlobal həmrəyliyin təcəssümü kimi onlarca ölkəyə humanitar və maliyyə köməkliyi göstərib, Ümumdünya Səhiyyə Təşkilatına maliyyə yardımları ayırıb, bir neçə ölkəyə təmənnasız olaraq vaksin göndərib.

### Hər zaman vətəndaşların yanında olan lider

Bəşəriyyətin əsas probleminə çevrilmiş COVID-19 pandemiyasının planetimizin gələcək mənzərəsini necə müəyyənləşdirəcəyini aydın proqnozlaşdırmaq isə hələlik çox çətindir. Amma ötən iki ilin reallıqları, proseslər göstərir ki, virusun qarşısının alınması mümkündür. Koronavirusla mübarizədə müsbət nəticələrin əldə olunması isə təkcə hökumətin fəaliyyətindən asılı deyil. Dövlət qurumları bununla bağlı nə qədər birbaşa məsuliyyət daşısalar da, virusla mübarizə həm də hər bir vətəndaşın bilavasitə vəzifəsidir. Əgər bu ilin əvvəlinə qədər virusla mübarizədə əsas təsirli amil karantin qaydalarına əməl etmək idisə, bu gün həm də vətəndaşların peyvənd olunması COVID-19-un yayılmasının qarşısının alınmasında əsas vasitədir. Xüsusilə vurğulamaq istərdim ki, vətəndaşların vaksinasiyası ilk gündən Azərbaycan Prezidentinin xüsusi nəzarətindədir.

Bu ilin yanvarından başlanan vaksinasiya nəticəsində artıq ölkə vətəndaşlarının 60 faizdən artıq bir hissəsi peyvənd olunub. Ölkəmiz hazırda peyvəndlənmənin səviyyəsinə görə qabaqcıl yerlərdə qərar tutub ki, bu da həyata keçirilən düzgün dövlət siyasətindən xəbər verir.

Bütün bunların nəticəsidir ki, Azərbaycanda vəziyyət əksər ölkələrlə müqayisədə olduqca yaxşıdır. Bu gün yoluxma sayında azalma müşahidə edilir. Lakin belə vəziyyət bizi arxayınlaşdıra bilməz. Ayrı-ayrı ölkələrin təcrübəsi göstərir ki, məhz arxayınlıq son nəticədə ağır fəsadlara yol açır. Xüsusən noyabr ayının sonunda Afrikanın cənubunda COVID 19-un "omikron" adlandırılan yeni növ ştamının aşkarlanması hər kəsi daha məsuliyyətli olmağa çağırır. Artıq "omikron" ştamının "delta" ilə müqayisədə daha sürətli yayıldığı öz təsdiqini tapıb. London İmperial Kollecində aparılan araşdırma "omikron"a yoluxma riskinin "delta" variantı ilə müqayisədə 5,4 dəfə yüksək olduğunu üzə çıxarıb.

Yeddilər qrupu (G7) ölkələrinin səhiyyə nazirləri də "omikron" ştamının sürətli yayılması ilə əlaqədar yaranmış vəziyyəti dünya səhiyyə sistemi üçün ən böyük təhlükə kimi qəbul etməyə çağırıb. Yoluxma hallarının sayının artımından çox narahat olan nazirlər baş verənlərin qlobal səhiyyə üçün ən böyük cari təhlükə kimi qəbul edilməsi ilə bağlı razılığa gəliblər. "Delta" ştamı hazırda dominant variant olaraq qalsa da, "omikron" ştamının 2022-ci ilin ilk iki ayında Avropa qitəsində daha sürətlə yayılacağı gözlənilir. Avropa Xəstəliklərin Qarşısının Alınması və Nəzarəti Mərkəzi bildirir ki, "omikron"un yayılması ilə "delta" ştamına nəzərən ölüm və xəstəxanaya yerləşdirilmə sayının artacağı güman edilir.

Həyata keçirilən qabaqlayıcı tədbirlərin və koronavirusa qarşı düzgün mübarizənin nəticəsində Azərbaycanda hələlik "omikron" qeydə alınmayıb. Bununla belə "omikron" ştamına görə kəskinləşməkdə olan qlobal pandemik vəziyyət COVID-19-la mübarizədə çağırışların aktual qaldığını göstərir. Xüsusən qonşu ölkələr olan İranda, Gürcüstanda yeni ştamın qeydə alınması bizi daha məsuliyyətli olmağa sövq edir. Bu istiqamətdə atılmalı olan əsas addımlar isə karantin tədbirlərinə əməl etməklə yanaşı, peyvənd olunmaqdır. Böyük britaniyalı alimlər koronavirusa qarşı peyvəndin üçüncü dozasının xəstəliyi ağır keçirməyin ən azından 85 faiz qarşısını aldığını açıqlayıblar.

*Azərbaycan dövləti COVİD-19 infeksiyasının qarşısının alınması üçün əlindən gələni edir. Pandemiya rejiminə son qoyulması Prezident İlham Əliyevin fəaliyyətində ən prioritet məsələlərdən biridir. Cənab Prezidentin bu məsələ ilə bağlı fəaliyyətinə nəzər saldıqda görərik ki, dövlət başçısı koronavirusla mübarizədə ən vacib, ən zəruri bütün addımları atıb. Görünən odur ki, Azərbaycan dövləti koronavirusla uğurlu və qətiyyətli mübarizə aparır və İlham Əliyevin rəhbərliyi ilə xalqımız bu sınaqdan layiqincə çıxacaq.*

***Əhliman ƏMİRASLANOV,***
***Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik***



# Qurucu rəhbər, qlobal lider, müzəffər komandan

Hadisədən sonra dərhal Şamaxıya gələn İlham Əliyev sakinlərlə görüşmüş, dövlətin zəlzələnin nəticələrinin aradan qaldırılmasını öz üzərinə götürdüyünü və bütün qəzalı evlərin qısa müddət ərzində ya bərpa ediləcəyini, ya da yenidən tikiləcəyini bildirmişdi: *"Təbii ki, belə hadisə baş verəndə mən mütləq burada, yanınızda olmalı idim ki, ilk növbədə, sizə öz dəstəyimi göstərim, digər tərəfdən, vəziyyətlə tanış olum. Dağıntılar var, xoşbəxtlikdən insan ölümü olmayıb. Onu da bildirməliyəm ki, bütün qəzalı evlər qısa müddət ərzində ya bərpa ediləcək, ya da yenidən tikiləcək. Komissiya işləyir, Fövqəladə Hallar Nazirliyinin əməkdaşları dünəndən buradadır, yerli icra hakimiyyəti də işləyir. Hələ ki, bu vəziyyətdən əziyyət çəkən vətəndaşların məskunlaşması ilə bağlı məşğuldurlar. Eyni zamanda tezliklə bu evlərin bərpası, yenidən tikilməsi nəzərdə tutulur. Müvafiq sərəncam imzalanacaq, Prezidentin Ehtiyat Fondundan vəsait ayrılacaq".*

İlham Əliyevin Şamaxıya həmin səfəri şübhəsiz ki, yalnız zəlzələnin fəsadlarını yerindəcə öyrənmək deyildi. Bu səfər ümumilikdə Prezidentin idarəçilik fəlsəfəsinin məntiqi təzahürü idi. Dövlət başçısı daim ölkədə baş vermiş ekstremal hadisələrə çevik münasibət bildirib, hadisə yerinə şəxsən baş çəkib və bu prosesdə insanların maraqlarının qorunmasını ön plana çəkib, ən nəhayət, vətəndaş mənafeyinə həssas münasibətin nümunəsini yaradıb. Həmin vaxt cənab Prezidentin Şamaxıda təbii fəlakətin törətdiyi fəsadlarla yerində tanış olması, zərərçəkən vətəndaşlarla görüşləri, söhbətləri, müvafiq qurumların rəhbərlərinə verdiyi tapşırıqlar bir daha göstərdi ki, dövlət başçısı xalqa əsl xidmətin təzahürü olaraq insanların yanındadır, onların problemlərinə, qayğılarına həssas münasibət bəsləyir. Zəlzələnin fəsadları ilə yerində tanış olan Prezidentin sakinlərin halına yanması, onlara necə ürək-dirək verməsi zəlzələdən ev-eşiyini itirmiş insanlar üçün ən böyük təsəlli idi. Həmin vaxt dövlət başçısının baş verənlərə görə məyusluğu əsl rəhbərin xalqa qayğısının real təsvirini göstərdi. Prezident İlham Əliyevin ayrılıqda hər bir zərərçəkən vətəndaşa ürək-dirək verərək *"Yeni ev tikiləcək, narahat olmayın"* deməsi cavanlı-qocalı hamının dualarına bələnirdi. Ağbirçək Saray xanımın dövlət başçısına *"Allah Sizə uzun ömür, cansağlığı versin, ailənizlə xoşbəxt olasınız. Allah o bir oğlunuzu gözünüzə çıraq eləsin. Nə yaxşı ki, varsınız. Biz Sizinlə qürur duyuruq",* - deyə dualar söyləməsi sadə insanların qəlbinin hərarətini gözəl ifadə edirdi.

Həmin ilin dekabr ayında Prezident İlham Əliyevin Şamaxıya səfəri zamanı rayon sakini Xuraman Həsənovanın dediyi sözlər dövlət başçısı ilə ünsiyyətin insanların və bütövlükdə cəmiyyətin ovqatına necə təsir etdiyini göstərir. *"Sənə qurban olum, gözəl insan, gözəl ailə başçısı, Azərbaycanımızın fəxrisən. Bayrağımızı ucaldan, ölkəmizi hər cür təmin edən canına mən özüm qurban. Çox sağ olun. Allah Sizdən razı olsun. Mənim bir əhdim olub. Heç vaxt özümə heç nə arzu etməmişəm. Ancaq həyatda uşaqlar üçün arzulamışam. Bu evlər belə olanda ancaq bir arzum olub, demişəm ki, ya Rəbbim, əgər mənə belə bir şey qismət olsa, Prezidentlə görüşüm olsun. Bugünkü gün Allah mənə onu qismət edib. Çox sağ olun. Allah Sizdən razı olsun. Sizə dəstək verənlərdən də Allah razı olsun, əziyyət çəkənlərdən də. Belə bir günü bizə qismət etmisiniz",* - deyə həmin görüşdə Xuraman Həsənova söyləmişdi.

Xüsusilə koronavirus pandemiyasının davam etdiyi bir vaxtda ölkə rəhbərinin regionlara səfərləri cəsarət göstəricisidir. Prezident heç nədən çəkinmədən prosesləri yoxlayır, deməli, vətəndaşını düşünür, "Mən sizin yanınızdayam, sizinlə bərabərəm" deyir.

Eyni sözləri Birinci vitse-prezident Mehriban Əliyeva haqqında da söyləmək mümkündür. Həmişə olduğu kimi, pandemiya dövründə də Mehriban Əliyeva dövlət və milli həyatın bütün sahələrində Prezidentlə çiyin-çiyinə addımladı, öz fəaliyyəti ilə hər zaman xalqın yanında oldu.

Fəaliyyətini xalqa xidmət prinsipi üzərində quran Prezident İlham Əliyev bu yaxınlarda Quba rayonuna səfəri çərçivəsində ənənəsinə uyğun olaraq sakinlərlə söhbətləşdi. Sadə vətəndaşlar bu ünsiyyətin timsalında bir daha ölkə rəhbərinin xüsusi diqqət və qayğıkeşliyi ilə əhatə olunduqlarını gördülər.

Bütün bunlar o deməkdir ki, İlham Əliyev hər zaman xalqın yanındadır və bütün dövrlərdə və yaşanan hadisələrdə Prezidentin fəaliyyətinin diqqətçəkən məqamlarından biri də budur. Dövlət başçısı mövcud gerçəklikləri operativ və obyektiv şəkildə qiymətləndirərək cəmiyyətin sosial sifarişinə uyğun çevik qərarlar qəbul edir, insanları, cəmiyyəti narahat edən problemlər zamanında öz həllini tapır. Bu həm də onu göstərir ki, cənab İlham Əliyev üçün insan amili bütün məqsədlərin fövqündə dayanır. Vətəndaşlarla ünsiyyət həm də ictimai nəzarətin ən optimal nümunəsidir.

Dövlət başçısının cəmiyyətin sosial sifarişinə uyğun çevik qərarlar qəbul etməsi, daim ictimaiyyət arasında olması, insanlarla ünsiyyəti cəmiyyətin nəinki tərəqqisini, həm də xoş ovqatını təmin edən mühüm nüanslardır. Daim vətəndaşlarla birbaşa təmaslara üstünlük verən, onların problemlərini həssaslıqla dinləyən və dərhal həlli üçün qəti tapşırıqlar verən dövlət başçısının atdığı addımlar xalqın Prezidentinə olan etimadını daha da artırıb.

*(Əvvəli qəzetin 23 dekabr sayında)*



# Daim xalqla birlikdə

## Dövlət başçısı keçmiş məcburi köçkünlərlə artıq Qarabağ və Şərqi Zəngəzurda görüşür

2020-ci ilin 44 günlük Vətən müharibəsindən sonra Azərbaycan xalqı öz tarixinin yeni, həm də şərəf dolu mərhələsinə qədəm qoyub. Bu mərhələnin əsas özəlliklərindən biri işğaldan azad olunmuş ərazilərimizin kompleks şəkildə yenidən qurulmasıdır. Prezident İlham Əliyevin rəhbərliyi və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın nəcib təşəbbüsləri və fəal iştirakı ilə həyata keçirilən genişmiqyaslı yenidənqurma işləri nəticəsində doğma torpaqlarımız göz önündə yenidən dirçəlir.

2020-ci ilin payızında təsəvvür belə etməzdik ki, cəmi bir ildən sonra Füzulidə beynəlxalq hava limanı istifadəyə veriləcək, yarımstansiyalar inşa olunacaq, doğma torpaqlarından köçkün düşmüş vətəndaşlarımız üçün Qarabağ və Şərqi Zəngəzurda "ağıllı kənd"lərin salınmasına, bütün azad olunmuş ərazilərimizi əhatə edən yeni yol şəbəkəsinin qurulmasına başlanacaq və s. Bəli, Azərbaycana rəhbərliyi dövründə möhtəşəm yüksəliş nümunələri yaradan Prezident İlham Əliyev Qarabağ və Şərqi Zəngəzuru da sürətlə bərpa edir. Azad olunmuş ərazilərimizdə aparılan kompleks yenidənqurma işləri dövlətimizin qələbəsinin təntənəsidir. Yüksək templə başlanan bərpa işləri sürətlə davam etdirilir, azad olunmuş torpaqlarımız ən yüksək səviyyədə yenidən qurulur və bunların hər biri keçmiş şöhrətini özünə qaytarır. 30 ilə yaxın dövrdə erməni vandalizminə məruz qalan ərazilərimizdə tezliklə məskunlaşmanın şahidi olacağıq. Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması, o cümlədən Naxçıvanı ölkəmizin əsas hissəsi ilə birləşdirəcək Zəngəzur dəhlizi Azərbaycanın qalibiyyətini bir daha dünyaya bəyan edəcək.

Prezident İlham Əliyevin torpaqlarımızın işğaldan azad edilməsindən sonra Qarabağa və Şərqi Zəngəzura dəfələrlə səfər etməsi bərpa və quruculuq işlərini özünün şəxsi nəzarətində saxlamasından xəbər verir. Bu səfərlərin hər biri mühüm hadisələrlə yadda qalır, azad olunmuş torpaqlarımızın bərpası prosesinə böyük töhfələr verir. Xüsusən Prezident İlham Əliyevin Şərqi Zəngəzura və Qarabağa rayonlarımızın işğaldan azad edildiyi tarixlərdə səfərlər etməsi və burada yerli ictimaiyyətin nümayəndələri ilə görüşlər keçirməsi Vətən müharibəsindəki qələbə tariximizin mühüm səhifələridir. Prezident İlham Əliyevin Qarabağa və Şərqi Zəngəzura həmin ərazilərin erməni işğalından azad olunduğu tarixlərdə səfərlər etməsi ənənəyə çevrilməklə Vətən müharibəsinin ildönümünün mühüm hadisələri oldu. Həm də dövlət başçısı azad olunan yurdlara oranın doğma sakinləri, keçmiş məcburi köçkünlərlə birgə yollandı, onları ev sahibi kimi salamladı, "Xoş gəlmisiniz" dedi. Eyni zamanda əminliklə vurğuladı ki, sürətli quruculuq işləri sayəsində tezliklə vətənlərinə dönəcək bu sakinlər özləri ona tezliklə doğma ocaqlarında "Xoş gəlmisiniz, cənab Prezident" söyləyəcəklər...

Bəli, 2020-ci ilə qədər Prezident İlham Əliyev Qarabağ və Şərqi Zəngəzurdan olan vətəndaşlarımızla keçmiş məcburi köçkünlər üçün salınmış qəsəbələrdə görüşürdüsə, indi onlarla Ağdamda, Cəbrayılda, Zəngilanda, Hadrutda, Füzulidə, Şuşada, Kəlbəcərdə, Qubadlıda görüşür.

2021-ci il may ayının 28-də Ağdamda rayonun ictimaiyyəti ilə görüşən dövlət başçısı Ağdam şəhərinin və bir sıra vacib infrastrukturun təməlini qoydu. Müzəffər Ali Baş Komandanın 2021-ci ilin 4 oktyabrında azadlığını təbrik etmək üçün üz tutduğu ünvanlardan biri Şərqi Zəngəzurun cənnət mələyi Cəbrayıl oldu. Prezident Cəbrayıl ictimaiyyətinin nümayəndələri ilə birgə şəhərin bərpasının ilk təməl daşını qoydu. Bundan cəmi 5 gün sonra - 9 oktyabrda isə Prezident xocavəndlilərlə birgə Xocavəndin azadlıq gününü qeyd etdi. Xocavənd rayonunun, Hadrut qəsəbəsinin gələcək inkişafı ilə bağlı olan böyük planların icrasına start verdi. Azərbaycan Prezidenti 2021-ci il oktyabrın 17-də Füzuli rayonunda bu şəhərin təməl daşını qoydu. Füzuli ictimaiyyəti ilə görüşü zamanı bildirdi ki, Füzuli şəhərinin baş planı, kəndlərin inkişaf konsepsiyası hazırlanıb, birinci infrastruktur layihələri də məhz Füzulidə başlayıb.

Cəmi 9 gün sonra, oktyabrın 26-da yenidən Füzuliyə səfər edən Prezident İlham Əliyev qardaş ölkə Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanla birgə Füzuli Beynəlxalq Hava Limanının açılışını həyata keçirdi. Qısa zamanda Füzulidə Beynəlxalq Hava Limanının tikilərək istifadəyə verilməsi və icra edilən digər böyük layihələr isə dövlətimizin həm niyyətini, həm də potensialını bir daha nümayiş etdirdi.

Zəngilanın işğaldan qurtulmasının birinci ilində - 2021-ci ilin 20 oktyabrında rayonun doğma sakinləri ilə Zəngilanda görüşən İlham Əliyev vurğuladı ki, məqsədimiz Azərbaycanın ən gözəl yerlərindən biri olan Zəngilanı yenidən qurmaqdır. "Zəngilan ölkəmizin nəqliyyat-logistika mərkəzinə çevriləcək", - deyə söyləyən İlham Əliyev məlumat verdi ki, burada turizm, kənd təsərrüfatı, nəqliyyat, logistika, ətraf mühitin qorunması və əlbəttə ki, insanlar üçün şəraitin yaradılması istiqamətində işlər görülür. Qısa müddətdə bu rayonda da həyata keçirilən mühüm işlər onu deməyə əsas verir ki, tezliklə Zəngilan ölkə üzrə çox müasir və böyük əhəmiyyətə malik olan bölgəyə çevriləcək.

Prezident xalqımızı və bütün qubadlılıları 2021-ci il oktyabrın 25-də Qubadlıdan salamladı. Qubadlıda da açılış və təməlqoyma mərasimlərində iştirak edən dövlət başçısı rayon sakinləri ilə görüşü zamanı qeyd etdi ki, bütün kəndlər dağılıb, şəhər dağıdılıb, bir dənə də salamat kənd qalmayıb. Ona görə qubadlılıları buraya yerləşdirmək üçün əlbəttə ki, çox böyük işlər görüləcək.

## İşğaldan azad olunmuş rayonlara səfərlər ictimaiyyətlə ünsiyyətin yeni formasıdır

Prezident İlham Əliyevin işğaldan azad olunmuş rayonlara davamlı səfərləri zamanı yerli ictimaiyyətin nümayəndələri ilə keçirdiyi görüşlər də vətəndaşlarla ünsiyyət baxımından diqqəti çəkən təqdirəlayiq hadisələrdir. Dövlət başçısının Qarabağa və Şərqi Zəngəzura hər biri tarixi hadisəyə çevrilən çoxsaylı səfərləri böyük siyasi, iqtisadi əhəmiyyəti ilə yanaşı, xalqın inam və məhəbbətinin əyani nümayişi olaraq da yaddaşlara həkk olundu. Və hər səfərində ölkə rəhbəri xalqımız tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılandı.

Yaxşı xatirimizdədir ki, 2020-ci il noyabrın 16-da Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərə ilk səfərini etdi. Füzuli və Cəbrayıl rayonlarına edilən səfər zamanı sakinləri salamlamaq üçün maşından düşən Prezident İlham Əliyev əhali tərəfindən xüsusi coşqu və izdihamla qarşılandı. Qalib Prezidentə xalqın ehtiramının sonsuz olduğu aydın görünürdü. Ona qələbə hisslərini yaşadan Prezidentə xalq öz sevgisini nümayiş etdirdi. Vətəndaşlarla görüşlər zamanı Prezidentin izdihamla qarşılanması bir daha ölkəmizdə yaşanan xalq-iqtidar birliyindən xəbər verdi. İşğaldan azad olunmuş bölgələrdə qəhrəman Prezidentini qarşılayan qalib xalq öz sevgi və etimadını nümayiş etdirdi.

Azərbaycan Prezidenti İlham Əliyev Vətən müharibəsinin gedişində qəhrəman Ordumuz işğal altındakı şəhər və rayonlarımızı düşməndən bir-bir təmizlədikcə, xalqımıza müraciətlər edir, özünün rəsmi "Tviter" səhifəsində Qələbə paylaşımları ilə insanları sevindirirdi. Vətən savaşında rayonlarımızın azad edilməsinin birinci ildönümü günlərində dövlət başçısı yağı tapdağından qurtulan şəhər və rayonlarımıza getdi, oraya dəvət etdiyi keçmiş məcburi sakinlərlə görüşdü, onlarla sevinc və fərəhini bölüşdü.

Bütün bunlar ilk növbədə Prezidentin uzun müddətdən bəri gözlənilən qələbə sevincinin keçmiş məcburi köçkünlərlə bölüşməsi mərasimi kimi yaddaşlara əbədi yazıldı. Prezident İlham Əliyev də 18 il idi ki, bu günü gözləyirdi, bu günə addım-addım yaxınlaşırdı. Bu bəxtəvərliyi, bu xoşbəxtliyi xalqına yaşatmaq üçün nələr etmirdi, hansı fədakarlığı göstərmirdi, hansı maneələri, əngəlləri dəf etmirdi?! Bir tərəfdən ölkəmizin iqtisadi inkişafını şərtləndirən önəmli layihələr reallaşdırır, xalqımızın, o cümlədən erməni cəlladları tərəfindən doğma yurd-yuvalarından didərgin salınan məcburi köçkünlərin sosial şəraitlərini yaxşılaşdırmaq məqsədilə tədbirlər həyata keçirir, Silahlı Qüvvələrimizi mənəvi-psixoloji, döyüş ruhu, sosial, ictimai, texniki-təchizat, silah-sursat, peşəkarlıq sarıdan gücləndirir, digər yandan isə Azərbaycanın haqq səsini, ədalətli mövqeyini, Ermənistanın işğalçılıq siyasətini, faşist mahiyyətini beynəlxalq aləmə çatdırırdı.

Vətən müharibəsində Azərbaycanın tarixi Zəfər əldə etməsini şərtləndirən bütün bu amillər Prezident İlham Əliyevin fədakar fəaliyyətinin, müdrik siyasətinin məntiqi nəticəsi idi. Dövlət başçısı da bu qələbənin qazanılacağına əminliyini daim ifadə edir, məcburi köçkünlərlə görüşlərində onların diqqətinə çatdırırdı. 2021-ci ilin payız aylarında isə Prezident İlham Əliyev həmin insanlarla artıq onların öz doğma ellərində - Qarabağ və Şərqi Zəngəzurda görüşdü.

İlham Əliyev dünyanın hər bir guşəsində, hər bir tədbirdə ən çox arzu edilən və sevilən şəxsiyyətdir. Hər yerdə onu hörmətlə qarşılayır, diqqətlə dinləyir, müdrik fikirlərindən, səmərəli təkliflərindən bəhrələnirlər. Koronavirus pandemiyası dünya ölkələrini öz qapılarını bağlamaq məcburiyyətində qoysa da, ünsiyyətin yeni forması, videokonfranslar yeni körpülər yaradıb. Və biz bu yeni formatın mükəmməl nümunələrinin dəfələrlə canlı şahidinə çevrilmişik!

Qarabağa və Şərqi Zəngəzura səfərləri zamanı Prezident İlham Əliyev həm də ictimaiyyətin nümayəndələri ilə ünsiyyətin yeni formasını yaratdı. Prezidentimizin xoş aurası, sadə və səmimi davranışı, inamlı və qətiyyətli çıxışı həmin görüşlərin iştirakçılarını özgə bir aləmə apardı! Həmin görüşlərin iştirakçıları viranəliyin şokundan ayılaraq yeni layihələrin yaradacağı xoş mənzərələrin təsiri altına düşdülər. Liderlik nümunəsi və xalq sevgisinin təcəssümü budur.

Azərbaycan Prezidenti İlham Əliyevin işğaldan azad olunmuş rayonlara səfər etməsi, rayon ictimaiyyəti ilə görüşlər keçirməsi xalqımızı daha da qürurlandırır. Bu görüşlərdə şəhər və rayonlarımızın dirçəlişindən danışan Qarabağın xilaskarı İlham Əliyevin hər kəlməsi, hər fikri bir tezisə çevrilir.

Prezident İlham Əliyevin işğaldan azad edilmiş rayonların sakinləri, eləcə də Ali Baş Komandanı olduğu qalib Ordunun zabit və əsgərləri ilə görüşləri son dərəcə səmimi görüntülərlə yadda qalır. Bu gün ordumuzun sıralarında qulluq edən gənclər torpaqlarımızın işğal edildiyi dövrü görməyiblər. Amma İlham Əliyevin yürütdüyü siyasətin nəticəsində onların hər biri vətənpərvər vətəndaşlar kimi yetişib, formalaşıblar.

Ümumiyyətlə, 44 günlük Vətən müharibəsi Azərbaycan Prezidentinin elə ali keyfiyyətlərini üzə çıxardı ki, dünya onu heyrətlə izlədi. Ölkəsinə qazandırdığı qalibiyyət Vətən, yurd, xalq, insan sevgisinin zirvə nöqtəsi idi. Bəli, millətin öndə gedəni olmaq - bu, yalnız güclü liderlərə, güclü şəxsiyyətlərə məxsus böyüklük, həm də onu yetirən xalqın xoşbəxtliyidir. Biz millət olaraq çox şanslıyıq ki, bizim İlham Əliyev kimi liderimiz var. Ona görə bu gün Ümummilli Lider Heydər Əliyevin ruhu şaddır. Şaddır ona görə ki, cənab Prezidentin rəhbərliyi altında biz öz dədə-baba torpaqlarımıza qayıtdıq. Şaddır ona görə ki, İlham Əliyev ata vəsiyyətini layiqincə yerinə yetirdi.

## İlham Əliyev Azərbaycanın hər bir vətəndaşının Prezidentidir

Xalqın mütləq əksəriyyətinin etimadı ilə 2003-cü ildə prezident seçilmiş İlham Əliyev *"Mən hər bir Azərbaycan vətəndaşının prezidenti olacağam"* deyərkən sadəcə vəd vermirdi, xalqa xidmətin gələcək strategiyasını nümayiş etdirirdi. Azərbaycana rəhbərlik etdiyi 18 il ərzində İlham Əliyev bu vədə, bu strateji xəttə sadiq qalaraq dini, etnik, sosial mənsubiyyətindən asılı olmayaraq, Azərbaycanın hər bir vətəndaşının Prezidenti oldu, bu vədinə sadiqliyini dəfələrlə əməli işi ilə sübuta yetirdi. Xalqın xoş gününə, rahat yaşayışına çalışan dövlət rəhbəri ən çətin və qayğılı günlərdə insanların yanında oldu, onlara diqqət və qayğısını, köməyini, sevgisini əsirgəmədi.

Ölkədə əldə edilən hər bir uğur vətəndaşların Prezident İlham Əliyevə olan etimadını daha da artırıb, milli həmrəyliyi daha sıx edib. İndiyədək keçirilmiş bütün yerli və xarici rəy sorğularının nəticələri Prezident İlham Əliyevin yüksək reytinqini dəfələrlə sübuta yetirib. Bunun da əsas səbəbi cənab Prezidentin fəaliyyəti və bu fəaliyyətin xalq tərəfindən böyük razılıq və minnətdarlıqla qarşılanmasıdır. Təsadüfi deyil ki, bütün prezident seçkiləri seçicilərin mütləq əksəriyyətinin öz səslərini cənab İlham Əliyevə verməsi ilə yadda qalıb. İnkişaf proseslərinin davamlı olmasını arzulayan Azərbaycan xalqı hər dəfə seçkilərdə İlham Əliyevə dəstəyini nümayiş etdirib. Bu dəstək Azərbaycan cəmiyyətinin mövcud siyasi kursa inam və rəğbətinin əyani təcəssümü olmaqla, mütləq əksəriyyətin istək və arzusunu özündə əks etdirib.

Təcrübə göstərir ki, yalnız əsl siyasi liderlik keyfiyyətlərinə malik olan şəxslər xalqının və dövlətinin maraqlarını təmin etməyi bacarır, vətəndaşlarla hər zaman yaxından ünsiyyətdə olur. Əsl liderlər istənilən neqativ meyillərə qarşı vaxtında qabaqlayıcı və adekvat tədbirlər həyata keçirir, ən çətin anlarda vətəndaşının yanında olur, onun mənafeyinə cavab verən çevik qərarlar qəbul edir. Bu da öz növbəsində ondan peşəkarlıq, erudisiya, uzaqgörənlik, öz xalqına bağlılıq kimi mühüm keyfiyyətlər tələb edir.

*Ona görə siyasi liderlik meyarlarından biri bu statusa iddia edən şəxsin yüksək ali keyfiyyyətlərə malik olmasıdır. Ümummilli Lider Heydər Əliyevin böyük müdrikliklə müəyyən etdiyi sosial-iqtisadi inkişaf strategiyasını uğurla həyata keçirən Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərlik fəaliyyətini diqqətlə nəzərdən keçirdikdə onun bu tələblərə cavab verən alternativsiz siyasi lider olduğu bir daha qabarıq görünür. Siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanan İlham Əliyevin atdığı addımlar, verdiyi qərarlar insanlar tərəfindən yüksək qiymətləndirilir və bütün bunların nəticəsidir ki, xalqımız öz rəhbərinin ətrafında daim sıx səfərbərdir.*

**Ziyad SƏMƏDZADƏ,**
**AMEA-nın həqiqi üzvü,**
**Milli Məclisin deputatı**



## Qurucu rəhbər, qlobal lider, müzəffər komandan

# Uğurlu prezidentliyin mükəmməl nümunəsi

Azərbaycanda müstəqillik dövrü epoxasında demokratik seçki sistemi formalaşmış, bu tarixi mərhələdə prezident, parlament və bələdiyyə seçkiləri həmin əsasda keçirilmişdir. Görkəmli dövlət xadimi Heydər Əliyevin 3 oktyabr 1993-cü il tarixdə Azərbaycan Respublikasının prezidenti seçilməsi ölkəmizdə demokratik seçkinin əsl nümunəsi olmuşdur. Həmin seçkidə xalqın və dövlətin möhtəşəm həmrəyliyi və birliyi ölkəmizə qələbə qazandırmış, yeni tarixi epoxanın yaranmasının bünövrəsinə çevrilmişdir.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevdən sonra respublikanın prezidenti vəzifəsində seçkilərdə iştirak etmək və qalib gəlmək çətin və məsuliyyətli bir işi həyata keçirmək demək idi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin şərəfə nail olmağın və bu məsuliyyətli vəzifəni yüksək səviyyədə həyata keçirməyin əsl nümunələrini göstərmişdir. İlham Əliyevin 15 oktyabr 2003-cü il tarixdə Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməsi ölkəmizdə siyasi varisliyin təmin edilməsinə, müstəqillik dövründə Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyən edilmiş, 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə Azərbaycan Respublikasının Konstitusiyasında xüsusi maddələrlə təsbit olunmuş hüquqi-demokratik dövlətçilik xəttinin uğurla davam etdirilməsinə təminat vermişdir.

Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə İlham Əliyevin seçilməsi xalqımız tərəfindən təbii şəkildə qəbul edilmiş və tam dəstəklənmişdir. Bu məsuliyyətli tarixi məqamda görkəmli dövlət xadimi Heydər Əliyev faktoru və yeni tipli lider kimi İlham Əliyevə bəslənilən böyük ümidlər bir-birini tamamlamışdır. Azərbaycanda dövlət rəhbəri üçün çox zəruri olan keyfiyyətlərə malik olmaq baxımından İlham Əliyevin çox fərqli üstünlükləri vardır. Əvvəla, Azərbaycan siyasətçiləri arasında İlham Əliyevin əsas fərqli cəhəti və üstünlüyü onun dünyamiqyaslı görkəmli dövlət xadimi Heydər Əliyevin böyük sınaqlardan çıxmış dövlətçilik məktəbini real şəkildə keçməsi ilə əlaqədardır. Zəngin təcrübəyə malik uzaqgörən dövlət xadimi Heydər Əliyevin həm Azərbaycan Sovet Respublikasında keçmiş şərəfli mübarizə yolundan, həm də Sovetlər İttifaqının ən yüksək idarəetmə qurumlarında: Siyasi Büroda və SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsindəki məsuliyyətli və keşməkeşli fəaliyyətinin dərslərindən öyrənmək baxımından İlham Əliyev geniş imkanlara malik olmuşdur. Bundan başqa, Azərbaycan Respublikasına prezident seçkisi ərəfəsində, 1 oktyabr 2003-cü il tarixdə görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycan xalqına müraciətində dünya miqyaslı böyük siyasətçinin verdiyi müdrik xarakteristika İlham Əliyevin siyasi taleyində xüsusi əhəmiyyətə malik olmuşdur. Azərbaycan xalqına tarixi müraciəti görkəmli dövlət xadimi Heydər Əliyev tərəfindən İlham Əliyevə verilmiş mühüm dövlət başçısı etibarnaməsidir. "Azərbaycan xalqına müraciət"də ifadə olunmuş fikirlər həm 2003-cü ilin prezident seçkilərində, həm də, ümumiyyətlə, İlham Əliyevin siyasi taleyində mühüm istiqamətverici rol oynamışdır: "Üzümü sizə, həmvətənlərimə tutaraq qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektual, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

İkincisi isə, İlham Əliyevin Azərbaycanda 2003-cü ilin prezident seçkilərinə qədər keçdiyi çətin və şərəfli yol onun bu mühüm və məsuliyyətli vəzifəyə seçilməsini təmin edən mühüm amillər olmuşdur. Belə ki, 1977-1982-ci illərdə keçmiş SSRİ-də ən inkişaf etmiş ali təhsil ocaqlarından biri olan Moskva Dövlət Beynəlxalq Münasibətlər Universitetində yüksək təhsil alması və orada müəllim kimi dərs deməsi, dissertasiya müdafiə edərək elmi dərəcə qazanması onun aydın dövlətçilik dünyagörüşünə yiyələnməsində özünəməxsus rol oynamışdır. Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Avropa Şurası Parlament Assambleyasında ölkəmizin nümayəndə heyətinə 1995-2000-ci illərdə böyük bacarıqla başçılıq etməsi, bu mötəbər beynəlxalq qurumun sədrinin müavini seçilməsi İlham Əliyevin dünyada gedən ictimai-siyasi prosesləri, dövlətlərarası münasibətlərin görünən və görünməyən tərəflərini daha dərindən yaşamasına, nəticələr və qənaətlər əldə etməsinə şərait yaratmışdır.

Azərbaycan Dövlət Neft Şirkətinin vitse-prezidenti və birinci vitse-prezidenti vəzifəsində respublikamızın əsas təbii sərvəti və mühüm maliyyə bazası olan neft gəlirlərinin daha da inkişaf etdirilməsi prosesində 1994-2003-cü illərdə yaxından iştirak etməsi də gənc siyasətçinin müstəqil dövlətin iqtisadi strategiyasının əsaslarını və perspektivlərini əyani şəkildə müşahidə etməsinə, real olaraq bu işin həyata keçirilməsinin əsas icraçılarından biri olmasına şərait yaratmışdır. Hələ 1997-ci ildən böyük təşəbbüskarlıqla həyata keçirməyə başladığı Azərbaycan Olimpiya Komitəsinin sədrliyi vəzifəsi onun ölkə həyatının bütün sahələri ilə yaxından tanış olmasına meydan açmışdır. Yeni Azərbaycan Partiyasının Sədrinin müavini kimi 1999-cu ildən və YAP Sədrinin birinci müavini olaraq 2001-ci ildən etibarən cəmiyyətin siyasi həyatında keçdiyi şərəfli yol İlham Əliyevi müstəqil dövlətin başçısı vəzifəsinə daha da yaxınlaşdırmışdır. Nəhayət, Azərbaycan Respublikasının Baş naziri vəzifəsindəki 2003-cü ilin avqust ayından etibarən səmərəli fəaliyyəti qısamüddətli bir dövrü əhatə etsə də, onun artıq yeni tipli lider olduğunu xalqa çatdırmışdır. Keçdiyi məsuliyyətli yolun, yaşadığı ictimai-siyasi proseslərin çoxşaxəliliyinə görə dünya ölkələrinin rəhbərləri arasında İlham Əliyevlə müqayisə ediləcək liderlər göstərmək çətindir.

Bütün bunlara görə 15 oktyabr 2003-cü il prezident seçkilərində Azərbaycan xalqı çətin sınaqlardan uğurla çıxaraq ümumxalq inamı qazanmış Heydər Əliyev yolunda və müasir tarixi epoxada yeni təfəkkürə malik liderlik qabiliyyətləri ilə cəmiyyətin önündə gedən, Avropada və Müstəqil Dövlətlər Birliyi ölkələrində kifayət qədər yaxşı tanınan, fərqli siyasətçi kimi diqqəti cəlb edən İlham Əliyevə səs vermişdir. İlk dəfə iştirak etdiyi prezident seçkilərində birinci turda 76 faiz səs toplayaraq qalib gəlməsi artıq İlham Əliyevin ölkədə xüsusi nüfuza malik olduğunu sübut etmişdir. Bəzi antimilli müxalifət təmsilçiləri və onları qızışdırmağa çalışan xarici ölkələrin məkrli dairələri demokratik yolla və mütəşəkkil şəkildə keçirilmiş seçkilərin nəticələrini süni şəkildə şübhəyə almaq istəsələr də, bu bədxah niyyət baş tutmamışdır. Çünki "İlhamla irəli" şüarı altında keçirilən prezident seçkilərində Azərbaycan xalqı görkəmli dövlət xadimi Heydər Əliyevin müəyyən etdiyi müstəqil dövlətçilik yolunun davam etdirilməsinin ölkəmiz üçün ən doğru yol olduğuna inamını ifadə etmişdir. Bir çox mötəbər beynəlxalq təşkilatlar Azərbaycanda keçirilmiş prezident seçkilərinin nəticələrini dərhal tanımışdır. Seçkilərdə İlham Əliyevin müasir təfəkkürə malik yeni tipli lider olması faktoru da xüsusi əhəmiyyət kəsb etmişdir.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müstəqil dövlətimizə rəhbərliyinin birinci dövrü ilk növbədə ölkəmizdə ictimai-siyasi sabitliyin daha da möhkəmləndirilməsi və özündən əvvəl başlanmış mühüm siyasi-iqtisadi əhəmiyyətə malik olan layihələrin uğurla davam etdirilərək başa çatdırılması ilə səciyyələnmişdir. Bu məqsədlə 1994-cü ildə görkəmli dövlət xadimi Heydər Əliyev tərəfindən imzalanmış və "Əsrin müqaviləsi" adı ilə beynəlxalq aləmə səs salan neft kontraktının həyata keçirilməsi istiqamətində dövlət səviyyəsində geniş, ardıcıl və məqsədyönlü iş aparılmış, qarşıya çıxan bütün maneələr qətiyyətlə aradan qaldırılmış, həmin möhtəşəm layihə böyük uğurla tamamlanmışdır.

"Əsrin müqaviləsi"nin şərtlərinə əsasən xarici sərmayədarların Azərbaycan neftinin çıxarılması, istehsalı və nəql edilməsi sahələrinə qoyduqları investisiya ölkədə neft sənayesinin ən müasir texnologiya əsasında yenidən qurulmasını təmin etmişdir. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin təsisçiliyi ilə yaradılmış birgə müəssisələr, törəmə şirkətlər və nümayəndəliklər ölkəmizdə neft-qaz sənayesinin bütün sahələrində böyük canlanmanın yaradılmasına ciddi təkan vermişdir. "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının yenidən qurulması və müasir avadanlıqlarla təmin edilməsi, habelə 1999-cü ildə Xəzər dənizində "Şahdəniz" qaz yatağının kəşf edilməsi ilə Azərbaycan zəngin neft-qaz ölkəsi kimi tanınmışdır. Bütün bunlardan sonra Prezident İlham Əliyevin rəhbərliyi ilə 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft boru xəttinin və 2007-ci ildə isə Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin çəkilişinin başa çatdırılması və beynəlxalq miqyasda rəsmi açılışı mərasimlərinin keçirilməsi, istismara başlamasına start verilməsi vaxtilə Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş neft strategiyasının uğurla davam etdirilməsinə, ölkəyə real gəlir gətirməsinə səbəb olmuşdur. Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft-qaz magistralları müstəqil Azərbaycan dövlətinin neft siyasətinin tarixi qələbəsi və böyük təntənəsidir. Bu nəhəng layihələr Azərbaycan üçün olduğu kimi, region dövlətləri və bütün dünya üçün də mühüm əhəmiyyətə malikdir. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istifadəyə verilməsi ilə cahan xəritəsində kiçik ölkələrdən biri kimi qeyd olunan Azərbaycan Respublikası dünya üçün sanki günəş ölkə kimi yenidən doğmuşdur. Beynəlxalq əhəmiyyətə malik olan bu möhtəşəm layihənin gerçəkləşdirilməsi ilə müstəqil Azərbaycan, sadəcə, yeni limanlar və nəhəng rezervuarlar yox, nəticə etibarilə dost ölkələr və etibarlı müttəfiqlər də qazanmışdır. Ceyhandan yola salınan ağırtonlu gəmilər və tankerlər Azərbaycanı Avropa ölkələri və ümumən, dünya iqtisadiyyatı ilə üzvi surətdə bağlayır.

Uğurlu neft siyasəti ilə yanaşı, 2004-2008-ci illərdə Azərbaycanda regionların inkişaf etdirilməsi siyasətinin həyata keçirilməsi işinin dövlət səviyyəsində təşkili də Prezident İlham Əliyevin adı və fəaliyyəti ilə bilavasitə əlaqədardır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə dövlət Proqramı (2004-2008-ci illər) haqqında"kı 11 fevral 2004-cü il tarixli Fərmanı ilə müəyyən edilmiş kompleks vəzifələrin icra edilməsi ilə ölkəmizdə kəndlərin, rayon mərkəzlərinin, qəsəbələrin və şəhərlərin siması dəyişmişdir. Doğru olaraq qeyd edildiyi kimi, dövlət başçısının respublikanın rayonlarına ardıcıl səfərlər etməsi, vəziyyətlə yerində tanış olması, problemləri aradan qaldırmaq üçün əlavə tədbirlər görməsi bu mühüm iqtisadi proqramın həyata keçirilməsinə böyük stimul vermişdir. Nəticədə regionlarda genişmiqyaslı infrastruktur layihələri həyata keçirilmiş, yeni sənayeləşdirmənin əsası qoyulmuş, çoxsaylı iş yerləri açılmışdır. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında hərtərəfli və sürətli inkişafa nail olunmuş, burada hərbi müdafiə işinin möhkəmləndirilməsi sahəsində mühüm tədbirlər həyata keçirilmişdir. Qaçqınların və məcburi köçkünlərin vəziyyətini yaxşılaşdırmaq üçün ayrı-ayrı ərazilərdə ilk qaçqın şəhərcikləri salınmışdır. Elm, təhsil, mədəniyyət, səhiyyə və idman sahələrində nəzərəçarpacaq inkişaf baş vermişdir. Azərbaycanda turizmin inkişafı sahəsində ilk addımların atılmasına başlanılmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin məqsədyönlü siyasəti sayəsində beynəlxalq münasibətlər və xarici siyasət istiqamətində də mühüm nəticələr əldə edilmişdir. Prezident İlham Əliyevin Türkiyə Cümhuriyyətinə, Avropa və Asiya ölkələrinə etdiyi rəsmi dövlət səfərləri, keçirdiyi işgüzar görüşlər və müzakirələr Azərbaycan Respublikasının xarici siyasətdəki tarazlaşdırma prinsipinin yerinə yetirilməsinə, qısa müddətdən sonra müstəqil siyasətin yürüdülməsinə öz töhfələrini vermişdir. Azərbaycan Respublikası qonşu dövlətlərlə əlaqələrini daha da yaxşılaşdırmış və dünya birliyində etibarlı tərəfdaş ölkə kimi tanınmışdır. Azərbaycan Respublikasının Prezidenti kimi İlham Əliyev həyata keçirdiyi düşünülmüş islahatlarla və bütün sahələr üzrə qazandığı uğurlarla böyük siyasətdə və dövlətin idarə olunmasında görkəmli dövlət xadimi Heydər Əliyevin müstəqil dövlətçilik yolunun layiqli və yaradıcı davamçısı olduğunu isbat etmişdir.

Azərbaycan Respublikasının yüksək səviyyədə idarə olunmasına və beynəlxalq arenada qazandığı böyük uğurlara görə 15 oktyabr 2008-ci ildə ölkəmizdə keçirilmiş prezident seçkilərində İlham Əliyev ikinci dəfə Azərbaycan xalqının böyük etimadını qazanaraq, seçicilərin 88,77 faiz səsini əldə etməyə nail olmuşdur. Bu, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə xalqımız tərəfindən göstərilən yüksək etimadın əyani nümunəsi idi. Prezident İlham Əliyev 2008-2013-cü illərdə də Azərbaycan Respublikasına uğurla rəhbərlik edərək, xalqımızı və ölkəmizi daha böyük nailiyyətlərə doğru aparmışdır. Bu məqsədlə cəmiyyət həyatının bütün sahələrində keçirilən genişmiqyaslı islahatlar böyük bəhrə vermişdir. Azərbaycan Respublikası Prezidentinin 14 aprel 2009-cu il tarixdə imzaladığı "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı"nın icrası ölkədə regionların inkişafında yeni mərhələnin yaradılması ilə nəticələnmişdir. Aparılan məqsədyönlü siyasət regionlarda yerli sənaye sahələrinin daha da inkişaf etdirilməsinə və qeyri-neft sektorunun, aqrar sahənin aparıcı istiqamətlərdən biri kimi prioritet istiqamətə çevrilməsinə gətirib çıxarmışdır. Bu mühüm tarixi mərhələdə dövlət büdcəsinin formalaşdırılmasında artıq qeyri-neft sektorundan əldə edilən gəlirlər də müəyyən yer tutmuşdur. Regionların inkişaf etdirilməsinin ikinci fazası regional iqtisadi inkişafın şəbəkəsinin daha da genişləndirilməsi ilə müşayiət olunmuşdur. Bu isə öz növbəsində Azərbaycanın regionlarında çoxsaylı daimi iş yerlərinin açılmasına imkan yaratmış, kənddən şəhərə axının qarşısını almışdır.

Ölkədəki hərtərəfli və dinamik inkişaf Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi zərurətini meydana çıxarmışdır. Enerji sektorundan və neft-qaz hasilatından əldə edilən gəlirlərin qeyri-neft sektorunun inkişaf etdirilməsinə yönləndirilməsi bütün sahələr üzrə inkişafın təmin edilməsinə meydan açmışdır. Azərbaycan Respublikasının neft gəlirlərindən asılı olmayan iqtisadiyyatının formalaşdırılması istiqamətində həyata keçirdiyi ardıcıl siyasət özünün real bəhrələrini verməyə başlamışdır. Bank işi, aqrar sektor, xidmət sferası, turizm, nəqliyyat sahələri Azərbaycanın çoxşaxəli inkişafının aparıcı istiqamətlərinə çevrilmə prosesinə qədəm qoymuşdur. Məcburi köçkünlərin və qaçqınların problemlərinin həll edilməsi üçün şəhərciklərin yaradılması şəbəkəsi genişləndirilmişdir. Enerji və ərzaq təhlükəsizliyinin təmin edilməsi üzrə böyük məsafələr qət edilmişdir. Azərbaycan Respublikasının beynəlxalq nüfuzu artmış, tərəfdaşları daha çox olmuşdur. Xüsusən Azərbaycan Respublikasının 2011-ci ildə Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə keçirilmiş seçkilərdə 129 səs qarşılığında 155 səs toplayaraq qələbə qazanması beynəlxalq miqyasda əldə olunmuş böyük uğurun mühüm göstəricisinə çevrilmişdir.

Dövlət başçısı İlham Əliyev 2013-cü ilin prezident seçkilərinə artıq tam qərarlaşmış ictimai-siyasi sabitlik, şaxələndirilmiş iqtisadi inkişaf və güclü beynəlxalq nüfuza malik olmaq kimi mühüm göstəricilərlə getmişdir. Prezident seçkiləri ərəfəsində Davos Dünya İqtisadi Forumunun 2012-2013-cü illər üzrə Qlobal Rəqabətqabiliyyətlilik İndeksinə görə, Azərbaycan dünyada 46-cı, MDB məkanında birinci yerə çıxmışdır. Bütün bunlar İlham Əliyevin 2013-cü ilin prezident seçkilərində də siyasi rəqibləri ilə müqayisə edilməyəcək səviyyədə çox səs qazanaraq, dövlət başçısı vəzifəsinə növbəti dəfə mandat alması ilə nəticələnmişdir. Azərbaycan Respublikasının prezidenti seçkilərində, 9 oktyabr 2013-cü ildə keçirilmiş səsvermədə İlham Əliyevin qazandığı 84, 54 faiz səs Müstəqil Dövlətlər Birliyi məkanında rekord göstəricilərdən biri idi.

Seçkiqabağı proseslərin təşkili, seçkilərdə bütün zəruri prosedurlara ciddi əməl olunması, alternativ namizədlərin hər birinin dövlət başçısı vəzifəsinə seçilmək üçün bərabər şəraitdə mübarizə aparmalarına imkan yaradılması 2013-cü ildə Azərbaycanda ən yüksək demokratik seçki prosesinin baş tutmasını təmin etmişdir. Prezident seçkilərinin beynəlxalq standartlara uyğun şəkildə, şəffaf və demokratik şəraitdə keçirilməsi həm də Azərbaycan Respublikasında müstəqillik illərində nümunəvi seçki mədəniyyətinin formalaşmasını nümayiş etdirmişdir. Müxtəlif siyasi partiyalardan olan on nəfər namizədin iştirak etdiyi prezident seçkilərində seçici fəallığının 72,31 faiz təşkil etməsi mühüm göstərici idi. Çoxpartiyalı əsasda keçirilmiş seçkilərdə müxalifət partiyalarından Milli Şuranın, Milli Dirçəliş Hərəkatı, Ümid, Azərbaycan Sosial Demokrat, Bütöv Azərbaycan Xalq Cəbhəsi, Azərbaycan Demokrat, Ədalət, Müsavat və Müasir Müsavat Partiyalarının namizədlərinin prezidentlik postu uğrunda mübarizə aparmaları şəraitində İlham Əliyevin inamlı qələbə qazanması həm də dövlət başçımızın təmsil etdiyi Yeni Azərbaycan Partiyasının zəfər çalması demək idi. Seçkiqabağı proseslərdə və seçkilərin gedişində bir neçə exit-pol təşkilatının iştirak etməsi və bu bir-birindən fərqli beynəlxalq qurumların proqnozları ilə İlham Əliyevin seçki göstəricilərinin tam səsləşməsi 2013-ci il səsvermənin de-fakto real və şəffaf olduğunu aşkar şəkildə nümayiş etdirmişdir.

2013-2018-ci illərdə Azərbaycan Respublikası çətin sınaqlardan uğurla çıxaraq xüsusi inkişaf mərhələsinə çatmaq missiyasını yerinə yetirmək dövrünə daxil olmuşdur. Bu illər ərzində çoxvektorlu və çoxşaxəli iqtisadi-mədəni inkişafın möhkəm əsasları yaradılmışdır. Azərbaycan inkişaf etməkdə olan ölkələr sırasında nəinki öz mövqelərin möhkəmləndirmiş, hətta siyasi-iqtisadi imkanlarını daha da genişləndirmişdir. Respublikada mühüm göstəricilər üzrə davamlı və dayanıqlı inkişafın təmin edilməsi, məqsədyönlü şəkildə istiqamətləndirilməsi nəticə etibarilə sürətli, dinamik və hərtərəfli inkişafın əsaslarının yaradılmasına səbəb olmuşdur. Məhz bütün bunlardan sonra ölkədə rəqabətədavamlı güclü iqtisadiyyat yaradılmış, dünya bazarlarına çıxarmaq üçün ixrac məhsullarının kəmiyyət və keyfiyyət göstəriciləri yüksələn xətlə inkişaf etmişdir. Naxçıvan Muxtar Respublikası 2014-cü ildə rəqabətədavamlı iqtisadi inkişaf göstəricilərinə görə iqtisadi rayonlar arasında birincilik qazanmışdır.

Prezident İlham Əliyevin apardığı düşünülmüş və müstəqil siyasət nəticəsində beynəlxalq aləmdə Azərbaycanın nüfuz dairəsi artmış, dövlətlərarası münasibətlərdə əlaqələrimiz daha da güclənmişdir. Azərbaycan Respublikasının Avropa İttifaqının Nazirlər Şurasına sədrlik etmək səlahiyyəti qazanması ölkəmizin qərbyönlü müstəqil inkişafının mühüm göstəricilərindən biri sayılmalıdır. Azərbaycan Respublikasının sədrlik etdiyi dövrdə Avropa miqyasında dövlətlərarası münasibətlər baxımından aktual olan məsələlərin müzakirə edilərək zəruri qərarların qəbul olunması, dünya birliyi səviyyəsində ölkəmizin, xüsusən də Prezident İlham Əliyevin əsl söz sahibi olması faktının sübutuna çevrilmişdir. Regional siyasətdə, xüsusən Qafqaz siyasətində də Azərbaycanın rəyi və mövqeyi həlledici faktor hesab olunmuşdur. Müstəqil Azərbaycan dövlətinin beynəlxalq aləmdə qazandığı böyük uğurlar Prezident İlham Əliyevin adı, yorulmaz fəaliyyəti və məqsədyönlü siyasəti ilə birbaşa əlaqədardır. Dünya birliyi görkəmli dövlət başçısı İlham Əliyevi həm də beynəlxalq aləmdə söz və nüfuz sahibi olan bir lider kimi qəbul etmişdir.

Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin başa çatdırılması da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin siyasi iradəsinin və böyük uzaqgörənliyinin nəticəsidir. Bununla Azərbaycan Respublikası XXI əsrin İpək yolunun əsas yaradıcılarından biri statusu qazanmışdır. Bakı-Tbilisi-Qars magistralının Dəmir İpək Yolu adlandırılması ölkəmizin Avropa ilə Asiya arasında möhkəm və əsaslı körpü yaratmaq funksiyasını həyata keçirməsinin sübutudur. Eyni zamanda Azərbaycan böyük uğurla keçirilmiş Birinci Avropa Olimpiya Oyunları və IV İslam Oyunlarının doğurduğu geniş əks-səda Avrasiya ölkələri ilə əlaqələrimizin daha da möhkəmləndirilməsinə geniş meydan açmışdır.

Azərbaycan Respublikasının inkişafının 2013-2018-ci illər dövrü həm də ölkəmizin siyasi dialoq məkanına çevrildiyi bir mərhələdir. Bu tarixi mərhələdə Azərbaycanda keçirilmiş mədəniyyətlərarası və dinlərarası dialoq tədbirləri beynəlxalq aləmdə qarşıdurmaların azaldılmasına, ziddiyyətlərin danışıqlar və müzakirələr yolu ilə, sülh şəraitində aradan qaldırılmasına, xalqlar və ölkələrarası inteqrasiyanın dərinləşdirilməsinə və genişləndirilməsinə xidmət etmişdir. Hətta bir çox münaqişəli məsələlərin müzakirə edilməsi üçün tərəflərin Azərbaycanı, Bakı şəhərini seçməsi və həmin məsuliyyətli görüşlərin tam təhlükəsizlik şəraitində və yüksək səviyyədə keçirilməsinin təşkili Azərbaycan Respublikasının beynəlxalq aləmdə qazandığı böyük imicin real göstəricilərindəndir.

Prezident İlham Əliyev tərəfindən Azərbaycanda 2016-cı ilin "Multikulturalizm ili", 2017-ci ilin isə "İslam Həmrəyliyi ili" kimi bəyan edilməsi və il ərzində həmin istiqamətlərdə genişmiqyaslı tədbirlərin həyata keçirilməsi beynəlxalq aləmdə dünya ölkələrində birlik və həmrəyliyin bərqərar olmasına ölkəmizin sanballı töhfəsidir. Dövlət başçısının rəhbərliyi ilə möhkəm əsasları yaradılmış multikilturalizmin Azərbaycan modeli dünya ölkələri üçün gerçək və nümunəvi bir örnəkdir. Azərbaycanda isə müdrik dövlət siyasəti nəticəsində multikulturalizmin həyat tərzinə çevrilməsi, ölkəmizdəki bütün xalqların birgəyaşayışının təmin edilməsi, azsaylı xalqların təhsilinə, mədəniyyətlərinin inkişafına qayğı göstərməsi monolik birliyin yaradılması ilə nəticələnmişdir.

Beləliklə, 2013-2018-ci illərdə Prezident İlham Əliyevin apardığı məqsədyönlü siyasət və həyata keçirdiyi uğurlu islahatlar nəticəsində Azərbaycan Respublikası lider dövlətlərdən biri səviyyəsinə yüksəlmişdir. Artıq İlham Əliyev dünyanın tanınmış, aparıcı ölkələrinin liderləri ilə müqayisə oluna biləcək yeni tipli və müstəqil siyasət aparan dövlət xadimi kimi qəbul edilmişdir. Bu isə öz növbəsində Azərbaycan Respublikasında müstəqillik dövrünün İlham Əliyev erasının yarandığını diqqət mərkəzinə çəkmişdir. İlham Əliyev erası - müstəqillik tariximizin davamlı və dayanıqlı inkişafının, sürətli və hərtərəfli yüksəlişinin xüsusi inkişaf mərhələsi olub, sistemli şəkildə inkişafda olan və perspektivli bir ölkə səviyyəsinə çatmasını, daha böyük gələcəyə doğru inamla getməsini özündə əyani surətdə ifadə edən tarixi bir dövrdür.

Məhz ölkə miqyasında və beynəlxalq aləmdə mühüm nailiyyətlər qazanmış, ölkəsini bütün yönləri ilə inkişaf etdirmiş görkəmli dövlət lideri növbədənkənar seçkilərə getmək haqqında qərar qəbul edə bilər. Müstəqil dövlətimizin hərtərəfli şəkildə inkişaf etdirilməsi sahəsindəki xüsusi xidmətləri və dünya birliyində qazandığı böyük imic Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci ildə növbədənkənar prezident seçkilərinin keçirilməsinə dair qəti qərara gəlməsinə imkan yaratmışdır. Bu mənada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 5 fevral 2018-ci il tarixli Sərəncamı ilə 11 aprel 2018-ci il tarixdə növbədənkənar prezident seçkilərinin keçirilməsi haqqında qəbul etdiyi qərar xalqımız qarşısında bütün öhdəliklərini yüksək səviyyədə yerinə yetirmiş qalib Prezidentin özünəinamının əyani ifadəsidir. Bununla bərabər, 2018-ci ildə Azərbaycanda növbədənkənar seçkilərin keçirilməsi həm də ölkəmizdə cəmiyyət həyatının bütün sahələrində daha böyük nailiyyətlər qazanmaq, respublikanı daha möhtəşəm inkişafa doğru aparmaq üçün yeni və genişmiqyaslı islahatlar həyata keçirmək üçün əlavə vaxt və imkan qazanmaq məqsədi daşımışdır. Əslində, Azərbaycan Respublikasının Nazirlər Kabinetində aparılacaq islahatların, Milli Məclisdə formalaşdırılması nəzərdə tutulan yeni siyasi konfiqruriyasiyanın, ölkə həyatının bütün sahələrini əhatə edən dəyişikliklərin həyata keçirilməsinə nail olmaq üçün növbədənkənar prezident seçkilərinin keçirilməsi zəruri və əhəmiyyətli bir faktora çevrilmişdir. Buna görə də Azərbaycan Respublikası Konstitusiyasının müvafiq müddəalarına əsasən, 10 oktyabr 2018-ci il tarixə təyin edilməli olan prezident seçkilərinin 11 aprel 2018-ci ilə keçirilməsi respublikada daha böyük və genişmiqyaslı islahatlar naminə atılmış addım idi. Seçkiqabağı proseslərdə namizədlikləri irəli sürülmüş 13 nəfər iddiaçıdan Mərkəzi Seçki Komissiyasında iddiası təsdiq olunmuş 8 nəfər namizədin iştirakı ilə keçirilmiş demokratik seçkilərdə həm də yeni nəsil siyasətçilərin iştirak etməsi əlamətdar hal hesab olunmalıdır. Dövlət müstəqilliyinin bərpa edilməsindən sonra Azərbaycan Respublikasında keçirilmiş ilk növbədənkənar prezident seçkisi olan bu səsvermədə Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin 3 394 898 seçicinin etibarını qazanaraq 86,02 faiz səs toplaması seçkilərdə tam inamlı qələbənin əldə olunması deməkdir. Bu, Azərbaycanın müstəqillik tarixinə ilk növbədənkənar prezident seçkisi olmaqdan başqa, həm də güclü dövlət, güclü xalq və güclü liderin üzvü vəhdəti səviyyəsində qazanılan mühüm qələbə kimi də yaddaşlara yazılmışdır. Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Əliyevin 18 aprel 2018-ci il tarixdə keçirilmiş andiçmə mərasimindəki nitqində növbədənkənar seçkilərin fəlsəfəsi xalqımıza çatdırılmaqla bərabər, həm də sanki yaxın gələcəkdə ölkəmizi gözləyən II Qarabağ - Vətən müharibəsinin də anonsu verilmişdir: "Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız və yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır... Azərbaycan heç vaxt imkan verməz ki, bizim ərazimizdə ikinci qondarma erməni dövləti yaransın... Bu reallıq həm də onu göstərir ki, bizim ordu quruculuğu ilə bağlı apardığımız siyasət yeganə düzgün siyasətdir... Bu gün Azərbaycan ordusu dünya miqyasında güclü ordular sırasındadır... Bu onu göstərir ki, Azərbaycan xalqı işğalla heç vaxt barışmayacaq. Bu onu göstərir ki, biz öz torpaqlarımızı azad edəcəyik. Buna nail olmaq üçün daha güclü olmalıyıq və olacağıq!"

Müstəqil Azərbaycan dövlətinin tarixində yeni mərhələ kimi qiymətləndirilməli olan 2018-ci ildən başlanan yol bir çox mühüm istiqamətləri və xüsusiyyətləri ilə diqqəti cəlb edir. Birincisi, bu tarixi mərhələdə ölkənin idarə olunmasında yeni dalğaya nail olmaq üçün struktur və idarəetmə islahatları genişləndirilmiş, yeniləşdirilmiş kadr islahatları həyata keçirilmişdir. Nazirliklərin adları dəyişdirilmiş, funksiyaları konkretləşdirilmiş və müasirləşdirilmişdir. 2018-ci ildə iqtisadiyyat yönümlü bir neçə nazirlik, komitə və xidmətin birləşdirilməsi əsasında vahid İqtisadiyyat Nazirliyinin təşkil olunması ölkəmizdə dövlət idarəetməsinin və iqtisadiyyatın daha da təkmilləşdirilməsi və inkişaf etdirilməsi istiqamətində həyata keçirilmiş məqsədyönlü struktur islahatıdır. Yaxud Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 11 oktyabr 2021-ci il tarixli Fərmanı ilə mövcud Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin bazasında Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin yaradılması və həmin nazirliyin tabeliyində İnformasiya-Kommunikasiya Texnologiyaları Agentliyinin, habelə İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin təsis olunması yeni tarixi mərhələnin struktur və idarəetmə islahatlarının mühüm göstəriciləri sırasındadır. Bu qəbildən olan islahatlar dövlət idarəetməsinin daha da müasirləşdirilməsinə və operativ idarəetmənin normal təşkilinə, bir sözlə, irəliyə doğru inkişafa şərait yaradır.

İkincisi, dövlət idarəetməsinin təkmilləşdirilməsi ilə paralel şəkildə həyata keçirilən kadr islahatları mərkəzi aparatın və struktur bölmələrin idarə edilməsinə müasir təfəkkürə və qabiliyyətlərə malik yeni nəslin cəlb edilməsinin şəbəkəsinin genişləndirilməsinə yol açmışdır. Artıq müstəqil Azərbaycan dövlətinin idarəetmə strukturlarında gəncləşmə siyasəti həyata keçirilmiş, yeni simaların dövlətin idarə olunmasında rolu artmışdır. Bu isə respublikamızın inkişafı üçün idarəetməyə yeni qüvvələrin səfərbər edilməsi deməkdir. Bütün bunların nəticəsində müasir dövrdə idarəetmədə yeni təşəbbüslərin və fərqli yanaşmaların meydanı genişləndirilmişdir ki, bu da öz növbəsində bütün sahələrdə yenidən canlanmaya, iqtisadi nəticələrin nəzərəçarpacaq dərəcədə artımına səbəb olmuşdur.

Üçüncüsü, ölkəmizdə müstəqil dövlətçilik və azərbaycançılıq ideyaları əsasında vətənpərvərlik tərbiyəsinin qüvvətləndirilməsinə xüsusi diqqət yetirilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il seçkilərindən sonra andiçmə mərasimində bəyan etdiyi fikirlər və çağırışlar ölkə üzrə azərbaycançılıq və vətənpərvərlik hərəkatının yeni dövrün əsas vəzifələrindən, prioritet istiqamətlərindən birinə çevrilməsinin göstəricisidir: "Azərbaycan uğurla inkişaf edib. Azərbaycan xalqı birlik, həmrəylik nümayiş etdirib. Bizim gələcək fəaliyyətimiz üçün milli ideologiyamız əsas rol oynayır. Azərbaycançılıq məfkurəsi Azərbaycanda tam bərqərar olub, Azərbaycan xalqı vahid milli ideya ətrafında birləşib və ölkəmiz çox uğurla inkişaf edir. Azərbaycanda bütün xalqların, dinlərin nümayəndələri bir ailə kimi mehribanlıq şəraitində yaşayır və bundan sonra da yaşayacaqdır. Bizim siyasətimiz və cəmiyyətin istəkləri bu istiqamətdə atılacaq addımları da şərtləndirəcək".

Dördüncüsü, Azərbaycanda milli-mənəvi dəyərlərə, davamlı ənənələrin yaşadılmasına, klassik ədəbi-tarixi irsə qayıdış prosesi daha da dərinləşdirilmiş və genişləndirilmişdir. Bu baxımdan ölkəmizdə 2019-cu ilin "İmadəddin Nəsimi ili", 2021-ci ilin isə "Nizami Gəncəvi ili" elan edilməsi bu qüdrətli ədəbi şəxsiyyətlərin taleyi, sənəti və ideallarının işığında xalqımızın keçdiyi mübarizə yolları və uğrunda çarpışdıqları ideallar yeni nəsillərə çatdırılmış, bu zəmində millilik, vətənpərvərlik və bəşərilik ideyalarının aşılanması sahəsində geniş iş aparılmışdır. Hazırda başa çatmaqda olan "Nizami Gəncəvi ili" dahi şair və mütəfəkkirin zəngin ədəbi irsi ilə birlikdə xalqımızın böyük dəyərlərinin və mənəvi ucalığının dünyaya çatdırılmasına, ölkəmizdə milli iftixar hisslərinin, humanizm tərbiyəsinin daha da möhkəmləndirilməsinə uğurla xidmət edir.

Beşincisi, həyata keçirilən məqsədyönlü siyasət nəticəsində Azərbaycan Respublikasının beynəlxalq əlaqələri genişləndirilmiş və daha da möhkəmləndirilmişdir. Xüsusən Ulu Öndər Heydər Əliyevin bəyan etdiyi "Bir millət, iki dövlət" təlimi əsasında Azərbaycan-Türkiyə münasibətləri daha da inkişaf etdirilərək, ən yüksək zirvəyə çatdırılmışdır. II Qarabağ - Vətən müharibəsində Azərbaycan-Türkiyə münasibətlərinin sarsılmazlığı və əbədiliyi bütün dünyaya bəyan olunmuşdur. Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında 15 iyun 2021-ci il tarixdə imzalanmış "Müttəfiqlik haqqında Şuşa Bəyannaməsi" qardaş ölkələrin münasibətlərinin dönməzliyinin siyasi-diplomatik və hərbi-iqtisadi təminatının ifadəsidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qoşulmama Hərəkatına Sədrlik etməsi və Qoşulmama Hərəkatı ölkələrinin rəhbərləri ilə apardığı məqsədyönlü iş ölkəmizin beynəlxalq platformadakı imkanlarının daha da genişləndirilməsinə və möhkəmləndirilməsinə şərait yaratmışdır.

Və ən mühümü: Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin məqsədyönlü siyasəti, sərkərdəlik məharəti və "dəmir yumruğ"u nəticəsində 2020-ci ilin 44 günlük II Qarabağ - Vətən müharibəsində Ermənistanın 30 illik işğalından sonra Qarabağda qazanılmış tarixi Zəfər çoxəsrlik Azərbaycan tarixinin nadir və təkrarsız hadisəsidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Qarabağda qazanılmış Zəfərlə ölkəmizin ərazi bütövlüyü təmin edilmişdir. Qarabağ Zəfəri regionda və dünyada yeni reallıqları meydana çıxarmış, daha böyük gələcəyin qurulmasına təkan vermişdir.

Hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilməkdə davam etdirilən işğaldan azad edilmiş torpaqlarımıza Böyük qayıdış hərəkatı Qarabağda dağıdılmış kəndlərin və şəhərlərin bərpa edilməsi və yenidən qurulması ilə bərabər, həm də bütövlükdə müstəqil Azərbaycanın daha güclü və parlaq gələcəyini də aydın şəkildə təsəvvür etməyə imkan verir.

Prezident İlham Əliyevin Ermənistan dövləti ilə sülh sazişi bağlamaq istiqamətindəki ardıcıl səyləri dövlət rəhbərimizin sülhsevərlik missiyasını dünyaya bəyan edir. Postmüharibə dövründə Zəngəzur və Laçın dəhlizlərində nəqliyyat-kommunikasiya qovşaqlarının yaradılması, bu logistika dəhlizlərinin açılması uğrunda apardığı davamlı mübarizə Prezident İlham Əliyevin həm ölkəmizin və həm də region dövlətlərinin inkişafına növbəti töhfəsi olacaqdır.

Artıq dünyada Azərbaycan Respublikasının dövlət başçısı İlham Əliyev Qalib Prezident, xalqımız isə Qalib xalq kimi qəbul olunur. Azərbaycan Respublikasının Prezidenti, Qalib Ali Baş Komandan İlham Əliyevin Türk Dünyasının Ali Ordeni ilə təltif olunması dövlət rəhbərinin çoxcəhətli xidmətləri ilə yanaşı, onun liderlik istedadının və beynəlxalq nüfuzunun dövlətlər səviyyəsində etiraf olunması deməkdir.

Müstəqil Azərbaycan dövləti Müzəffər Prezident və Ali Baş Komandan İlham Əliyevin liderliyi ilə daha böyük gələcəyə doğru qətiyyətlə addımlamaqda davam edir. Dünya liderləri sırasında xüsusi yeri və xalqımız qarşısında böyük xidmətləri olan Prezident İlham Əliyevin çoxcəhətli və yorulmaz fəaliyyətinin işığında Azərbaycanın hər sabahı daha parlaq və uğurlu görünür.

***İsa HƏBİBBƏYLİ,***
***AMEA-nın vitse-prezidenti,***
***Milli Məclisin deputatı,***
***akademik***



# Qurucu rəhbər, qlobal lider, müzəffər komandan



# Dünya birliyində söz sahibi olan LİDER

**Müstəqil Azərbaycan dövlətinin siyasətində dünya birliyi ölkələri ilə əlaqələrin yaradılması və inkişaf etdirilməsi mühüm yer tutur. Uzun illər ərzində ölkəmizin dünya dövlətləri ilə formalaşdırdığı qarşılıqlı etimad və əməkdaşlıq mühiti Azərbaycan Respublikasına beynəlxalq miqyasda böyük nüfuz qazandırmışdır. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin əsasını qoyduğu xarici siyasət xətti dünya birliyi ölkələri ilə tarazlaşdırılmış münasibətlərdən müstəqil dövlətçilik siyasətinə doğru inkişafın formalaşdırılmasının müsbət nəticələrini meydana qoymuşdur. Müstəqillik illərində Azərbaycan qonşu dövlətlərlə qarşılıqlı etimada əsaslanan münasibətlərdən dünya ölkələri ilə səmərəli əməkdaşlığa doğru böyük yol keçmişdir.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizin xarici siyasətini müasir dövrün reallıqlarına uyğun olaraq yeni inkişaf mərhələsinə çatdırmışdır. Dövlət rəhbərimizin apardığı ardıcıl və məqsədyönlü siyasət Azərbaycan Respublikasının dünya birliyindəki yerinin və mövqeyinin daha da möhkəmləndirilməsinə uğurla xidmət edir. Müstəqil dövlətimiz özünə etibarlı tərəfdaşlar qazandırmış, bununla da qarşılıqlı əməkdaşlıq mühiti daha da genişləndirilmiş və möhkəmləndirilmişdir. Azərbaycan Respublikasının Avropa İttifaqı miqyasında qazandığı böyük nüfuz, Asiya ölkələri ilə yaratdığı səmərəli əməkdaşlıq Prezident İlham Əliyevin apardığı məqsədyönlü siyasətin real nəticəsidir. Dövlət başçımızın ölkəmizə rəhbərlik etdiyi 18 il ərzində beynəlxalq münasibətlər sahəsində qazandığı böyük uğurlar aparılan siyasətin sınaqlardan çıxmış reallıq olduğunu əyani şəkildə nümayiş etdirir.

Beynəlxalq təşkilatlarda Azərbaycan Respublikasının əldə etdiyi nailiyyətlər Prezident İlham Əliyevin adı və çoxcəhətli fəaliyyəti ilə bağlı olan xidmətin əməli ifadəsidir. Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi və bu mötəbər qurumun iclaslarına sədrlik etməsi müstəqil dövlətimizin xarici siyasət sahəsindən gəlib çatdığı ən mühüm məqamlardan biridir. Pandemiya dövründə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Birləşmiş Millətlər Təşkilatının xüsusi sessiyasının çağırılması və COVID-19 şəraitində dünya üçün aktual və zəruri olan qlobal məsələləri müzakirə etməsi dövlət rəhbərimizin beynəlxalq nüfuzunun real göstəricisidir. BMT-nin pandemiya məsələlərinə həsr olunmuş xüsusi sessiyasında Azərbaycan Respublikası Prezidentinin dərin məzmunlu çıxışı bu bəşəri bəladan xilas olmaq yolları və COVID-19 pandemiya şəraitində əməkdaşlıq mühitinin inkişaf etdirilməsinin proqramı kimi səslənmişdir. Bununla Prezident İlham Əliyev planetar baxışlara malik dünya liderlərindən biri olduğunu nümayiş etdirmişdir. Azərbaycan xalqı haqlı olaraq Prezident İlham Əliyev kimi həm ölkə daxilində, həm də beynəlxalq aləmdə böyük nüfuza malik olan qüdrətli bir liderinin olması ilə fəxr edir.

Avropa ölkələri ilə əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində də Azərbaycan Respublikası böyük məsafə qət etmişdir. Avropa İttifaqına üzv dövlətlərlə Azərbaycan Respublikasının ikitərəfli münasibətlərinin davamlı olaraq inkişafda olması Prezident İlham Əliyevin dönmədən həyata keçirdiyi xarici siyasətin real bəhrəsidir. Hazırda müstəqil Azərbaycan dövlətinin Avropanın aparıcı dövlətləri ilə əməkdaşlığının bütün istiqamətlər üzrə yüksələn xətlə dinamik inkişafı etibarlı tərəfdaşlıq mühitinin daha da möhkəmləndirilməsi ilə yanaşı, ölkəmizin iqtisadi-ticarət əlaqələrinin coğrafiyasının genişləndirilməsinə də şərait yaradır. Azərbaycan qazının Avropa bazarlarına çıxarılması və daimi istifadəçilər qazanması bu işin uğurlu iqtisadi layihə olmasından başqa, həm də ölkəmizin beynəlxalq münasibətlər sahəsində həyata keçirdiyi düzgün siyasətin bəhrəsidir. Avropa ölkələri ilə Azərbaycan Respublikasının ticarət dövriyyəsinin ildən-ilə artması çoxillik qarşılıqlı əlaqələrin əsasında əldə edilmiş mühüm nəticədir. Bakı şəhərində böyük müvəffəqiyyətlə keçirilmiş Avropa Oyunları Olimpiyası Qərb ölkələri ilə əlaqələrimizin əhatə dairəsinin daha da inkişaf etdirilməsinə təkan vermişdir. Prezident İlham Əliyevin 2021-ci il Brüssel səfəri Avropa ilə yeni əməkdaşlıq imkanlarının yaradılmasına geniş üfüqlər açmışdır. Avropa ölkələrinin enerji təhlükəsizliyində mühüm yer tutması ölkəmizin Qərbə doğru inkişafının böyük perspektivlərə malik olduğunu nümayiş etdirir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xarici siyasətində Asiya faktoru da xüsusi yer tutur. XXI əsrdə dünya siyasətində Asiya amilinin get-gedə güclənməsi ölkəmizin Asiyaya doğru addımlarının genişləndirməsini şərtləndirmişdir. Prezident İlham Əliyevin Asiyanın inkişaf etmiş dövlətləri ilə qurduğu çoxcəhətli əlaqələr Azərbaycanın bu istiqamətdə də uğurlu siyasət apardığını göstərir. Asiya siyasətində Çin Xalq Respublikası ilə əlaqələrin şəbəkəsinin genişləndirilməsi və real nəticələr verməsi bu istiqamətdə dövlətlərarası münasibətlərin səmərəli olduğunu qabarıq şəkildə nəzərə çarpdırır. Azərbaycanın Çin Xalq Respublikasının dövlət siyasətində xüsusi yer tutan "Bir kəmər - bir yol" proqramının həyata keçirilməsinə verdiyi töhfə Asiyada ölkəmizin mövqelərinin gücləndirilməsində mühüm rol oynayır. Çin Xalq Respublikasının Azərbaycanın müəllifi olduğu Bakı-Tbilisi-Qars dəmir yolunun Avropa ilə Asiyanı əlaqələndirməsinə xüsusi maraq göstərməsi əlaqələrimizin konkret səmərəli nəticələrə malik olduğunu əyani şəkildə təsəvvür etməyə imkan yaradır. Hazırda Çin Xalq Respublikasının Prezident İlham Əliyevin Qarabağda qazanılmış tarixi Zəfərdən sonra irəli sürdüyü Zəngəzur-Laçın dəhlizi layihələrinə dəstək verməsi Çin Xalq Respublikası ilə əlaqələrimizin gələcəyinə nikbin baxmaq üçün əsas verir.

Pakistan İslam Respublikası ilə Azərbaycan Respublikası arasında qurulmuş çoxcəhətli əlaqələr ölkəmizin Asiya siyasətinin aparıcı bir istiqamətini təşkil edir. Azərbaycan Respublikasının dövlət müstəqilliyini ilk olaraq tanıyan dövlətlərdən biri olan Pakistan İslam Respublikası ilə Ulu Öndər Heydər Əliyev tərəfindən yaradılmış əlaqələr son illərdə bütün sahələr üzrə inkişaf etdirilərək yeni mərhələyə çatdırılmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Pakistan İslam Respublikasının rəhbərləri ilə keçirdiyi görüşlər, apardığı danışıqlar, əldə etdiyi razılaşmalar, imzaladığı rəsmi sənədlər ölkələrimiz arasında strateji müttəfiqlik səviyyəsində münasibətlərin yaranması ilə nəticələnmişdir. Son illərdə Pakistan-Azərbaycan əlaqələrində hərbi əməkdaşlıq istiqamətində atılmış addımlar qarşılıqlı əlaqələrin yeni bir mərhələyə daxil olduğundan xəbər verir. İkinci Qarabağ - Vətən müharibəsində Pakistan İslam Respublikasının Azərbaycanın haqq işinə verdiyi birmənalı dəstək ölkələrarası münasibətlərin daha etibarlı dayaqlara malik olmasının sübutudur. Hazırda ölkələrarası əlaqələrin Azərbaycan-Türkiyə-Pakistan münasibətləri miqyasında genişlənməsi bu ittifaqın dünya birliyinə töhfə verə biləcək yeni bir mərhələ səviyyəsinə çatdırılmasını nümayiş etdirir. Prezident İlham Əliyevin Pakistan rəsmiləri ilə əldə etdiyi növbəti razılaşmalar ikitərəfli əlaqələrin çoxtərəfli münasibətlər miqyası səviyyəsinə yüksəldilməsini təmin etmişdir.

Azərbaycan Respublikasının Asiya ölkələri arasında Yaponiya, Cənubi Koreya, Sinqapur, Malayziya ilə münasibətlərin qarşılıqlı iqtisadi maraqların və mədəniyyətlərarası əlaqələrin inkişaf etdirilməsi ölkəmizin Şərq siyasətinin aparıcı xəttini müəyyən edir. Avropa İttifaqının Şərq tərəfdaşlığı proqramının həyata keçirilməsində yaxından iştirak edən Azərbaycan Respublikası Prezident İlham Əliyevin düşünülmüş siyasəti nəticəsində həm də ayrı-ayrı Asiya ölkələri ilə qarşılıqlı əlaqələr əsasında əməkdaşlığını inkişaf etdirir. Azərbaycan Respublikası Prezidentinin Asiya ölkələrinə dövlət və işgüzar səfərləri və bu dövlətlərlə imzaladığı sənədlər Şərq ölkələri ilə əlaqələrin yeni mərhələyə daxil olmasına təkan verir.

Şərqə doğru inkişaf strategiyasında Azərbaycan Respublikasının Orta Asiya respublikaları ilə əlaqələrinin də özünəməxsus xüsusi yeri var. Orta Asiya respublikaları ilə əlaqələrin türk dünyası ilə əlaqələr sferasına daxil olması bu istiqamətdəki dövlətlərarası əlaqələrin xüsusi əhəmiyyət daşıdığını nümayiş etdirir. Prezident İlham Əliyevin Türk Dövlətləri Şurasının Zirvə görüşlərində, Orta Asiya respublikalarına rəsmi səfərləri zamanı bu ölkələrlə əlaqələrin ön mövqeyə çəkilməsinə və genişləndirilməsinə töhfə verir. Qazaxıstanın ölkəmizin neft axını layihələrində iştirak etməyə maraq göstərməsi, Özbəkistanın Türk Dövlətləri Şurasında rəsmi olaraq təmsil olunması yeni tarixi mərhələnin reallıqlarıdır. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Türkmənistan Respublikası ilə qurduğu münasibətlər bu ölkənin həm dövlətimizlə, həm də türk dünyası ilə əlaqələrinin formalaşmasında da mühüm əhəmiyyət kəsb edir. Dövlət rəhbərimizin Xəzər dənizində uzun illər neytral zona kimi istifadəsiz qalmış "Dostluq" neft-qaz yataqlarının ortaq şəkildə istismara açılması üçün atdığı addımlar hər iki ölkə üçün səmərəli olan əhəmiyyətli layihələrin icrasını önə çıxarmışdır. Bütün bunlar Azərbaycan-Orta Asiya respublikaları əlaqələrində böyük canlanma yaratmış, əhəmiyyətli dərəcədə səmərəli olan yeni-yeni layihələrin meydana çıxmasına səbəb olmuşdur. Görkəmli dövlət xadimi Heydər Əliyevin bəyan etdiyi "Bir millət - iki dövlət" modeli əsasında əsl müttəfiqlik nümunəsi göstərən Azərbaycan-Türkiyə münasibətləri ilə əlaqələrin inkişaf etdirilməsi ilə yeni üfüqlər qazanır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin beynəlxalq miqyasda xüsusi rola və mövqeyə malik olan Qoşulmama Hərəkatına rəhbərlik etməsi ölkəmiz üçün beynəlxalq əlaqələr baxımından yeni bir əməkdaşlıq platformasının meydana çıxması ilə müşayiət olunur. Dövlət başçımızın Qoşulmama Hərəkatına üzv dövlətləri ilə qurduğu səmimi və etibarlı dialoq, bu Hərəkatda təmsil olan üzv dövlətlərinə göstərdiyi diqqət, ehtiyacı olan dövlətlərə zəruri hallarda etdiyi yardımlar müstəqil ölkəmizə çoxsaylı yeni dostlar və tərəfdaşlar qazandırmışdır. İkinci Qarabağ - Vətən müharibəsində Azərbaycanla bağlı olan məsələlərin Birləşmiş Millətlər Təşkilatında müzakirəsi zamanı Qoşulmama Hərəkatı ölkələrinin göstərdiyi dəstək bu hərəkatla əlaqələrin hansı səviyyədə əhəmiyyətli olduğunu əyani şəkildə təsəvvür etməyə şərait yaradır. Prezident İlham Əliyev Qoşulmama Hərəkatının fəaliyyət dairəsini genişləndirməklə bu təşkilatın nüfuzunu daha da qüvvətləndirmişdir. Pandemiyanın tüğyan etdiyi dövrdə Azərbaycan Respublikasının Qoşulmama Hərəkatı ölkələrindən daha çox ehtiyacı olan dövlətlərə vaxtında yardım göstərməsi, onlara kömək əlini uzatması üzv dövlətlərlə ölkəmizin arasındakı münasibətlərin daha da möhkəmləndirilməsinə böyük töhfələr verir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dünya ölkələri ilə qarşılıqlı etimada əsaslanan əlaqələrin və əməkdaşlığın yaradılması ilə beynəlxalq münasibətlərin, təhlükəsizlik və əməkdaşlığın inkişafına təsir göstərən məqsədyönlü bir siyasəti uğurla həyata keçirir. Dövlət rəhbərimizin qarşılıqlı əlaqələrin genişləndirilməsi və möhkəmləndirilməsində müstəqil dövlətçilik maraqları ilə qlobal miqyasda regional və beynəlxalq maraqları qarşılıqlı surətdə əlaqələndirməsi və inkişaf etdirməsi Azərbaycan Respublikasının nüfuzunu daha da artırmış, qarşımızda yeni perspektivlər açmışdır. Uğurla rəhbərlik etdiyi Azərbaycan Respublikasında və Beynəlxalq miqyasda qazandığı böyük nüfuz Prezident İlham Əliyevi dünya liderləri sırasına çıxarmışdır. Azərbaycan Respublikasının siyasi, iqtisadi, hərbi və mədəniyyət sahələrində baş vermiş böyük dəyişikliklər, əldə olunmuş möhtəşəm nailiyyətlər müstəqil dövlətin qüdrətli sükançısını qətiyyətinin və dövlətçilik istedadının təntənəsidir. Azərbaycanın ölkədaxili inkişafı və dünya birliyinə verdiyi töhfələr dövlət başçımızın liderlik missiyasını əyani şəkildə nümayiş etdirir. Xalqımız Prezident İlham Əliyevin simasında ölkəmizdə davamlı və dayanıqlı inkişafla yanaşı, dünya birliyinin də möhkəmləndirilməsinə və inkişaf etdirilməsinə təsir göstərən, töhfələr verən qüdrətli lideri ilə fəxr edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dünya birliyində söz sahibi olan qüdrətli liderdir.

*Rza TALIBOV,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

## Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar hərbi xidmət vəzifələrini (xidməti vəzifələrini) yerinə yetirərkən və ya həqiqi hərbi xidmət dövründə xəsarət (yaralanma, travma, kontuziya) alması və ya xəstələnməsi nəticəsində əlilliyi müəyyən edilmiş hərbi qulluqçuların və daxili işlər orqanları əməkdaşlarının, habelə onların ailə üzvlərinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının 1997-ci il 20 may tarixli 296-IQ nömrəli Qanunu 1997-ci il avqustun 2-də qüvvəyə minənədək Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar hərbi xidmət vəzifələrini (xidməti vəzifələrini) yerinə yetirərkən və ya həqiqi hərbi xidmət dövründə xəsarət (yaralanma, travma, kontuziya) alması və ya xəstələnməsi nəticəsində əlilliyi müəyyən edilmiş hərbi qulluqçuların və daxili işlər orqanları əməkdaşlarının, habelə onların ailə üzvlərinin sosial müdafiəsini gücləndirmək məqsədilə **qərara alıram:**

1. 1997-ci il avqustun 2-dək olan xidmət dövründə Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin "ç" bəndində nəzərdə tutulan halların baş verməsi nəticəsində əlilliyi müəyyən edilmiş hərbi qulluqçulara, daxili işlər orqanlarının əməkdaşlarına və ya onların vərəsələrinə aşağıdakı məbləğlərdə birdəfəlik ödəmə verilsin:

1.1. I dərəcə əlilliyə görə - 8 800 manat;

1.2. II dərəcə əlilliyə görə - 6 600 manat;

1.3. III dərəcə əlilliyə görə - 4 400 manat;

1.4. bu Fərmanın 1-ci hissəsində göstərilən kateqoriyadan olan hərbi qulluqçuların və daxili işlər orqanları əməkdaşlarının vərəsələrinə - vəfat etmiş şəxsin əlillik dərəcəsinə uyğun olaraq bu Fərmanın 1.1-1.3-cü bəndlərində nəzərdə tutulan məbləğdə.

2. Müəyyən edilsin ki:

2.1. bu Fərmanın 1-ci və 8-ci hissələrində nəzərdə tutulmuş ödənişlər Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən verilir;

2.2. bu Fərmanın 5.1-ci bəndi nəzərə alınmaqla, birdəfəlik ödəmənin verilməsi bu Fərmanın 1-ci hissəsində müəyyən edilmiş məbləğlərdə sığorta ödənişi almış və barəsində sığorta ödənişinin verilməsinə dair qanuni qüvvəyə minmiş məhkəmə aktı olan hərbi qulluqçulara və daxili işlər orqanlarının əməkdaşlarına və ya onların vərəsələrinə şamil edilmir.

3. Birdəfəlik ödəmənin verilməsi qaydasına dair təkliflərin hazırlanması, bu istiqamətdə yerinə yetiriləcək işlərin əlaqələndirilməsi məqsədilə aşağıdakı tərkibdə Komissiya yaradılsın:

**Komissiyanın sədri**

Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri

**Komissiyanın üzvləri**

Azərbaycan Respublikası müdafiə nazirinin müavini

Azərbaycan Respublikası daxili işlər nazirinin müavini

Azərbaycan Respublikası ədliyyə nazirinin müavini

Azərbaycan Respublikası fövqəladə hallar nazirinin müavini

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti rəisinin müavini

Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti rəisinin müavini

Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti rəisinin müavini

Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi rəisinin müavini

Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti rəisinin müavini

Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin müavini

Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkətinin sədri.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. bu Fərmanın 3-cü hissəsi ilə yaradılan Komissiyanın təklifləri əsasında birdəfəlik ödəmənin verilməsi qaydasını iki ay müddətində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

4.2. bu Fərmanın 1-ci və 8-ci hissələrində nəzərdə tutulmuş ödənişlərin verilməsi üçün Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsindən ilkin olaraq 50,0 (əlli) milyon manat vəsait ayrılması üçün tədbirlər görsün;

4.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

5.1. bu Fərmanın 1-ci və 8-ci hissələrində nəzərdə tutulmuş ödənişlərin verilməsini bu Fərmanın 4.1-ci bəndində nəzərdə tutulan qaydaya uyğun olaraq təmin etsin;

5.2. bu Fərmanın 1-ci və 8-ci hissələrində nəzərdə tutulmuş ödənişlərin nağdsız qaydada müvafiq şəxslərin bank hesabına köçürülməsini təmin etsin və bu barədə həmin şəxslərə məlumat versin;

5.3. bu Fərmanın 1-ci və 8-ci hissələrində nəzərdə tutulmuş ödənişlərin verilməsi başa çatdıqdan sonra tabeliyindəki Dövlət Sosial Müdafiə Fondunun xüsusi bank hesabına bu məqsədlə köçürülmüş vəsaitin qalığının dövlət büdcəsinə qaytarılmasını təmin etsin;

5.4. bu Fərmanda verilən tapşırıqların icrası ilə əlaqədar görülmüş işlər barədə Azərbaycan Respublikasının Prezidentinə illik hesabat təqdim etsin.

6. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

6.1. bu Fərmanın 1-ci və 8-ci hissələrində nəzərdə tutulmuş ödənişlərin verilməsi üçün ayrılacaq vəsaitin Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun xüsusi bank hesabına köçürülməsini təmin etsin;

6.2. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təqdim etdiyi məlumatlar əsasında bu Fərmanın 1-ci və 8-ci hissələrində nəzərdə tutulmuş ödənişlərin verilməsi ilə əlaqədar maliyyələşmənin həyata keçirilməsi üçün tələb olunan vəsaitin müvafiq illərin dövlət büdcəsində nəzərdə tutulmasını təmin etsin.

7. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi, Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulmuş hərbi qulluqçuların və daxili işlər orqanları əməkdaşlarının siyahısını iki ay müddətində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim etsinlər.

8. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi 1997-ci il avqustun 2-dək olan xidmət dövründə Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin "ç" bəndində nəzərdə tutulan halların baş verməsi nəticəsində əlilliyinin müəyyən edilməsi ilə əlaqədar sığorta ödənişinin verilməsinə dair barəsində qanuni qüvvəyə minmiş məhkəmə aktı olan hərbi qulluqçuların və daxili işlər orqanları əməkdaşlarının siyahısını bir ay müddətində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim etsin.

9. Azərbaycan Respublikasının Dövlət Sığorta Kommersiya Şirkəti 1997-ci il avqustun 2-dək olan xidmət dövründə Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin "ç" bəndində nəzərdə tutulan halların baş verməsi nəticəsində əlilliyinin müəyyən edilməsi ilə bağlı bu Fərmanın 1-ci hissəsində müəyyən edilmiş məbləğdə sığorta ödənişi verilmiş hərbi qulluqçuların və daxili işlər orqanları əməkdaşlarının siyahısını bir ay müddətində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 dekabr 2021-ci il*



Qurucu rəhbər, qlobal lider, müzəffər komandan

# İLHAMın Zəfər yolu



Lirik poema

Şuşa yolu, Zəfər yolu,
otuz illik səfər yolu.
Cənab Ali Baş Komandan,
səfərdəsən sən o vaxtdan.
İstidə, boranda, qarda,
uzaq, yaxın o yollarda.
Yol içindən yol seçirsən,
keçilməz yollar keçirsən,
fikrin-zehnin yollarını,
44 günün yollarını.

❖ ❖ ❖

Şuşa yolu, Zəfər yolu,
sevinc yolu, məhşər yolu!
Solum səhra, sağım səhra,
yarı Qarabağım səhra!
Dünyanın sonu buydumu?
Mən gördüyüm yuxuydumu?
Uçan körpü, yanan meşə,
ərşə çəkir məni, ərşə!
Kirəmidli bir binadan
nə qalıbdı?
uçuq eyvan,
sökülmüş tənha bir divar,
apar-apardı, sök, apar!
Minalanıb yollar-izlər,
yaxın-uzaq...
Sənə qurban, ana torpaq!
Yaralıyıq sən də, mən də,
yol yanından yol çəkən də,
"ehtiyatlı ol!" - deyən də.

❖ ❖ ❖

"Qədim" bir xalq,
guya "bizim eradan da,
xeyli qabaq", -
uzaq "Nuhun zamanında",
əli Allah amanında
yaşayırdı,
bu da onun vərdişiydi.
Öyrəndiyi "qabiliyyət",
öyrətdiyi "əl işiydi".
Guya o vaxt-xətti. adı...
Şuşada bayquş uladı.

❖ ❖ ❖

Cənab Ali Baş Komandan,
piyada keçdin o yolu.
İlham pərisi - Mehriban,
yanında keçdin o yolu.
O bayquşlar ulayanda,
səhrada keçdin o yolu.
Əynində əsgər paltarı,
davada keçdin o yolu.
Gəldi qardaşın Ərdoğan,
qovğada keçdin o yolu.
Əvvəl də keçdin o yolu,
sonra da keçdin o yolu.

❖ ❖ ❖

Salam, Şuşa, salam, Vaqif!
Ulu Öndər, bir də salam!
Abidənin önündəyəm,
heykəl kimi dayanmışam.
Qar ələnir üstümüzə,
silkələyir kimsə Göyü.
Yerin doğması, ögəyi
bir-birinə qarışıbdı,
küsənlər də barışıbdı.
Ulu Öndər alqışlayır,
salamlayır qonaqları.
Salam, ay Şuşa dağları!
Üzümüzdə sevinc-maraq,
oxunurdu varaq-varaq.
Qoşulmuşdu şairlərə,
vurulmuşdu o yerlərə,
o da şeir deyəsiydi,
şeirimizin, sözümüzün
arxasıydı, yiyəsiydi.
Dağılardı dərdi-qəmi,
bu duman kimi, çən kimi.
Uşaq kimi sevinərdi
O, bir şair görən kimi.
İkinci müəllifiydi
"Azərbaycan" şeirinin də.
Şərikiydi bu millətin
xeyrinin də, şərinin də.

❖ ❖ ❖

İlham orda, aramızda,
iyirmi bir yaşındaydı,
Şuşanın yaddaşındaydı, -
yeniyetmə cavan kimi.
Dönüb ona baxırdılar, -
doğan Aya, doğan Günə
baxan kimi.
Anası Zərifə xanım,
Ulu Öndərin əzizi.
Qar altında dinləyirdi
şeirimizi.
İlk dəfəydi tanıyırdı
o da məni.
Anam gəlib, bacım gəlib,
alqışlayır,
elə bildim orda məni.

❖ ❖ ❖

- Əlli doqquz yaşındayam! -
özü dedi, bizim - İlham,
Cənab Ali Baş Komandan.
Eyni yaşın içindəydi
Ulu Öndər də o zaman.
Bu tarixdi, həqiqətdi.
Təsadüf də, eşitmişəm, -
zərurətdi.
Bəlkə bu da dərk edilməz
bir hikmətdi!
Əlli doqquz - əllidoqquz! -
bir-birinin əvəziydi.
Bir torpağın nəfəsiydi.
Bir dağın da iki qarlı
zirvəsiydi.
Azərbaycan, bu da sənə
Tanrının bir töhfəsiydi.
O, Haqqa ucalmalıydı,
qoşun çəkib açmalıydı,
bizim Zəfər yolumuzu.
Zaman təqdim etməliydi
əsrimizə, -
İlham adlı oğlumuzu.

❖ ❖ ❖

Salam Şuşa, Cıdır düzü!
Dağlarda - meydan güzgüsü!
Uzaqda segah oxuyan,
muğam, çahargah oxuyan,
şümşad bir oğlan uşağı,
gəlirdi üzüaşağı.
Biri deyir Xan olacaq,
muğam oxuyan olacaq.
Biri Bülbülə bənzədir,
o səsi - selə bənzədir.
Biri deyir Üzeyirdi...
O deyirdi, bu deyirdi.
Susmurdu yanımda heç kəs,
Cıdır düzündə bu həvəs,
bu eşq, bu ilham, bu ürək,
sevəcək, sevindirəcək.
Özü-özünün əvəzi, -
44 günün yetirməsi.

❖ ❖ ❖

Dağlar açıb qucağını,
laylamsan, İsa bulağı!
Bir doyunca nəfəs alım,
şəfamsan, İsa bulağı!

Hardan aldın sən bu səsi,
ey Allahın möcüzəsi?
Ey Qarabağ şikəstəsi,
mənamsan, İsa bulağı!

Mən bir bulaq, sən bir bulaq,
gecə oyaq, gündüz oyaq.
Oxu, çalaq, çal, oxuyaq,
havamsan, İsa bulağı!

Qoynun yaşıl, havan sərin,
süfrən geniş, dilin şirin.
Necə bilim, nədi sirrin? -
röyamsan, İsa bulağı!

Nə özü var, nə bənzəri,
şöhrəti dillər əzbəri.
Qarabağın şah əsəri,
doğmamsan, İsa bulağı!

❖ ❖ ❖

Xarı bülbül, Xarı bülbül!
Nə bu boyda çiçək gördüm,
nə bir yerdə bu adda gül.
"Xarı bülbül" - mehmanxana!
Hər saatı bir ömürdü,
bircə gün burda qalana,
dağlarda nəfəs alana!
Aç, orda aç pəncərəni,
təbiət çağırır məni.

Xarı bülbül - şah gülüdü Şuşanın,
nə bu gülə, nə o gülə bənzəyir.
Qanadı var, dimdiyi var, səsi var,
bu "bülbül" də o bülbülə bənzəyir.

Qanadının ətrindədi nəfəsi,
dimdiyinin ucundadı xoş səsi.
Şeh düşəndə titrəməsi, əsməsi...
İndi bildim niyə belə bənzəyir.

Gedən gedib bir də baxır o gülə,
göy də baxır, yer də baxır o gülə,
heyran qalma, şair, Xarı bülbülə,
ay da, - aya, il də - ilə bənzəyir.

❖ ❖ ❖

Ən gözəl seyrangahımdı,
ən gözəl tamaşam mənim.
Dünyanın Şuşa vaxtıdı, -
Mədəniyyət Paytaxtıdı,
Şuşam mənim!

❖ ❖ ❖

Sən mənim könül aləmim,
muğamım, sazımsan, Şuşa.
Zirvədə qarlı qışımsan,
dərədə - yazımsan, Şuşa.

Yerlər geniş, göylər təmiz,
ətəyin - güllü süfrəmiz.
Burda Gəncə, orda Təbriz,
Kürüm-Arazımsan, Şuşa.

Yağan leysandı, gurşaddı,
Pənah xanın ruhu şaddı.
Gedən-getdi, qalan-qaldı,
sən alın yazımsan, Şuşa.

❖ ❖ ❖

Əsgər gördüm, gümrahıydı,
dünən Şuşa yollarında.
"Zəfər yolu" dediyimiz,
həmən Şuşa yollarında.
Bu gün Şuşa şəhərində,
axşamın da, səhərin də
bu yerlərdə sahibi var,
yiyəsi var.
Düşmənin yüz hiyləsi var, -
yüzbiri də xəyanətdi.
Bu torpağın hər qarışı,
şəhidlərdən əmanətdi.
"Gözəl Şuşa, sən azadsan!" -
dedi Ali Baş Komandan,
tarixi bir ədalətdi!

**Nəriman HƏSƏNZADƏ,**
*Xalq şairi*



## Qurucu rəhbər, qlobal lider, müzəffər komandan

# Azərbaycanda sosial-iqtisadi inkişafın İlham Əliyev dövrü



2003-cü ildən başlayaraq Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi altında bir çox uğura imza atmış, sosial-iqtisadi inkişaf yolunda mühüm nəticələr əldə etmişdir. Bu dövrdə əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan sosial-iqtisadi inkişaf strategiyasının uğurla davam etdirilməsi nəticəsində ölkənin başlıca sosial-iqtisadi nailiyyətlərini aşağıdakı istiqamətlərdə qeyd etmək mümkündür:

- *Bütün parametrlər üzrə "iqtisadi Azərbaycan" bir neçə dəfə böyümüşdür.* Azərbaycan tarixində ilk dəfə olaraq məhz bu dövrdə "iqtisadi Azərbaycan" "coğrafi Azərbaycan"ın sərhədlərini ciddi şəkildə aşmağa başlamışdır.

- *Azərbaycan iqtisadiyyatda keçid dövrünü uğurla başa vurmuşdur.* İlham Əliyevin elə birinci prezidentliyi dövründə sürətləndirilən iqtisadi islahatlar və həyata keçirilən iqtisadi inkişaf proqramları nəticəsində ölkə 2009-cu ildə keçid dövrünü uğurla başa vurmuşdur. Bu, Prezidentin özünün də qeyd etdiyi kimi, məhz bazar iqtisadiyyatına sadiqliyin və inamın nəticəsində mümkün olmuşdur. 2003-cü ildə ölkədə ÜDM-in 73 faizi özəl sektor tərəfindən istehsal edilirdisə, indi bu rəqəm 80 faizi ötmüşdür.

- *Azərbaycan "aşağı gəlirli ölkələr" sırasından "yuxarı-orta gəlirli ölkələr" sırasına yüksəlmişdir.* 2004-cü ildə Azərbaycanda adambaşına düşən ÜDM müstəqil ölkənin iqtisadi tarixində ilk dəfə olaraq 1000 dollarlıq həddi ötmüşdür. 2003-cü ildə Azərbaycanda adambaşına düşən ÜDM 888,6 dollar olduğu halda, hazırda bu rəqəm 4214,3 dollara yüksəlmişdir. Göründüyü kimi, İlham Əliyevin iqtidarı dönəmində Azərbaycanda adambaşına düşən ÜDM təxminən 5 dəfəyə qədər artmışdır ki, bu da ölkədə artan iqtisadi rifahı göstərən mühüm göstəricidir.

- *Azərbaycanın uzunmüddətli dayanıqlı inkişafı baxımından mühüm əhəmiyyət kəsb edən iqtisadiyyatın infrastrukturu tamamilə yenidən qurulmuş və modernləşdirilmişdir.* Nəqliyyat, enerji, təhsil, səhiyyə, turizm və digər sahələr üzrə infrastruktur demək olar tamamilə yenidən qurulmuş və infrastruktur imkanları əvvəlki illərlə müqayisədə xeyli genişləndirilmişdir. Azərbaycanın demək olar tamamilə qazlaşdırılması, elektrikləşdirilməsi, istifadəyə verilən yüzlərlə təhsil, səhiyyə və turizm müəssisələri, tikilən hava limanları (6-si beynəlxalq statuslu olmaqla), çəkilən minlərlə kilometrə qədər modern avtomobil yolları məhz İlham Əliyevin adı ilə bağlıdır.

- *Azərbaycanın iqtisadi müstəqilliyi möhkəmləndirilmiş və ölkə borc alan ölkədən donor ölkəyə çevrilmişdir.* Prezidentin hər zaman vurğuladığı kimi, Azərbaycan bu gün valyuta ehtiyatları, daxili istehsal və ixrac potensialı ilə iqtisadi müstəqilliyini təmin etmiş ölkədir və iqtisadiyyatı üçün əhəmiyyətli olan istənilən iqtisadi layihəni maliyyələşdirmə imkanına malikdir. Bununla yanaşı, ölkə xarici donorlar üçün də etibarlı tərəfdaşdır və investisiya cəlbetmə imkanları yüksəkdir. Hazırda ölkənin valyuta ehtiyatları xarici borclarından dəfələrlə çoxdur.

- *Azərbaycan iqtisadiyyatı 2009-cu ilin qlobal maliyyə, 2014-cü ilin qlobal enerji böhranlarından və hazırda davam edən pandemiyadan çox böyük məharətlə qorunmuşdur.* Məhz İlham Əliyevin antiböhran idarəçilik məharəti sayəsində qeyd olunan qlobal böhranların Azərbaycana təsiri minimum olmuş və ölkəmiz dayanıqlı iqtisadi inkişaf potensialını qoruyub saxlaya bilmişdir. Burada pandemiya ilə bağlı qlobal baxışın formalaşdırılması və qlobal həmrəyliyin təmin edilməsi məqsədilə cənab İlham Əliyevin təşəbbüslərini xüsusilə qeyd etmək lazımdır. Belə ki, İlham Əliyevin təşəbbüsü ilə dünyanın ən böyük iki beynəlxalq müzakirə platformasının - Qoşulmama Hərəkatı və BMT Baş Assambleyasının iclası keçirilmişdir.

- *Azərbaycan iqtisadiyyatı regionun ən rəqabətqabiliyyətli iqtisadiyyatına çevrilmişdir.* Nüfuzlu Dünya İqtisadi Forumunun "Qlobal Rəqabətlilik Hesabatı"na görə Azərbaycan iqtisadiyyatı uzun müddətdir ki, rəqabət qabiliyyətinə görə MDB məkanının yüksək rəqabətli iqtisadiyyatlarından hesab olunur.

- *Azərbaycan iqtisadiyyatı investisiya mühiti baxımından qabaqcıl sıralara yüksəlmiş və Azərbaycana Dünya Bankı tərəfindən bu sahədə "ən islahatçı ölkə" statusu verilmişdir.* Dünya Bankının "Doing Business" hesabatına görə hazırda Azərbaycan dünyanın biznes mühitinin ən əlverişli olduğu 34-cü, biznesə başlamanın isə ən asan olduğu 9-cu iqtisadiyyatına malikdir. Məhz bunun nəticəsidir ki, 2003-cü ildən sonra bütövlükdə ölkə iqtisadiyyatına 240 milyard dollardan çox investisiya yatırılmış və bunun da təxminən yarısı xarici investisiyalar olmuşdur.

- *Müstəqil Azərbaycanın iqtisadi tarixində ilk dəfə olaraq qeyri-neft sektoru neft sektorundan, qeyri-neft ixracı neft ixracından daha sürətlə artmağa başlamış və iqtisadi artımın getdikcə əhəmiyyəti artan mənbəyinə çevrilmişdir.* İlham Əliyevin hakimiyyəti dövründə baş verən bu proses neftlə zəngin ölkə kimi Azərbaycan üçün də bəzi dairələr tərəfindən proqnozlaşdırılan "holland sindromu", "resurs lənəti" kimi tezisləri tamamilə alt-üst etmişdir.

- *Azərbaycan ilk dəfə olaraq ixrac yönümlü sənayeləşməyə fokslanmış və özünün ixrac infrastrukturunu formalaşdırmışdır.* Xarici ölkələrdə ticarət evləri və ticarət nümayəndəliklərinin açılması, ixracı təşviq mexanizmlərinin tətbiqi, ixracın kreditləşdirilməsi, "Made in Azerbaijan" markasının formalaşdırılması kimi tədbirlər məhz bu dövrdə xüsusi vüsət almış və Azərbaycan bir sıra sahələr üzrə idxaldan asılı ölkə statusundan ixrac edən ölkə statusuna keçmişdir.

- *Ölkənin tarazlı iqtisadi inkişafına xüsusi önəm verilmiş və regionların sosial-iqtisadi inkişafı sahəsində böyük nəticələr əldə etməyə imkan verən inkişaf proqramları həyata keçirmişdir.* Artıq dördüncüsü həyata keçirilən regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramının icrası nəticəsində Azərbaycan regionlarına böyük həcmdə investisiyalar yatırılmış və əgər belə demək mümkündürsə, regionların "iqtisadi siması" tamamilə dəyişmişdir. Hazırda Bakı ilə yanaşı, ölkənin müxtəlif regionlarında bir çox "iqtisadi cazibə mərkəz"ləri formalaşmışdır.

- *Azərbaycanda aqrar sektora dövlət qayğıkeşliyi öz intensivliyi ilə seçilmiş və Azərbaycan bir sıra aqrar məhsullar üzrə ixracatçı ölkəyə çevrilmişdir.* Aqrar sektorun vergilərdən azad edilməsi, tətbiq olunan subsidiyalar, bu sektorun modern texnika və texnologiyalarla təchizi sahəsində görülən işlər xüsusi vurğulanmalıdır. Prezidentin aqrar istehsala "bir qarış torpaq da boş qalmamalıdır" prinsipi ilə yanaşması ölkənin ənənəvi istehsal sahələri olan fındıqçılıq, tütünçülük, baramaçılıq, ipəkçilik, pambıqçılıq, taxılçılığın yenidən canlanmasına səbəb olmaqla yanaşı, yeni istehsal sahələrinin də meydana çıxmasına imkan yaratmışdır.

- *Azərbaycanın iqtisadi tarixində ilk dəfə olaraq iqtisadiyyatın idman sektoru formalaşmışdır.* Məhz birbaşa İlham Əliyevin rəhbərliyi və zəhməti hesabına qurulmuş bu sektor Azərbaycanın formalaşmış iqtisadi və siyasi qüdrətini dünyaya nümayiş etdirmə, qlobal idman bazarından pay alma, idmanla əlaqəli iqtisadi sektorlar üçün yeni imkanlar yaratma baxımından böyük əhəmiyyət daşıyır.

- *Azərbaycanın iqtisadi tarixində ilk dəfə olaraq turizm sektoru formalaşmış və bu sahə iqtisadi inkişafa töhfə verməyə başlamışdır.* Bu gün Bakı və ölkənin digər regionları başlıca qlobal və regional turizm marşrutları sırasına qoşulmuşdur.

- *Azərbaycanın iqtisadi tarixində ilk dəfə olaraq yeni strateji sahə - müdafiə sənayesi formalaşmışdır.* Hazırda Azərbaycanda 1000-dən çox adda müdafiə sənayesi məhsulu istehsal edilir və bunların önəmli hissəsi ixrac olunur. Hesab edirik ki, indiki şəraitdə Azərbaycan üçün bu sahənin təkcə iqtisadi əhəmiyyətinin olmadığını vurğulamağa ehtiyac yoxdur.

- *Azərbaycan iqtisadiyyatının innovasiya potensialı köklü şəkildə artmış və iqtisadiyyatın İKT sektoru formalaşmışdır.* Bu gün Azərbaycan iqtisadiyyatda ən müasir texnologiyaları tətbiq edir, kosmik və alternativ enerji texnologiyalarının sürətlə inkişaf etdiyi ölkələr sırasındadır.

- *"Əsrin müqaviləsi" daha əlverişli şərtlərlə "Yeni əsrin müqaviləsi"nə çevrilməklə "qara qızıl"ın Azərbaycanın dayanıqlı iqtisadi inkişafına töhfə vermə imkanı ən azı 2050-ci ilə qədər təmin edilmişdir.* Fikrimizcə, "Yeni əsrin müqaviləsi" ölkənin Prezident İlham Əliyev tərəfindən müəyyən edilən gələcək iqtisadi inkişaf hədəflərinə daha sürətlə çatmasına imkan verəcək.

- *İqtisadi siyasətin mərkəzində hər zaman Azərbaycan insanı dayanmış və iqtisadiyyatın sosial yönümlülüyünə böyük əhəmiyyət verilmişdir.* Bu dövrdə pensiyalar, sosial müavinətlər, əməkhaqları daim artırılmış, dövlət büdcəsi sosial yönümlülüyünü qoruyub saxlamış, milyonlarla yeni iş yerləri açılmış, yoxsulluq və işsizlik minimuma endirilmişdir.

- *Həyata keçirilən böyük enerji və nəqliyyat layihələri ilə nəinki Azərbaycanın tranzit imkanları köklü şəkildə artırılmış, eyni zamanda qlobal enerji və nəqliyyat təhlükəsizliyinə mühüm töhfələr verilmişdir.* Həyata keçirilən neft və qaz layihələri, TANAP, TAP, BTQ kimi transmilli layihələr, "Şimal-Cənub" və "Şərq-Qərb" nəqliyyat dəhlizləri üzrə həyata keçirilən digər mühüm layihələr məhz bu dövrdə reallaşmışdır.

- *Təhsilə insan kapitalının başlıca mənbəyi kimi baxılmış və Azərbaycan iqtisadiyyatının uzunmüddətli inkişafının birbaşa təhsildən asılı olacağı nəzərə alınmışdır.* Bu baxımdan "Qara qızılı insan kapitalına çevirmək" devizi altında dövlət tərəfindən çoxlu sayda əməli tədbirlər həyata keçirilmişdir. Qeyd olunan hədəf Prezident İlham Əliyevin bu fikirlərində daha mükəmməl şəkildə öz əksini tapmışdır: *"Mən Azərbaycanda, rəsmi tədbirlərdə dəfələrlə demişəm və indi də demək istəyirəm ki, ölkənin uğurunu müəyyən edən enerji ehtiyatları deyil, onun intellektual potensialıdır. Ölkəni tərəqqiyə doğru aparan kadrların, mütəxəssislərin hazırlanması, təhsilin, elmin inkişafıdır".* Hesab edirik ki, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" və Fəaliyyət Planı və "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində nəzərdə tutulan tədbirlər gələcək illərdə də təhsil sektorunun inkişafına öz töhfəsini verəcəkdir.

- *Azərbaycan iqtisadi inkişaf səviyyəsinə görə Ermənistanı böyük fərqlə geridə qoymuş, bu ölkənin Cənubi Qafqazda tamamilə marjinallaşmasına nail olmuş və Qarabağda öz siyasi və iqtisadi suverenliyini bərpa etmişdir.* Məhz İlham Əliyevin prinsipial mövqeyi Ermənistanın bütün regional iqtisadi layihələrdən kənarda qalmasına gətirib çıxarmışdır. Bu gün Azərbaycan iqtisadiyyatı rəqabətliliyinə görə dünyanın 58-ci iqtisadiyyatıdırsa, Ermənistan 69-cu iqtisadiyyatıdır. II Qarabağ savaşı və onun nəticələri bir daha Azərbaycanın iqtisadi qüdrətini və texnoloji üstünlüyünü ortaya qoymuş və Qarabağ yenidən Azərbaycan iqtisadiyyatının ayrılmaz hissəsinə çevrilmişdir.

Göründüyü kimi, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycanın iqtisadi inkişaf strategiyasının 2003-cü ildən sonra uğurla davam etdirilməsi nəticəsində ölkəmizdə makroiqtisadi sabitlik qorunub saxlanılmış, iqtisadiyyatın diversifikasiyası həyata keçirilmiş, qeyri-neft sahələrinin və regionların inkişafı sürətlənmiş, strateji valyuta ehtiyatları dəfələrlə artmış və ondan səmərəli istifadə təmin olunmuş, sahibkarlığa dövlət dəstəyi güclənmiş, təhsil və digər sosial sahələrin inkişafı davam etmiş və əhalinin rifahı davamlı olaraq yaxşılaşmışdır. Ötən dövr ərzində Azərbaycanın beynəlxalq əlaqələri mühüm dərəcədə genişlənmiş, beynəlxalq aləmdə nüfuzu güclənmiş və Cənubi Qafqazın lider dövləti kimi öz mövqeyini qoruyub saxlamışdır.

Azərbaycanda bundan sonra da həyata keçiriləcək iqtisadi islahatların məqsədi yüksək insan kapitalına və innovasiyalara əsaslanan dayanıqlı və rəqabətli Azərbaycan iqtisadiyyatının formalaşdırılmasıdır. Bu məqsəd Prezident İlham Əliyevin fikirlərində mükəmməl şəkildə öz əksini tapmışdır: *"İnkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, o uğurların təməlində intellektual potensial, texnoloji tərəqqi, elmin inkişafı və təhsil səviyyəsi dayanır. Gələcəkdə bu amillər daha da böyük rol oynayacaq. Çünki bu gün istər iqtisadi sahədə, sənaye istehsalının inkişafında, hər bir sahədə müasir texnologiyalar hər şeyi həll edir".*

Şübhəsiz ki, qeyd edilən hədəflərə nail olmaq üçün ölkədə ali təhsilin və elmin inkişafı xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanın 2005-ci ildə Boloniya Prosesinə qoşulması ölkədə ali təhsil islahatlarının yeni mərhələsinə start vermişdir. Bu çərçivədə 2009-cu ildə qəbul edilmiş "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı"nda qeyd olunmuşdur ki, proqramın məqsədi ölkənin ali təhsilinin Avropa təhsil məkanına inteqrasiyası, onun məzmununun Boloniya prosesinin prinsiplərinə uyğun qurulması, cəlbedici və rəqabət qabiliyyətliliyinin təmin edilməsi, ölkə iqtisadiyyatının inkişaf tələblərinə uyğun ali təhsilli kadrlara yaranan tələbatın ödənilməsi, habelə informasiya cəmiyyətinin və biliklərə əsaslanan iqtisadiyyatın tələblərinə uyğun olaraq kadr potensialının yaradılması, əhalinin müasir tələblərə cavab verən ali təhsil almaq imkanlarının təmin edilməsi üçün iqtisadi və sosial baxımdan səmərəli ali təhsil sisteminin formalaşdırılmasıdır. Proqramın icrası çərçivəsində ali təhsilin qanunvericilik bazasının Avropa standartlarına uyğunlaşdırılması və Boloniya Prosesinin əsas prinsipləri istiqamətinə yenidən qurulması sahəsində mühüm işlər görülmüşdür.

Qeyd olunan mərhələdə atılan mühüm strateji addımlardan biri də Prezident İlham Əliyevin irəli sürdüyü neft kapitalının insan kapitalına çevrilməsi konsepsiyası çərçivəsində "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın qəbul edilməsi olmuşdur. Proqramın əsas hədəfləri xaricdə dövlət hesabına təhsil almağa göndərilən Azərbaycan gənclərinin təhsilin bütün pillələri üzrə illik sayının 2015-ci ildə 1000, onların ümumi sayının isə 2007-2015-ci illərdə 5000 nəfərə çatdırılması, ayrılan maliyyə vəsaitləri çərçivəsində bakalavriat, magistratura, rezidentura, doktorantura pillələri, eləcə də ixtisasartırma və yenidənhazırlanma təhsili üzrə bölünməsi, hökumətlərarası müqavilələr və ali təhsil müəssisələri arasında beynəlxalq tələbə mübadiləsi əsasında mütəxəssis hazırlığının respublikanın iqtisadi inkişaf prioritetləri nəzərə alınmaqla təmin edilməsi olmuşdur. Uğurla reallaşdırılan bu proqram çərçivəsində 3558 nəfər azərbaycanlı gənc dünyanın ən nüfuzlu universitetlərində bakalavriat, magistratura və doktorantura səviyyələrində təhsil almaq imkanı qazanmışdır. Bu gənclərin böyük əksəriyyəti artıq təhsilini başa vurub geri qayıtmış və ölkəmizin gələcək inkişafına, xüsusilə də ali təhsilin inkişafına öz töhfələrini verməyə başlamışdır.

Qlobal səviyyədə təhsil sahəsində ortaya çıxan yeni çağırışlar və Azərbaycan iqtisadiyyatının yeni inkişaf mərhələsinə daxil olması heç şübhəsiz ki, ölkədə təhsilin inkişafı üzrə vahid dövlət strategiyasının formalaşdırılmasını zəruri etmişdir. Bu məqsədlə 24 oktyabr 2013-cü ildə Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" və onun əsasında hazırlanaraq 2015-ci ilin 19 yanvarında təsdiq edilmiş müvafiq Fəliyyət Planı ölkədə ali təhsil sistemi də daxil olmaqla, bütövlükdə təhsil sisteminin qeyd olunan çağırışlar və tələblər istiqamətində qısa, orta və uzunmüddətli inkişafını təmin edəcək vahid dövlət siyasətini özündə əks etdirir.

Təhsilin inkişafı üzrə dövlət strategiyasının icrası ilə əlaqədar son illər ölkədə ali təhsilə çıxış imkanlarının genişləndirilməsi, ali təhsil kurikulumlarının əmək bazarının tələblərinə uyğunlaşdırılması, ali təhsil qurumlarında doktorantura təhsili və tədqiqat potensialının gücləndirilməsi, ali təhsil müəssisələrinin reytinq səviyyəsinin yüksəldilməsi, ali təhsil müəssisələrinin idarəetmə modelinin təkmilləşdirilməsi, onların əlavə təhsil imkanlarının genişləndirilməsi, beynəlmiləlləşmələrinin artırılması və bütövlükdə ali təhsil müəssisələrinin təhsil-tədqiqat-innovasiya mərkəzləri kimi cəmiyyətdə rolunun gücləndirilməsi istiqamətlərində əhəmiyyətli nəticələr əldə edilmişdir.

İnformasiya texnologiyalarının inkişafı və qloballaşma ilə birlikdə, ali təhsildə beynəlmiləlləşmə əhəmiyyətli bir inkişaf strategiyasına çevrilmişdir. Bu baxımdan Prezidentin qəbul etdiyi "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" (16.11.2018) və "Azərbaycan gənclərinin nüfuzlu xarici ali təhsil müəssisələrində təhsil imkanlarının genişləndirilməsi haqqında" sərəncam (30.11.2021) ölkədə ali təhsilin və kadr hazırlığının inkişafında yeni yanaşmaları və imkanları ortaya qoyur. Beynəlxalq rəqabətə və əməkdaşlıq şəbəkələrinə aktiv şəkildə qoşulmanı tələb edən bu strategiya, elmi və texnoloji proseslərdə iştirak etmə, təhsil-araşdırma təcrübəsi və resurslarını birləşdirmə, maddi resurslara çıxış, institusional potensialı təkmilləşdirmə və keyfiyyətli insan resursu cəlbetmə baxımından mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan universitetlərinin son illər ingilis dilində təhsil proqramlarını genişləndirmələri, ERASMUS, TEMPUS, MEVLANA kimi beynəlxalq mübadilə proqramlarında aktiv iştirak etməyə başlamaları, eləcə də çoxtərəfli və ikitərəfli çərçivələrdə beynəlxalq əlaqələrini genişləndirmələri onların beynəlmiləlləşməsi prosesini də gücləndirmişdir.

İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə ölkənin inkişafı və güclənməsi istiqamətində gördüyü işlərin ən böyük nəticəsi isə heç şübhəsiz ki, Qarabağın düşmən tapdağından azad edilməsi və bu torpaqlarda yenidənqurma və bərpa işlərinə sürətlə start verilməsidir. Qarabağ Zəfəri, ilk növbədə, Azərbaycanın iqtisadi inkişaf, dövlət və ordu quruculuğu sahəsində illərdir apardığı siyasətin uğurunu ortaya qoymuşdur. Azərbaycan 2020-ci il tarixinə nadir uğurlu ölkə kimi daxil olaraq, dünyadakı yaxşı imicini ciddi şəkildə yüksəltmiş və öz gücünü bütün dünyaya sübut etmişdir.

Qarabağın və Şərqi Zəngəzurun işğaldan azad edilməsi ilə Azərbaycan 30 il yaşadığı məcburi köçkün problemini həll etməyə başlamış, iqtisadi dövriyyədən kənarda qalan 20 faiz torpaqlarından istifadə imkanı qazanmışdır. Bu yeni kənd təsərrüfatı torpaqları, yeni faydalı qazıntı yataqları, yeni turizm marşrutları, yeni nəqliyyat şəbəkələri, yeni alternativ enerji mənbələri, yeni su resursları və s. deməkdir. Bütün bunlar Azərbaycanın iqtisadi artım potensialını artıran amillərdir.

Qarabağ və Şərqi Zəngəzur Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun inkişafı üçün yeni imkanlar açır. Bu bölgələrin iqtisadi cəhətdən mənimsənilməsi qarşıdakı illərdə turizm, kənd təsərrüfatı, nəqliyyat, alternativ enerji, dağ-mədən sənayesi və digər qeyri-neft sektorlarının inkişafına əhəmiyyətli töhfələr verəcək.

Bütövlükdə Cənubi Qafqazın, xüsusən də Azərbaycanın dünyadakı "münaqişəli" bölgə imicinin tədricən aradan qalxması regionun iqtisadi cəlbediciliyini ciddi şəkildə artırır. Qarabağ Zəfəri sonrasında ortaya çıxacaq yeni regional nəqliyyat şəbəkələri Azərbaycanın bu sahədəki imkanlarının diversifikasiyasına gətirib çıxarmaqla, onun bir çox hallarda ayrı-ayrı ölkələrdən asılılığını əhəmiyyətli dərəcədə azaldacaqdır.

Zəfərdən sonra Türkiyə-Azərbaycan iqtisadi əlaqələrinin inkişafında bir növ dönüş baş verdiyini, bundan sonra bu əlaqələrin davamlı dərinləşərək davam edəcəyini demək mümkündür. Zəfərdən əvvəl ölkələrimiz arasında preferesial ticarət sazişi imzalanmış, Zəfərdən sonra isə bir çox istiqamətlərdə yeni əməkdaşlıq sazişləri bağlanmışdır. Bura iki ölkə arasında gediş-gəlişdə vizanın aradan qaldırılması, şəxsiyyət vəsiqələri ilə qarşılıqlı gediş-gəlişin təmin edilməsi, İqdır-Naxçıvan qaz xəttinin çəkilməsi, Qars-İqdır-Naxçıvan dəmiryolu xəttinin tamamlanması, KOB, investisiyalar, nəqliyyat, inşaat və media sahəsində strateji əməkdaşlıq daxildir. Dərinləşən bu əməkdaşlıq Şuşa Bəyannaməsi ilə ən yüksək səviyyədə öz təsdiqini tapmışdır.

Azərbaycanla Naxçıvanı bir-birinə bağlayan Zəngəzur dəhlizinin qurulması ilə Türkiyənin Azərbaycanla quru yolu ilə əlaqəsi reallığa çevriləcək. Razılıq sənədində qeyd edilən dəhlizlə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamət üzrə maneəsiz daşınmasına və kommunikasiya sistemlərinin bərpasına təminat verilməsi böyük əhəmiyyətə malikdir. Bu, Şərqlə Qərb arasında Orta Dəhliz adlanan nəqliyyat dəhlizinin gələcək inkişafı və rəqabətliliyi baxımından böyük imkanlar açır.

Ötən il Azərbaycan tarixinə Zəfər ili kimi, böyük bir milli uğur ili kimi daxil olmuşdur. Dünyanın demək olar ki, əksər ölkələrinin gündəmini pandemiyanın, iqtisadi böhranın problemləri işğal etdiyi halda Azərbaycan yüksək hazırlıqlı ordusu, milli birliyi, dayanıqlı iqtisadiyyatı və düzgün xarici siyasəti nəticəsində uzun illərdir arzuladığı o böyük zəfərə nail oldu və bu baxımdan beynəlxalq ictimaiyyətin müsbət mənada böyük diqqətini özünə çəkdi.

Zəfər Cənubi Qafqazın və bütövlükdə region ölkələrinin gələcək inkişafı üçün də yeni imkanlar açmışdır. Dayanıqlı sülh və sabitliyin təmin edilməsi bölgə ölkələri arasında iqtisadi əməkdaşlığın dərinləşməsi üçün yeni fürsətlər yaratmaqla yanaşı, bütövlükdə bölgənin dünya iqtisadiyyatına inteqrasiyasının da sürətlənməsinə imkanlar yaradır.

Qarabağın və Şərqi Zəngəzurun işğaldan azad edilməsi ölkə üçün böyük imkanlar yaratmaqla yanaşı, eyni zamanda uğurla yerinə yetirilməsi tələb olunan yeni böyük vəzifələri də qarşıya qoyur. Həmin vəzifələrdən ilki adıçəkilən bölgələrin həm yaşayış məntəqələri, həm infrastruktur, həm də iqtisadi fəaliyyətlər baxımından demək olar ki, tamamilə yenidən qurulmasıdır. Bu, kifayət qədər böyük həcmdə maliyyə resursları, düzgün koordinasiya edilmiş hökumət proqramları və onların uğurla icrasını tələb edir. İkinci mühüm vəzifə isə işğaldan azad edilmiş ərazilərə əhalinin mümkün qədər səmərəli şəkildə köçürülməsidir.

Hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan cəmiyyəti "Böyük qayıdış" üçün çox böyük hazırlıq görür. Prezidentin son vaxtlar bu sahədə qəbul etdiyi qərarlar onun həmişə olduğu kimi, bu dəfə də sistemli və koordinasiyalı yanaşmaya üstünlük verdiyini göstərir. İlk növbədə Prezidentin 24 noyabr 2020-ci il tarixli sərəncamı ilə Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahı yaradılmışdır.

İlkin infrastrukturun qurulması istiqamətində atılan ilk önəmli addımlara 45 kilometrlik Bərdə-Ağdam dəmir yolu xəttinin, Füzuli-Şuşa Avtomobil yolunun və Füzuli Beynəlxalq Hava Limanının tikintisini və s. göstərmək olar. Şübhəsiz ki, bu addımlar işğaldan azad edilmiş ərazilərdə gələcəkdə bərpa və yenidənqurma işlərini həyata keçirmək üçün zəruri infrastrukturun formalaşdırılmasına istiqamətlənmişdir. Bir çox digər infrastruktur layihələrinin icrasına da artıq başlanmışdır və bu layihələr Cənab Prezidentin vurğuladığı kimi, başda Türkiyə Respublikası olmaqla, Azərbaycanın haqq işini dəstəkləyən dost ölkələrin şirkətləri ilə birgə icra edilir.

Qarabağda bərpa və yenidənqurma işlərinin böyük maliyyə resursları tələb etdiyi şübhəsizdir. Müxtəlif tədqiqatçıların apardığı hesablamalar göstərir ki, bu işlərin tamamlanması üçün on milyardlarla dollar həcmində maliyyə vəsaiti tələb olunur. Azərbaycan Prezidenti məhz bu maliyyə resurslarını prosesə effektli şəkildə cəlb etmək məqsədilə dünya təcrübəsinə uyğun olaraq, 4 yanvar 2021-ci ildə "Qarabağ Dirçəliş Fondu" publik hüquqi şəxsin yaradılması haqqında fərman vermişdir. Fondun əsas vəzifələri işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması, Qarabağ regionunun dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsi istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyi göstərilməsi, bu istiqamətdə sərmayələrin cəlb edilməsi, bu sahədə dövlət-özəl tərəfdaşlığının inkişaf etdirilməsi, eləcə də ölkə daxilində və xaricində zəruri təşviqat işlərinin aparılmasıdır. Fondun fəaliyyətinin 1 milyon manatlıq nizamnamə fondu, təsisçinin verdiyi əmlak, dövlət büdcəsindən ayrılan vəsait, fəaliyyətdən əldə edilən gəlir, ianələr, qrantlar, cəlb edilən investisiyalar və digər mənbələr hesabına təmin edilməsi nəzərdə tutulmuşdur ki, bu da Qarabağın dirçəldilməsi prosesində iştirakçılıq səviyyəsini mümkün qədər daha çox artırmağa imkan verir.

"Böyük qayıdış"a hazırlıq prosesi çərçivəsində atılan növbəti mühüm addım bu ərazilərdə yeni idarəetmə institutunun - Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliklərinin yaradılmasıdır. Prezidentin 19 yanvar 2021-ci ildə imzaladığı fərmanla yaradılan bu nümayəndəliklərə Prezidentin xüsusi nümayəndələri təyin edilmişdir. Bu nümayəndəliklərin işğaldan azad edilmiş ərazilərin dirçəlişi istiqamətində quruculuq, bərpa və yenidənqurma işlərinin sürətləndirilməsinə, bu hədəfə nail olunmasında dövlət qurumlarının və digər təşkilatların əlaqələndirilmiş fəaliyyətinin gücləndirilməsinə, habelə idarəetmədə çevikliyin və səmərəliliyin artırılmasına xidmət etməsi nəzərdə tutulmuşdur.

Qarabağın işğaldanönçəki məskunlaşma modeli və iqtisadi strukturu heç şübhəsiz ki, aqrar cəmiyyətə xas idi. Həm də elə bir aqrar cəmiyyət ki, iqtisadi münasibətlər sosialist prinsiplər əsasında qurulmuşdu. Artıq dünya postsənaye dövrünü, IV sənaye inqilabı mərhələsini yaşayır. Bu baxımdan şübhəsiz ki, Qarabağın bərpası və yenidən qurulması əvvəlki vəziyyətin geri qaytarılması formasında ola bilməz və proses kifayət qədər modern əsaslarda aparılır. Ona görə də bölgədə istər əhalinin yenidən məskunlaşdırılması, istərsə də iqtisadi strukturun yenidən qurulması zamanı mümkün ölçüdə optimallıq, səmərəlilik və effektivlik prinsiplərinin qorunmasına çalışılır. Əvvəlki kimi dağınıq məskunlaşma modelinin əvəzinə aqlomerasiya effektinə, miqyas effektinə və bütövlükdə Qarabağda dayanıqlı iqtisadiyyatın qurulmasına imkan verən məskunlaşma modellərinə üstünlük verildiyi müşahidə edilir. Xüsusilə nəzərə alsaq ki, 30 ilə yaxın müddət ərzində məcburi köçkün əhalinin təxminən yarıdan çoxu şəhərlərdə məskunlaşmışdır, onda bu məsələnin nə qədər aktual olduğunu görməmək mümkün deyildir.

Qarabağda iqtisadi strukturun yenidən qurulması heç şübhəsiz ki, ilk növbədə, regionun təbii və coğrafi resurslarına əsaslanır. Zəngin faydalı qazıntı yataqları, münbit torpaqlar, füsunkar təbiət və nisbətən əlverişli coğrafi mövqe bu bölgədə formalaşdırılacaq sənaye, kənd təsərrüfatı, turizm, nəqliyyat və digər xidmət sektorlarının da əsasını təşkil edəcəkdir.

Ancaq eyni zamanda müasir dövrün tələblərinə uyğun olaraq, bölgədə yeni iqtisadi fəaliyyət formalarının inkişaf etdirilməsinə də başlanılmışdır. Bu baxımdan bölgədə yaşıl enerji, orqanik kənd təsərrüfatı, kənd turizmi, konqres turizmi, aqrar turizm, səhiyyə turizmi, mədəniyyət turizmi, ali təhsil xidmətləri və s. inkişafı üçün yaxşı perspektivlər mövcuddur. Xüsusilə də bölgənin iqtisadiyyatına uyğun şəkildə yaradılacaq ali təhsil klasteri həm bölgənin inkişafına, həm də bütövlükdə Azərbaycanda regional ali təhsilin inkişafına öz töhfələrini verəcəkdir.

Prezident İlham Əliyev çıxışlarında dəfələrlə qeyd etmişdir ki, biz Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Bu bölgələrin potensialı və nəzərdə tutulan bərpa və yenidənqurma işləri həqiqətən də həmin ərazilərin cənnətə çevriləcəyini deməyə tam əsas verir. Bu, ilk növbədə, insanların sülh və əmin-amanlıq içində yaşadığı tam təhlükəsiz Qarabağ deməkdir. Azərbaycanla hərtərəfli bütövləşmiş, onun ayrılmaz bir parçası kimi daxili əmək bölgüsü sistemində öz layiqli yerini tutmuş Qarabağ deməkdir. İnkişaf etmiş sənayesi, kənd təsərrüfatı, turizmi, nəqliyyat-kommunikasiya sistemləri, enerji və innovasiya potensialı, insan kapitalı və sahibkarlar təbəqəsi ilə seçilən dayanıqlı və yüksək rəqabətli iqtisadi region deməkdir. Əminik ki, Prezidentin rəhbərliyi altında biz - dövlət və cəmiyyət olaraq mümkün qədər ən qısa müddətdə arzuladığımız Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirərək reallaşdıracaq və bununla da Azərbaycanın növbəti uğur hekayəsini yazmış olacağıq.

***Ədalət MURADOV,***
***Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru, professor***

## İlham Əliyev və Azərbaycanda

# Uğurun üfüqləri: İlham Əliyevin

Azərbaycan Prezidenti İlham Əliyev böyük vətənpərvər, ölkəsini, xalqını, mədəniyyətini ürəkdən sevən insandır. Onun fəaliyyəti ölkənin və xalqın müasir tarixi ilə ayrılmaz şəkildə bağlıdır. Dahi və müdrik atasının - Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin layiqli davamçısı İlham Əliyev hər zaman Azərbaycanın çiçəklənməsi və beynəlxalq mövqelərinin möhkəmlənməsi naminə çalışır.




İlham Əliyevin düşünülmüş uzaqgörən siyasəti və qətiyyəti ölkə qarşısında duran irimiqyaslı, mühüm məqsəd və vəzifələrin yerinə yetirilməsinə yönəlmişdir. Prezident İlham Əliyev Azərbaycan mülki aviasiyasının inkişafında çox mühüm rol oynamışdır. Dövlət başçısının mövcud vəziyyəti dərindən anlaması sayəsində ölkənin mülki aviasiyasının strukturunu dağıtmamaq, vahid idarəetmə mərkəzi ilə qoruyub saxlamaq, ICAO-nun tövsiyələrinə və aviasiya daşımaları üzrə aparıcı ölkələrin təcrübəsinə uyğun olaraq gücləndirmək mümkün olmuşdur.

İndi Azərbaycan 7 beynəlxalq hava limanı ilə dinamik inkişaf edən hava daşımaları bazarıdır. Bu inkişafa həmçinin mülki aviasiya sahəsində məqsədyönlü layihələrin ardıcıl surətdə həyata keçirilməsi sayəsində nail olunmuşdur ki, bu da, öz növbəsində, qoyulan investisiyaları doğrultmuşdur.

Bəli, "Azərbaycan mülki aviasiyası" adlı uğurlu layihə üzərində təcrübəli və möhkəm iradəli aviatorlar fəal işləyiblər. Lakin tarixi ölçülərə görə bu qədər qısa müddətdə hazırkı üfüqlərə nail olmaq çətin ki, ölkə Prezidentinin ciddi dəstəyi olmadan və vəziyyəti dəqiq anlamadan mümkün ola bilərdi.

Azərbaycan mülki aviasiyası ölkənin iqtisadi inkişafının ən əsas göstəricilərindən biri olan, həmçinin daim yenilənmə tələb edən bir sahədir. Prezident İlham Əliyevin təşəbbüsləri çərçivəsində Azərbaycanda bütün hava limanlarının yenidən təchiz edilməsi ilə bağlı layihələr həyata keçirilib, sərnişin axınının artması üçün böyük baza yaradılıb. Bu gün bütün beynəlxalq təhlükəsizlik və keyfiyyət standartlarına cavab verən regional hava limanlarının imkanlarının genişləndirilməsinə diqqət yetirilir.

Ölkə regional hava limanlarına beynəlxalq statusun verilməsinə nail olub - 2004-cü ildə Naxçıvanda, 2009-cu ildə Zaqatala və Lənkəran, 2012-ci ildə Qəbələ, 2021-ci ildə isə işğaldan azad edilmiş Qarabağda rekord müddətdə inşa edilmiş Füzuli hava limanlarına beynəlxalq status verilib.

Azərbaycanda hava limanları şəbəkəsinin yaxşı formalaşması və inkişaf etməsi nəticəsində ölkə regionlarının dünyanın digər ölkələri ilə əlaqəsinin qurulması mümkün olmuşdur. Bu, ölkə iqtisadiyyatının inkişafı üçün atılan mühüm addımlardan biridir.

Dövlət başçısının göstərişi ilə 2011-ci ildə Heydər Əliyev Beynəlxalq Aeroportunda yeni terminalın tikintisinə başlanılmışdır. Onun istismara verilməsi 2014-cü ilin aprel ayında Prezident İlham Əliyevin iştirakı ilə baş tutmuşdur. Yeni terminalın tikintisində ölkə rəhbərliyinin müəyyən etdiyi əsas vəzifə sərnişinlər üçün rahat və keyfiyyətli şəraitin yaradılması olmuşdur. Ənənəvi funksiyalardan başqa, aerovağzal binası fiziki imkanları məhdud olan insanlar üçün tam uyğunlaşdırılmışdır.

Bakıda hava limanının infrastrukturu geniş spektrli xidmətlər təqdim edir və bütün növ hava gəmilərinin qəbuluna imkan verir. Heydər Əliyev Beynəlxalq Aeroportu bu gün Azərbaycanda və regionda sərnişin və yük daşımalarının həcminə, aerovağzal kompleksinin sahəsinə, iki sərnişin və iki yük terminalının gücünə görə ən böyük hava limanıdır. Hava limanı dəfələrlə nüfuzlu konsaltinq şirkəti olan "Skytrax" tərəfindən maksimal beşulduzlu statusa (aviaşirkətlər və hava limanları üçün ən nüfuzlu mükafata) layiq görülmüş və müxtəlif göstəricilərə görə MDB ölkələrində ən yaxşı hava limanı seçilmişdir.



Mülki aviasiyanın sürətlə inkişaf edən, rahat və təhlükəsiz nəqliyyat xidməti olduğunu nəzərə alsaq, ölkə rəhbərliyinin etibarlı hava əlaqəsinin təmin olunması, AZAL donanmasının optimallaşdırılması, yüksək keyfiyyətli aeronaviqasiya xidmətinin təşəkkülü (AZANS-ın yaradılması), ixtisaslı aviasiya təhsilinin təmin edilməsi (MAA) və s. məqsədlərə istiqamətlənməsi özünü tamamilə doğruldub.

Dövlət başçısının tapşırıqları çərçivəsində ölkənin hava məkanı üzərində keyfiyyətli aeronaviqasiya xidməti yaradılmışdır ki, bu da uçuşların təhlükəsizliyinin və əhalinin hava daşımalarından istifadəsinin artmasına səbəb olmuşdur. AZANS Prezident İlham Əliyevin yürütdüyü siyasəti həyata keçirərək, Azərbaycanın tranzit dövlət kimi əlverişli coğrafi mövqeyindən tam həcmdə istifadə etməyi qarşısına məqsəd qoymuşdur. Regionda hava məkanından istifadənin optimallaşdırılması məqsədilə hava hərəkəti axınlarını səmərəli təşkil etmək / cəlb etmək üçün Azərbaycanın hava məkanından istifadənin səmərəliliyi, strategiya və inkişaf mərkəzi (ASEC) yaradılmışdır.

Prezident İlham Əliyevin başladığı mütərəqqi dəyişikliklər AZAL-ın beynəlxalq hava daşımaları bazarında mövqeyini möhkəmləndirməsinə və bir çox nailiyyətlərlə dünyanın ən çox tanınan brendlərindən birinə çevrilməsinə imkan vermişdir. Şirkət işində yüksək keyfiyyət standartlarına sadiqliyini qoruyub saxlayır və bununla da qüsursuz adını təmin edir.

Ötən illər ərzində AZAL və onun törəmə şirkəti - Prezidentin tapşırığı ilə aviabiletlərin qiymətlərinin azaldılması üzrə irimiqyaslı işlər çərçivəsində yaradılmış "Buta Airways" milli aşağıbüdcəli şirkəti böyük uğurlar qazanıb.

Digər ölkələrə istiqamətlərin sayı artırılmış, bir sıra yeni marşrutlar açılmış, eyni zamanda sərnişinlərin rahatlığı və mobilliyi ən yüksək səviyyədə təmin edilmişdir. Aviaşirkətlərin pandemiyaya qədərki marşrut şəbəkəsi Avropa, Asiya, Amerika şəhərlərini əhatə edirdi, aviaşirkətlərin hava gəmiləri donanmasına isə ümumdünya standartları və tələblərinə cavab verən etibarlı hava gəmiləri daxildir.

Uçuş heyətinin, aviasiya mütəxəssislərinin hazırlanması Azərbaycanın öz müstəqilliyini elan etməsindən sonra çox mühüm məsələyə çevrildi. Azərbaycan mülki aviasiyasının əsas qüvvəsi həmişə insanlar olub və olaraq qalır, AZAL uçuş heyətinin hazırlanmasına prioritet diqqət yetirir. Tədris metodları "Azərbaycan Hava Yolları" QSC-nin nəzdindəki Milli Aviasiya Akademiyasında ixtisasların geniş spektri ilə təmsil olunur.

Prezident İlham Əliyevin mülki aviasiya sahəsinə diqqəti və dövlət yardımı koronavirus pandemiyası dövründə - bütün dünya aviaşirkətlərinin ziyana uğradığı bir vaxtda xüsusilə mühüm və müsbət rol oynadı. Pandemiya aviaşirkətlər üçün görünməmiş imtahan oldu. Bu problemin aradan qaldırılması üçün isə təəssüf ki, hazır üsullar yox idi.

Bu gün dünya və Azərbaycan aviasiyası uzun sürən koronavirus pandemiyasının təsir dairəsindən tədricən çıxmağa başlayır və ardıcıl olaraq bərpa olunur. Azərbaycan mülki aviasiyasının böhranlı vəziyyətdən çıxması dövlət dəstəyi olmadan mümkün deyildi. Məhz hökumət tərəfindən görülən kompleks tədbirlər aviasiyanın bərpasına zəmanət verdi. Pandemiyanın vüsət aldığı dövrdə bu dəstəyin sosial istiqaməti AZAL-a aviasiya heyətinin saxlanmasına, işçilərin əməkhaqlarının ödənilməsinə və s. tədbirlərin görülməsinə imkan yaratdı.

Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük müharibə nəticəsində Azərbaycan xalqı böyük qələbə qazandı. Ölkənin bütövlüyü bərpa olundu, tarixi ədalət nəhayət ki, öz yerini tutdu.

30 illik işğal ərzində Azərbaycanın həmin əraziləri üzərindəki hava məkanı beynəlxalq və daxili uçuşlar üçün bağlı olmuşdur. Bu müddətdə həmin ərazidə bütün mülki aviasiya infrastrukturu çox təəssüf ki, vəhşicəsinə dağıdılmışdır.

Lakin dövlət başçısının tapşırıqlarına uyğun olaraq bu gün Azərbaycanın azad edilmiş ərazilərində genişmiqyaslı tikinti işləri aparılır, o cümlədən beynəlxalq hava limanları inşa edilir. Füzulidə fəaliyyətə başlayan beynəlxalq hava limanının, eləcə də Zəngilan və Laçında inşa olunan hava limanlarının bazasında yeni aviasiya qovşağı yaradılır. Aviasiyanın inkişafı regionun iqtisadi inkişafı, həyat keyfiyyətinin yüksəldilməsi məsələlərinin həlli ilə bilavasitə bağlıdır.

Füzulidə yerləşən beynəlxalq hava limanı ən müasir standartlara uyğun təchiz edilmiş böyük bir kompleksdir. Hava limanının açılış mərasimi oktyabrın 26-da Azərbaycan Prezidenti İlham Əliyevin və qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Qələbə Gününün birinci ildönümündən bir neçə gün əvvəl baş tutdu. Türkiyə Prezidenti Füzuli hava limanında havaya qalxan ilk xarici sərnişin oldu.

mülki aviasiyanın modernləşdirilməsi

# Azərbaycan mülki aviasiyasına töhfəsi







Maksimal rekord müddətdə inşa edilən hava limanı Azərbaycanın işğaldan azad edilmiş ərazilərində ilk əhəmiyyətli infrastruktur obyektidir. Onun təməlinin qoyulması bu ilin qışında dövlət başçısının iştirakı ilə baş tutmuşdu. Bir neçə ay əvvəl - 2020-ci ilin noyabr ayında ICAO ölkənin digər aerodromları ilə yanaşı, Füzulidə hava limanını beynəlxalq məkan indeksləri kataloquna daxil etmiş (UBBF), 2021-ci il oktyabr ayının ortalarında isə hava limanına IATA beynəlxalq statusu və FZL kodu verilmişdir.

Füzulidə yerləşən beynəlxalq hava limanı sadəcə regionun vizit kartı deyil, həm də mühüm strateji məntəqədir. O, Qarabağın digər regionlarla və bütün dünya ilə əlaqələrini genişləndirəcək. Təsadüfi deyil ki, Azərbaycan Prezidenti çıxışında Füzuli hava limanını “Qarabağın hava qapısı” adlandırıb. Yeni hava limanının uğurlu coğrafi mövqeyi ölkəyə beynəlxalq nəqliyyat logistikası və turizm potensialının açılması üçün geniş imkanlar yaradır. Bunun sayəsində sərnişin axını artacaq və regionun turizm potensialının inkişafına əlverişli təsir göstərəcək.

Prezidentin dəstəyi sahənin inkişafı, təşəkkül prosesində tənzimlənməsi üçün əlverişli şərait yaratmışdır. Demək olar ki, bütün aviasiya layihələri dövlət başçısının dəstəyi və ya iştirakı ilə həyata keçirilib və bu işlər davam etdirilir.

Prezident həmçinin sadə həqiqəti göstərdi: mülki aviasiya əsas etibarilə Azərbaycanda səmərəli sahə yaratmağa və peşəkar aviatorlar komandasını toplamağa imkan yaradan komanda işidir. Dövlət başçısının dəstəyi sayəsində bu gün “Azərbaycan Hava Yolları”, “Buta Airways” sərnişin aviaşirkətləri və Heydər Əliyev Beynəlxalq Aeroportu beynəlxalq arenada keyfiyyət, təhlükəsizlik və dəqiqlik sahəsində çoxsaylı yüksək nailiyyətlər nümayiş etdirmişlər. Azərbaycanın mülki aviasiyası öz gücünə əmin olan çiçəklənən dövlətin rəmzinə çevrilmişdir.

Həyat Prezident İlham Əliyevin uzaqgörənliyini bir daha təsdiqlədi. Dövlət dəstəyi ölkənin turizm sahəsinin inkişafı nəzərə alınmaqla yeni mülki aviasiyanın qurulmasına yönəlmişdir. Nəticədə Azərbaycan dünyaya daha geniş açılmağa və daha çox turist qəbul etməyə hazırlaşmağa başlamışdır.

Ümumiyyətlə, geriyə baxarkən və qət edilən yolu qiymətləndirərkən ölkənin aviasiya sahəsinin uzun və köklü şəkildə yenidənqurma yolu keçdiyini görmək olar. Prezidentin qayğıkeş diqqəti sayəsində biz aviatorlar da ölkənin mülki aviasiyası qarşısında duran vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışırıq.

Bu gün bu əlamətdar gündə bütün böyük və mehriban aviatorlar ailəsi adından, möhtərəm cənab Prezident, icazə verin Sizi ad gününüz, yubileyiniz münasibətilə təbrik edək! Ölkənin mülki aviasiyasının qurulmasına və möhkəmləndirilməsinə Sizin şəxsi töhfənizi qiymətləndirməmək mümkün deyil. Sahənin inkişafı məsələlərinə göstərdiyiniz diqqətə görə Sizə səmimi minnətdarlığımızı bildiririk!

Sizin dəstəyiniz sayəsində ölkənin mülki aviasiyası ən yaxşı ənənələrini qoruyub saxlayaraq və fəaliyyətinin əsas meyarlarına sadiq qalaraq, beynəlxalq aviasiya bazarında layiqli yerlərdən birini tutmuşdur və uçuşlarını davam etdirərək etibarlılığı, sərnişinlərin təhlükəsizliyini təmin edir.

Belə bir gündə, möhtərəm cənab Prezident, səmimi-qəlbdən Sizə möhkəm cansağlığı, ölkəmizin və Azərbaycan xalqının rifahı naminə uğurlar, böyük qələbələr və nailiyyətlər arzulayırıq!

Biz, aviatorlar isə ölkənin mülki aviasiyasının dünya arenasında yüksək statusunu qorumağa davam edəcəyik. Çünki komanda şəklində inkişaf uğurun rəhnidir.

**Göstərdiyiniz etimada görə Sizə təşəkkür edirik!**
**Yubileyiniz mübarək!**

**AZAL kollektivi**





# Qurucu rəhbər, qlobal lider, müzəffər komandan

## Prezident iqtidar-müxalifət münasibətlərinə yeni nəfəs gətirdi

1991-ci ildə müstəqilliyini bərpa edəndən sonra Azərbaycan özünün yeni tarixini yaratmağa başladı. Bu tarix ağrılarla, itkilərlə, çətinliklərlə, maneələrlə dolu idi. Bir də gələcəyə olan böyük ümidlər vardı. Çünki Azərbaycan gənc və zəngin enerji resurslarına malik dövlət idi. Ərazilərinin 20 faizinə qədəri işğal edilmiş, 1 milyona yaxın qaçqın və məcburi köçkünə yurdun müxtəlif guşələrində sığınacaq vermək məcburiyyətində qalmışdı. Azərbaycanın yeni tarixi məhz belə bir dövrdə səhifələnməyə başlamışdı.

### Sağlam təməllər üzərində qurulan dövlət

1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" Azərbaycanın böyük gələcəyə olan ümidlərinə işıq tutmuşdu. Onun neft-qazla zəngin yataqları dünyanın aparıcı enerji şirkətləri tərəfindən işlənəcək, ölkəyə maliyyə axacaq və bu, dövlətimizin sağlam təməllər üzərində qurulmasına, iqtisadiyyatının güclənməsinə, ordu quruculuğuna, işğal altındakı torpaqlarının gələcəkdə azad edilməsinə vəsilə olacaqdı.

2003-cü ilə - İlham Əliyevin prezident seçilməsinə qədər olan illər Azərbaycanda dövlət quruculuğu illəri kimi təsnifləşdirilib. 2003-cü ildən sonrakı illər isə dövlətimizin inkişafı və islahatlar dövrü kimi səciyyələndirilir. Azərbaycanın 2003-cü ildən bu günə qədərki dövrünün baş memarı ölkə prezidenti İlham Əliyevdir.

İlham Əliyevin prezidentliyinin ilk illəri ölkə üçün ağır və məsuliyyətli dövrə təsadüf edir. "Əsrin müqaviləsi" ilə başlanan yeni neft erası öz məntiqi ardıcıllığı ilə davam etməli, dünya bazarlarına çatdırılmalı idi. Bunun üçün müqavilələrdə və layihələrdə nəzərdə tutulan neft kəmərləri çəkilməli idi. Azərbaycanın böyük həcmdə gəlirlər əldə edəcəyindən və güclənəcəyindən, öz müstəqilliyini daha da möhkəmləndirəcəyindən narahat olan xarici qüvvələr ölkəyə qarşı təzyiqləri artırmağa başladılar. Ən böyük istəkləri kütləvi iğtişaşlar, xaos yaratmaq, rəngli inqilablar həyata keçirmək idi.

Bütün bu təzyiqlərə baxmayaraq, Azərbaycan öz hədəflərinə doğru inamla irəlilədi. Öz neftini Xəzər dənizindən Türkiyənin Ceyhan limanına, oradan Aralıq dənizi vasitəsilə Avropa bazarlarına nəql edəcək 1768 kilometr uzunluğunda kəməri çəkməyə nail oldu.

BTC boru kəmərinin neftlə doldurulmasına 2005-ci il may ayının 10-da başlanıldı və neft Ceyhan terminalına 2006-cı ilin may ayının 28-də çatdırıldı. Kəmərin doldurulması üçün təxminən 10 milyon barel neft tələb olunurdu. Bu kəmərlə nəql edilmiş ixrac xam nefti yüklənmiş ilk tanker 2006-cı ilin iyun ayının 4-də yola salındı. Bu, ölkənin həyatında dönüş anı idi. Onun ardından enerji layihələrinin şaxələndirilməsi, iqtisadi cəhətdən səmərəli olan digər mühüm layihələrin həyata keçirilməsi zərurəti yarandı. BTC-dən sonra Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verildi.

2014-cü il sentyabrın 20-də Avropanın enerji təhlükəsizliyinin, həmçinin Azərbaycanın perspektiv inkişafının və iqtisadi maraqlarının təmin edilməsində böyük rol oynayacaq "Cənub qaz dəhlizi"nin təməli qoyuldu. 2018-ci ildə Bakıda "Cənub qaz dəhlizi"nin, ardından da onun tərkib hissəsi olan TANAP boru kəmərinin rəsmi açılış mərasimi keçirildi.

Sonra TAP layihəsi reallaşdırıldı. "Əsrin müqaviləsi"nin müddətinin 2050-ci ilə qədər uzadılması Azərbaycanda uzun illər bundan sonra da neftin hasilat səviyyəsinin sabit qalmasına, neft sektoruna xarici investisiya qoyuluşunun təmin olunmasına imkan yaratdı. Avropa və Asiyanı birləşdirən "Şərq-Qərb" və "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində böyük işlər görüldü.

Bakı-Tbilisi-Qars dəmir yolu açıldı, Azərbaycanın Rusiya, İran və Gürcüstanla sərhədinə qədər yeni magistral avtomobil yolları tikildi. Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi magistral avtomobil yolunun istifadəyə verilməsi ilə Azərbaycan ərazisində "Şimal-Cənub" nəqliyyat dəhlizi layihəsinin reallaşması üçün bütün işlər başa çatdırıldı. Azərbaycan siyasi, iqtisadi və strateji baxımdan böyük əhəmiyyətə malik həmin beynəlxalq nəqliyyat dəhlizlərində fəal iştirak etməklə Avrasiyada mühüm tranzit və logistika mərkəzlərindən birinə çevrildi.

Bütün bunlar məhz İlham Əliyevin sarsılmaz iradəsi, tükənməz enerjisi və əməyinin nəticəsi idi. O, başa düşürdü ki, Azərbaycanı düşdüyü bu çətin vəziyyətdən ancaq iqtisadi cəhətdən güclənməsi, çevik və effektiv işləyən dövlət institutlarının yaradılması, ardından da güclü ordusunun formalaşdırılması çıxarda bilər.

Məhz onun siyasəti sayəsində Azərbaycan regional gücə, əhəmiyyətli tranzit xətlərinin yaradıcısı və ötürücüsünə çevrildi.

### İslahatlar və idarəetmədə nəsil dəyişikliyi

2018-ci il prezident seçkilərindən sonra ölkədə ciddi islahatlar prosesinə start verildi. Onun nəticəsində idarəetmə sistemində nəsil dəyişikliyi başladı, müasir təfəkkürlü insanlar bu işə cəlb edildilər.

Kadr islahatları başladı, gənclər irəli çəkildi. 2019-cu ildə müstəqillik illərindən bəri ilk dəfə yaşanan dəyişikliklər baş verdi. İdarəetmədə yeniliklərlə yanaşı, sosial istiqamətdə addımlar atıldı. İqtisadiyyatda, xüsusən vergi siyasətində çox ciddi struktur dəyişiklikləri həyata keçirildi. Böyük risk olmasına baxmayaraq, savadlı, dünyanın qabaqcıl universitetlərində təhsil almış gənclərin mühüm vəzifələrə gətirilməsi effekt verdi.

Mühüm məsələ həm də o idi ki, Prezident kadr siyasətində partiya faktoruna yox, peşəkarlığa üstünlük verdi.

O, cəsarətlə sistemin siyası islahatlarını həyata keçirdi. İlk növbədə iqtidarla müxalifətin effektiv dialoqu quruldu. Bu dialoq 44 günlük müharibənin gedişində xalqın müxtəlif siyasi təbəqələri arasında birliyin yaranması istiqamətində mühüm addım idi.



Effektiv idarəetmə sisteminin qurulması üçün mühüm işlər görüldü, müvafiq yol xəritələri yaradıldı, hazırda uğurla həyata keçirilir. Bütün bunlara paralel olaraq qeyri-neft sektoru inkişaf etdirildi. İlham Əliyevin ən son açıqlamasında deyildiyi kimi, Azərbaycan iqtisadiyyatın şaxələndirilməsi, neft və qaz sahəsindən asılılığın azaldılması üzərində fəal çalışır. Artıq ÜDM-də neft və qaz amili 50 faizdən aşağıdır.

İlham Əliyev o liderlərdəndir ki, böhranlı vəziyyətlərdə operativ və effektiv qərarlar qəbul etməyi bacarır. Dünya liderləri ilə normal ünsiyyət bacarığı və əməkdaşlıq qabiliyyəti var. Bir zamanlar onu şiddətli tənqid hədəfinə çevirən dünya mediası istər 44 günlük müharibə dövründə, istərsə də ondan sonra İlham Əliyevə münasibətlərini yaxşı mənada dəyişiblər. Çünki o, dünyanın aparıcı KİV-inə verdiyi müsahibələri, səmimi və məntiqli fikirləri, ölkəsinin maraqlarını ləyaqətlə təmsil etməsi ilə onların rəğbətini qazanıb. Azərbaycanın "Formula-1", "Avroviziya", I Avropa Oyunları və bir çox mühüm beynəlxalq yarışlara evsahibliyi etməsinə dəstək verməklə ölkəmizi yaxşı yöndən dünyaya tanıtmış oldu. Bu addımlar ölkənin turizm, iqtisadi, mədəni potensialını dünyaya açdı, həmçinin investisiya imkanlarını nümayiş etdirdi.

Onun siyasəti həm də Azərbaycanın dünyaya açılan mədəni bir pəncərə olduğunu göstərdi. Ayrı-ayrı ölkələrdə, eləcə də Azərbaycanda təşkil edilən müxtəlif festivallar, Azərbaycanın dünya şöhrətli ədiblərinin yubiley mərasimləri, onlara həsr olunan elmi, mədəni və kütləvi tədbirlərin keçirildiyi illər (Nəsimi ili, Nizami ili və s.) ölkəmizi həm də Şərq musiqisinin, mədəniyyət və incəsənətinin, poeziyasının, ədəbiyyatının beşiyi kimi tanıtdı. İndi dünya Azərbaycanı həm də müsəlman Şərqində bir çox ilklərə imza atmış, multikultural dəyərlərə üstünlük verən, çəkinmədən sivilizasiyalararası dialoqa ev sahibliyi edən ölkə kimi tanıyır. Bizim mədəni irs nümunələrimiz UNESCO səviyyəsində tanınır və qorunur.

### Dünyanın otuz ildə həll edə bilmədiyi problem 44 gündə həll olundu

İlham Əliyev bir neçə əməlinə görə tarix kitablarına öz adını yazdırıb. Lakin onların ən şərəflisi və möhtəşəmi ərazilərimizin Ermənistanın işğalından azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasıdır.

Ermənistanın baş naziri Nikol Paşinyanın "Qarabağ Ermənistandır, nöqtə" ifadəsinə İlham Əliyev özünün ötən bir il ərzində son dərəcə populyar olan "Qarabağ Azərbaycandır!" sözləri ilə cavab verdi. Hər şey də elə bundan başladı. Onun məhz "Qarabag Azərbaycandır!" ifadəsi ərazilərimizin işğaldan azad edilməsinə və bizi qalib millətə çevirməyə vəsilə oldu.

Prezident hələ yenidən formalaşdırılan parlamentin ilk iclasında yeni siyasi islahatlarla bağlı anons vermişdi. Bu proses Azərbaycanın müharibədə qazandığı qələbəyə qədər gəlib çıxdı, milli birliyin yaranmasına vəsilə oldu. Tədricən Silahlı Qüvvələrimiz xalqın dəstəyini hiss etdi, yeni nəsil Azərbaycan əsgəri yetişdi. Torpaqlarımızın azad edilməsi İlham Əliyevin prezidentlik dönəmində əldə etdiyi uğurların zirvəsi idi.

Bu, dünyanın, beynəlxalq təşkilatların üç onillik ərzində həll edə bilmədiyi Qarabağ probleminin cəmi 44 gündə həll olunması idi. Bu, xalqımızın qürurunun, şərəfinin, inamının özünə qaytarılması idi. Onun liderliyi altında Azərbaycan BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş, amma yerinə yetirilməmiş dörd qətnaməsinin tələblərini təkbaşına yerinə yetirdi. ATƏT-in Minsk qrupu həmsədrlərinin 1994-cü ildən həyata keçirdiyi vasitəçilik missiyası heç bir nəticə verməmişdi. Amma ötən il Azərbaycan Ermənistan silahlı qüvvələrinin təmas xəttində törətdiyi növbəti hərbi təxribatlarına cavab olaraq cəmi 44 gün ərzində ərazilərinin 30 illik işğalına hərbi güc yolu ilə son qoydu. Bu müharibədə Azərbaycanın 2900 nəfərədək hərbçisi və yüzə qədər mülki vətəndaşı həlak oldu. Lakin Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında şanlı Azərbaycan Ordusu Ermənistanın işğalçı ordusu üzərində zəfər çaldı. Ermənistan rəhbərliyi ölkəsinin ordusunun tamamilə məhv olunduğunu görərək kapitulyasiya aktına qol çəkmək məcburiyyətində qaldı.

Azərbaycan öz şərəfli tarixinə daha bir möhtəşəm günü - 8 Noyabr Zəfər Gününü əlavə etdi.

Beləliklə, İlham Əliyev beynəlxalq güclərin diqqətini illərlə görməzdən gəldikləri, bölgənin inkişafını əngəlləyən, sülh və sabitliyə təhlükə yaradan problemə cəlb etdi. Bu gün Avropa İttifaqı, böyük ölkələrin liderləri Ermənistanla Azərbaycan arasında davamlı sülh müqaviləsinin bağlanması, kommunikasiyaların açılması, Zəngəzur dəhlizinin fəaliyyətə başlaması, iki dövlət arasında sərhədlərin delimitasiya və demarkasiyası üçün cəhdlər edirlər. Bu günlərdə Soçi və Brüsseldə Azərbaycan və Ermənistan liderlərinin iştirakı ilə keçirilən mühüm görüşlər də bunun bariz nümunəsidir.

Azərbaycan regionda yeni reallıqlar yaratmışdır. Artıq hər kəs bu regionda Azərbaycanla hesablaşmağın vacib olduğunu dərk etməyə başlayıb. Bu, məhz İlham Əliyevin vaxtında və yerində verilmiş qərarlarının, müdrik siyasətinin nəticəsidir.

Prezident Kəlbəcər və Laçına səfəri zamanı bir daha Ermənistana "dəmir yumruğ"un yerində olduğu mesajını vermişdi. Bildirmişdi ki, Ermənistanın sərhəddə və Qarabağda təxribatları çox ağır nəticələnə bilər. Prezident həm Ermənistana, həm də proseslərdə iştirak etmək istəyən digər güclərə ciddi mesaj vermişdi. Ermənistanla yanaşı, onun havadarlarına, erməniləri silahla təmin edən qüvvələrə bildirmişdi ki, Ermənistan müxtəlif güclər tərəfindən təxribatlara təhrik edilə bilər, lakin bunun mütləq nəticələri olacaq. Həmin qüvvələr nə qədər istəsələr də, münaqişəni bərpa edə bilməyəcəklər. Azərbaycanın 44 günlük müharibədə qalib gələn ordusu vətənin keşiyindədir və onun güclənməsi, müasirləşməsi davam etdirilir.

Dövlət başçısı açıq şəkildə bildirdi ki, Azərbaycan sülh, əmin-amanlıq, əməkdaşlıq tərəfdarıdır. Biz bölgədə daimi sülhü yaratmaq üçün addımlar atırıq. Ermənistan da bu prosesdə öz revanşist iddialarına son qoyaraq üçtərəfli Bəyannamədə nəzərdə tutulan bütün öhdəliklərini yerinə yetirməlidir. Çünki sülhün yaradacağı reallıqlar Ermənistanın da maraqlarına uyğundur.

### Azərbaycan beynəlxalq oyunçuya çevrilib

Son günlər Brüsseldə NATO-nun Baş qərargahında keçirilən görüş zamanı baş katib Yens Stoltenberqin Azərbaycanın NATO ilə uğurlu əməkdaşlığı və regionda sülhyaratmaya verdiyi töhfələrlə bağlı fikirləri çox diqqətçəkən idi. NATO rəhbərliyi də artıq Cənubi Qafqaz regionunda aparıcı gücün məhz Azərbaycan olduğu reallığını qəbul edir.

İlham Əliyevin tutduğu mövqe bölgədə yeni münasibətlər sisteminin yaranmasına təkan verib. 3+3 (3+2) əməkdaşlıq formatı, Türk Dövlətləri Təşkilatının genişlənməsi, Qoşulmama Hərəkatına sədrlik etdiyi dövrdə həyata keçirdiyi mühüm fəaliyyətlər bunun bariz nümunəsidir.

O da diqqətdən qaçmamalıdır ki, 44 günlük Vətən müharibəsində Türkiyənin Azərbaycana verdiyi tam dəstək, ardından da Şuşa Bəyannaməsinin imzalanması iki ölkə arasında münasibətlərin ən yüksək həddi idi. İndiyə qədər iki qardaş ölkə arasında münasibətlər bu dərəcədə yüksək səviyyəyə çatmamışdı. İki ölkənin birlikdə həyata keçirdiyi hərbi təlimlər Azərbaycan Silahlı Qüvvələrinin daha da inkişafına və güclənməsinə xidmət edir. Bu həm də bütün dünyaya mesajdır ki, Azərbaycan və Türkiyə birlikdə regionda vahid gücdür, onları təkləmək, görməzdən gəlmək mümkün deyil.

İlham Əliyevin şəhid ailələrinə, müharibə əlili və veteranlarına göstərdiyi qayğı cəmiyyət tərəfindən yüksək qiymətləndirilir. Bu, bir daha onu göstərir ki, dövlətimiz onun ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərin ailələrinə, müharibədə sağlamlığını itirmiş qazilərə, müharibə iştirakçılarına öz borcunu ödəməkdə israrlıdır. Dövlət öz vətəndaşına, döyüşən övladlarına, şəhidlərinin ailələrinə sahib çıxır və həmişə də çıxacaqdır.

İlham Əliyev dünyanı bürümüş pandemiya dövründə virusun geniş yayılmasının qarşısının alınması, xəstələrin müalicəsi üçün təcili və effektiv tədbirlərin görülməsi üçün müvafiq addımları atıb. Ölkəyə peyvəndlər gətirilib və əhalinin 3-4 dozada peyvənd qəbul etməsi üçün hər cür şərait yaradılıb. Məhz bu effektiv siyasət sayəsində bu gün Azərbaycanda pandemiya qorxulu hal almayıb.

İlham Əliyevin pandemiya dövründə atdığı adekvat addımlar, imkanı olmayan ölkələrə peyvəndlərin, tibbi ləvazımatların göndərilməsi kimi humanitar aksiyalara dəstək verməsi də dünyada onun nüfuzunun artmasına gətirib çıxarıb.

Hazırda dövlətin və xalqın qarşısında Böyük qayıdış, Qarabağı cənnətə çevirmək dayanır. Əminəm ki, prezidentin bu istiqamətdə strategiyası uğurla nəticələnəcək.

Prezident həm müharibə dövründə, həm də ondan sonra Azərbaycanı dünyaya daha yaxşı tanıtmağa başladı. Onun sayəsində dünyanın Azərbaycana və xalqımıza rəğbəti artdı. Bunu daha da inkişaf etdirmək lazımdır. Odur ki, ölkədə hər kəs prezidentin ətrafında birləşərək, vahid bir yumruğa çevrilərək çəkici eyni zindana vurmalı, ölkəmizi daha parlaq gələcəyə doğru ləyaqətlə aparmalıdır.

***Asim MOLLAZADƏ,***
***Demokratik İslahatlar Partiyasının sədri, Milli Məclisin deputatı***

## İlham Əliyevin yaratdığı siyasi mədəniyyət milli birliyimizi daha da gücləndirdi

**Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi dövr Azərbaycanın hərtərəfli inkişaf dövrü kimi xarakterizə edilir. Bu illər ərzində dünyanın ən fərqli geosiyasi qütbləri ilə münasibətlər qorunmuş, beynəlxalq güc mərkəzlərindən gələn təzyiqlər uğurla neytrallaşdırılmış, toqquşan maraqlar uzlaşdırılaraq Azərbaycanı sabitliyin hökm sürdüyü əməkdaşlıq məkanına çevirmişdir.**

### Gərgin əməyin, düzgün siyasətin, görülmüş işlərin məntiqi nəticəsi

İlham Əliyevin 2003-cü ildən bəri Prezidentlik fəaliyyətindəki uğurlarının ən möhtəşəm zirvəsində, heç şübhəsiz ki, işğal altındakı torpaqlarımızın azad olunması, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnmiş Vətən müharibəsi dayanır.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış Qarabağ Zəfəri xalqımızın qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazıldı. Azərbaycan qalib ölkəyə, xalqımız qalib xalqa çevrildi. Bu Qələbə sayəsində regionda yeni reallıqlar yarandı. Silahlı Qüvvələrimizin qəhrəmanlığı, iqtisadi qüdrətimiz, milli birliyimiz ilə yanaşı, Qələbəni şərtləndirən mühüm amillərdən biri də Azərbaycan Prezidentinin diplomatiya müstəvisində çevik siyasəti oldu.

Vətən müharibəsində qazanılmış Qələbə son illərdə həyatın bütün sahələrində əldə olunmuş uğurlarla, dinamik inkişafla bilavasitə bağlıdır. İlk növbədə, güclü və qüdrətli dövlət yaratmaq lazım gəlirdi və Prezident İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, Azərbaycan heç vaxt indiki qədər güclü olmayıb. Bu tarixi Zəfərə gələn yol gərgin əməyin, aparılan düzgün siyasətin, görülmüş işlərin məntiqi nəticəsi idi.

Ötən dövr Azərbaycanda bütün istiqamətlərdə böyük inkişafın müşahidə edilməsi, ölkəmizin bölgədə və dünyada mövqelərini gücləndirməsi ilə müşahidə olundu. Bu illər ərzində aparılan doğru siyasət Azərbaycanın müttəfiqlərinin və dostlarının sayını artırdı. Azərbaycan dünyada müsbət imicə malik olan etibarlı tərəfdaş kimi tanındı. Bunun ən bariz nümunəsi Azərbaycanın 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi idi. BMT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası Parlament Assambleyası, Avropa İttifaqı, Avropa Parlamenti, Qoşulmama Hərəkatı, ICESCO, GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, NATO Parlament Assambleyası və digər beynəlxalq və regional təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən, Ermənistanın işğalçılıq siyasətini pisləyən çoxsaylı qərar və qətnamələr qəbul etmişlər. Özündə 120 ölkəni birləşdirən və BMT-dən sonra dünyada ən böyük siyasi təsisat olan Qoşulmama Hərəkatına sədrlik müddətinin daha bir il artırılması ölkəmizə və onun liderinə olan etimadın ifadəsidir. Məhz beynəlxalq müstəvidə aparılan fəaliyyətin nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü hərbi-siyasi yolla həll etmək üçün ciddi hüquqi baza yaratdı.

### Güclü iqtisadiyyat, sosial təminat, qüdrətli ordu

Arxada qalan illər ərzində Azərbaycanın iqtisadi uğurları əhəmiyyətli dərəcədə artdı, əldə edilən nailiyyətlərlə ölkəmizin valyuta ehtiyatları, o cümlədən Azərbaycana qoyulan sərmayələrin həcmi çoxaldı.

Regionların sosial-iqtisadi inkişafına dair həyata keçirilən üç dövlət proqramı sayəsində bölgələrdə inkişaf prosesləri sürətləndi, kənd təsərrüfatının müxtəlif sahələri ilə bağlı konkret proqramlar icra olundu. İşsizliyin və yoxsulluğun səviyyəsi aşağı düşdü, Azərbaycanda 2 milyondan çox yeni iş yeri açıldı.

2020-ci ilin əvvəlində təsdiqlənən böyük sosial paket 4 milyondan çox insanı əhatə edir. Birinci və ikinci dəfə 40 faiz olmaqla minimum pensiya əhəmiyyətli dərəcədə qaldırılıb. Minimum əməkhaqqı təxminən 2 dəfə artırılıb, 130 manatdan 250 manata, pensiya isə 116 manatdan 200 manata çatdırılıb.

Eyni zamanda problemli kreditlərlə bağlı olan məsələ də öz həllini tapıb. Həmçinin 300 mindən çox əlilliyi olan şəxsin, 500 minə qədər məcburi köçkünün, 100 mindən çox tələbə və gəncin, ümumilikdə, 1,3 milyon insanın gəlirləri əhəmiyyətli şəkildə artırılıb.

Azərbaycanda ordu quruculuğu istiqamətində həyata keçirilən tədbirlər, silahlı qüvvələrin hərbi hazırlıq səviyyəsinin artırılması ilə bağlı görülən işlər Dağlıq Qarabağın Azərbaycandan qoparılması ilə bağlı bəzi dairələrdə yaranan əminliyi darmadağın etdi, xalqımızı ordumuzun etibarına inandırdı. Ölkəmizdə güclü müdafiə sənayesi quruldu. 2003-cü ildə Azərbaycanın hərbi xərcləri 135 milyon ABŞ dolları idisə, 2022-ci il üçün icmal büdcəsinin proqnozuna əsasən, müdafiə və təhlükəsizlik xərcləri 4 milyard 499 milyon 238,9 min manat olacaq. Bu, məğlub Ermənistanın dövlət büdcəsindən çoxdur.

### Qlobal transmilli layihələr, kosmik dövlət

Prezident İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan bu gün dünyada bir çox transmilli layihələrin təşəbbüskarı və uğurlu icraçısı, etibarlı tərəfdaşı kimi tanınır. Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayan Azərbaycan "Cənub qaz dəhlizi" layihəsinin aparıcı qüvvəsi kimi çıxış etməyə başladı.

Xəzərin Azərbaycan sektorunda "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında yeni sazişin imzalanması ölkəmizin dünya enerji sənayesində həlledici amil olduğunu bir daha təsdiqlədi. Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, Azərbaycan qazını Avropaya çatdıran "Cənub qaz dəhlizi", TAP layihəsi, Avropanı Asiya ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu, "Şərq-Qərb" və "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizləri ölkəmizi energetika və nəqliyyat mərkəzinə çevirib. Ötən illərdə Oğuz-Qəbələ-Bakı su kəmərinin və Taxtakörpü su anbarının istifadəyə verilməsi kimi nəhəng layihələrin icrasına nail olundu.

İlham Əliyevin hakimiyyəti illərində ölkənin sosial-iqtisadi infrastrukturu bütövlükdə yenidən qurulmuş, 15 min kilometrdən çox yol çəkilmiş, 450 körpü inşa olunmuş, 4 yeni metro stansiyası açılmış, 7 hava limanı, Ələt qəsəbəsində yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı inşa edilmiş, Azərbaycan böyük enerji və nəqliyyat qovşağına çevrilmişdir. Beynəlxalq reytinqlərə əsasən, respublikamız avianəqliyyat, dəmir yolu sahələri üzrə dünyada 11-12-ci yerləri, yol infrastrukturunun keyfiyyətinə görə 27-ci yeri tutur. Azərbaycan artıq dünyanın kosmik dövlətlər klubuna qoşulmuşdur. Azərbaycan bu gün dünyanın məhdud saylı kosmik ölkələri sırasında yer alır. "Azerspace-1", "Azersky" və "Azerspace-2" peykləri orbitdə uğurla fəaliyyət göstərir.

Dövlət strukturlarının fəaliyyətinin təkmilləşdirilməsi və vətəndaşlara yüksəksəviyyəli xidmətlərin göstərilməsi istiqamətində bir çox layihələri-Azərbaycan brendi kimi dünyaya səssalan "ASAN xidmət", "ABAD", "DOST" kimi layihələri sosial xidmət sahəsində şəffaflığın təminatına geniş imkanlar açır. Hazırda Azərbaycanın bu təcrübələri beynəlxalq səviyyədə də tətbiq edilir. Azərbaycan iqtisadiyyatının düzgün əsaslar üzərində qurulması sayəsində 2008-ci ildə dünyanı bürüyən maliyyə və iqtisadi böhranın təsirlərinin ölkədə minimuma endirilməsinə nail olundu. Azərbaycan bu böhranı az hiss edən ölkələrdən oldu.

Nəhəng infrastruktur layihələrinin, Olimpiya İdman komplekslərinin inşası gənc nəslin sağlamlığının qorunmasına mühüm töhfələr verdi. Yüzlərlə səhiyyə ocağının, müalicə-diaqnostika mərkəzlərinin inşası səhiyyə sisteminin inkişafını göstərdi. Ölkədə minlərlə məktəb tikildi.

### Beynəlxalq tədbirlərin keçirildiyi məkan, nümunəvi ölkə

Son 18 il ərzində Azərbaycan dünyada həm də mühüm beynəlxalq tədbirlərin, yarışların keçirildiyi ölkə kimi tanınıb. Bakı "Avroviziya" mahnı müsabiqəsinə, I Avropa Oyunlarına, IV İslam Həmrəyliyi Oyunlarına, "Formula-1" yarışlarına, futbol üzrə Avropa çempionatının final mərhələsinin bir neçə oyununa evsahibliyi edib.

Ölkədə qeyri-neft sektorunun inkişafı neft siyasətinin məntiqi davamı oldu. Güclü iqtisadiyyatın hər bir ölkənin inkişafında mühüm amil olduğunu bəyan edən ölkə rəhbəri iqtisadiyyatda qeyri-neft sektorunun çəkisinin artırılması ilə bağlı tədbirlər gördü.

Dünyanın, o cümlədən ölkəmizin koronavirus infeksiyası ilə mübarizə tədbirlərini gücləndirdiyi bir zamanda Azərbaycanın insanların sağlamlığının qorunması ilə bağlı zəruri tədbirlər görüldü, yüzlərlə xüsusi xəstəxanalar tikildi. Koronavirusun yayılmasının qarşısını almaq məqsədilə çevik və vacib qabaqlayıcı tədbirlər görüldü, Ölkə rəhbərinin təşəbbüsü ilə təsis edilmiş Koronavirusla Mübarizəyə Dəstək Fonduna Prezidentin Ehtiyat Fondundan 20 milyon manat ianə ayrıldı. Nazirlər Kabineti yanında Operativ Qərargah yaradıldı, vaxtında sosial təcrid tədbirləri, eləcə də xüsusi karantin rejimi tətbiq edildi, xəstələrin ödənişsiz müalicəsi üçün onlarca xəstəxana ayrıldı. Müasir modul tipli 11 xəstəxana və 2 hospital, 2 tibbi maska fabriki istifadəyə verildi, ölkəyə virusun diaqnostikası və müalicəsi üçün zəruri olan laborator testlər, tibb avadanlığı və ləvazimatlar gətirildi. Pandemiyanın yaratdığı çətinlikləri aradan qaldırmaq məqsədilə dünyanın 150 ölkəsi kredit üçün müraciət etdiyi halda, Azərbaycanın iqtisadi potensialı bu bəlaya qarşı öz gücüylə mübarizə aparmağa imkan verdi. Eyni zamanda Azərbaycan ÜST-ə könüllü ianə ayırdı, 30-dan artıq dövlətə humanitar yardım göstərdi. Təsadüfi deyil ki, Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) bu mübarizədə Azərbaycanı nümunəvi ölkə adlandırdı.

### Siyasi dialoq, müxalifət partiyalarına yaradılan imkanlar

Son zamanlarda hakimiyyətin bütün qollarında - qanunverici, icraedici və məhkəmə hakimiyyətlərində islahatlar gedir, prosesi asanlaşdırmaq məqsədilə yeni hüquqi aktlar qəbul edilir, heç bir dövlət orqanı yenilənmə, islahat kursundan kənarda qalmır.

Nazirlər Kabinetində, Milli Məclisin Aparatında, hüquq-mühafizə orqanlarında struktur və kadr dəyişiklikləri aparılmış, 2019-cu ilin noyabrında Prezident Administrasiyasının yeni strukturu təsdiqlənmiş, ilk dəfə olaraq Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsi yaradılmışdır.

2020-ci il fevralın 9-da keçirilmiş növbədənkənar parlament seçkiləri nəticəsində mütləq çoxluqda olan YAP üzvləri və bitərəflərlə yanaşı, mandat qazanmış 8 müxalifət partiyasının üzvləri də müstəqil Azərbaycanın parlamentarizm tarixində ilk dəfə həm Milli Məclisin, həm də daimi komitələrin rəhbərliyində təmsil olunmuşlar.

Ölkədə yeni siyasi mədəniyyət yaranır. Azərbaycanın müstəqillik tarixində fəaliyyətdə olan siyasi partiyaların əksəriyyətinin iştirakı ilə ilk dəfə keçirilən görüşlər, qəbul edilən birgə müraciət və bəyanatlar birmənalı olaraq siyasi sabitliyə, etibarlı münasibətlərə və davamlı inkişafa xidmət edir. Bu mənada 52 real siyasi partiyadan 51-nin bir araya gələrək ümummilli məsələləri müzakirə edib vahid mövqe ortaya qoyması əhəmiyyətli hadisədir. Partiyaların ofislə təmin edilməsi üçün ilk dəfə olaraq addımlar atılmışdır. Daxildəki həmrəylik, milli birlik, vahid amal uğrunda birləşməyimiz bəzi mənfur xarici dairələrin öz çirkin planlarını həyata keçirmələrinə imkan vermədi. Azərbaycanın gücü milli birlikdədir.

Bu gün Azərbaycan dünyanın iqtisadi, siyasi və humanitar mərkəzinə çevrilib. Azərbaycan multikultural, tolerant ölkə kimi yerini və rolunu möhkəmləndirməkdə, dünyada bu mühitin qorunmasının vacibliyini bəyan etməkdədir.

Azərbaycan dünyanı həm də işğaldan azad edilmiş ərazilərdə sürətli bərpa və yenidənqurma işləri ilə heyrətləndirir. Bu ərazilərdə yeni yollar çəkilir, elektrik stansiyaları tikilir. Prezident İlham Əliyev azad edilmiş rayonlara çoxsaylı səfərləri zamanı strateji infrastruktur obyektlərinin açılışını edir, yenilərinin təməlini qoyur. Füzuli aeroportu artıq təyyarələri qəbul edir, Şuşaya gedən "Zəfər" yolu istifadəyə verilib. Ağdam və Cəbrayıl şəhərlərinin bərpasının təməli qoyulub.

Aparılan müdrik siyasət və çevik diplomatik səylərin nəticəsində tezliklə Qarabağın bütün ərazilərində ölkəmizin suveren hüquqlarının tam bərqərar olunacağına, Zəngəzur dəhlizinin reallığa çevrilməsi ilə Naxçıvan MR ilə Azərbaycanın digər əraziləri, eləcə də böyük türk dünyası ilə quru yolla əlaqələrin bərpa ediləcəyinə, işğaldan azad edilmiş ərazilərimizin dirçələcəyinə, vəhşi düşmən tərəfindən viran qoyulan torpaqların yenidən çiçəklənəcəyinə inamımız tamdır.

***Fazil MUSTAFA,***
***Böyük Quruluş Partiyasının sədri, Milli Məclisin deputatı***



# Qurucu rəhbər, qlobal lider, müzəffər komandan



## Güclü dövlətçiliyimizin və etibarlı gələcəyimizin təminatçısı

Cəmi iki ay əvvəl Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 30-cu ili arxada qaldı. 30 il dövlət və xalq olaraq zaman-zaman təbəddülatlarla, çətinliklərlə üzləşsək də, liderlərimizin müdrikliyi, uzaqgörənliyi və milli birliyimiz nəticəsində bütün proseslərdən üzüağ, alnıaçıq çıxmışıq. Bu mənada ümumiləşdirilmiş şəkildə götürsək, müstəqillik tariximizin Heydər Əliyevlə başlanan və indi İlham Əliyevlə davam edən illəri xalqımızın şərəf və iftixar tarixidir.

### Regional inkişaf və məşğulluq

Ulu Öndər Heydər Əliyev müasir, hüquqi və demokratik Azərbaycan dövlətini yaratmış, öz inkişaf siyasəti ilə onun təməllərini möhkəmləndirmiş və yüksəliş yoluna çıxarmışdır. Prezident İlham Əliyevin rəhbərliyi dövründə isə Azərbaycan dövlətçiliyi tarixinin tamamilə yeni mərhələsinə qədəm qoyub. Hələ ilk dəfə 18 il əvvəl xalqın etimadını qazanan cənab İlham Əliyev öz əməlləri ilə qurucu lider və dövlətçiliyin ali missiyalarının layiqli daşıyıcısı olduğunu təsdiq edib.

Təcrübə göstərir ki, qətiyyətlilik, prinsipiallıq, zamanında sözünü demək, radikal tədbirlər görmək bacarığı əsl liderlərə xas keyfiyyətlər kimi dövlətin inkişafını şərtləndirən əsas amillər hesab olunur. Öz fəaliyyətində məhz bu keyfiyyətlərə söykənən Prezident İlham Əliyevin siyasi iradəsi Azərbaycanın daha da qüdrətlənməsinin, Cənubi Qafqazın lider dövlətinə, dünyada söz sahibinə çevrilməsinin leytmotivini təşkil edib. Ötən 18 ildə əldə olunan möhtəşəm nailiyyətlərin şahidləri kimi qəti əminliklə söyləyə bilərik ki, Azərbaycan dövləti bu illər ərzində sürətli inkişaf yolu keçib.

Prezident İlham Əliyevin ölkəmizin sosial-iqtisadi yüksəlişi ilə bağlı təşəbbüsləri regionların inkişafından başlayıb və bu, təsadüfi deyil. Çünki inkişafda çevikliyin, davamlılığın və mühüm makroiqtisadi nəticələrin əldə olunması həm də regionların inkişaf etdirilməsindən ibarətdir. Məhz bu səbəbdən hələ ilk prezident seçkiləri zaman cənab İlham Əliyev regionların inkişafı ilə bağlı prioritetləri xüsusi platforma şəklində elan etmiş və onları qətiyyətlə reallaşdırmışdır. Bəzi tərəflərinə nəzər salmaqla regional inkişaf siyasətinin nə kimi vacib uğurlu sosial və iqtisadi nəticələrə səbəb olduğunu deyə bilərik. Məsələn, ötən 18 ildə 2 milyondan artıq yeni iş yerinin yaradılması regional inkişafdan xəbər verən əsas sosial-iqtisadi göstəricidir. Azərbaycanın demək olar ki, bütün bölgələrində davamlı olaraq əməktutumlu, rəqabətqabiliyyətli yeni istehsal müəssisələri, xidmət sahələri istifadəyə verilmişdir.

Azərbaycan dövləti tərəfindən aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsi ilə yanaşı, onların aktiv əməyə cəlb edilməsinə, məşğulluğunun təmin olunmasına xüsusi diqqət yetirilir. Bu baxımdan Prezident İlham Əliyevin "Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" 2016-cı il 7 aprel tarixli Sərəncamı mühüm əhəmiyyət kəsb edir. Sərəncam dövlət məşğulluq siyasətində keyfiyyətcə yeni bir mərhələ açmaqla, özünüməşğulluq fəaliyyəti ilə işsiz və işaxtaran şəxslərin ailə bizneslərini qurmalarına, əmək potensiallarının reallaşdırılması yolu ilə gəlirlərini artırmalarına, həmçinin kiçik və orta sahibkarlığın inkişafına xidmət edir. Azərbaycanda özünüməşğulluğu inkişaf etdirmək üçün hərtərəfli şərait və imkan var. Artıq yerli banklar da bu proqramın həyata keçirilməsinə fəal dəstək verməyə başlayıblar.

### İslahatlar davamlıdır

2018-ci ilin prezident seçkilərindəki qələbədən sonra Milli Məclisdə keçirilən andiçmə mərasimində Prezident İlham Əliyev ciddi islahatların aparılacağını bəyan etmişdi. Nitqində sosial siyasətin daim diqqət mərkəzində olduğunu deyən Prezident növbəti illərdə çox ciddi islahatların aparılacağını və nəticədə vətəndaşlarımızın yaşayış səviyyəsinin daha da yaxşılaşacağını bildirmişdi.

Prezident İlham Əliyev tərəfindən aparılan iqtisadi islahatlar 2018-ci ildən iqtisadiyyatda şəffaflığın səviyyəsini artırdı, iqtisadi artımın yeni mənbələrinin tapılmasına imkan yaratdı, qeyri-neft sektorunun sürətli ikişafını təmin etdi. Təbii ki, bütün bu nəticələr özünü həm də dövlət büdcəsinin gəlirlərinin artımında, inflyasıyanın həcminin kiçik olmasında, ixracın həcminin artımında və Azərbaycanın strateji valyuta ehtiyatlarının həcminin artmasında göstərdi. 2018-ci ildə qəbul olunmuş 2019-cu ilin dövlət büdcəsində nəzərdə tutulan vəsaitlər və 2019-cu ilin əvvəlindən başlayaraq artan büdcə gəlirləri hesabına cənab İlham Əliyevin sərəncamları ilə iki dəfə geniş sosial paket elan edildi.

2019-cu ilin sosial islahatları 4,2 milyondan artıq vətəndaşı əhatə etdi. Bu islahatların miqyas və vətəndaşların maddi rifahının yaxşılaşdırılması baxımından mühüm əhəmiyyəti vardı. Beləliklə, iqtisadi sahədə əldə edilmiş mötəbər uğurların sosial sferaya transformasiyası dövlət başçısının bəyan etdiyi sosial iqtisadi kursun başlıca prinsipi olmaqla, ölkə vətəndaşlarının sosial təminatını əhəmiyyətli dərəcədə artırdı.

Ən mühüm odur ki, sosial sahədə islahatlar həm davamlıdır, həm də kompleks xarakter daşıyır. Məsələn, bir neçə gün əvvəl parlament tərəfindən təsdiq olunmuş gələn ilin dövlət büdcəsində əhalinin sosial rifahının daha da yaxşılaşdırılmasına xidmət edən mühüm sosial məsələlər öz əksini tapmışdır. 2022-ci il üçün dövlət büdcəsinin xərclərində əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsinin, növbəti ilin yanvarın 1-dən dövlət büdcəsindən maliyyələşən təşkilatlarda və maliyyə yardımı alan bir sıra müəssisə və təşkilatlarda çalışanların əməkhaqlarının, həmçinin ölkədə əmək pensiyalarının, sosial müavinətlərin, təqaüdlərin və digər sosial ödənişlərin artırılması ilə bağlı xərclərin maliyyə təminatı üstünlük təşkil edəcək.

### Səbəb və nəticə aspektləri

Azərbaycanda sosial siyasət yalnız vətəndaşların yüksık sosial təminatına nail olunması və ya aztəminatlı ailələrin sosial qayğılarının yoluna qoyulması ilə bitmir. Ölkədə sosial siyasətin başqa bir uğuru sosial problemlərə, xüsusən əlilliyə yol açan səbəblərin aradan qaldırılmasıdır. Məsələn, Kür çayı boyunca sutəmizləyici qurğuların quraşdırılması vətəndaşların sağlamlığına xidmət edən mühüm addım kimi sosial siyasətin uğurlarından biridir. Dövlət başçısının sərəncamları ilə indiyədək xüsusən Kür və Araz çaylarının suyundan istifadə edən yaşayış məntəqələrinin ekoloji cəhətdən təmiz su ilə təminatı istiqamətində xeyli iş görülüb. Yüzlərlə kənddə modul tipli sutəmizləyici qurğular quraşdırılıb ki, bunun da nəticəsində əhalinin sağlamlığı qorunub.

Atılan addımlardan biri də "Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması haqqında" qanundur. Duzun yodlaşdırılması hesabına Azərbaycanda son illər yod çatışmazlığı xəstəlikləri (orqanizmdə yod çatışmazlığı nəticəsində qalxanabənzər vəzin funksiyalarının pozulması ilə əlaqədar yaranan patoloji vəziyyət - beyin funksiyalarının pozulması, uşaqsalma, uşağın ölü doğulması, ağıl kəmliyi, kretinizm və s.) dəfələrlə azalıb.

Son illər bu sahədə uğurla həyata keçirilmiş tədbirlərdən biri də neftlə çirklənmiş ərazilərin təmizlənməsidir. Digər prioritet istiqamət isə Azərbaycan Prezidentinin təşəbbüsü ilə son illərdə geniş vüsət almış yaşıllaşdırma tədbirləridir. Ümumiyyətlə, bu gün Azərbaycanda yaşıllaşdırma istiqamətində vacib addımlar atılır. Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən layihələr buna nümunədir. Ekoloji problemlərin aradan qaldırılması istiqamətində görülən tədbirlərin hər biri insanların sağlamlığının möhkəmlənməsinə xidmət edir.

Təcrübə göstərir ki, bir sıra hallarda sosial problemlərin mənbəyi ailə qurulmasının düzgün planlaşdırılmamasıdır. Bu baxımdan nikah münasibətlərinin tənzimlənməsi zamanı sağlamlıq arayışlarının tələb olunması ailənin sağlam təməlinin formalaşdırılması baxımından vacib sosial qərar olmaqla hemofiliya və talassemiya, həmçinin digər xəstəliklərin qarşısının alınmasında mühüm əhəmiyyət kəsb edir.

Sosial siyasətin qarşısında duran əsas məqsədlərdən biri də uşaqların sağlamlığını qorumaq və gələcəyimiz üçün sağlam nəsil yetişdirməkdir. Bu istiqamətdə görülən işlərdən biri uşaqların icbari dispanserizasiyasının həyata keçirilməsidir. Həmin məqsədlə Milli Məclisdə "Uşaqların icbari dispanserizasiyası haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir.

Erkən evliliyə qarşı mübarizə də cəmiyyətimizdə olduqca aktual məsələlərdən biridir. Erkən nikah doğurduğu fəsadlara və cəmiyyətə vurduğu ziyana görə dövrümüzün mühüm və aktual problemi olaraq qalmaqdadır. Uşaqların anadangəlmə xəstə doğulmalarının əsas səbəblərindən biri də erkən nikahlardır. Çünki erkən nikahların əsas fəsadları ana və uşaqlar arasında ölüm hallarının çoxalması, doğulan uşaqlar arasında xəstə və əlil uşaqların çoxalmasıdır.

Avtomobil qəzaları, texnogen qəzalar da əlilliyi yaradan əsas səbəblərdir. Bunun da qarşının alınması üçün ölkəmizdə davamlı olaraq profilaktik tədbirlər həyata keçirilir. Yol hərəkəti qaydalarının pozulmasına görə cəzaların sərtləşdirilməsi, müəssisələrdə, istehsalatda texnogen qəzaların qarşısının alınması, tikintidə təhlükəsizliklə bağlı tələblər məhz bir məqsədə - insan amilinə xidmət edir.

Bütün bunlarla yanaşı, Azərbaycanda həyata keçirilən dövlət idman siyasətini də qeyd etməliyik. Məhz idmanın kütləviləşdirilməsi vətəndaşların fiziki sağlamlığının təmin olunmasında əhəmiyyətli rol oynayır.

### Elektron idarəetmə - məmur vətəndaş təmasının azaldılması

Azərbaycanda hökumət-vətəndaş münasibətlərində mütərəqqi modelin yaradılması sosial siyasətin mühüm tərkib hissələrindən biridir. Bu zaman vətəndaş məmnunluğunun təmin edilməsi qarşıya qoyulan əsas tələbdir. Həmin məqsədlə struktur islahatlarının tərkib hissəsi kimi hökumət-vətəndaş münasibətlərində daha çevik mexanizmlərin tətbiqi, bürokratik əngəllərin aradan qaldırılması istiqamətində vacib addımlar atılıb. Onlardan biri ictimai xidmət sahəsində müsbət addım olan "ASAN xidmət" mərkəzlərinin yaradılmasıdır.

"ASAN xidmət" modeli artıq bir neçə ildir Azərbaycanda ictimai xidmət sahəsində dönüş yaradıb. Bu model dövlət-vətəndaş münasibətlərində yeni yanaşmanın formalaşmasında Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin mühüm tərkib hissəsidir. Modelin yaranması göstərir ki, Azərbaycan dövləti inkişafın kompleks təmin olunması, neqativ halların tamamilə aradan qaldırılması və vətəndaş məmnunluğunun təmin edilməsi üçün bütün addımları atır. Reallıq ondan ibarətdir ki, bu mütərəqqi model Azərbaycanda nəinki uğurla tətbiq olunur, həm də dünyada yayılır.

İctimai, eləcə də sosial xidmətlər sahəsində keyfiyyətcə yeni mərhələ açan, hər kəsə dost məramı ilə yanaşan, şəffaflıq, operativlik, vətəndaş məmnunluğunu təmin etmək məqsədi ilə yaradılan DOST layihəsi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsünün nəticəsidir. Agentliyin missiyası Azərbaycan əhalisinin dövlət tərəfindən təklif edilən əmək və sosial müdafiə xidmətlərinə xidmət mərkəzləri şəbəkəsi vasitəsilə müasir, operativ və elektron xidmətlərin tətbiqi ilə rahat çıxışını təmin etməkdir. Layihə əmək, məşğulluq, sosial müdafiə, əlillik, reabilitasiya sahələrində xidmətlərin keyfiyyətinin yüksəldilməsi, bu sahələrdə şəffaflığın artırılması, innovativ həllərin tətbiqi və vətəndaş məmnunluğunun təmin edilməsi məqsədi daşıyır.

DOST xidmətlərinin fəaliyyətə başlaması sosial xidmətlərlə bağlı dövlət orqanlarına müraciət zamanı vaxt itkisinin qarşısının alınması baxımından mühüm hadisədir. Bütün bunlarla yanaşı, "ASAN xidmət" və DOST modeli cəmiyyətin ümumi mədəni, dövlət-vətəndaş münasibətlərinin səviyyəsinin yüksəlməsi, dövlət xidmətlərinin göstərilməsində yeni platforma olmaqla yanaşı, korrupsiyaya qarşı mübarizə sahəsində aparılan institusional islahatların uğurlu nəticəsidir.

### İşğala son qoyan siyasət

İkinci Qarabağ müharibəsi dövlətimizin gücünün, xalqımızın milli iradəsinin və həmrəyliyinin təntənəsinə çevrilərək torpaqlarımızın işğaldan azad olunması, pozulmuş ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. 44 günlük bu savaşda Prezident İlham Əliyevin Ali Baş Komandanlığı ilə müzəffər Azərbaycan Ordusu yalnız 30 illik müasir müstəqillik tariximizin deyil, son bir neçə əsrlik tariximizin ən şərəfli səhifəsini yazdı.

Artıq başa çatmış Dağlıq Qarabağ münaqişəsinin həlli ilə birbaşa məşğul olan ATƏT-in Minsk qrupunun həmsədrləri də 28 ildə qətiyyətli mövqe ortaya qoymadılar və Azərbaycan daim ikili standartlarla üzləşdi. Lakin xalqımız heç vaxt ümidini itirmədi. Bu ümidi yaşadan isə Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi, Prezident İlham Əliyevin qətiyyətlə həyata keçirdiyi siyasət oldu. Azərbaycan ərazilərində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcəyini dəfələrlə bəyan edən İlham Əliyev ordumuzun döyüş imkanlarını ən yüksək səviyyəyə çatdırmaqla 44 günlük Vətən müharibəsində qələbəmizi təmin etdi. Bu zəfərin yaratdığı reallıqlar daha böyük uğurların başlanğıcıdır və Qafqazda ölkəmizin mütləq liderliyini, dünyada isə söz sahibi olmasını təmin edən amildir.

Tarixi torpaqlarımız olan Qarabağ və Şərqi Zəngəzur artıq işğaldan azaddır, 30 ilə yaxın düşmənin vandallığı ilə üzləşən bu torpaqlar indi yenidən qurulur, tarixi şöhrətini bərpa edir. Cəmi bir il ərzində görülən işlərin miqyası olduqca əhatəli və sürətlidir. Görünən odur ki, azad olunmuş ərazilərin bərpası və vaxtilə Qarabağ və Şərqi Zəngəzurdan məcburi köçkün düşmüş vətəndaşlarımızın repatriasiyası üçün tədbirlər kompleks şəkildə həyata keçirilməkdədir.

Bu gün Azərbaycanda cəmiyyət həyatında baş verən hər bir keyfiyyət dəyişikliyi, nail olduğumuz hər bir uğur və Vətən müharibəsindəki qələbə göstərir ki, Prezident İlham Əliyevin dövlət rəhbəri kimi missiyası yalnız və yalnız dövlətə və xalqa xidmət məramı üzərində formalaşıb. Vətənpərvərlik və dövlətçilik prinsiplərinə köklənmiş bu missiyanın nəticəsidir ki, Azərbaycan bir dövlət olaraq tarixinin ən qüdrətli dövrünü yaşayır.

*Xalqımız bundan sonra da dövlətimizə yüksəliş nəsib edən və zəfər yaşadan bu siyasətə etimad göstərəcək, cənab İlham Əliyevin ətrafında daha sıx birləşərək sarsılmaz milli həmrəylik nümayiş etdirəcək. Heydər Əliyev siyasəti daimidir, Prezident İlham Əliyev bu siyasəti layiqincə yaşadan və yeni mərhələyə yüksəldən müdrik rəhbərdir. Bu siyasi kurs güclü dövlətçiliyimizin və etibarlı gələcəyimizin alternativsiz təminatçısıdır.*

***Hadi RƏCƏBLİ,***
***siyasi elmlər doktoru, professor***

## Liderlik fenomeni

Müzəffər Ali Baş Komandan İlham Əliyev haqqında yazımı böyük qürur hissi ilə dünya şöhrətli yazıçı, diplomat, Beynəlxalq Aytmatov Fondunun prezidenti Çingiz Aytmatovun aşağıdakı kəlamları ilə başlayıram.

O, İlham Əliyevin 2003-cü ilin oktyabrın 15-də xalqın mütləq əksəriyyətinin dəstəyi ilə demokratik yolla Azərbaycan Prezidenti seçildikdən bir müddət sonra jurnalistlərə verdiyi müsahibəsində dövlətimizin başçısının qloballaşan dünyanın lider etalonu adlandırmış və demişdir: *"Ulu Öndər əbədiyyətə qovuşanda xeyli nigarançılıq keçirdim. Lakin yerində layiqli varisi qaldığı üçün arxayınlaşdım. Qırğız və Azərbaycan türklərinin dəyərli "Ot kökü üstə bitər" deyimi var və çox fəxarətvericidir ki, bu deyim öz təsdiqini tapdı. 2003-cü ilin payızında Azərbaycan xalqı seçimini etdi - İlham Heydər oğlu Əliyevi özünə prezident seçəndə mən buna öz xalqımın uğuru kimi sevindim... Bəli, bu gün İlham Heydər oğlu Əliyev öz xalqı, ölkəsi qarşısında üzərinə götürdüyü çox şərəfli, şərəfli olduğu qədər də ağır vəzifənin öhdəsindən bacarıqla gəlir, atasının müəyyən etdiyi və özünün son dərəcə praqmatik düşüncə, idarəetmə məharəti, liderlik istedadı ilə sahib durduğu siyasi kursu bacarıqla davam etdirir".*

Böyük yazıçı və diplomatın İlham Əliyevin şəxsiyyəti haqqında söylədiyi fikirlərin Ulu Öndər Heydər Əliyevin 2003-cü ilin oktyabrın 1-də İlham Əliyevin ölkə prezidentliyinə namizədliyini irəli sürərkən onun haqqında dediyi fikirləri ilə üst-üstə düşməsi bir azərbaycanlı ziyalısı kimi məndə də qürur hissi doğurdu.

Ulu Öndər Heydər Əliyev və dünya şöhrətli alim, akademik Zərifə xanım Əliyeva kimi böyük şəxsiyyətlərin ailəsində doğulub boya-başa çatmış və onlardan dərs almış, hələ 42 yaşı tamam olmamış Prezident seçilən İlham Əliyev üzərinə düşən bu çətin, çətin olduğu qədər də şərəfli vəzifənin məsuliyyətini dərk edərək 2003-cü il oktyabr ayının 31-də dövlətə və xalqa sədaqət andı içərkən dedi: "Mən bu gün bu yüksək kürsüdən əziz Prezidentimiz cənab Heydər Əliyevə müraciət edərək deyirəm: Əziz Prezident, əsərin olan Azərbaycanı gücləndirəcəyik, zənginləşdirəcəyik, hərtərəfli inkişaf etdirəcəyik, Sizin yolunuzla yeni qələbələrə doğru gedəcəyik". Bununla da İlham Əliyev Ulu Öndər Heydər Əliyevin apardığı siyasəti davam etdirmək niyyətində olduğunu açıq-aşkar nümayiş etdirdi.

İlham Əliyev öz vədinə əməl edərək son 18 il ərzində atası Ulu Öndər Heydər Əliyevin yolunu yaradıcılıq və ləyaqətlə davam etdirərək, öz istedadı, qətiyyəti, ölkəyə rəhbərlik və orduya sərkərdəlik etmək bacarığı sayəsində Azərbaycanı dünyanın ən dinamik inkişaf edən lider dövlətləri sırasına, onun ordusunu isə ən güclü ordusu olan ölkələrin sırasına çıxarmağa nail oldu.

Elə bunun nəticəsidir ki, o, ata vəsiyyətini yerinə yetirərək xalqını öz ətrafında "dəmir yumruq" kimi birləşdirməklə rəşadətli Azərbaycan Ordusu ilə dünyanın hərb tarixində ilk dəfə olaraq cəmi 44 gün çəkən Vətən müharibəsində erməni ordusunu darmadağın, dünya erməni faşizmini və erməni mifini məhv edərək Ermənistanın torpaqlarımızın üzərindəki 30 ilə yaxın işğalına son qoyub ədaləti bərpa etdi. Bu böyük qələbə ilə ilk növbədə Azərbaycan xalqının böyük xalq olduğunu bütün dünyaya nümayiş etdirdi, xalqın adının Qalib Xalq, Azərbaycan Ordusunun adını Müzəffər Ordu, öz adını isə Yenilməz Sərkərdə kimi əbədi olaraq tarixə qızıl hərflərlə yazdırdı.

Əlbəttə, bu nailiyyətlərin əldə edilməsi asan yolla başa gəlməmişdir. Prezident İlham Əliyev atasının "İqtisadiyyatı güclü olan ölkə hər şeyə qadirdir" kəlamını əsas götürərək dövlət başçısı kimi fəaliyyətə başladığı ilk günlərdən qətiyyətli addımlar ataraq, bir sıra fərman və sərəncamlar imzalayaraq Ulu Öndərin inkişaf strategiyasını həyata keçirməyə başlamışdır. Onun bu istiqamətdə imzaladığı fərman və sərəncamlar, təsdiq etdiyi dövlət proqramları deyilənlərə əyani sübutdur.

Dövlət başçısının fərman və sərəncamlarında respublikamızın iqtisadi, sosial və demoqrafik inkişafı sahəsində əldə edilmiş uğurlu nəticələrin və müsbət meyillərin qorunub saxlanılması, onların ardıcıl və daha da məqsədyönlü şəkildə davam etdirilməsi, regionların tarazlı və üstün inkişafının təmin olunması, əhalinin sağlamlığının və rifahının yaxşılaşdırılması, əmək qabiliyyətli əhalinin, o cümlədən qaçqın və köçkünlərin səmərəli məşğulluğunun təmin edilməsi ilə bağlı hökumət və dövlət orqanları qarşısında duran konkret vəzifələr və onların həyata keçirilməsi mexanizmləri öz əksini tapmışdır.

Prezident İlham Əliyevin rəhbərliyi altında bu tədbirlərin uğurla yerinə yetirilməsi nəticəsində respublikamızın əsas iqtisadi və rifah göstəricisi olan ÜDM-in orta illik artım sürəti hələ 2005-2010-cu illərdə orta hesabla 17 faiz təşkil etmiş və bu göstəriciyə görə ölkəmiz dünyanın ən lider dövlətinə çevrilmişdir. 2010-cu ildə BMT-nin İnsan İnkişafına dair növbəti hesabatında isə ilk dəfə olaraq Azərbaycan Respublikası dünyanın 169 ölkəsi arasında 67-ci yeri tutaraq "orta inkişaf etmiş" ölkələrdən "yüksək inkişaf etmiş" ölkələr qrupuna daxil edilmişdir. 2003-2020-ci illəri əhatə edən 17 il ərzində isə ölkəmizdə ÜDM-in həcmi 10 dəfə artaraq 7,2 milyard manatdan 72,4 milyard manata; adambaşına düşən məbləği isə 8,3 dəfə artaraq 873 manatdan 7262,8 manata, büdcənin gəlirləri 20,3 dəfə artaraq 1,2 milyard manatdan 24,4 milyard manata, xarici valyuta ehtiyatlarımız 32 dəfə artaraq 1,6 milyard ABŞ dollarından 51,2 milyard ABŞ dollarına yüksəlmişdir.

Bu illər ərzində əhalinin yoxsulluq səviyyəsi 45 faizdən 6,2 faizə düşmüşdür. Son 18 ildə Azərbaycanda daxili və xarici mənbələrdən iqtisadiyyata 274 milyard ABŞ dolları məbləğində investisiya yönəldilmiş, 2,4 milyondan artıq yeni iş yerləri açılmış və onların 75 faizindən çoxu regionların payına düşmüş, yeni yaradılmış iş yerlərinin 1,6 milyonu və ya 66,6 faizini isə daimi iş yerləri təşkil etmişdir.

Bütün bunlar son 18 il ərzində ölkə iqtisadiyyatının dayanıqlı inkişafının rəqabətqabiliyyətliliyinin təmin edilməsində də mühüm rol oynamışdır. Təqdirəlayiq haldır ki, dünyanın ən tanınmış analitikləri, ekspertləri və nüfuzlu strateji elmi-tədqiqat mərkəzləri, aparıcı reytinq institutları ölkəmizin inkişaf modelini qabaqcıl və mütərəqqi nümunə kimi qiymətləndirmişlər.

Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır, onun rifahı, təhlükəsizliyi və sağlamlığı hər şeydən üstündür", - deyən Prezident İlham Əliyevin siyasi kursunda sosial sahə daim prioritet sahə kimi onun diqqət mərkəzində olmuşdur. Təsadüfi deyildir ki, dövlət başçısının rəhbərliyi və bilavasitə təşəbbüsü ilə əhalinin sosial təminatı ilə bağlı dünyanın heç bir ölkəsində rast gəlinməyən kompleks xarakterli tədbirlər işlənib hazırlanır və uğurla həyata keçirilir.

Prezident İlham Əliyev və Birinci vitse-prezident xanım Mehriban Əliyevanın diqqət və qayğısı nəticəsində 300 mindən çox məcburi köçkün dövlət tərəfindən evlərlə, mənzillərlə təmin edilmiş və onların məişət şəraiti yaxşılaşdırılmışdır. Son iki-üç il ərzində bu diqqət və qayğı daha da artırılmışdır. 2021-ci ilin oktyabr ayınadək 9200-ə yaxın şəhid ailəsi, müharibə əlili dövlət tərəfindən mənzillə təmin edilmiş və ilin sonunadək onlara daha 3 min mənzilin verilməsi nəzərdə tutulmuşdur. Prezident İlham Əliyevin 2021-ci ilin yanvarında imzaladığı sərəncama əsasən isə 2021-2025-ci illərdə ev şəraitinin yaxşılaşdırılmasına ehtiyacı olan 11 mindən çox şəhid ailəsi və müharibə əlilləri mənzil və fərdi evlə təmin olunmuşdular.

Xüsusi olaraq vurğulanmalıdır ki, dünyanın bütün ölkələrini çıxılmaz vəziyyətə salmış COVID-19 pandemiyası ilə mübarizədə Prezident İlham Əliyevin və Birinci vitse-prezident xanım Mehriban Əliyevanın ilk gündən atdıqları uğurlu addımlar, həyata keçirdikləri strategiya bütün dünya tərəfindən Azərbaycan modeli kimi qəbul edilmişdir. Azərbaycan xalqının mənafeyi nəzərə alınmaqla ölkə rəhbərliyi tərəfindən vaxtında görülmüş qabaqlayıcı tədbirlər, atılmış qətiyyətli addımlar sayəsində pandemiya ilə mübarizədə uğurlu nəticələr əldə olunmuşdur.

Bu gün biz fəxrlə deyə bilərik ki, pandemiya ilə bağlı iqtisadiyyatın tənəzzül keçirməsi səbəbindən Beynəlxalq Valyuta Fonduna kömək üçün müraciət etmiş 150-dək ölkə arasında Azərbaycanın adı yoxdur. Əksinə, respublikamız ilk gündən yüksək humanizm nümayiş etdirərək pandemiyadan sarsılmış bir sıra dövlətlərə və beynəlxalq təşkilatlara maliyyə dəstəyi göstərib. Qabaqlayıcı, məhdudlaşdırıcı tədbirlər imkan verdi ki, biz pandemiyanın geniş vüsət almasının qarşısını alaq və buna nail olaq. Təsadüfi deyildir ki, Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) Azərbaycan dövlətinin bu sahədə gördüyü işləri yüksək qiymətləndirmiş və Azərbaycanı nümunəvi ölkə adlandırmışdır. Belə bir ağır mərhələdə həyata keçirilən sosialyönümlü islahatlar dövlət başçısının inqilabi islahatların təşəbbüskarı və lideri olduğunu bir daha sübut edir.

Bu da danılmaz həqiqətdir ki, Prezident İlham Əliyevin bütün sahələrdə həyata keçirdiyi siyasətin uğurla başa çatmasında onunla çiyin-çiyinə çalışan və xalqımızın sevimlisinə çevrilmiş Azərbaycanın qeyrətli qızı Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ICESCO-nun xoşməramlı səfiri xanım Mehriban Əliyevanın misilsiz xidmətləri var. Dahi rəhbərimiz Heydər Əliyevin adını daşıyan fondun prezidenti kimi səlahiyyətlərinə başladığı ilk gündən Mehriban xanım Əliyeva cəmiyyətin həssas təbəqələrinin problemlərinin həllinə xüsusi qayğı ilə yanaşmış və onların həlli üçün əlindən gələni əsirgəməmişdir. Xanım Mehriban Əliyeva cəmiyyəti narahat edən problemlərin həllində xüsusi əzmkarlıq göstərən, bir çox yeni, humanist və xeyirxah təşəbbüslərin müəllifi və icraçısı kimi çıxış edən dövlət xadimi kimi nəinki ölkəmizdə, həm də beynəlxalq aləmdə böyük nüfuz qazanmış, Azərbaycan dövlətinin və bir sıra ölkələrin ən yüksək mükafatlarına layiq görülmüşdür. Xanım Mehriban Əliyeva ölkəmizin adını bütün dünyada yüksəklərə qaldırmış, millətimizin və Azərbaycan qadınının ləyaqət və şərəfini hər yerdə ucaltmış, vətənimiz Azərbaycana çoxlu dostlar qazandırmışdır.

Bu gün Azərbaycan xalqı Qalib Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə özünün ən xoşbəxt günlərini yaşayır. İndi başlıca vəzifə ölkəmizin iqtisadi və hərbi qüdrətini daha da artırmaqla yanaşı, erməni faşistlərinin işğalından azad edilmiş ərazilərimizi bərpa etmək, torpaqlarımızı erməni vandallarının basdırdıqları saysız-hesabsız minalardan təmizləmək və həmin ərazilərdən didərgin salınmış insanlarımızı doğma ata-baba yerlərinə qaytarıb onların layiqli məskunlaşmalarını təmin etməkdən ibarətdir.

Bir tərəfdən, COVID-19 pandemiyasının, digər tərəfdən də, Azərbaycan-Ermənistan müharibəsinin mənfi sosial-iqtisadi nəticələri və çətinliklərinə baxmayaraq, xalqımız öz Müzəffər Prezidenti İlham Əliyevin ətrafında daha da sıx birləşərək geniş quruculuq işləri ilə, ilk növbədə isə işğaldan azad olmuş torpaqlarımızın abadlaşdırılması, yenidən qurulması kimi müqəddəs vəzifənin yerinə yetirilməsi ilə məşğuldur. Ulu Öndər Heydər Əliyevin 17 noyabr 1990-cı ildə Naxçıvan MR-də ucaltdığı bayrağımız indi erməni faşistlərinin 30 illik işğalından azad edilmiş Qarabağda və Şərqi Zəngəzurda qürurla dalğalanmaqdadır.

Onu da qeyd edək ki, 2021-ci ildə həmin ərazilərin bərpa edilməsinə 1,2 milyard manat vəsait ayrılmış, 2022-ci ildə isə bu vəsaitin məbləğinin 2,2 milyarda çatdırılması nəzərdə tutulmuşdur. Bütün bu vəsaitlər dövlət büdcəsindən ayrılır. "Zəfər büdcəsi" kimi tarixə düşən gələn ilin dövlət büdcəsinin xərcləri ilk dəfə olaraq 26,8 milyard manat, xərcləri isə 29,9 milyard manat təşkil edəcək. Büdcədə sosial xərclərin payı 46,8 faizə çatdırılacaq və bu, 2021-ci ilə nisbətən 13,5 faiz və ya 1 milyard 650 milyon manat artacaq.

Müzəffər Prezident, Ali Baş Komandan İlham Əliyevin uğurla həyata keçirdiyi dayanıqlı, innovativ və inklüziv yanaşmalara əsaslanan inkişaf strategiyası nəticəsində yaxın gələcəkdə Azərbaycan Respublikası dünyanın iqtisadi cəhətdən ən inkişaf etmiş ölkəsinə və ən qüdrətli ordusu olan dövlətə çevriləcək, əhalisinin rifah səviyyəsi isə ən yüksək səviyyəyə qalxacaq.

***Rövşən MURADOV,***
***Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsi müdirinin müavini, iqtisad elmləri doktoru, professor***



# Qurucu rəhbər, qlobal lider, müzəffər komandan

## Tarixin ən güclü Azərbaycanını yaradan LİDER



Hər bir xalqın dövlət quruculuğu tarixində lider amili həlledicidir. Bəşəriyyət bu danılmaz həqiqəti zaman-zaman sübuta yetirmişdir. Belə bir reallıq bugünkü dünyamızda da öz aktuallığını qoruyur. Güclü lider insanların dövlətçilik arzularını milli amala çevirir. Xalqı bu amal ətrafında səfərbər edərək təşkilatlandırır və hədəflərə çatdırır. Bu, dəyişməz qanunauyğunluqdur. Ona görə də konkret dövlətlərin inkişaf tarixini izləyəndə mütləq ən azı bir güclü liderin imzasını görürük. Onun dövlətin və cəmiyyətin hərtərəfli inkişafındakı möhtəşəm xidmətlərinin şahidi oluruq.

### Qalib xalq və Lider

Azərbaycanın milli dövlətçilik tarixinin müasiri olduğumuz dönəmləri də buna bariz nümunədir. Prezident İlham Əliyevin müəllifliyi ilə indi Vətən tarixinin parlaq səhifələri yazılır. Dövlət başçısının həyata keçirdiyi məqsədyönlü siyasətin uğurları sayəsində respublikamız ən qüdrətli mərhələsini yaşayır.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızı işğaldan azad etmiş Ordumuzun qazandığı tarixi zəfərdən sonra xalqımız firavan gələcəyini qalib xalq kimi yaradır. Dünya bizi Zəfər qazanmış, haqq-ədalət uğrunda savaşını qalibiyyətlə tamamlamış güclü dövlət kimi tanıyır, qəbul edir, hörmət bəsləyir. Bu Zəfərin müəllifi Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev və daim öz qüdrətli liderinə inanan, dəstək verən xalqımızdır. Bu Zəfər Lider-xalq birliyinin, vəhdətinin təcəssümüdür.

"Tarixin ən güclü Azərbaycanı" ifadəsi hazırda qürur doğuran kəlmələrlə yanaşı, əhatə olunduğumuz reallığın aynasıdır. Azərbaycan, həqiqətən, tarixinin heç bir dönəmində bu qədər güclü, qüdrətli olmayıb. Ölkəmizin bugünkü mənzərəsi dövlətin inkişafı, tərəqqisi üçün fədakarlıq göstərən, xəyallarında belə bir Azərbaycanın mənzərəsini qurmağa çalışan, vətənini sevən bütün millət xadimlərimizin reallaşan arzularıdır.

Xalqın lideri ilk növbədə insanları ümumi ideya, prinsip, məqsəd ətrafında birləşdirməyi bacarmalıdır. Ulu Öndər Heydər Əliyevin yetkin bir məfkurə olaraq xalqımıza təqdim etdiyi azərbaycançılıq ideologiyasının əsasını təşkil edən dövlətçilik, vətənpərvərlik, ənənələrə bağlılıq prinsipləri indi milli birliyin əsas təminatçısı kimi çıxış edir. Bu prinsiplərə sadiqliyini qoruyub saxlayan Prezident İlham Əliyev isə öz fəaliyyəti ilə Heydər Əliyev ideyalarının layiqli davamçısı olduğunu göstərir, dəyişən qlobal və regional reallıqlar şəraitində ölkənin stabil milli maraqlarını qoruya bilmək qabiliyyəti ilə özünün əsl siyasi lider olduğunu təsdiqləyir.

Bu, Ulu Öndərin, böyük dövlət adamının formalaşdırdığı ideyalar üzərində yaranan tarixi gerçəkliklərdir.

Prezident İlham Əliyev tərəfindən görülən işlərin, əməli addımların müasir dövrün reallıqlarına, tələblərinə və qanunauyğunluqlarına müvafiq surətdə uğurla və qətiyyətlə davam etdirilməsi bugünkü milli inkişafın fundamental əsaslarını təşkil edir. Müxtəlif inkişaf modellərinin uğurla tətbiqi və hədəflənən nəticələrin əldə olunması, sosial-siyasi islahatların mütəmadi qaydada həyata keçirilməsi, qanunvericilik bazasının zənginləşdirilməsi, vətəndaş cəmiyyəti və hüquqi dövlətin inkişafına maksimum əlverişli şəraitin yaradılması, möhkəm təməllərə söykənən ictimai-siyasi sabitliyin qorunması, ölkəmizin beynəlxalq münasibətlər sisteminin nüfuz və güc müstəvisində sürətli şəkildə irəliləməsi müasir Azərbaycanın gerçəklikləridir.

### Milli inkişaf ideyalarının davamçısı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasətin uğurunu təmin edən çox amillər var. Başlıca amil bu siyasətin möhkəm təmələ əsaslanmasıdır, başlanğıcdan düzgün istiqamətə yönəlməsidir. Prezident İlham Əliyev yeni və müstəqil Azərbaycan uğrunda ən ağır mübarizələrdə Ulu Öndər Heydər Əliyevlə çiyin-çiyinə addımlayıb. Həyata keçirilən dövlət quruculuğu proseslərində, islahatlarda fəal iştirak edib. Azad bazar iqtisadiyyatının qanunauyğunluqlarına mükəmməl surətdə yiyələnib. Gənclər siyasətinin hazırlanması və həyata keçirilməsində mühüm rol oynayıb. Milli Məclisin deputatı, Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin sədri və AŞ PA-nın vitse-prezidenti kimi ölkəmizin beynəlxalq aləmə inteqrasiyasında, respublikada aparılan çoxşaxəli islahatların, hüquqi dövlət, vətəndaş cəmiyyəti proseslərinin öz məqsədinə çatmasında tarixi xidmətləri olub.

Prezident İlham Əliyev Azərbaycan Milli Olimpiya Komitəsinə başçılıq edib. Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini kimi məsul vəzifələrdə çalışıb. Ulu Öndərin ötən əsrin 90-cı illərinin ortalarından reallaşdırdığı və ölkəmizin sosial-iqtisadi inkişafının rəhninə çevrilən yeni neft strategiyasının icrasına dəyərli töhfələr verib. Bu strategiyanın Azərbaycan xalqının maraqlarına uyğun həyata keçirilməsi, regionda yeni bir iqtisadi-siyasi reallıq formalaşdırması, Azərbaycanın təşəbbüsü ilə qlobal enerji-kommunikasiya layihələrinin həyata vəsiqə qazanması həm də cənab İlham Əliyevun fədakar xidmətləri sayəsində mümkün olub.

İdman sahəsində əldə edilmiş tarixi nailiyyətlərlə, xüsusilə gənc nəsil üçün mükəmməl örnəklər yaradıb. Sağlam həyat tərzini, fiziki və mənəvi hazırlığı, vətənpərvəlik tərbiyəsini cəmiyyətimizdə böyük bir dəyərə çevirib. 44 günlük Vətən savaşı zamanı və bu gün də cəmiyyətimizdə müşahidə etdiyimiz böyük coşquda, qalibiyyət ruhunda, milli həmrəylikdə ölkə rəhbərinin təlqin etdiyi bu dəyərlərin rolu çox böyükdür. İdmançılarımızın beynəlxalq arenalarda əldə etdikləri qələbələrlə, ucalan bayrağımızla, səslənən himnimizlə, Azərbaycan idmançılarının qazandıqları zəfərlərlə, bəlkə heç özümüz də fərqinə varmadan Ali Baş Komadan bizi arzusunda olduğumuz ən böyük Qələbəyə hazırlayırmış. Bütün bunları həyatımızın ən sevincli anlarını yaşayanda anladıq.

Partiya quruculuğu işində də Prezident İlham Əliyevin xidmətləri mühümdür. Dövlət başçısı müasir baxışları, yanaşmaları, yüksək diplomatik məharəti və intellektual davranışları ilə ölkəmizin siyasi mühitinə yeni bir mədəniyyət gətirdi. Bu mühitdə yeni standartlar müəyyənləşdirildi. Ölkədə yeni çağırışlara yönələn sağlam münasibətlər yarandı. Qarşıda duran məsələlər normal diskussiya məcrasına yönəldildi. Gələn il 30 illiyini qeyd edəcək partiyamız bütün bu keyfiyyətləri ilə zəngin ənənələrə, təşkilati dəyərlərə malikdir. Yeni Azərbaycan Partiyası hər zaman yüksək siyasi mədəniyyət daşıyıcısı olub.

### Sözümüz və əməlimiz eyni dəyərə malikdir

Yeni Azərbaycan Partiyasının VII qurultayı 2021-ci ilin əlamətdar hadisəsi kimi yadda qaldı. Bu qurultayın ən mühüm tarixi faktlarından biri isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yeni hədəfləri nəzərdə tutan nitqi idi.

Cəmiyyətimiz indiyə qədər Azərbaycan Prezidentinin müxtəlif məsələlərə həsr olunmuş çox çıxışlarının şahidi olub. Bu çıxışların hər biri böyük proqram xarakteri ilə diqqət çəkib. Dövlət başçısının nitqlərində ayrı-ayrı strateji istiqamətlərdə əldə edilmiş nəticələrə verilən ədalətli qiyməti, bu günün reallıqlarının düzgün təhlilini və gələcəklə bağlı aydın planları, qarşıya qoyulmuş konkret vəzifələri görürük. Yeni Azərbaycan Partiyasının VII qurultayındakı nitqi zamanı isə YAP Sədri müasir dünyamızda inkişaf məramlı güclü siyasi təşkilat necə olmalıdır, öz fəaliyyətini necə qurmalıdır suallarını cavablandıraraq, bunun fikir mənzərəsini yaratdı. Partiyanın özünü müasir dünyamızın çağırışlarına uyğunlaşdırması üçün dəqiq vəzifələr müəyyənləşdirdi. Aydın tövsiyələr verdi. Eyni zamanda elə qurultay zamanı bu vəzifələrin yerinə yetirilməsi istiqamətində əsaslı addımlar atıldı. Bir sıra mühüm dəyişikliklər edildi.

Azərbaycan Prezidenti partiyanı yeniləşmiş formatda daha işlək olmağa, problemlərin həllində fəallığa çağırdı. Məlumdur ki, son illər ölkəmizdə köklü islahatlar aparılır. Cəmiyyət həyatının müxtəlif sahələrində əhəmiyyətli dəyişikliklər baş verir. Azərbaycan özünü qlobal inkişaf trendlərinə uyğunlaşdırır. Dünyada baş verən ardıcıl dəyişikliklərə həmahəng addımlar atır. Bir sıra mütərəqqi dəyişiklikləri öz həyatına gətirir. Hər birimiz onların səmərəsini gündəlik həyatımızda dərhal hiss edə bilirik. Prezident İlham Əliyev bütün bu yenilikləri siyasi islahatlar sahəsində də zəruri sayır: "Həyat dəyişir, zəmanə dəyişir. Bir daha demək istəyirəm ki, biz ən müasir təcrübəni Azərbaycanda bütün sahələrdə tətbiq etməliyik, o cümlədən siyasi islahatlar sahəsində. Əminəm ki, partiyanın rəhbər orqanlarında təmsil olunan üzvləri fəal olacaqlar, partiyamızın fəaliyyətində öz rolunu oynayacaqlar, ümumi işimizə öz töhfəsini verəcəklər ki, partiyamız bundan sonra da ölkəmizin aparıcı siyasi qüvvəsi olaraq qalsın. Mən buna şübhə etmirəm".

Bu, hələ 1992-ci ilin 21 noyabrında elan edilməsinə hazırlıq ərəfəsində partiyaya Yeni Azərbaycan adını təklif edən və bu qurumu Azərbaycan insanlarının yenilənmə, müsbətə doğru davamlı dəyişikliklər arzusunun zirvəyə gedən yolgöstərəni kimi görən Ulu Öndər Heydər Əliyevin amallarından irəli gəlir. Yeni Azərbaycan Partiyası ötən illər ərzində ölkəmizin, cəmiyyətimizin yenilənməsi üçün aparılan işlərdə yaxından iştirak etdi. Eyni zamanda özünü də zaman-zaman yenilədi. İnkişaf reallıqlarına çevik şəkildə uyğunlaşdı və bu proses müasir dövrümüzdə də davam edir. Çünki yenilik heç zaman hansısa bir nöqtədə dayanmayan davamlı prosesdir. VII qurultayda həyata keçirilən dəyişikliklərlə, partiyanın rəhbər strukturlarında baş verən yeniliklərlə Yeni Azərbaycan Partiyası növbəti inkişaf dönəminə uğurla daxil oldu.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın qurultayda Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini vəzifəsinə seçilməsi xüsusilə mühüm əhəmiyyət daşıyır. Yüksək təşkilatçılıq, həyata keçirdiyi layihələrlə bütün dünyada böyük nüfuz qazanmış, vətəndaşlarımızın sevgi və rəğbət bəslədikləri Mehriban xanım Əliyevanın partiya işində də yaxından iştirakı bu nüfuzlu təşkilatın inkişafına, daha da güclənməsinə xidmət edir.

### Zəfər Komandanı

Prezident İlham Əliyev hakimiyyətə gələrkən xalq qarşısında söz verdiyi kimi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin həlli istiqamətində Ümummilli Lider Heydər Əliyevin başladığı siyasi kursu yüksək peşəkarlıqla və uğurla davam etdirdi. Sonda hədəfinə çatdı, ata vəsiyyətini yerinə yetirdi, işğal olunmuş Azərbaycan torpaqlarını azad etdi.

Ölkə rəhbəri müharibəyə kimi ən geniş beynəlxalq arenalarda, ən yüksək kürsülərdə dəfələrlə bütün dünyaya bəyan etdi ki, Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir, Azərbaycan bu məsələdə öz mövqeyindən bir addım da olsun geri çəkilməyəcək. Eyni zamanda nizami ordu quruculuğu prosesini uğurla davam etdirdi. Qısa müddətdə Silahlı Qüvvələrimiz həm təchizatına, həm peşəkar hazırlığına, həm də döyüş ruhuna görə dünyanın ən öncül orduları sırasında qərarlaşdı. Ölkə rəhbərimizin yüksək səriştə ilə qurduğu diplomatik münasibətlər hərbi hissələrimizin ən müasir silahlarla təchiz olunmasına imkan yaratdı. Buna 44 günlük Vətən müharibəsində hər birimiz şahid olduq. Təsadüfi deyil ki, Azərbaycan XXI əsrin innovativ müharibəsini apardı. Mülki əhaliyə heç bir xətər yetirməyən, düşmənin yalnız hərbi obyektlərini hədəfə alan müasir silahlarla dünyanın hərb tarixində yeni bir səhifə açdı. Azərbaycanın Vətən müharibəsində nümayiş etdirdiyi örnəklərin, yaratdığı təcrübənin bu gün dünyanın aparıcı hərbi məktəblərində öyrənilməsi də bu tarixin qürur duyulmalı məqamlarıdır.

Bütün bunlar Prezident İlham Əliyevin həm də böyük sərkərdəlik istedadıdır. Ali Baş Komandan Vətən müharibəsini Azərbaycana rəhbərliyi dövründə yetişdirdiyi gənc nəslin nümayəndələri ilə apardı. Əlbəttə, qazanılmış zəfər yaşından, milli mənsubiyyətindən, siyasi baxışından asılı olmayaraq, vahid amal uğrunda birləşmiş bütün dünya azərbaycanlılarının birgə qələbəsidir. Bununla belə, tarixi reallıqdır ki, hərbi əməliyyatların gedişində bir əlində silah, köksündə üçrəngli bayrağımız, bəzi hallarda yaralı yoldaşını çiynində tutub düşmənin üzərinə atılan gənclik cənab İlham Əliyevin vətənpərvərlik ruhunda yetişdirdiyi nəsildir. Qarabağı, Şərqi Zəngəzuru məhz onlar azad etdilər. Sıldırım qayalardan kəndirlə dırmanaraq, yüngül silahlarla düşmənin tankının, topunun üzərinə atılan igidlərimiz bu nəslin təmsilçiləri idilər.

Təxminən 30 il çəkən, sülh danışıqları ilə bu qədər müddətdə həll olunmayan münaqişəyə 44 günlük Vətən müharibəsi ilə yekun vuruldu. Bütün dünya gördü ki, haqqı sübuta yetirməkdən ötrü təkcə beynəlxalq hüquq normaları kifayət etmir. Doğrunun, ədalətin sənin tərəfində olması ilə də iş bitmir. Qələbə arzusuna çatmaq üçün həm də güclü, qüdrətli olmalısan. Yeri gələndə vuran əlinin zərbəsini də göstərməlisən.

Vətən müharibəsi nəticəsində əldə etdiyimiz möhtəşəm Zəfər milli birliyimizin təntənəsinə çevrildi. O tarixi günlərdə bütün Azərbaycan xalqı bir nəfər kimi Ali Baş Komandanla həmrəylik, inam, etibar, yüksək vətənpərvərlik, əzmkarlıq nümayiş etdirdi. Bütün gücü, imkanları, güvəni ilə dövlət başçısının yanından çəkilmədi. Əli silah tutan hər kəs ordu sıralarına yazılmaq üçün növbəyə durdu. Bu, yeni şanlı tarixin başlanğıcı, Prezident İlham Əliyevin uğurlu siyasətinin nəticəsi və böyük liderin qələbəsiydi.

Həmin günlərdə Ali Baş Komandan mahir sərkərdə kimi təkcə döyüşləri idarə etmirdi, durmadan irəliləyən ordumuzun apardığı hərbi əməliyyatları yönləndirmirdi, eyni zamanda özü də diplomatiya səngərində vuruşurdu, informasiya savaşı aparırdı, Ermənistanın və onun saysız-hesabsız havadarlarının informasiya təxribatlarını uğurla dəf edirdi, verdiyi müsahibələrlə təxribatçıları susdururdu. Düşmənin uydurma miflərini ifşa edirdi. Azərbaycanın bu savaşda haqlı olduğunu, ədalət uğrunda çarpışdığını bütün dünyaya faktlar, aydın dəlillərlə sübuta yetirirdi.

### Vətənə sevgi örnəyi

Azərbaycan Prezidenti qurucu liderdir. Erməni vandallarının təxminən 30 ilə yaxın müddətdə dağıdıb viran qoyduqları yurdlarımızda bu gün geniş bərpa işləri başlanıb. Azərbaycan dövləti dağıdılmış şəhər və kəndlərimizi "ağıllı şəhər", "ağıllı kənd" konseptində yenidən qurur. Dayanıqlı inkişaf məqsədlərinə, ölkəmizin milli prioritetlərinə uyğun aparılan abadlıq işləri ilə Azərbaycanı işğalçı Ermənistandan daha bir fərqini dünyanın diqqətinə çatdırır. Göstərir ki, bizim ali niyyətimiz dağıdıb uçurmaq, vandalizm əməlləri törətmək deyil, qurub yaratmaqdır, dünyaya fayda verməkdir.

Prezident İlham Əliyev müasir dünya siyasətinə həm də yüksək mənəvi dəyərlər gətirdi. Dövlət başçısının sözü ilə əməli həmişə üst-üstə düşür. Özünün də bəyan etdiyi kimi, Azərbaycan Prezidentinin hər sözü imzası qədər keçərlidir. Dövlət rəhbəri qurulan tərəfdaşlıq münasibətlərinə, verilən sözlərə, ortaya qoyulan prinsiplərə hər zaman sadiqdir və başqalarından da bunu gözləyir. Ona görə də müasir dünya siyasətində Prezident İlham Əliyev şəxsiyyətinə çox böyük hörmət var.

Bu gün Azərbaycan bütün dünya üçün tolerantlıq məkanı, fərqli mədəniyyətlərin təmas yeri kimi tanınır, multikulturalizm təşəbbüslərini təşviq edir. Mədəniyyətlər arasındakı fərqlərin insanlar arasında fərqlərə çevrilməməsi üçün bütün imkanlardan istifadə edir. Azərbaycanın evsahibliyi ilə keçirilən beynəlxalq humanitar forumlar, 2008-ci ildən uğurla aparılan "Bakı prosesi" nüfuzlu beynəlxalq qurumlar tərəfindən təqdir olunur. Bütün bunlar təbii ki, Azərbaycan Prezidentinin dünyaya, bəşəriyyətə töhfə verən siyasətidir.

Bu siyasətin uğur qazanmasında ölkəmizin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri, UNESCO və ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın da böyük xidmətləri var.

Azərbaycan Prezidenti bəşəriyyətin xoşbəxt gələcəyini qarşıdurmalarda, ziddiyyətlərdə deyil, məhz əməkdaşlıqda, problemlərə birgə həllər axtarmaqda görür. Vətən müharibəsindəki qələbəmizlə indi regionda yeni tarixi reallıqlar yaradılıb. Bu reallıq, ümumən, Cənubi Qafqazın xoşbəxt gələcəyi üçün xoş bir başlanğıcdır. Əsas amal, əsas niyyət Cənubi Qafqazı sülh, əməkdaşlıq, davamlı inkişaf məkanına çevirməkdir. Regionun bütün tərəqqipərvər sakinləri bu amala da qovuşacaqlar!

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

## İlham Əliyev BTC-nin uğur salnaməsini davam etdirir

2021-ci il Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəmərinin yubileyi ilidir. 2006-cı il iyulun 13-də tam sistem kimi istismara verilmiş bu kəmər öz yaradıcısının - Ulu Öndər Heydər Əliyevin adını şərəflə daşıyaraq bir-birinin ardınca yeni uğurlar qazanır.

BTC 15 ildən çoxdur ki, Xəzər neftini dünya bazarlarına təhlükəsiz, etibarlı, sakit və ekoloji baxımdan minimum risklə nəql edir. Regionun neft ixracı arteriyası sayılan bu boru xəttinin salnaməsi qısa olsa da, çox zəngindir. Elə bu günlərdə layihənin əməliyyatçısı olan bp şirkəti bildirib ki, BTC indiyədək Səngəçal terminalından Azərbaycan, Gürcüstan və Türkiyədən keçməklə Ceyhan terminalına ümumilikdə 500 milyon ton neft daşıyıb.

BTC vasitəsilə nəql edilmiş Xəzər neftinin 500 milyonuncu tonu - SOCAR-ın (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) nefti "Nordorse" adlı tankerə yüklənib və Triestə (İtaliya) yola salınıb. Bu, BTC-nin indiyədək nəql etdiyi neftin vurulduğu 4922-ci tankerdir. BTC-nin Ceyhan terminalına çatdırdığı xam neftlə ilk tanker isə 2006-cı il iyunun 4-də yüklənmişdi. O vaxt təqribən 600 min barel "Azəri-Çıraq-Günəşli" nefti "British Hawthorn" tankerinə vurularaq Ceyhandan dünya bazarlarına göndərilmişdi. Həmin gündən keçən müddət ərzində 500 milyon ton neft ixracı boru kəmərinin müstəsna səmərəlilik nümayiş etdirməsinin, texniki təhlükəsizlik və istismar baxımından yüksək göstəricilərə nail olmasının aydın göstəricisidir.

bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz bu münasibətlə fikrini belə ifadə edib: "500 milyon ton neft ixracı BTC boru kəmərinin 15 illik sabit və səmərəli fəaliyyətinin nəticəsidir. Uzun müddət keçməsinə baxmayaraq, BTC qapalı Xəzər hövzəsi ilə dünya bazarlarına asan çıxışı olan Aralıq dənizi arasında birbaşa strateji əlaqə yaratmaqla regionun əsas enerji ixrac arteriyası olmaqda davam edir. Biz hamımız BTC-nin uğur hekayəsi ilə, o cümlədən üç ölkə boyunca insanların və icmaların həyatına gətirdiyi böyük müsbət dəyişikliklərlə qürur duymalıyıq. BTC, həqiqətən də, hər mənada möhtəşəm bir ixrac sistemidir və onun əldə etdiyi nailiyyətlər bizdə qürur hissi oyadır. Bu dünya səviyyəli kəmərin üç ölkə boyunca gecə-gündüz təhlükəsiz və sakit fəaliyyət göstərməsi üçün çalışan bütün insanlara çox təşəkkür edirəm. Mən həmçinin göstərdikləri dəstəyə və uğurlu əməkdaşlığa görə BTC-nin səhmdarlarına da öz minnətdarlığımı bildirirəm".

Xatırladaq ki, BTC Ko.-nun səhmdarları bp (30,10 faiz), AzBTC (25 faiz), MOL (8,90 faiz), "Ekvinor" (8,71 faiz), TPAO (6,53 faiz), "Eni" (5 faiz), "Total" (5 faiz), İTOÇU (3,40 faiz), İNPEKS (2,50 faiz), "EksonMobil" (2,50 faiz) və ONGC (BTC) Limited (2,36 faiz) şirkətləridir.

Uzunluğu 1768 kilometr olan BTC boru kəməri Xəzər regionundan Aralıq dənizinə təhlükəsiz və məsuliyyətli şəkildə xam neft ixrac etmək üçün çəkilib. Xəttin gündəlik ötürücülük gücü 1,2 milyon barel təşkil edir. Keçdiyi ərazilərin coğrafiyasından asılı olaraq onun borularının diametri 46, 42 və 34 düymdür. Üç tranzit ölkə ərazisində kəmərin 8 nasos stansiyası və 98 siyirtmə məntəqəsi var.

BTC öz marşrutu boyu bir neçə dağ silsiləsi qət edir, o cümlədən 2830 metr yüksəkliyə qalxır, eləcə də 3000 yol, dəmir yolu, yeraltı və yerüstü kommunikasiya xətti, eni 500 metrədək çatan Ceyhan çayının keçidi də daxil olmaqla, 1500-dən artıq su hövzəsi ilə kəsişir. Ceyhana yaxınlaşarkən yenidən dəniz səviyyəsinə enir.

Dünya miqyasında dövrünün ən böyük və ən mürəkkəb mühəndis-texniki qurğularından biri hesab edilən BTC-nin tikintisinə dörd il vaxt sərf olunub. Belə ki, layihə 2002-ci ilin iyul ayında təsdiqlənib və 2006-cı ilin may ayında başa çatdırılıb. 2018-ci il mayın 29-da Səngəçal terminalında "Cənub qaz dəhlizi"nin rəsmi açılış mərasimindəki nitqində Prezident İlham Əliyev BTC barədə demişdir: "2002-ci ildə biz artıq "Azəri-Çıraq" yatağından böyük neft gözləyərkən məhz burada - Səngəçal terminalının ərazisində Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təməlini qoyduq. Bu kəmər 2006-cı ildə istifadəyə verildi və bu gün Azərbaycan xalqına, bütün dost ölkələrə xidmət edir. Bu gün Bakı-Tbilisi-Ceyhan neft kəməri vasitəsilə nəinki Azərbaycan nefti, eyni zamanda digər ölkələrin nefti də nəql edilir. Xəzərin şərq sahilində digər ölkələr tərəfindən hasil edilən neft artıq bu kəmər vasitəsilə dünya bazarlarına çıxarılır. Azərbaycan bu gün eyni zamanda etibarlı tranzit ölkə kimi qonşu ölkələrə öz imkanlarını təqdim edir".

Kəmərin çəkilişi üçün 220 min boru hissəsi qaynaqla bir-birinə calanıb. Tikintinin ən qızğın dövründə işə 22 min insan cəlb edilib. Bunların 80 faizə qədəri inşaat işləri gedən ərazilərin öz sakinləri olub. Kəmərin araya-ərsəyə gəlməsi üçün 110 milyondan artıq adam-saat sərf edilib. Daha bir maraqlı fakt: tikintiyə xidmət edən maşınlarla ümumi uzunluğu 200 milyon kilometrdən artıq olan yol keçilib. Bu isə Yer kürəsi ətrafında 10 dəfə dövrə vurmağa bərabərdir.

BTC tikinti mərhələsindən başlayaraq regiona əhəmiyyətli faydalar gətirib və müsbət dəyişikliklərə yol açıb. Kəmər Bosfordan yan keçməklə, onsuz da yüksək hərəkət sıxlığı olan boğazlar vasitəsilə neftin nəqlinin və bununla bağlı ekoloji risklərin azaldılmasına xidmət edib. Layihə başlandığı vaxtdan kəmərin marşrutu boyunca 550-dən çox icma ilə (750 mindən çox insan) sıx əməkdaşlıq şəraitində çoxsaylı sosial təşəbbüs həyata keçirilib və bu fəaliyyət davamlı xarakter daşıyır.

Ulu Öndər özünün şah əsərlərindən olan BTC-ni çox sınaqlardan keçirdi. Nəhayət, 2003-cü ilin fevral ayında Vaşinqtonda keçirilən "Şərq-Qərb enerji dəhlizi reallıqdır" konfransı öz işini davam etdirdiyi günlərdə Beynəlxalq Maliyyə Korporasiyasının, BTC-yə kredit verəcək digər qurumların rəhbərləri ilə görüşdü, söhbətlər apardı, layihənin irəliləməsinə təkan verdi.

BTC-nin uğur salnaməsi Prezident İlham Əliyevin rəhbərliyi ilə davam etdirilir. 2004-cü ilin fevral ayında Bakıda, "Gülüstan" sarayında dövlət başçısının iştirakı ilə layihənin maliyyələşməsinə aid son sənədlər imzalandı və bu problem tamamilə həll olundu.

2005-ci ilin mayında Prezidentimizin içtirakı ilə kəmərə Səngəçal terminalındakı baş nasos stansiyasından ilk neft vuruldu. 2006-cı ilin iyulunda isə dövlət başçısı kəmərin tam bir sistem kimi işə düşməsi münasibətilə Türkiyədə keçirilən tədbirlərdə iştirak etdi.

Ötən illər ərzində BTC Prezident İlham Əliyevin diqqəti və dəstəyi ilə Azərbaycanı beynəlxalq enerji ailəsinə qovuşdurub və dünyanın enerji təhlükəsizliyinə öz töhfəsini verməkdədir: "Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikilməsi nəticəsində biz artıq pəncərədən başlayaraq böyük qapı açdıq. Azərbaycanı beynəlxalq enerji ailəsinə daxil edə bildik. Həm siyasi, həm iqtisadi baxımdan böyük uğurlar əldə edə bilmişik".

BTC-nin əhəmiyyəti həm də onun özündən sonra neçə-neçə nəhəng layihəyə yol açmasındadır. Prezident İlham Əliyev təşəbbüskarı olduğu "Cənub qaz dəhlizi"nin möhkəm bünövrəyə əsaslandığını dəfələrlə vurğulayıb: "Bakı-Tbilisi-Ceyhan neft kəməri tikilməsəydi, yəni bu dəhliz yaradılmasaydı, "Şahdəniz" layihəsinin icrası böyük sual altında ola bilərdi. Məhz dəhlizlərin mövcudluğu, Azərbaycan ilə Gürcüstan və Türkiyə arasındakı üçtərəfli uğurlu əməkdaşlıq nəticəsində biz "Şahdəniz" layihəsinin icrasına nail ola bildik."

Vaxtilə Ümummilli Lider Heydər Əliyev BTC-nin iqtisadi gücünü qeyd etməklə yanaşı, onu həm də Azərbaycanı Avropa ilə daha sıx bağlayacaq polad kəmərə bənzətmişdi. Bu gün Bakı-Tbilisi-Ceyhan kəməri Azərbaycan, Gürcüstan, Türkiyə və Qərb ölkələri arasında iqtisadi və siyasi əlaqələrin güclənməsinə dəstək verir, tranzit ölkələrə mühüm gəlirlər gətirir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin gəlirləri 26 816 000,0 min manat, xərcləri 29 879 000,0 min manat (o cümlədən mərkəzləşdirilmiş gəlirləri 25 868 444,0 min manat, yerli gəlirləri 947 556,0 min manat, mərkəzləşdirilmiş xərcləri 28 893 988,0 min manat, yerli xərcləri 985012,0 min manat) məbləğində təsdiq edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin gəlirləri mədaxil mənbələri üzrə aşağıdakı məbləğlərdə nəzərdə tutulsun:

| | Gəlirlərin mənbələri | Məbləğ (min manatla) |
|---|---|---|
| 2.1. | Fiziki şəxslərin gəlir vergisi | 1 485 000,0 |
| 2.2. | Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi | 2 670 000,0 |
| 2.3. | Hüquqi şəxslərin torpaq vergisi | 46 000,0 |
| 2.4. | Hüquqi şəxslərin əmlak vergisi | 236 045,0 |
| 2.5. | Əlavə dəyər vergisi | 5 278 700,0 |
| 2.5.1. | Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə əlavə dəyər vergisi | 2 910 000,0 |
| 2.6. | Sadələşdirilmiş vergi | 200 000,0 |
| 2.7. | Aksizlər | 1 266 847,0 |
| 2.7.1. | Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə aksizlər | 160 000,0 |
| 2.8. | Yol vergisi | 116 500,0 |
| 2.8.1. | Azərbaycan Respublikasının ərazisinə idxal olunan yanacağa görə və xarici dövlətlərdə qeydiyyatda olan avtonəqliyyat vasitələri sahibləri tərəfindən ödənilən yol vergisi | 40 000,0 |
| 2.9. | Mədən vergisi | 142 023,0 |
| 2.10. | Gömrük rüsumları | 1 150 000,0 |
| 2.11. | Azərbaycan Respublikasında istehsal edilən və qiymətləri tənzimlənən məhsulların kontrakt (satış) qiyməti ilə (ixrac xərcləri çıxılmaqla) ölkədaxili topdansatış qiyməti arasındakı fərqdən yığımlar | 95 385,0 |
| 2.12. | Xarici dövlətlərə verilmiş kreditlər üzrə daxilolmalar | 1 800,0 |
| 2.13. | Səhmlərində dövlətin payı olan müəssisələrdən alınan dividendlər | 106 500,0 |
| 2.14. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) daxilolmalar (transfertin yuxarı həddi) | 12 710 000,0 |
| 2.15. | Dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar | 16 000,0 |
| 2.16. | Dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən daxilolmalar | 9 000,0 |
| 2.17. | Dövlət rüsumu | 363 500,0 |
| 2.18. | Vergi orqanlarının xətti ilə toplanan sair daxilolmalar | 21 000,0 |
| 2.19. | Büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar | 760 000,0 |
| 2.20. | Sair daxilolmalar | 141 700,0 |

**Maddə 3.** Müəyyən edilsin ki, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondları dövlət büdcəsinin aşağıdakı mədaxil mənbələri hesabına formalaşır:

**(min manatla)**

| | | |
|---|---|---|
| 3.1. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondları | 309 865,0 |
| 3.1.1. | yol vergisi | 116 500,0 |
| 3.1.2. | mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən şəxslər tərəfindən ödənilən sadələşdirilmiş vergi | 6 000,0 |
| 3.1.3. | idxal olunan minik avtomobillərinə tətbiq edilən aksizlər | 50 000,0 |
| 3.1.4. | idxal olunan avtonəqliyyat vasitələrinə tətbiq edilən gömrük rüsumu | 89 500,0 |
| 3.1.5. | Azərbaycan Respublikasının ərazisində beynəlxalq avtomobil daşımalarını tənzimləyən icazənin verilməsi üçün tutulan dövlət rüsumu | 15 500,0 |
| 3.1.6. | nəqliyyat vasitələrinin, o cümlədən motonəqliyyat vasitələrinin, qoşquların və yarımqoşquların texniki baxışdan keçirilməsi üçün tutulan dövlət rüsumu | 22 500,0 |
| 3.1.7. | Sair daxilolmalar | 9 865,0 |

**Maddə 4.** Azərbaycan Respublikasında istehsal edilən və qiymətləri tənzimlənən məhsulların ixracı zamanı məhsulların kontrakt (satış) qiyməti ilə (ixracla bağlı xərclər çıxılmaqla) ölkədaxili topdansatış qiyməti arasındakı fərqdən (SVOP əməliyyatları istisna olmaqla) dövlət büdcəsinə 30 faiz həcmində yığım tutulur və bu yığımlar vergi ödəyicisinin vergilər, faizlər, maliyyə sanksiyaları və inzibati cərimələr üzrə digər borclarının ödənilməsinə aid edilmir.

**Maddə 5.** Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin mərkəzləşdirilmiş gəlirləri aşağıdakı mənbələr hesabına formalaşdırılır:

5.1. bu Qanunun 9-cu maddəsi ilə 2022-ci il üçün hər bir şəhər və rayon üzrə müəyyən edilmiş gəlirlərin müvafiq şəhər və rayonların yerli xərclərindən artıq olan hissəsi (müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondlarına aid edilənlərdən başqa);

5.2. gömrük rüsumları, Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə əlavə dəyər vergisi və aksiz (Naxçıvan Muxtar Respublikasının gömrük orqanları tərəfindən toplanılanlardan başqa), dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar, xarici dövlətlərə verilmiş kreditlər üzrə daxilolmalar, səhmlərində dövlətin payı olan müəssisələrdən alınan dividendlər, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) daxilolmalar, sair daxilolmalar, dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərindən maliyyələşdirilən büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondlarının gəlirləri tam həcmdə.

**Maddə 6.** Bu Qanunun 9-cu maddəsi ilə 2022-ci il üçün hər bir şəhər və rayon üzrə müəyyən edilmiş gəlirlərin müvafiq şəhər və rayonların yerli xərclərindən artıq olmayan hissəsi onların yerli gəlirlərinin formalaşdırılmasına yönəldilir.

**Maddə 7.** Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin xərcləri funksional təsnifatın bölmə və köməkçi bölmələri səviyyəsində aşağıdakı məqsədlərə yönəldilir:

| | Xərclərin istiqamətləri | Məbləğ (manatla) |
|---|---|---|
| 7.1. | Ümumi dövlət xidmətləri | 4 265 536255,0 |
| 7.1.1. | qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının fəaliyyəti | 1 437 661 418,0 |
| 7.1.2. | beynəlxalq münasibətlər | 363400 000,0 |
| 7.1.3. | xarici yardımlar | 11 000 000,0 |
| 7.1.4. | elm | 202 790759,0 |
| 7.1.5. | seçkilərin keçirilməsi və statistika tədbirləri | 20 484 078,0 |
| 7.1.6. | büdcələrarası transfertlər | 438200 000,0 |
| 7.1.6.1. | yerli (bələdiyyələr) büdcələrə verilən dotasiya | 5 300 000,0 |
| 7.1.6.2. | yerli (bələdiyyələr) büdcələrə verilən subvensiya | 1 300 000,0 |
| 7.1.6.3. | Naxçıvan Muxtar Respublikasının büdcəsinə verilən dotasiya | 431 600 000,0 |
| 7.1.7. | dövlət borcu | 1 792 000 000,0 |
| 7.2. | Müdafiə və milli təhlükəsizlik | 4 489892429,0 |
| 7.2.1. | müdafiə qüvvələri | 2 161 633993,0 |
| 7.2.2. | milli təhlükəsizlik | 285412020,0 |
| 7.2.3. | sərhəd xidməti | 433205951,0 |
| 7.2.4. | müdafiə və milli təhlükəsizlik sahəsində tətbiqi tədqiqatlar | 4119118,0 |
| 7.2.5. | müdafiə və milli təhlükəsizlik sahəsinə aid edilən digər fəaliyyətlər | 1 605521347,0 |
| 7.2.5.1. | xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə xərclər | 1 600 442 500,0 |
| 7.3. | Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq | 2 432 628501,0 |
| 7.3.1. | məhkəmə hakimiyyəti | 114 756 049,0 |
| 7.3.2. | hüquq-mühafizə | 1 756369427,0 |
| 7.3.3. | prokurorluq | 102 744942,0 |
| 7.3.4. | məhkəmə qərarlarının icrası | 10 000 000,0 |
| 7.3.5. | hüquqi yardım | 4 386 425,0 |
| 7.3.6. | məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq sahələrinə aid edilən digər fəaliyyətlər | 444 371 658,0 |
| 7.4. | Təhsil | 3 884325660,0 |
| 7.4.1. | məktəbəqədər təhsil | 376858452,0 |
| 7.4.2. | ümumi təhsil | 2089913442,0 |
| 7.4.3. | peşə təhsili | 63 815386,0 |
| 7.4.4. | orta ixtisas təhsili | 87300596,0 |
| 7.4.5. | ali təhsil | 59 987844,0 |
| 7.4.6. | əlavə təhsil | 8664992,0 |
| 7.4.7. | təhsil sahəsində tətbiqi tədqiqatlar | 7015701,0 |
| 7.4.8. | təhsil sahəsində digər müəssisə və tədbirlər | 1 190 769247,0 |
| 7.5. | Səhiyyə | 1 788619634,0 |
| 7.5.1. | poliklinikalar və ambulatoriyalar | 1 664544,0 |
| 7.5.2. | xəstəxanalar | 171143669,0 |
| 7.5.3. | səhiyyə sahəsində tətbiqi tədqiqatlar | 2 588726,0 |
| 7.5.4. | səhiyyə sahəsində proqramlar və digər xidmətlər | 1 613222695,0 |
| 7.5.4.1. | əhalinin dövlət büdcəsinin vəsaiti hesabına icbari tibbi sığortalanması xərcləri və səhiyyə sahəsində bir sıra dövlət proqramlarının və tədbirlərin maliyyə təminatı | 1 125 674 629,0 |
| 7.6. | Sosial müdafiə və sosial təminat | 3 642594062,0 |
| 7.6.1. | sosial müdafiə | 310043606,0 |
| 7.6.2. | sosial təminat | 5581552,0 |
| 7.6.3. | sosial müdafiə və sosial təminat sahələri üzrə tətbiqi tədqiqatlar | 50 000,0 |
| 7.6.4. | sosial müdafiə və sosial təminat sahələri üzrə digər müəssisə və tədbirlər | 3 326918904,0 |
| 7.6.4.1. | dövlət sosial müdafiə fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün ayrılan vəsait | 1 145 967 169,0 |
| 7.7. | Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət | 460458021,0 |
| 7.7.1. | mədəniyyət və incəsənət sahəsində fəaliyyət | 205387395,0 |
| 7.7.2. | televiziya, radio və nəşriyyat | 54155734,0 |
| 7.7.3. | bədən tərbiyəsi və gənclər siyasəti | 43890288,0 |
| 7.7.4. | mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti sahəsinə aid olan digər müəssisə və tədbirlər | 157024 604,0 |
| 7.8. | Mənzil və kommunal təsərrüfatı | 266815634,0 |
| 7.8.1. | mənzil | 49091755,0 |
| 7.8.2. | kommunal təsərrüfatı | 112979643,0 |
| 7.8.3. | su təsərrüfatı | 14 500 000,0 |
| 7.8.4. | mənzil və kommunal təsərrüfatı ilə bağlı digər xidmətlər | 90244236,0 |
| 7.9. | Kənd təsərrüfatı | 997304754,0 |
| 7.9.1. | kənd təsərrüfatı tədbirləri | 477483667,0 |
| 7.9.2. | baytarlıq | 47535447,0 |
| 7.9.3. | meliorasiya | 459713640,0 |
| 7.9.4. | kənd təsərrüfatı üzrə digər müəssisə və tədbirlər | 12572 000,0 |
| 7.10. | Ətraf mühitin mühafizəsi | 286265231,0 |
| 7.10.1. | bioloji zənginliyin qorunması | 8180796,0 |
| 7.10.2. | hidrometeorologiya tədbirləri | 10 966 058,0 |
| 7.10.3. | meşə təsərrüfatı | 15 467857,0 |
| 7.10.4. | balıqçılıq və ovçuluq | 1 443272,0 |
| 7.10.5. | ərazilərin təmizlənməsi, çirkab suların yığılması və təmizlənməsi | 248992248,0 |
| 7.10.6. | ətraf mühitin mühafizəsi sahəsinə aid edilən digər xidmətlər | 1215 000,0 |
| 7.11. | İqtisadi fəaliyyət | 5 947158120,0 |
| 7.11.1. | nəqliyyat və rabitə | 232922840,0 |
| 7.11.2. | iqtisadi və kommersiya fəaliyyəti | 56068289,0 |
| 7.11.3. | tikinti və şəhərsalma | 4 991 670 500,0 |
| 7.11.3.1. | dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) | 2789 800 000,0 |
| 7.11.3.2. | işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası | 2 200 000 000,0 |
| 7.11.4. | geodeziya və faydalı qazıntılar | 8175975,0 |
| 7.11.5. | yanacaq və enerji kompleksi | 1 900 000,0 |
| 7.11.6. | iqtisadi fəaliyyət ilə bağlı digər xidmətlər | 656420516,0 |
| 7.12. | Əsas bölmələrə aid edilməyən xərclər | 1 417401699,0 |
| 7.12.1. | ehtiyat fondları | 628 000 000,0 |
| 7.12.1.1. | Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondu | 518 000 000,0 |
| 7.12.1.2. | dövlət büdcəsinin ehtiyat fondu | 110 000 000,0 |
| 7.12.2. | məqsədli büdcə fondları | 309 865 000,0 |
| 7.12.2.1. | müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondları | 309 865 000,0 |
| 7.12.3. | valyuta konvertasiyası | 4 000 000,0 |
| 7.12.4. | əsas bölmələrə aid edilməyən tədbirlər üzrə digər fəaliyyət | 475 536 699,0 |
| 7.12.4.1. | dövlət ehtiyatlarının yaradılması | 42 316 300,0 |
| 7.12.4.2. | fövqəladə halların nəticələrinin aradan qaldırılması ilə bağlı xərclər | 20 000 000,0 |
| 7.12.4.3. | ehtiyata və ya istefaya buraxılmış hərbçilərə mənzil kirayəsi ilə bağlı xərclər | 11 946580,0 |
| 7.12.4.4. | sosial-iqtisadi və digər tədbirlər üzrə xərclər | 401 273819,0 |

**Maddə 8.** Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin xərcləri funksional və iqtisadi təsnifatın paraqrafları səviyyəsində bu Qanunun əlavəsində verilmiş məbləğlərdə təsdiq edilsin.

**Maddə 9.** Azərbaycan Respublikasının şəhər və rayonları üzrə gəlirlər 8 820 000 000,0 manat, o cümlədən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fonduna aid olan məbləğ 120500000,0 manat, yerli xərclər 985 012000,0 manat, gəlirlərin yerli xərclərdən artıq olan və mərkəzləşdirilmiş gəlirlərə aid edilən hissəsinin məbləği 7 751 944 000,0 manat, yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılması nəzərdə tutulan vəsaitin yuxarı həddi 37 456000,0 manat məbləğində təsdiq edilsin.

**(manatla)**

| Sıra №-si | Şəhər və rayonların adı | Gəlirlər: Cəmi | Gəlirlər: o cümlədən Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fonduna aid olan məbləğ | Yerli xərclər | Gəlirlərin yerli xərclərdən artıq olan və mərkəzləşdirilmiş gəlirlərə aid edilən hissəsinin aşağı həddi | Yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılması nəzərdə tutulan vəsaitin yuxarı həddi |
|---|---|---|---|---|---|---|
| | **Şəhərlər** | | | | | |
| 1. | Bakı | 7 834 331 000 | 88 584 100 | 417 633 000 | 7 328 113 900 | 0 |
| 2. | Gəncə | 70 923 000 | 1 457 700 | 39 504 000 | 29 961 300 | 0 |
| 3. | Lənkəran | 25 767 000 | 1 983 900 | 15 188 000 | 8 595 100 | 0 |
| 4. | Mingəçevir | 30 397 000 | 65 000 | 22 209 000 | 8 123 000 | 0 |
| 5. | Naftalan | 6 185 000 | 2 000 | 3 689 000 | 2 494 000 | 0 |
| 6. | Sumqayıt | 142 033 000 | 1 977 400 | 51 601 000 | 88 454 600 | 0 |
| 7. | Şəki | 30 760 000 | 1 484 500 | 14 177 000 | 15 098 500 | 0 |
| 8. | Şirvan | 26 986 000 | 1 385 300 | 6 604 000 | 18 996 700 | 0 |
| 9. | Yevlax | 21 218 000 | 2 131 900 | 10 671 000 | 8 415 100 | 0 |
| 10. | Xankəndi | | | | | |
| | **Rayonlar** | | | | | |
| 11. | Abşeron | 59 024 000 | 166 000 | 18 588 000 | 40 270 000 | 0 |
| 12. | Ağcabədi | 18 606 000 | 1 338 600 | 10 570 000 | 6 697 400 | 0 |
| 13. | Ağdam | 6 445 000 | 35 000 | 11 390 000 | 0 | 4 980 000 |
| 14. | Ağdaş | 8 305 000 | 12 000 | 8 293 000 | 0 | 0 |
| 15. | Ağstafa | 8 597 000 | 41 000 | 8 556 000 | 0 | 0 |
| 16. | Ağsu | 10 674 000 | 815 100 | 5 625 000 | 4 233 900 | 0 |
| 17. | Astara | 14 777 000 | 1 710 000 | 6 182 000 | 6 885 000 | 0 |
| 18. | Balakən | 6 501 000 | 1 103 000 | 7 010 000 | 0 | 1 612 000 |
| 19. | Beyləqan | 12 600 000 | 33 000 | 6 865 000 | 5 702 000 | 0 |
| 20. | Bərdə | 17 023 000 | 61 000 | 9 655 000 | 7 307 000 | 0 |
| 21. | Biləsuvar | 10 899 000 | 1 817 000 | 5 414 000 | 3 668 000 | 0 |
| 22. | Cəbrayıl | 1 264 000 | 16 000 | 4 122 000 | 0 | 2 874 000 |
| 23. | Cəlilabad | 9 632 000 | 35 000 | 8 823 000 | 774 000 | 0 |
| 24. | Daşkəsən | 4 510 000 | 1 000 | 4 097 000 | 412 000 | 0 |
| 25. | Füzuli | 11 499 000 | 17 000 | 11 482 000 | 0 | 0 |
| 26. | Gədəbəy | 7 328 000 | 41 000 | 7 287 000 | 0 | 0 |
| 27. | Goranboy | 7 649 000 | 20 000 | 9 785 000 | 0 | 2 156 000 |
| 28. | Göyçay | 12 451 000 | 16 000 | 8 712 000 | 3 723 000 | 0 |
| 29. | Göygöl | 15 702 000 | 9 000 | 6 914 000 | 8 779 000 | 0 |
| 30. | Hacıqabul | 7 722 000 | 12 000 | 3 728 000 | 3 982 000 | 0 |
| 31. | Xaçmaz | 38 079 000 | 4 313 900 | 9 701 000 | 24 064 100 | 0 |
| 32. | Xızı | 3 739 000 | 5 000 | 3 313 000 | 421 000 | 0 |
| 33. | Xocalı | 490 000 | 3 000 | 2 014 000 | 0 | 1 527 000 |
| 34. | Xocavənd | 1 071 000 | 25 000 | 2 586 000 | 0 | 1 540 000 |
| 35. | İmişli | 31 596 000 | 1 322 700 | 6 326 000 | 23 947 300 | 0 |
| 36. | İsmayıllı | 11 359 000 | 10 000 | 6 337 000 | 5 012 000 | 0 |
| 37. | Kəlbəcər | 1 701 000 | 4 000 | 5 225 000 | 0 | 3 528 000 |
| 38. | Kürdəmir | 10 325 000 | 18 000 | 5 743 000 | 4 564 000 | 0 |
| 39. | Qax | 4 700 000 | 15 000 | 10 161 000 | 0 | 5 476 000 |
| 40. | Qazax | 15 398 000 | 15 000 | 8 437 000 | 6 946 000 | 0 |
| 41. | Qəbələ | 19 720 000 | 22 000 | 8 151 000 | 11 547 000 | 0 |
| 42. | Qobustan | 5 008 000 | 5 000 | 4 445 000 | 558 000 | 0 |
| 43. | Quba | 24 773 000 | 64 000 | 8 179 000 | 16 530 000 | 0 |
| 44. | Qubadlı | 4 423 000 | 4 000 | 3 669 000 | 750 000 | 0 |
| 45. | Qusar | 13 139 000 | 28 000 | 6 102 000 | 7 009 000 | 0 |
| 46. | Laçın | 3 114 000 | 75 000 | 5 455 000 | 0 | 2 416 000 |
| 47. | Lerik | 3 185 000 | 5 000 | 5 614 000 | 0 | 2 434 000 |
| 48. | Masallı | 11 758 000 | 35 000 | 8 594 000 | 3 129 000 | 0 |
| 49. | Neftçala | 9 416 000 | 28 000 | 6 343 000 | 3 045 000 | 0 |
| 50. | Oğuz | 3 250 000 | 30 000 | 5 704 000 | 0 | 2 484 000 |
| 51. | Saatlı | 13 178 000 | 8 000 | 8 822 000 | 4 348 000 | 0 |
| 52. | Sabirabad | 13 756 000 | 17 000 | 6 966 000 | 6 773 000 | 0 |
| 53. | Salyan | 14 655 000 | 26 000 | 7 219 000 | 7 410 000 | 0 |
| 54. | Samux | 6 027 000 | 16 000 | 6 011 000 | 0 | 0 |
| 55. | Siyəzən | 5 961 000 | 17 000 | 3 966 000 | 1 978 000 | 0 |
| 56. | Şabran | 8 101 000 | 21 000 | 4 291 000 | 3 789 000 | 0 |
| 57. | Şamaxı | 16 213 000 | 14 000 | 8 800 000 | 7 399 000 | 0 |
| 58. | Şəmkir | 22 281 000 | 50 000 | 15 217 000 | 7 014 000 | 0 |
| 59. | Şuşa | 1 955 000 | 2 000 | 1 953 000 | 0 | 0 |
| 60. | Tərtər | 9 419 000 | 17 000 | 9 402 000 | 0 | 0 |
| 61. | Tovuz | 24 978 000 | 7 808 900 | 12 144 000 | 5 025 100 | 0 |
| 62. | Ucar | 6 438 000 | 21 000 | 6 417 000 | 0 | 0 |
| 63. | Yardımlı | 2 882 000 | 8 000 | 4 977 000 | 0 | 2 103 000 |
| 64. | Zaqatala | 12 209 000 | 62 000 | 12 147 000 | 0 | 0 |
| 65. | Zəngilan | 1 777 000 | 3 000 | 3 183 000 | 0 | 1 409 000 |
| 66. | Zərdab | 4 118 000 | 11 000 | 7 024 000 | 0 | 2 917 000 |
| | **Cəmi** | **8 820 000 000** | **120 500 000** | **985 012 000** | **7 751 944 000** | **37 456 000** |

**Maddə 10.** Bu Qanunun 9-cu maddəsi ilə müəyyən edilmiş yerli xərclərin maliyyələşdirilməsi məqsədilə şəhər və rayonların gəlirləri, həmçinin yerli gəlir və xərcləri tənzimləmək üçün ayrılan vəsaitin yuxarı həddi yerli xərcləri təmin etmədikdə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həmin şəhər və rayonlara, onların xərclərinin 10 faizindən çox olmayan hissəsi qədər dövlət büdcəsindən vəsait ayırır.

**Maddə 11.** Azərbaycan Respublikasının 2022-ci ildə dövlət daxili və xarici borclarına xidmətlərlə bağlı xərclərin yuxarı hədləri aşağıdakı kimi təsdiq edilsin:

**(manatla)**

| | | |
|---|---|---|
| 11.1. | Daxili dövlət borcu üzrə, o cümlədən: | 232 000000,0 |
| | faiz ödənişləri | 225 096000,0 |
| 11.2. | Xarici dövlət borcu üzrə, o cümlədən: | 1 560 000000,0 |
| | faiz ödənişləri | 407 573811,0 |

**Maddə 12.** Azərbaycan Respublikasının 2022-ci il üzrə daxili dövlət borclanmasının yuxarı həddi (limiti) 1 100 000,0 min manat, xarici dövlət borclanmasının yuxarı həddi (limiti) 600 000,0 min manat təsdiq edilsin. İl ərzində veriləcək dövlət zəmanətlərinin məbləğinin yuxarı həddi (limiti) 800 000,0 min manat məbləğində təsdiq edilsin.

**Maddə 13.** Dövlət büdcəsinin icrası prosesində "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinə əsasən müdafiə olunan xərc maddələri ilk növbədə, digər xərc maddələri isə dövlət büdcəsinin gəlirləri və kəsirinin maliyyələşdirilməsi mənbələri üzrə daxilolmaların vəziyyətindən asılı olaraq maliyyələşdirilir.

**Maddə 14.** Dövlət büdcəsi kəsirinin yuxarı həddi 3 063 000,0 min manat məbləğində təsdiq edilsin. Onun maliyyələşdirilməsi özəlləşdirmədən, digər mənbələrdən daxilolmalar (daxili və xarici borclanma, 2022-ci il yanvarın 1-nə dövlət büdcəsinin vahid xəzinə hesabının qalığı) hesabına həyata keçirilsin.

**Maddə 15.** Azərbaycan Respublikasının 2022-ci il icmal büdcəsinin xərclərinin yuxarı həddinin məbləği 32 914 390,0 min manat müəyyən edilsin.

**Maddə 16.** Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) gəlirləri nəzərə alınmadan Azərbaycan Respublikasının 2022-ci il icmal büdcəsi kəsirinin yuxarı həddinin məbləği 15818686,0 min manat məbləğində müəyyən edilsin.

**Maddə 17.** Bu Qanun 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 dekabr 2021-ci il*

# "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 401-VIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 401-VIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 401-VIQ nömrəli Qanununun 7-ci maddəsi ilə funksional təsnifatın bölmə və köməkçi bölmələri səviyyəsində ayrılan vəsaitin məbləği inzibati təsnifata uyğun olaraq dövlət büdcəsindən maliyyələşən, maliyyə yardımı alan təşkilatlar və tədbirlər üzrə aşağıdakı qaydada təsdiq edilsin:

manatla

| | Xərclərin istiqaməti | Xərclərin məbləği | o cümlədən: | |
|---|---|---|---|---|
| | | | Mərkəzləşdirilmiş xərclər | Yerli xərclər |
| 1 | 2 | 3 | 4 | 5 |
| **1.1** | **Ümumi dövlət xidmətləri** | **4 265 536 255,0** | **4 101 939 027,0** | **163 597 228,0** |
| **1.1.1** | **Qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının fəaliyyəti** | **1 437 661 418,0** | **1 275 233 604,0** | **162 427 814,0** |
| 1.1.1.1 | Azərbaycan Respublikasının Milli Məclisi | 42 236 822,0 | 42 236 822,0 | |
| 1.1.1.2 | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası | 187 260 432,0 | 187 260 432,0 | |
| 1.1.1.3 | Azərbaycan Respublikasının Nazirlər Kabineti | 28 544 518,0 | 28 544 518,0 | |
| 1.1.1.4 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 10 652 301,0 | 10 652 301,0 | |
| 1.1.1.5 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Dövlət Ekoloji Təhlükəsizlik Xidməti | 1 033 512,0 | 1 033 512,0 | |
| 1.1.1.6 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Meşələrin İnkişafı Xidməti | 786 666,0 | 786 666,0 | |
| 1.1.1.7 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Milli Hidrometeorologiya Xidməti | 865 825,0 | 865 825,0 | |
| 1.1.1.8 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması Xidməti | 764 512,0 | 764 512,0 | |
| 1.1.1.9 | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 9 452 801,0 | 9 452 801,0 | |
| 1.1.1.10 | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti | 5 572 846,0 | 5 572 846,0 | |
| 1.1.1.11 | Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi | 10 601 143,0 | 4 547 168,0 | 6 053 975,0 |
| 1.1.1.12 | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi | 23 098 122,0 | 23 098 122,0 | |
| 1.1.1.13 | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi | 12 969 248,0 | 12 969 248,0 | |
| 1.1.1.14 | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti | 46 933 856,0 | 46 933 856,0 | |
| 1.1.1.15 | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti | 11 627 035,0 | 11 627 035,0 | |
| 1.1.1.16 | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti | 6 204 002,0 | 6 204 002,0 | |
| 1.1.1.17 | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi | 22 218 022,0 | 22 218 022,0 | |
| 1.1.1.18 | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi | 1 261 404,0 | 1 261 404,0 | |
| 1.1.1.19 | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi | 2 271 266,0 | 2 271 266,0 | |
| 1.1.1.20 | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | 21 610 766,0 | 21 610 766,0 | |
| 1.1.1.21 | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq Agentliyi | 10 815 554,0 | 10 815 554,0 | |
| 1.1.1.22 | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Borcunun və Maliyyə Öhdəliklərinin İdarə Edilməsi Agentliyi | 723 623,0 | 723 623,0 | |
| 1.1.1.23 | Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti | 2 534 715,0 | 2 534 715,0 | |
| 1.1.1.24 | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi | 7 955 436,0 | 7 955 436,0 | |
| 1.1.1.25 | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti | 3 584 493,0 | 3 584 493,0 | |
| 1.1.1.26 | Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | 5 554 727,0 | 5 554 727,0 | |
| 1.1.1.27 | Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidməti | 655 453,0 | 655 453,0 | |
| 1.1.1.28 | Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi | 1 113 422,0 | 1 113 422,0 | |
| 1.1.1.29 | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 2 734 042,0 | 2 734 042,0 | |
| 1.1.1.30 | Azərbaycan Respublikasının Energetika Nazirliyi | 4 069 106,0 | 4 069 106,0 | |
| 1.1.1.31 | Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi | 959 473,0 | 959 473,0 | |
| 1.1.1.32 | Azərbaycan Respublikasının Təhsil Nazirliyi | 15 600 542,0 | 6 986 917,0 | 8 613 625,0 |
| 1.1.1.33 | Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi | 999 744,0 | 999 744,0 | |
| 1.1.1.34 | Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2 343 650,0 | 2 343 650,0 | |
| 1.1.1.35 | Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi | 3 018 715,0 | 3 018 715,0 | |
| 1.1.1.36 | Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | 4 014 799,0 | 4 014 799,0 | |
| 1.1.1.37 | Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 5 703 874,0 | 5 703 874,0 | |
| 1.1.1.38 | Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında Bakı Şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsi | 1 086 311,0 | 1 086 311,0 | |
| 1.1.1.39 | Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsi | 2 004 520,0 | 2 004 520,0 | |
| 1.1.1.40 | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi | 24 451 761,0 | 24 451 761,0 | |
| 1.1.1.41 | Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 4 419 141,0 | 4 419 141,0 | |
| 1.1.1.42 | Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası | 2 456 495,0 | 2 456 495,0 | |
| 1.1.1.43 | Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi | 859 097,0 | 859 097,0 | |
| 1.1.1.44 | Azərbaycan Respublikasının Xüsusi Tibb Xidməti | 11 330 509,0 | 11 330 509,0 | |
| 1.1.1.45 | Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 41 528 877,0 | 41 528 877,0 | |
| 1.1.1.46 | Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının Katibliyi | 173 809,0 | 173 809,0 | |
| 1.1.1.47 | Dövlət mükafatlarının və təltiflərinin maliyyə təminatı | 250 800,0 | 250 800,0 | |
| 1.1.1.48 | Şəhər və rayon icra hakimiyyəti orqanlarının saxlanılması | 147 760 214,0 | | 147 760 214,0 |
| 1.1.1.49 | Azərbaycan Respublikasının digər mərkəzi təşkilatlarının saxlanılması | 20 528 031,0 | 20 528 031,0 | |
| 1.1.1.49.1 | Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) | 3 862 883,0 | 3 862 883,0 | |
| 1.1.1.49.2 | Azərbaycan Respublikasının Hesablama Palatası | 10 102 744,0 | 10 102 744,0 | |
| 1.1.1.49.3 | Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası | 3 869 704,0 | 3 869 704,0 | |
| 1.1.1.49.4 | Məhkəmə-Hüquq Şurası | 1 034 281,0 | 1 034 281,0 | |
| 1.1.1.49.5 | Azərbaycan Respublikasının Milli Televiziya və Radio Şurası | 1 658 419,0 | 1 658 419,0 | |
| 1.1.1.50 | Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi | 13 547 061,0 | 13 547 061,0 | |
| 1.1.1.51 | Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi | 1 796 770,0 | 1 796 770,0 | |
| 1.1.1.52 | Qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları üzrə əməkhaqqı və digər sosial ödənişlərin artımı ilə bağlı xərclər | 298 600 000,0 | 298 600 000,0 | |
| 1.1.1.53 | Qanunvericilik və icra hakimiyyəti orqanlarının təşkilati strukturunun təkmilləşdirilməsi | 4 093 958,0 | 4 093 958,0 | |
| 1.1.1.54 | Qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi | 2 397 597,0 | 2 397 597,0 | |
| 1.1.1.55 | Qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 342 030 000,0 | 342 030 000,0 | |
| **1.1.2** | **Beynəlxalq münasibətlər** | **363 400 000,0** | **363 400 000,0** | |
| 1.1.2.1 | Beynəlxalq və regional təşkilatlara üzvlük haqqı və maliyyə institutlarının səhm kapitalında iştirak | 27 200 000,0 | 27 200 000,0 | |
| 1.1.2.2 | Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəlikləri və konsulluqları | 125 000 000,0 | 125 000 000,0 | |
| 1.1.2.3 | Beynəlxalq fəaliyyət və bu qəbildən olan digər tədbirlər | 31 200 000,0 | 31 200 000,0 | |
| 1.1.2.4 | Beynəlxalq səviyyəli tədbirlərin keçirilməsi ilə bağlı xərclər | 180 000 000,0 | 180 000 000,0 | |
| 1.1.2.4.1 | Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəliklərinin və konsulluqlarının fəaliyyəti ilə bağlı digər xərclər | 10 000 000,0 | 10 000 000,0 | |
| 1.1.2.4.2 | Beynəlxalq, ölkə səviyyəli və bu qəbildən olan digər tədbirlər | 170 000 000,0 | 170 000 000,0 | |
| **1.1.3** | **Xarici yardımlar** | **11 000 000,0** | **11 000 000,0** | |
| **1.1.4** | **Elm** | **202 790 759,0** | **201 621 345,0** | **1 169 414,0** |
| 1.1.4.1 | Azərbaycan Milli Elmlər Akademiyası və onun tabeliyində olan müəssisələrin saxlanılması | 133 912 851,0 | 133 912 851,0 | |
| 1.1.4.2 | Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu | 4 192 755,0 | 4 192 755,0 | |
| 1.1.4.3 | "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi | 2 890 739,0 | 2 890 739,0 | |
| 1.1.4.4 | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi | 7 524 305,0 | 7 524 305,0 | |
| 1.1.4.5 | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi | 280 896,0 | 280 896,0 | |
| 1.1.4.6 | Azərbaycan Respublikasının Təhsil Nazirliyi | 1 779 721,0 | 1 779 721,0 | |
| 1.1.4.7 | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi | 16 405 359,0 | 16 405 359,0 | |
| 1.1.4.8 | Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi | 9 947 766,0 | 9 947 766,0 | |
| 1.1.4.9 | Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 250 800,0 | 250 800,0 | |
| 1.1.4.10 | Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi | 9 750 747,0 | 8 581 333,0 | 1 169 414,0 |
| 1.1.4.11 | Elm sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi, sosial ödənişlər və digər sosial tədbirlər | 1 003 200,0 | 1 003 200,0 | |
| 1.1.4.12 | Elm sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi və əsaslı təmir | 1 003 200,0 | 1 003 200,0 | |
| 1.1.4.13 | Elm sahəsi üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 3 500 000,0 | 3 500 000,0 | |
| 1.1.4.14 | Publik hüquqi şəxslərə dövlət büdcəsindən vəsait ayrılması | 10 348 420,0 | 10 348 420,0 | |
| **1.1.5** | **Seçkilərin keçirilməsi və statistika tədbirləri** | **20 484 078,0** | **20 484 078,0** | |
| 1.1.5.1 | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi | 2 014 385,0 | 2 014 385,0 | |
| 1.1.5.2 | Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası | 18 469 693,0 | 18 469 693,0 | |
| 1.1.5.2.1 | Seçici siyahılarının dəqiqləşdirilməsi | 5 798 583,0 | 5 798 583,0 | |
| 1.1.5.2.2 | Dairə seçki komissiyalarının saxlanılması | 12 671 110,0 | 12 671 110,0 | |
| **1.1.6** | **Büdcələrarası transfertlər** | **438 200 000,0** | **438 200 000,0** | |
| 1.1.6.1 | Yerli büdcələrə (bələdiyyələrə) verilən dotasiya | 5 300 000,0 | 5 300 000,0 | |
| 1.1.6.2 | Yerli büdcələrə (bələdiyyələrə) verilən subvensiya | 1 300 000,0 | 1 300 000,0 | |
| 1.1.6.3 | Naxçıvan Muxtar Respublikasının büdcəsinə verilən dotasiya | 431 600 000,0 | 431 600 000,0 | |
| **1.1.7** | **Azərbaycan Respublikasının Maliyyə Nazirliyi (dövlət borcu)** | **1 792 000 000,0** | **1 792 000 000,0** | |
| **1.2** | **Müdafiə və milli təhlükəsizlik** | **4 489 892 429,0** | **4 489 892 429,0** | |
| **1.2.1** | **Müdafiə qüvvələri** | **2 161 633 993,0** | **2 161 633 993,0** | |
| 1.2.1.1 | Azərbaycan Respublikasının Müdafiə Nazirliyi | 1 941 544 061,0 | 1 941 544 061,0 | |
| 1.2.1.2 | Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | 33 490 901,0 | 33 490 901,0 | |
| 1.2.1.3 | Müdafiə və milli təhlükəsizlik sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi, sosial ödənişlər və digər sosial tədbirlər | 62 303 561,0 | 62 303 561,0 | |
| 1.2.1.4 | Müdafiə və milli təhlükəsizlik sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi | 100 195 470,0 | 100 195 470,0 | |
| 1.2.1.5 | Müdafiə və milli təhlükəsizlik sahəsi üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 24 100 000,0 | 24 100 000,0 | |
| **1.2.2** | **Milli təhlükəsizlik** | **285 412 020,0** | **285 412 020,0** | |
| **1.2.2.1** | **Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti** | **227 695 862,0** | **227 695 862,0** | |
| 1.2.2.2 | Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti | 57 716 158,0 | 57 716 158,0 | |
| **1.2.3** | **Sərhəd xidməti** | **433 205 951,0** | **433 205 951,0** | |
| 1.2.3.1 | Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti | 433 205 951,0 | 433 205 951,0 | |
| **1.2.4** | **Müdafiə və milli təhlükəsizlik sahəsində tətbiqi tədqiqatlar** | **4 119 118,0** | **4 119 118,0** | |
| 1.2.4.1 | Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi | 4 119 118,0 | 4 119 118,0 | |
| **1.2.5** | **Müdafiə və milli təhlükəsizlik sahəsinə aid edilən digər fəaliyyətlər** | **1 605 521 347,0** | **1 605 521 347,0** | |
| 1.2.5.1 | Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi | 5 078 847,0 | 5 078 847,0 | |
| 1.2.5.2 | Xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə xərclər | 1 600 442 500,0 | 1 600 442 500,0 | |
| **1.3** | **Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq** | **2 432 628 501,0** | **2 432 607 301,0** | **21 200,0** |
| **1.3.1** | **Məhkəmə hakimiyyəti** | **114 756 049,0** | **114 756 049,0** | |
| 1.3.1.1 | Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi | 9 246 521,0 | 9 246 521,0 | |
| 1.3.1.2 | Azərbaycan Respublikasının Ali Məhkəməsi | 15 023 916,0 | 15 023 916,0 | |
| 1.3.1.3 | Bakı Apellyasiya Məhkəməsi | 9 216 648,0 | 9 216 648,0 | |
| 1.3.1.4 | Sumqayıt Apellyasiya Məhkəməsi | 3 207 542,0 | 3 207 542,0 | |
| 1.3.1.5 | Gəncə Apellyasiya Məhkəməsi | 2 812 044,0 | 2 812 044,0 | |
| 1.3.1.6 | Şirvan Apellyasiya Məhkəməsi | 2 937 654,0 | 2 937 654,0 | |
| 1.3.1.7 | Şəki Apellyasiya Məhkəməsi | 2 297 665,0 | 2 297 665,0 | |
| 1.3.1.8 | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi (maliyyə təminatı Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən həyata keçirilən məhkəmələr) | 70 014 059,0 | 70 014 059,0 | |
| **1.3.2** | **Hüquq-mühafizə** | **1 756 369 427,0** | **1 756 369 427,0** | |
| 1.3.2.1 | Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi | 718 970 548,0 | 718 970 548,0 | |
| 1.3.2.2 | Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsi | 274 192 860,0 | 274 192 860,0 | |
| 1.3.2.3 | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi | 46 719 083,0 | 46 719 083,0 | |
| 1.3.2.4 | Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti | 133 007 654,0 | 133 007 654,0 | |
| 1.3.2.4.1 | Xidmətin və onun tabeliyində olan müəssisələrin saxlanılması | 88 483 643,0 | 88 483 643,0 | |
| 1.3.2.4.2 | Penitensiar fəaliyyət | 44 524 011,0 | 44 524 011,0 | |
| 1.3.2.5 | Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi | 319 313 504,0 | 319 313 504,0 | |
| 1.3.2.6 | Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi | 49 413 727,0 | 49 413 727,0 | |
| 1.3.2.7 | Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti | 140 001 071,0 | 140 001 071,0 | |
| 1.3.2.8 | Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti | 20 482 419,0 | 20 482 419,0 | |
| 1.3.2.9 | Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi | 32 943 396,0 | 32 943 396,0 | |
| 1.3.2.10 | Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti | 18 475 055,0 | 18 475 055,0 | |
| 1.3.2.10.1 | Xidmətin və onun tabeliyində olan müəssisələrin saxlanılması | 18 304 555,0 | 18 304 555,0 | |
| 1.3.2.10.2 | Miqrasiya fəaliyyəti | 170 500,0 | 170 500,0 | |
| 1.3.2.11 | Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın İşçi Qrupu | 258 301,0 | 258 301,0 | |
| 1.3.2.12 | Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi Qrupu | 319 320,0 | 319 320,0 | |
| 1.3.2.13 | Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Katibliyi | 2 272 489,0 | 2 272 489,0 | |
| **1.3.3** | **Prokurorluq** | **102 744 942,0** | **102 744 942,0** | |
| 1.3.3.1 | Azərbaycan Respublikasının Baş Prokurorluğu | 84 033 516,0 | 84 033 516,0 | |
| 1.3.3.2 | Azərbaycan Respublikasının Hərbi Prokurorluğu | 18 711 426,0 | 18 711 426,0 | |
| **1.3.4** | **Məhkəmə qərarlarının icrası** | **10 000 000,0** | **10 000 000,0** | |
| 1.3.4.1 | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | 10 000 000,0 | 10 000 000,0 | |
| **1.3.5** | **Hüquqi yardım** | **4 386 425,0** | **4 365 225,0** | **21 200,0** |
| 1.3.5.1 | Azərbaycan Respublikasının Vəkillər Kollegiyası | 4 365 225,0 | 4 365 225,0 | |
| 1.3.5.2 | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | 21 200,0 | | 21 200,0 |
| **1.3.6** | **Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq sahələrinə aid edilən digər fəaliyyət** | **444 371 658,0** | **444 371 658,0** | |
| 1.3.6.1 | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi (Probasiya Xidməti üçün elektron nəzarət vasitələrinin alınması) | 6 900 000,0 | 6 900 000,0 | |
| 1.3.6.2 | Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq orqanları üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi, sosial ödənişlər və digər sosial tədbirlər | 30 987 958,0 | 30 987 958,0 | |
| 1.3.6.3 | Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq orqanları üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi | 12 831 700,0 | 12 831 700,0 | |
| 1.3.6.4 | Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq orqanları üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 269 720 000,0 | 269 720 000,0 | |
| 1.3.6.5 | İctimai asayiş, sosial və digər tədbirlərin maliyyələşdirilməsi | 70 332 000,0 | 70 332 000,0 | |
| 1.3.6.6 | Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq orqanları üzrə əməkhaqqı və digər sosial ödənişlərin artımı ilə bağlı xərclər | 23 600 000,0 | 23 600 000,0 | |
| 1.3.6.7 | Publik hüquqi şəxslərə dövlət büdcəsindən vəsait ayrılması | 30 000 000,0 | 30 000 000,0 | |
| **1.4** | **Təhsil** | **3 884 325 660,0** | **3 503 560 833,0** | **380 764 827,0** |

*Ardı 19-cu səh.*

# "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 401-VIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə

*Əvvəli 18-ci səh.*

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

| | | | | |
|---|---|---|---|---|
| **1.4.1** | **Məktəbəqədər təhsil** | **376 858 452,0** | | **376 858 452,0** |
| 1.4.1.1 | Yerli icra hakimiyyəti orqanları | 376 858 452,0 | | 376 858 452,0 |
| **1.4.2** | **Ümumi təhsil** | **2 089 913 442,0** | **2 089 913 442,0** | |
| **1.4.2.1** | **Azərbaycan Respublikasının Təhsil Nazirliyi** | **2 082 365 192,0** | **2 082 365 192,0** | |
| 1.4.2.2 | Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi | 4 475 913,0 | 4 475 913,0 | |
| 1.4.2.3 | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi | 2 062 745,0 | 2 062 745,0 | |
| 1.4.2.4 | Bakı Dövlət Universiteti | 1 009 592,0 | 1 009 592,0 | |
| **1.4.3** | **Peşə təhsili** | **63 815 386,0** | **63 815 386,0** | |
| 1.4.3.1 | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi | 1 031 958,0 | 1 031 958,0 | |
| 1.4.3.2 | Azərbaycan Respublikasının Təhsil Nazirliyi | 61 581 544,0 | 61 581 544,0 | |
| 1.4.3.3 | Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi | 1 201 884,0 | 1 201 884,0 | |
| 1.4.4 | Orta ixtisas təhsili | 87 300 596,0 | 87 300 596,0 | |
| 1.4.4.1 | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 15 067 300,0 | 15 067 300,0 | |
| 1.4.4.2 | Azərbaycan Respublikasının Təhsil Nazirliyi | 69 887 509,0 | 69 887 509,0 | |
| 1.4.4.3 | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi | 629 325,0 | 629 325,0 | |
| 1.4.4.4 | Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi | 1 716 462,0 | 1 716 462,0 | |
| **1.4.5** | **Ali təhsil** | **59 987 844,0** | **59 987 844,0** | |
| 1.4.5.1 | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi | 2 568 543,0 | 2 568 543,0 | |
| 1.4.5.2 | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi | 2 831 416,0 | 2 831 416,0 | |
| 1.4.5.3 | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi | 1 120 205,0 | 1 120 205,0 | |
| 1.4.5.4 | "ADA" Universiteti | 20 268 837,0 | 20 268 837,0 | |
| 1.4.5.5 | M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialı | 12 500 700,0 | 12 500 700,0 | |
| 1.4.5.6 | İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı | 7 789 143,0 | 7 789 143,0 | |
| 1.4.5.7 | Milli Aviasiya Akademiyası | 12 909 000,0 | 12 909 000,0 | |
| **1.4.6** | **Əlavə təhsil** | **8 664 992,0** | **8 664 992,0** | |
| 1.4.6.1 | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | 685 543,0 | 685 543,0 | |
| 1.4.6.2 | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti | 1 643 061,0 | 1 643 061,0 | |
| 1.4.6.3 | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 3 713 023,0 | 3 713 023,0 | |
| 1.4.6.4 | Azərbaycan Respublikasının Baş Prokurorluğu | 2 398 865,0 | 2 398 865,0 | |
| 1.4.6.5 | Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası | 224 500,0 | 224 500,0 | |
| **1.4.7** | **Təhsil sahəsində tətbiqi tədqiqatlar** | **7 015 701,0** | **7 015 701,0** | |
| 1.4.7.1 | Azərbaycan Respublikasının Təhsil Nazirliyi | 5 131 953,0 | 5 131 953,0 | |
| 1.4.7.2 | Bakı Dövlət Universiteti | 962 131,0 | 962 131,0 | |
| 1.4.7.3 | Azərbaycan Tibb Universiteti | 921 617,0 | 921 617,0 | |
| **1.4.8** | **Təhsil sahəsində digər müəssisə və tədbirlər** | **1 190 769 247,0** | **1 186 862 872,0** | **3 906 375,0** |
| 1.4.8.1 | Azərbaycan Respublikasının Təhsil Nazirliyi | 537 393 156,0 | 537 393 156,0 | |
| 1.4.8.2 | Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi | 15 878 405,0 | 15 878 405,0 | |
| 1.4.8.3 | Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi | 9 084 493,0 | 9 084 493,0 | |
| 1.4.8.4 | Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi | 4 858 469,0 | 4 858 469,0 | |
| 1.4.8.5 | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi | 175 291 763,0 | 175 291 763,0 | |
| 1.4.8.6 | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi | 2 594 579,0 | 2 594 579,0 | |
| 1.4.8.7 | Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi | 1 735 585,0 | 1 735 585,0 | |
| 1.4.8.8 | Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsi | 5 470 944,0 | 5 470 944,0 | |
| 1.4.8.9 | Yerli icra hakimiyyəti orqanları | 3 906 375,0 | | 3 906 375,0 |
| 1.4.8.10 | Dövlət sifarişi ilə ali təhsilin maliyyələşdirilməsi və təhsil sahəsində digər tədbirlər | 397 323 412,0 | 397 323 412,0 | |
| 1.4.8.11 | Təhsil sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi, sosial ödənişlər və digər sosial tədbirlər | 2 494 858,0 | 2 494 858,0 | |
| 1.4.8.12 | Təhsil sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi və əsaslı təmir | 5 316 960,0 | 5 316 960,0 | |
| 1.4.8.13 | Təhsil sahəsi üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 25 470 000,0 | 25 470 000,0 | |
| 1.4.8.14 | Publik hüquqi şəxslərə dövlət büdcəsindən vəsait ayrılması | 3 950 248,0 | 3 950 248,0 | |
| **1.5** | **Səhiyyə** | **1 788 619 634,0** | **1 788 619 634,0** | |
| **1.5.1** | **Poliklinikalar və ambulatoriyalar** | **1 664 544,0** | **1 664 544,0** | |
| 1.5.1.1 | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 1 664 544,0 | 1 664 544,0 | |
| **1.5.2** | **Xəstəxanalar** | **171 143 669,0** | **171 143 669,0** | |
| 1.5.2.1 | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 98 209 764,0 | 98 209 764,0 | |
| 1.5.2.2 | Azərbaycan Respublikasının Xüsusi Tibb Xidməti | 10 529 882,0 | 10 529 882,0 | |
| 1.5.2.3 | Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi | 1 232 133,0 | 1 232 133,0 | |
| 1.5.2.4 | Azərbaycan Tibb Universiteti | 1 377 718,0 | 1 377 718,0 | |
| 1.5.2.5 | Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi | 7 843 855,0 | 7 843 855,0 | |
| 1.5.2.6 | Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Milli Onkologiya Mərkəzi | 45 490 271,0 | 45 490 271,0 | |
| 1.5.2.7 | Publik hüquqi şəxslərə dövlət büdcəsindən vəsait ayrılması | 6 460 046,0 | 6 460 046,0 | |
| **1.5.3** | **Səhiyyə sahəsində tətbiqi tədqiqatlar** | **2 588 726,0** | **2 588 726,0** | |
| 1.5.3.1 | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 200 051,0 | 200 051,0 | |
| 1.5.3.2 | Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi | 1 126 578,0 | 1 126 578,0 | |
| 1.5.3.3 | Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Milli Onkologiya Mərkəzi | 1 262 097,0 | 1 262 097,0 | |
| **1.5.4** | **Səhiyyə sahəsində proqramlar və digər xidmətlər** | **1 613 222 695,0** | **1 613 222 695,0** | |
| 1.5.4.1 | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 65 685 759,0 | 65 685 759,0 | |
| 1.5.4.2 | Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi | 15 822 317,0 | 15 822 317,0 | |
| 1.5.4.3 | Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi | 5 354 698,0 | 5 354 698,0 | |
| 1.5.4.4 | Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi | 4 577 150,0 | 4 577 150,0 | |
| 1.5.4.5 | Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti | 12 456 273,0 | 12 456 273,0 | |
| 1.5.4.6 | Azərbaycan Respublikasının Xüsusi Tibb Xidməti | 10 231 577,0 | 10 231 577,0 | |
| 1.5.4.7 | Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsi | 4 081 691,0 | 4 081 691,0 | |
| 1.5.4.8 | "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti | 10 464 580,0 | 10 464 580,0 | |
| 1.5.4.9 | Səhiyyə sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi, sosial ödənişlər və digər sosial tədbirlər | 174 021,0 | 174 021,0 | |
| 1.5.4.10 | Əhalinin dövlət büdcəsinin vəsaiti hesabına icbari tibbi sığortalanması xərcləri və səhiyyə sahəsində bir sıra dövlət proqramlarının və tədbirlərin maliyyə təminatı | 1 125 674 629,0 | 1 125 674 629,0 | |
| 1.5.4.11 | Səhiyyə sahəsi üzrə sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi | 350 000 000,0 | 350 000 000,0 | |
| 1.5.4.12 | Səhiyyə sahəsi üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 8 700 000,0 | 8 700 000,0 | |
| **1.6** | **Sosial müdafiə və sosial təminat** | **3 642 594 062,0** | **3 637 587 294,0** | **5 006 768,0** |
| **1.6.1** | **Sosial müdafiə** | **310 043 606,0** | **310 043 606,0** | |
| 1.6.1.1 | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 308 716 579,0 | 308 716 579,0 | |
| 1.6.1.2 | Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 1 327 027,0 | 1 327 027,0 | |
| **1.6.2** | **Sosial təminat** | **5 581 552,0** | **574 784,0** | **5 006 768,0** |
| 1.6.2.1 | Azərbaycan Respublikasının Təhsil Nazirliyi | 574 784,0 | 574 784,0 | |
| 1.6.2.2 | Yerli icra hakimiyyəti orqanları | 5 006 768,0 | | 5 006 768,0 |
| **1.6.3** | **Sosial müdafiə və sosial təminat sahələri üzrə tətbiqi tədqiqatlar** | **50 000,0** | **50 000,0** | |
| 1.6.3.1 | Sosial təminat sahəsi üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 50 000,0 | 50 000,0 | |
| **1.6.4** | **Sosial müdafiə və sosial təminat sahələri üzrə digər müəssisə və tədbirlər** | **3 326 918 904,0** | **3 326 918 904,0** | |
| 1.6.4.1 | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 1 608 050 199,0 | 1 608 050 199,0 | |
| 1.6.4.2 | Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 367 339 425,0 | 367 339 425,0 | |
| 1.6.4.3 | Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 1 003 200,0 | 1 003 200,0 | |
| 1.6.4.4 | Dövlət sosial müdafiə fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün ayrılan vəsait | 1 145 967 169,0 | 1 145 967 169,0 | |
| 1.6.4.5 | Sosial təminat sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi, sosial ödənişlər və digər sosial tədbirlər | 3 009 600,0 | 3 009 600,0 | |
| 1.6.4.6 | Sosial müdafiə və digər sosial təminat xərcləri | 96 526 101,0 | 96 526 101,0 | |
| 1.6.4.7 | Azərbaycan Respublikasının keçmiş prezidentinin və onun ailə üzvlərinin təminatı | 343 368,0 | 343 368,0 | |
| 1.6.4.8 | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (paralimpiya oyunlarının keçirilməsi, hazırlıq və digər təşkilati işlər) | 371 184,0 | 371 184,0 | |
| 1.6.4.8.1 | Əqli imkanları məhdud olan idmançılar üzrə | 200 640,0 | 200 640,0 | |
| 1.6.4.8.2 | Fiziki imkanları məhdud olan idmançılar üzrə | 170 544,0 | 170 544,0 | |
| 1.6.4.9 | Sosial müdafiə və sosial təminat sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi və əsaslı təmir | 1 078 440,0 | 1 078 440,0 | |
| 1.6.4.10 | Publik hüquqi şəxslərə dövlət büdcəsindən vəsait ayrılması | 103 230 218,0 | 103 230 218,0 | |
| **1.7** | **Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət** | **460 458 021,0** | **444 902 896,0** | **15 555 125,0** |
| **1.7.1** | **Mədəniyyət və incəsənət sahəsində fəaliyyət** | **205 387 395,0** | **203 001 084,0** | **2 386 311,0** |
| 1.7.1.1 | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi | 185 930 101,0 | 185 930 101,0 | |
| 1.7.1.2 | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi | 562 984,0 | 562 984,0 | |
| 1.7.1.3 | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 795 152,0 | 795 152,0 | |
| 1.7.1.4 | Azərbaycan Respublikasının Təhsil Nazirliyi | 342 424,0 | 342 424,0 | |
| 1.7.1.5 | "Bakı Kristal Zalı" Məhdud Məsuliyyətli Cəmiyyəti | 2 940 000,0 | 2 940 000,0 | |
| 1.7.1.6 | Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Mirzə Fətəli Axundzadə adına Azərbaycan Milli Kitabxanası | 9 841 090,0 | 9 841 090,0 | |
| 1.7.1.7 | Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi | 2 589 333,0 | 2 589 333,0 | |
| 1.7.1.8 | Yerli icra hakimiyyəti orqanları | 2 386 311,0 | | 2 386 311,0 |
| **1.7.2** | **Televiziya, radio və nəşriyyat** | **54 155 734,0** | **54 127 928,0** | **27 806,0** |
| 1.7.2.1 | "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinə verilən maliyyə yardımı | 34 231 500,0 | 34 231 500,0 | |
| 1.7.2.2 | Azərbaycan Respublikası İctimai Televiziya və Radio Yayımları Şirkətinə verilən maliyyə yardımı | 17 069 099,0 | 17 069 099,0 | |
| 1.7.2.3 | "Azərbaycan Nəşriyyatı" Məhdud Məsuliyyətli Cəmiyyəti (dövlət sifarişlərinin yerinə yetirilməsi) | 1 934 922,0 | 1 934 922,0 | |
| 1.7.2.4 | "Mir" Dövlətlərarası Teleradio Şirkətinin Azərbaycan Milli Nümayəndəliyinə verilən subsidiya | 619 973,0 | 619 973,0 | |
| 1.7.2.5 | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi | 272 434,0 | 272 434,0 | |
| 1.7.2.6 | Radio və televiziya redaksiyalarının saxlanılması | 27 806,0 | | 27 806,0 |
| **1.7.3** | **Bədən tərbiyəsi və gənclər siyasəti** | **43 890 288,0** | **33 592 644,0** | **10 297 644,0** |
| **1.7.3.1** | **Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi** | **42 687 378,0** | **32 389 734,0** | **10 297 644,0** |
| 1.7.3.1.1 | Bədən tərbiyəsi və idmanın təşkili | 27 895 249,0 | 19 349 902,0 | 8 545 347,0 |
| 1.7.3.1.2 | Gənclər siyasəti | 14 792 129,0 | 13 039 832,0 | 1 752 297,0 |
| 1.7.3.2 | Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi | 1 202 910,0 | 1 202 910,0 | |
| **1.7.4** | **Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti sahəsinə aid olan digər müəssisə və tədbirlər** | **157 024 604,0** | **154 181 240,0** | **2 843 364,0** |
| 1.7.4.1 | Heydər Əliyev Mərkəzi | 11 444 590,0 | 11 444 590,0 | |
| 1.7.4.2 | Azərbaycanda Atatürk Mərkəzi | 479 734,0 | 479 734,0 | |
| 1.7.4.3 | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 1 302 377,0 | 1 302 377,0 | |
| 1.7.4.4 | Beynəlxalq Muğam Mərkəzi | 1 496 935,0 | 1 496 935,0 | |
| 1.7.4.5 | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi | 33 237 493,0 | 33 237 493,0 | |
| 1.7.4.6 | Azərbaycan Respublikasının Təhsil Nazirliyi | 493 574,0 | 493 574,0 | |
| 1.7.4.7 | Azərbaycan Respublikası Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu | 348 364,0 | 348 364,0 | |
| 1.7.4.8 | Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi | 6 320 160,0 | 6 320 160,0 | |
| 1.7.4.9 | Qeyri-dövlət təşkilatlarına verilən maliyyə yardımı | 6 435 169,0 | 6 435 169,0 | |
| 1.7.4.10 | Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | 1 103 520,0 | 1 103 520,0 | |
| 1.7.4.11 | Siyasi partiyalara verilən maliyyə yardımı | 5 000 000,0 | 5 000 000,0 | |
| 1.7.4.12 | "Bakı Konqres Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti | 7 548 880,0 | 7 548 880,0 | |
| 1.7.4.13 | Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu | 12 084 780,0 | 12 084 780,0 | |
| 1.7.4.14 | Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi | 222 941,0 | 222 941,0 | |
| 1.7.4.15 | Yerli icra hakimiyyəti orqanları | 2 843 364,0 | | 2 843 364,0 |
| 1.7.4.16 | Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi, sosial ödənişlər və digər sosial tədbirlər | 2 006 400,0 | 2 006 400,0 | |
| 1.7.4.17 | Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi və əsaslı təmir | 8 772 400,0 | 8 772 400,0 | |
| 1.7.4.18 | Publik hüquqi şəxslərə dövlət büdcəsindən vəsait ayrılması | 51 961 423,0 | 51 961 423,0 | |
| 1.7.4.19 | Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət sahəsi üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 3 922 500,0 | 3 922 500,0 | |
| **1.8** | **Mənzil və kommunal təsərrüfatı** | **266 815 634,0** | **117 568 740,0** | **149 246 894,0** |
| **1.8.1** | **Mənzil** | **49 091 755,0** | | **49 091 755,0** |
| 1.8.1.1 | Şəhər və rayonların yerli xərclərindən maliyyələşdirilən müəssisə və təşkilatlar | 49 091 755,0 | | 49 091 755,0 |
| **1.8.2** | **Kommunal təsərrüfatı** | **112 979 643,0** | **48 395 160,0** | **64 584 483,0** |
| 1.8.2.1 | Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 327 500,0 | 327 500,0 | |
| 1.8.2.2 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 6 970 070,0 | 6 970 070,0 | |
| 1.8.2.3 | "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyətinə verilən maliyyə yardımı | 41 097 590,0 | 41 097 590,0 | |
| 1.8.2.4 | Şəhər və rayonların yerli xərclərindən maliyyələşdirilən müəssisə və təşkilatlar | 64 584 483,0 | | 64 584 483,0 |
| **1.8.3** | **Su təsərrüfatı** | **14 500 000,0** | **14 500 000,0** | |
| **1.8.3.1** | **Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi** | **4 500 000,0** | **4 500 000,0** | |
| 1.8.3.2 | Su anbarlarının və hidroqovşaqların texniki təhlükəsizliyinin qiymətləndirilməsi və bu qəbildən olan digər tədbirlərin maliyyə təminatı | 10 000 000,0 | 10 000 000,0 | |
| **1.8.4** | **Mənzil və kommunal təsərrüfatı ilə bağlı digər xidmətlər** | **90 244 236,0** | **54 673 580,0** | **35 570 656,0** |
| 1.8.4.1 | Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 3 100 000,0 | 3 100 000,0 | |
| 1.8.4.2 | Mənzil və kommunal təsərrüfatı sahəsi üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər | 35 000 000,0 | 35 000 000,0 | |
| 1.8.4.3 | Publik hüquqi şəxslərə dövlət büdcəsindən vəsait ayrılması | 16 573 580,0 | 16 573 580,0 | |
| 1.8.4.4 | Şəhər və rayonların yerli xərclərindən maliyyələşdirilən müəssisə və təşkilatlar | 35 570 656,0 | | 35 570 656,0 |
| **1.9** | **Kənd təsərrüfatı** | **997 304 754,0** | **997 304 754,0** | |
| **1.9.1** | **Kənd təsərrüfatı tədbirləri** | **477 483 667,0** | **477 483 667,0** | |
| **1.9.1.1** | **Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi** | **3 080 000,0** | **3 080 000,0** | |
| 1.9.1.2 | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi | 451 200 000,0 | 451 200 000,0 | |
| 1.9.1.3 | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi | 12 073 667,0 | 12 073 667,0 | |
| 1.9.1.4 | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi (kənd təsərrüfatı heyvanlarının və bitkilərinin sığortalanması və Aqrar Sığorta Fondunun nizamnamə kapitalının formalaşdırılması) | 5 380 000,0 | 5 380 000,0 | |
| 1.9.1.5 | Torpaq münasibətlərinin tənzimlənməsi ilə bağlı hüquqmüəyyənedici sənədlərin verilməsi üçün göstərilən xidmətlərə görə xərclər | 1 750 000,0 | 1 750 000,0 | |
| 1.9.1.6 | Kənd təsərrüfatı sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi | 4 000 000,0 | 4 000 000,0 | |
| **1.9.2** | **Baytarlıq** | **47 535 447,0** | **47 535 447,0** | |
| 1.9.2.1 | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi | 47 535 447,0 | 47 535 447,0 | |

*Ardı 20-ci səh.*

# "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 401-VIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə

Əvvəli 19-cu səh.

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

| | | | | |
|---|---|---|---|---|
| **1.9.3** | **Meliorasiya** | **459 713 640,0** | **459 713 640,0** | |
| 1.9.3.1 | Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti | 459 713 640,0 | 459 713 640,0 | |
| **1.9.4** | **Kənd təsərrüfatı üzrə digər müəssisə və tədbirlər** | **12 572 000,0** | **12 572 000,0** | |
| 1.9.4.1 | Kənd təsərrüfatı sahəsi üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 12 572 000,0 | 12 572 000,0 | |
| **1.10** | **Ətraf mühitin mühafizəsi** | **286 265 231,0** | **84 241 940,0** | **202 023 291,0** |
| **1.10.1** | **Bioloji zənginliyin qorunması** | **8 180 796,0** | **8 180 796,0** | |
| **1.10.1.1** | **Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi** | **429 984,0** | **429 984,0** | |
| 1.10.1.2 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması Xidməti | 7 750 812,0 | 7 750 812,0 | |
| **1.10.2** | **Hidrometeorologiya tədbirləri** | **10 966 058,0** | **10 966 058,0** | |
| **1.10.2.1** | **Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi** | **732 397,0** | **732 397,0** | |
| 1.10.2.2 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Milli Hidrometeorologiya Xidməti | 10 233 661,0 | 10 233 661,0 | |
| **1.10.3** | **Meşə təsərrüfatı** | **15 467 857,0** | **15 467 857,0** | |
| 1.10.3.1 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Meşələrin İnkişafı Xidməti | 15 467 857,0 | 15 467 857,0 | |
| **1.10.4** | **Balıqçılıq və ovçuluq** | **1 443 272,0** | **1 443 272,0** | |
| 1.10.4.1 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması Xidməti | 1 443 272,0 | 1 443 272,0 | |
| **1.10.5** | **Ərazilərin təmizlənməsi, çirkab suların yığılması və təmizlənməsi** | **248 992 248,0** | **46 968 957,0** | **202 023 291,0** |
| 1.10.5.1 | Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 9 158 930,0 | 9 158 930,0 | |
| 1.10.5.2 | "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyətinə verilən subsidiya | 33 035 200,0 | 33 035 200,0 | |
| 1.10.5.3 | Su təchizatı qurğularının istismarı və onlara xidmətlə bağlı bələdiyyələrə verilən maliyyə yardımı | 4 325 000,0 | 4 325 000,0 | |
| 1.10.5.4 | Ətraf mühitin mühafizəsi sahəsi üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər | 449 827,0 | 449 827,0 | |
| 1.10.5.5 | Şəhər və rayonların yerli xərclərindən maliyyələşdirilən müəssisə və təşkilatlar | 202 023 291,0 | | 202 023 291,0 |
| **1.10.6** | **Ətraf mühitin mühafizəsi sahəsinə aid edilən digər xidmətlər** | **1 215 000,0** | **1 215 000,0** | |
| 1.10.6.1 | Ətraf mühitin mühafizəsi sahəsi üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 1 215 000,0 | 1 215 000,0 | |
| **1.11** | **İqtisadi fəaliyyət** | **5 947 158 120,0** | **5 903 085 584,0** | **44 072 536,0** |
| 1.11.1 | Nəqliyyat və rabitə | 232 922 840,0 | 188 850 304,0 | 44 072 536,0 |
| 1.11.1.1 | "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinə verilən subsidiya | 10 010 000,0 | 10 010 000,0 | |
| 1.11.1.2 | "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinə verilən subsidiya | 51 916 000,0 | 51 916 000,0 | |
| 1.11.1.3 | Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | 1 176 500,0 | 1 176 500,0 | |
| 1.11.1.4 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 12 898 020,0 | 12 898 020,0 | |
| 1.11.1.5 | Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 1 300 000,0 | 1 300 000,0 | |
| 1.11.1.6 | "Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti (nizamnamə kapitalının artırılması yolu ilə borc öhdəliklərinin tənzimlənməsi) | 23 000 000,0 | 23 000 000,0 | |
| 1.11.1.7 | Nəqliyyat və rabitə sahələrində digər tədbirlərin maliyyələşdirilməsi | 41 600 000,0 | 41 600 000,0 | |
| 1.11.1.8 | Publik hüquqi şəxslərə dövlət büdcəsindən vəsait ayrılması | 46 949 784,0 | 46 949 784,0 | |
| 1.11.1.9 | Şəhər və rayonların yerli xərclərindən maliyyələşdirilən müəssisə və təşkilatlar | 44 072 536,0 | | 44 072 536,0 |
| **1.11.2** | **İqtisadi və kommersiya fəaliyyəti** | **56 068 289,0** | **56 068 289,0** | |
| 1.11.2.1 | Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi | 56 068 289,0 | 56 068 289,0 | |
| **1.11.3** | **Tikinti və şəhərsalma** | **4 991 670 500,0** | **4 991 670 500,0** | |
| 1.11.3.1 | Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 370 500,0 | 1 370 500,0 | |
| 1.11.3.2 | Dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) | 2 789 800 000,0 | 2 789 800 000,0 | |
| 1.11.3.3 | İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası | 2 200 000 000,0 | 2 200 000 000,0 | |
| 1.11.3.4 | Müfəssəl ərazi planlaşdırılması sənədlərinin hazırlanması | 500 000,0 | 500 000,0 | |
| **1.11.4** | **Geodeziya və faydalı qazıntılar** | **8 175 975,0** | **8 175 975,0** | |
| 1.11.4.1 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 8 175 975,0 | 8 175 975,0 | |
| **1.11.5** | **Yanacaq və enerji kompleksi** | **1 900 000,0** | **1 900 000,0** | |
| 1.11.5.1 | Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi | 1 900 000,0 | 1 900 000,0 | |
| **1.11.6** | **İqtisadi fəaliyyətlə bağlı digər xidmətlər** | **656 420 516,0** | **656 420 516,0** | |
| 1.11.6.1 | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi | 54 091 668,0 | 54 091 668,0 | |
| 1.11.6.1.1 | Azərbaycan Respublikasının xaricdəki ticarət nümayəndələrinin saxlanılması | 5 800 000,0 | 5 800 000,0 | |
| 1.11.6.1.2 | Yeni nəsil şəxsiyyət vəsiqələrinin, biometrik pasportların və lisenziya blanklarının çap edilməsi | 48 291 668,0 | 48 291 668,0 | |
| 1.11.6.2 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi (Böyükşor gölünün mühafizəsi və ətrafının abadlaşdırılması) | 800 000,0 | 800 000,0 | |
| 1.11.6.3 | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi (Azərbaycan Respublikasının beynəlxalq kredit reytinqinin müəyyən olunması) | 600 600,0 | 600 600,0 | |
| 1.11.6.4 | Dövlət əmlakının özəlləşdirilməsinin təşkili və mülkiyyət hüquqlarının qorunması | 28 500 000,0 | 28 500 000,0 | |
| 1.11.6.5 | Qeyri-neft məhsullarının ixracının təşviqi, stimullaşdırılması və bu qəbildən olan digər tədbirlər | 11 300 000,0 | 11 300 000,0 | |
| 1.11.6.6 | Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu | 100 000 000,0 | 100 000 000,0 | |
| 1.11.6.6.1 | Nizamnamə kapitalının artırılması (güzəştli ipoteka kreditlərinin maliyyələşdirilməsi) | 95 000 000,0 | 95 000 000,0 | |
| 1.11.6.6.2 | Sahibkarlıq subyektlərinin manatla aldıqları kreditlərə hesablanmış faizlərə görə subsidiyanın maliyyələşdirilməsi | 5 000 000,0 | 5 000 000,0 | |
| 1.11.6.7 | Azərbaycan İnvestisiya Holdinqi | 13 000 000,0 | 13 000 000,0 | |
| 1.11.6.8 | Ələt Azad İqtisadi Zonasının səlahiyyətli qurumu | 4 700 000,0 | 4 700 000,0 | |
| 1.11.6.9 | İqtisadi fəaliyyət sahələri üzrə maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 1 600 000,0 | 1 600 000,0 | |
| 1.11.6.10 | Xarici qrantlar hesabına həyata keçirilən layihələr | 110 000,0 | 110 000,0 | |
| 1.11.6.11 | Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin nizamnamə kapitalının artırılması (Heydər Əliyev adına Neft Emalı Zavodunun yenidən qurulması və modernləşdirilməsi) | 214 000 000,0 | 214 000 000,0 | |
| 1.11.6.12 | Bir sıra dövlət müəssisələrində islahatlar aparılması ilə bağlı texniki-iqtisadi əsaslandırmanın hazırlanması və güzəştlərə dair reyestrlərin yaradılması ilə bağlı xərclər | 5 000 000,0 | 5 000 000,0 | |
| 1.11.6.13 | İqtisadi dəstək üzrə tədbirlərin maliyyə təminatı | 140 000 000,0 | 140 000 000,0 | |
| 1.11.6.14 | Publik hüquqi şəxslərə dövlət büdcəsindən vəsait ayrılması | 63 898 248,0 | 63 898 248,0 | |
| 1.11.6.15 | Dövlət zəmanəti verilmiş kreditlər üzrə faizlərin subsidiyalaşdırılması və problemli kreditlərin həlli ilə bağlı maliyyə təminatı | 18 820 000,0 | 18 820 000,0 | |
| **1.12** | **Əsas bölmələrə aid edilməyən xərclər** | **1 417 401 699,0** | **1 392 677 568,0** | **24 724 131,0** |
| **1.12.1** | **Ehtiyat fondları** | **628 000 000,0** | **628 000 000,0** | |
| 1.12.1.1 | Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondu | 518 000 000,0 | 518 000 000,0 | |
| 1.12.1.2 | Dövlət büdcəsinin ehtiyat fondu | 110 000 000,0 | 110 000 000,0 | |
| **1.12.2** | **Məqsədli büdcə fondları** | **309 865 000,0** | **309 865 000,0** | |
| 1.12.2.1 | "Avtomobil yolları" Məqsədli Büdcə Fondu | 300 000 000,0 | 300 000 000,0 | |
| 1.12.2.2 | Meşələrin qorunub saxlanması və təkrar istehsalı fondu | 3 700 000,0 | 3 700 000,0 | |
| 1.12.2.3 | Ətraf mühitin mühafizəsi üzrə dövlət fondu | 3 500 000,0 | 3 500 000,0 | |
| 1.12.2.4 | Mineral-xammal Bazasının Bərpası üzrə Dövlət Fondu | 1 200 000,0 | 1 200 000,0 | |
| 1.12.2.5 | Xüsusi mühafizə olunan təbiət ərazilərinin idarə edilməsi və mühafizəsi üçün yaradılan müvafiq idarələrin xüsusi fondları | 1 350 000,0 | 1 350 000,0 | |
| 1.12.2.6 | Su bioresurslarının artırılması, bərpası və mühafizəsi fondu | 115 000,0 | 115 000,0 | |
| **1.12.3** | **Valyuta konvertasiyası** | **4 000 000,0** | **4 000 000,0** | |
| 1.12.3.1 | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | 4 000 000,0 | 4 000 000,0 | |
| **1.12.4** | **Əsas bölmələrə aid edilməyən tədbirlər üzrə digər fəaliyyət** | **475 536 699,0** | **450 812 568,0** | **24 724 131,0** |
| 1.12.4.1 | Dövlət ehtiyatlarının yaradılması və təşkili | 42 316 300,0 | 42 316 300,0 | |
| 1.12.4.2 | Fövqəladə halların nəticələrinin aradan qaldırılması | 20 000 000,0 | 20 000 000,0 | |
| 1.12.4.3 | Ehtiyata və ya istefaya buraxılmış hərbçilərə mənzil kirayəsi ilə bağlı xərclər | 11 946 580,0 | | 11 946 580,0 |
| 1.12.4.4 | Sosial-iqtisadi islahatlar və digər tədbirlər üzrə xərclər | 401 273 819,0 | 388 496 268,0 | 12 777 551,0 |
| 1.12.4.4.1 | İnsan hüquqları üzrə Avropa Məhkəməsi qarşısında Azərbaycan Respublikasının maraqlarının müdafiəsi və həmin məhkəmənin qərarlarının icrası, dövlət təltiflərinin hazırlanması | 3 989 074,0 | 3 989 074,0 | |
| 1.12.4.4.2 | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | 15 809 300,0 | 15 809 300,0 | |
| 1.12.4.4.2.1 | Xüsusi müdafiə olunan və digər sənədlərin çap edilməsi | 5 000 000,0 | 5 000 000,0 | |
| 1.12.4.4.2.2 | İşlərin qiymətləndirilməsi üçün ekspertlərin cəlb edilməsi və informasiya idarəetmə sisteminin saxlanılması | 10 745 000,0 | 10 745 000,0 | |
| 1.12.4.4.2.3 | Beynəlxalq mühasibat uçotu standartlarının tətbiqi | 64 300,0 | 64 300,0 | |
| 1.12.4.4.3 | Əsas bölmələrə aid edilməyən xidmətlər üzrə əməkhaqqı və digər sosial ödənişlərin artımı ilə bağlı xərclər | 22 177 394,0 | 22 177 394,0 | |
| 1.12.4.4.4 | Əsas bölmələrə aid edilməyən xidmətlər üzrə büdcədənkənar xərclər | 67 120 500,0 | 67 120 500,0 | |
| 1.12.4.4.5 | Ünvanlı dövlət sosial yardımı alan aztəminatlı ailələrin əmlakının, dövlətə məxsus əmlakın və dövlət büdcəsindən maliyyələşən təşkilatlara məxsus nəqliyyat vasitələrinin icbari sığortası | 20 000 000,0 | 20 000 000,0 | |
| 1.12.4.4.6 | Aksiz və nəzarət markalarının sifarişi və onların dövriyyəsinə nəzarət sisteminin tətbiqi ilə bağlı tədbirlər | 9 000 000,0 | 9 000 000,0 | |
| 1.12.4.4.7 | Əsas bölmələrə aid edilməyən xidmətlər sahəsi üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər | 2 900 000,0 | 2 900 000,0 | |
| 1.12.4.4.8 | Mediasiya Şurası | 500 000,0 | 500 000,0 | |
| 1.12.4.4.9 | Yaşayış məntəqələri ilə bağlı sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi | 10 000 000,0 | 10 000 000,0 | |
| 1.12.4.4.10 | İşğaldan azad olunmuş ərazilərdə mərkəzi, yerli icra hakimiyyəti və digər dövlət orqanlarının müvafiq strukturlarının yaradılması və onların saxlanılması | 10 000 000,0 | 10 000 000,0 | |
| 1.12.4.4.11 | Təhlükəsizlik, sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi | 227 000 000,0 | 227 000 000,0 | |
| 1.12.4.4.12 | Şəhər və rayonlarda yerləşən səfərbərlik ehtiyatları anbarlarının, ehtiyat idarəetmə məntəqələrinin saxlanılması və digər tədbirlər | 12 777 551,0 | | 12 777 551,0 |

2. Müəyyən edilsin ki, bu Fərmanın 1.11.3.2-ci (Dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri), 1.11.3.3-cü (İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası),1.12.4.4.10-cu (İşğaldan azad olunmuş ərazilərdə mərkəzi, yerli icra hakimiyyəti və digər dövlət orqanlarının müvafiq strukturlarının yaradılması və onların saxlanılması) və 1.12.4.4.11-ci (Təhlükəsizlik, sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi) yarımbəndlərində nəzərdə tutulan vəsaitin bölgüsünü Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 401-VIQ nömrəli Qanunu ilə dövlət büdcəsinin gəlirləri və xərcləri üzrə təsdiq olunmuş göstəricilərin yerinə yetirilməsinə nəzarət etsin;

3.2. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla:

3.2.1. bu Fərmanın1.1.1.54-cü (Qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi), 1.1.4.12-ci (Elm sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi və əsaslı təmir), 1.2.1.4-cü (Müdafiə və milli təhlükəsizlik sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi), 1.2.5.2-ci (Xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə xərclər),1.3.6.3-cü (Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq orqanları üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi), 1.5.4.11-ci (Səhiyyə sahəsi üzrə sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi), 1.7.4.17-ci (Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi və əsaslı təmir), 1.11.1.7-ci (Nəqliyyat və rabitə sahələrində digər tədbirlərin maliyyələşdirilməsi), 1.11.6.13-cü (İqtisadi dəstək üzrə tədbirlərin maliyyə təminatı)və 1.12.4.4.9-cu (Yaşayış məntəqələri ilə bağlı sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi) yarımbəndlərində nəzərdə tutulan vəsaitin bölgüsünü və həmin bölgüdə ediləcək dəyişiklikləri həyata keçirsin;

3.2.2. bu Fərmanın 1.1.4.14-cü, 1.3.6.7-ci, 1.4.8.14-cü, 1.5.2.7-ci, 1.6.4.10-cu,1.7.4.18-ci, 1.8.4.3-cü, 1.11.1.8-ci və1.11.6.14-cüyarımbəndlərində nəzərdə tutulan vəsaitin (Publik hüquqi şəxslərə dövlət büdcəsindən vəsait ayrılması) bölgüsünü və həmin bölgüdə ediləcək dəyişiklikləri həyata keçirsin;

3.3. bu Fərmanın 1.1.2.1-ci (Beynəlxalq və regional təşkilatlara üzvlük haqqı və maliyyə institutlarının səhm kapitalında iştirak), 1.1.2.3-cü (Beynəlxalq fəaliyyət və bu qəbildən olan digər tədbirlər), 1.1.2.4.2-ci (Beynəlxalq, ölkə səviyyəli və bu qəbildən olan digər tədbirlər), 1.1.3-cü (Xarici yardımlar), 1.1.6.1-ci (Yerli büdcələrə (bələdiyyələrə) verilən dotasiya) və 1.1.6.2-ci (Yerli büdcələrə (bələdiyyələrə) verilən subvensiya) yarımbəndlərində nəzərdə tutulan vəsaitin xərc istiqamətləri və tədbirlər üzrə bölgüsünü həyata keçirsin;

3.4. bu Fərmanın 1.1.2.2-ci (Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəlikləri və konsulluqları) yarımbəndində nəzərdə tutulan vəsaitin Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəlikləri və konsulluqları üzrə manat və müvafiq xarici valyutalarda bölgüsünü və həmin bölgüdə ediləcək dəyişiklikləri həyata keçirsin;

3.5. bu Fərmanın 1.1.1.52-ci, 1.1.1.53-cü,1.2.1.3-cü, 1.3.6.2-ci,1.3.6.6-cı, 1.4.8.10-cu, 1.5.4.10-cu, 1.6.4.5-ci, 1.6.4.6-cı, 1.6.4.9-cu, 1.8.3.2-ci, 1.11.6.4-cü, 1.12.1.2-ci, 1.12.4.1-civə 1.12.4.4.3-cüyarımbəndlərində nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin;

3.6. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış təklifləri əsasında, dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşən nərə balıq növünün süni artırılması, təbii populyasiyasının bərpası və qorunması, laboratoriyaların fəaliyyətinin təmin edilməsi, geoloji-kəşfiyyat, xəritəçəkmə, şəhərsalma işlərini dövlət sifarişi kimi iki ay müddətində təsdiq etsin;

3.7. "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 401-VIQ nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

4.1. 2022-ci ilin dövlət büdcəsinə tutulması vergi orqanlarının səlahiyyətlərinə aid edilmiş vergi və dövlət rüsumları üzrə daxilolmaların Azərbaycan Respublikasının Vergi Məcəlləsində və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda göstərilmiş ödəniş müddətləri nəzərə alınmaqla aylıq və rüblük bölgüsünü Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə razılaşdırmaqla 15 (on beş) gün müddətində təsdiq etsin;

4.2. 2022-ci ilin dövlət büdcəsinə tutulması dövlət gömrük orqanlarının səlahiyyətlərinə aid edilmiş vergilər və gömrük rüsumları üzrə nəzərdə tutulan daxilolmaların aylıq və rüblük bölgüsünü Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə razılaşdırmaqla 15 (on beş) gün müddətində təsdiq etsin;

4.3. bu Fərmanın 1.1.4.11-ci,1.4.8.11-ci, 1.4.8.12-ci, 1.5.4.9-cu, 1.7.4.11-ci, 1.7.4.16-cı,1.9.1.6-cı,1.11.6.12-ci, 1.11.6.15-ci,1.12.4.4.1-ci, 1.12.4.4.5-ci və 1.12.4.4.7-ci yarımbəndlərində nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin;

4.4. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla:

4.4.1. bu Fərmanın 1.1.1.55-ci, 1.1.4.13-cü, 1.2.1.5-ci, 1.3.6.4-cü, 1.4.8.13-cü, 1.5.4.12-ci, 1.6.3.1-ci, 1.7.4.19-cu, 1.9.4.1-ci, 1.10.6.1-ci, 1.11.6.9-cu və 1.12.4.4.4-cü yarımbəndlərində nəzərdə tutulan vəsaitin (Dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri) gəlir və xərclər smetasının aidiyyəti təşkilatlar üzrə təsdiqini iki ay müddətində həyata keçirsin;

4.4.2. bu Fərmanın 1.8.4.2-ci, 1.12.2.2-ci, 1.12.2.3-cü, 1.12.2.4-cü, 1.12.2.5-ci və1.12.2.6-cı yarımbəndlərində nəzərdə tutulan vəsaitin bölgüsünü və həmin bölgüdə ediləcək dəyişiklikləri həyata keçirsin;

4.5. bu Fərmanın 1.9.1.5-ci (Torpaq münasibətlərinin tənzimlənməsi ilə bağlı hüquqmüəyyənedici sənədlərin verilməsi üçün göstərilən xidmətlərə görə xərclər) yarımbəndində nəzərdə tutulan vəsaitin Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin sifarişi əsasında maliyyələşməsini həyata keçirsin;

4.6. "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu, 13-cü və 14-cü maddələrindən irəli gələn vəzifələrin yerinə yetirilməsini təmin etsin;

4.7. "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsi ilə təsdiq edilmiş daxili və xarici borcalmanın, il ərzində veriləcək dövlət zəmanətlərinin məbləğinin yuxarı həddi (limiti) çərçivəsində bazar konyunkturundan asılı olaraq milli və xarici valyutada borcalmanın, o cümlədən dövlət istiqrazlarının buraxılışının həyata keçirilməsi üçün tədbirlər görsün;

4.8. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə razılaşdırmaqla, dövlət büdcəsi gəlirlərinin proqnozlaşdırılması qaydasının və dövlət büdcəsinə daxilolmaların təhlili modelinin təkmilləşdirilməsi ilə bağlı təkliflərini dörd ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

4.9. dövlət orqanları (qurumları) tərəfindən Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulan inzibati xətalara görə tətbiq olunan inzibati cərimələrin dövlət büdcəsinə və ya həmin orqanların (qurumların) hesabına köçürülən hissəsinə dair məlumatların təhlili məqsədilə doqquz ay müddətində elektron informasiya sisteminin yaradılmasını təmin etsin;

4.10. "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 401-VIQ nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının Dövlət Neft Fondu Azərbaycan Respublikası Dövlət Neft Fondundan dövlət büdcəsinə nəzərdə tutulan transfertin yuxarı həddinin aylıq və rüblük bölgü əsasında həyata keçirilməsini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Mərkəzi Bankı ilə əlaqələndirməklə təmin etsin.

6. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi bu Fərmanın 1.7.4.9-cu (Qeyri-dövlət təşkilatlarına verilən maliyyə yardımı) yarımbəndində nəzərdə tutulan vəsaitin aidiyyəti təşkilatlar arasında bölgüsünü 20 (iyirmi) gün müddətində Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla həyata keçirsin.

7. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

7.1. bu Fərmanın 1.11.6.1.1-ci (Azərbaycan Respublikasının xaricdəki ticarət nümayəndələrinin saxlanılması) yarımbəndində nəzərdə tutulan vəsaitin ticarət nümayəndələri üzrə bölgüsünü və həmin bölgüdə ediləcək dəyişiklikləri Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla həyata keçirsin;

7.2. bu Fərmanın 1.11.6.5-ci (Qeyri-neft məhsullarının ixracının təşviqi, stimullaşdırılması və bu qəbildən olan digər tədbirlər) yarımbəndində nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin;

7.3. bu Fərmanın 1.11.3.2-ci (Dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) yarımbəndində nəzərdə tutulan vəsaitin bölgüsü ilə bağlı təkliflərini 20 (iyirmi) gün müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

7.4. bu Fərmanın 1.12.4.4.6-cı (Aksiz və nəzarət markalarının sifarişi və onların dövriyyəsinə nəzarət sisteminin tətbiqi ilə bağlı tədbirlər) yarımbəndində nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin;

7.5. 2022-ci il dövlət büdcəsinin kəsirinin maliyyələşdirilməsi ilə bağlı özəlləşdirmədən daxilolmalar üzrə nəzərdə tutulmuş vəsaitin tam məbləğdə büdcəyə daxil olmasının təmin edilməsi üçün təsirli tədbirlər görsün;

7.6. növbəti illər üçün dövlət büdcəsinin gəlir və xərclərinin proqnozlaşdırılması məqsədilə:

7.6.1. 2021-ci ildə əlavə dəyər vergisi ödəyiciləri üzrə (fəaliyyət göstərdikləri şəhər və rayonlar göstərilməklə) hesablanmış, azaldılmış və dövlət büdcəsinə daxil olmuş vergilərə dair məlumatları 2022-ci il aprelin 1-dək;

7.6.2. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan xidmətləri və hüquqi hərəkətləri həyata keçirən hər bir dövlət orqanı üzrə dövlət büdcəsinə daxil olması təmin edilmiş dövlət rüsumuna dair aylıq məlumatları hesabat ayından sonrakı ayın 20-dək Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin;

7.7. "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 401-VIQ nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

8. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Fərmanın 1.1.2.4.1-ci (Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəliklərinin və konsulluqlarının fəaliyyəti ilə bağlı digər xərclər) yarımbəndində nəzərdə tutulan vəsaitin bölgüsünü bir ay müddətində həyata keçirsin.

9. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi bu Fərmanın 1.3.6.5-ci (İctimai asayiş, sosial və digər tədbirlərin maliyyələşdirilməsi) yarımbəndində nəzərdə tutulan vəsaitin bölgüsünü Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla həyata keçirsin.

10. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi "Azərsu" Açıq Səhmdar Cəmiyyəti ilə razılaşdırmaqla bu Fərmanın 1.10.5.3-cü (Su təchizatı qurğularının istismarı və onlara xidmətlə bağlı bələdiyyələrə verilən maliyyə yardımı) və 1.10.5.4-cü (Ətraf mühitin mühafizəsi sahəsi üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər) yarımbəndlərində nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin.

11. Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi bu Fərmanın 1.11.3.4-cü (Müfəssəl ərazi planlaşdırılması sənədlərinin hazırlanması) yarımbəndində nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin.

12. Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi bu Fərmanın 1.12.4.2-ci (Fövqəladə halların nəticələrinin aradan qaldırılması) yarımbəndində nəzərdə tutulan vəsaitin Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla bölgüsünü həyata keçirsin.

13. Azərbaycan Respublikasının Nazirlər Kabineti, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, mərkəzi və yerli icra hakimiyyəti orqanları, büdcədən maliyyələşən və maliyyə yardımı alan təşkilatlar və digər dövlət orqanları maliyyə intizamının gücləndirilməsi, israfçılığa, izafi xərclərə yol verilməməsi və büdcə vəsaitindən qənaətlə istifadə olunması istiqamətində təsirli tədbirlər görsünlər.

14. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi bu Fərmanın 4.9-cu bəndində nəzərdə tutulan informasiya sisteminin "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq Elektron Hökumət İnformasiya Sisteminə inteqrasiyasını təmin etsin.

15. "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 401-VIQ nömrəli Qanununun 9-cu maddəsində şəhər və rayonlar üzrə nəzərdə tutulmuş xərcləri bu Fərmanın 1.1.1.32-ci yarımbəndində şəhər və rayon təhsil şöbələrinin saxlanılmasına, 1.4.1.1-ci və 1.4.8.9-cu yarımbəndləri ilə yerli xərclərdə dövlət məktəbəqədər təhsil müəssisələrinə (uşaq evləri istisna olmaqla) aid olan hissədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi bölgü əsasında Azərbaycan Respublikasının Təhsil Nazirliyi həyata keçirsin.

16.Müəyyən edilsin ki:

16.1. "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 401-VIQ nömrəli Qanununun 2.14-cü, 3-cü, 3.1-ci, 5.1-ci, 5.2-ci (hər iki halda), 7.12.2.1-ci, 9-cu (hər iki halda), 10-cu və 16-cı maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

16.2. həmin Qanunun 2.14-cü, 5.2-ci (birinci halda) və 16-cı maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dövlət Neft Fondu nəzərdə tutulur;

16.3. həmin Qanunun 10-cu maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi nəzərdə tutulur;

16.4. həmin Qanunun 3-cü, 3.1-ci və 7.12.2.1-ci maddələrində "məqsədli büdcə fondları" dedikdə "Avtomobil yolları" Məqsədli Büdcə Fondu, Meşələrin qorunub saxlanması və təkrar istehsalı fondu, Ətraf mühitin mühafizəsi üzrə dövlət fondu, Mineral-xammal Bazasının Bərpası üzrə Dövlət Fondu, Xüsusi mühafizə olunan təbiət ərazilərinin idarə edilməsi və mühafizəsi üçün yaradılan müvafiq idarələrin xüsusi fondları, Su bioresurslarının artırılması, bərpası və mühafizəsi fondu nəzərdə tutulur;

16.5. həmin Qanunun 5.1-ci, 5.2-ci və 9-cu (hər iki halda) maddələrində "məqsədli büdcə fondu" dedikdə "Avtomobil yolları" Məqsədli Büdcə Fondu nəzərdə tutulur.

17. Bu Fərmanın 1-ci hissəsi 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 dekabr 2021-ci il*

## "İşsizlikdən sığorta fondunun 2022-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 403-VIQ nömrəli Qanununun tətbiqi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "İşsizlikdən sığorta fondunun 2022-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 403-VIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "İşsizlikdən sığorta fondunun 2022-ci il büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinin 9-cu (hər iki halda) və 10-cu hissələrində, 4-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 3-cü maddəsinin 9-cu hissəsində (birinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi nəzərdə tutulur;

1.3. həmin Qanunun 3-cü maddəsinin 9-cu hissəsində (ikinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya nəzərdə tutulur;

1.4. həmin Qanunun 3-cü maddəsinin 10-cu hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi nəzərdə tutulur;

1.5. həmin Qanunun 4-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi, Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi və Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "İşsizlikdən sığorta fondunun 2022-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 403-VIQ nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

3.1. işsizlikdən sığorta fondunun 2022-ci il büdcəsinin gəlirlərinin yerinə yetirilməsi üçün tədbirlər görsün və bu barədə ildə iki dəfə Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin;

3.2. büdcə təşkilatlarının 2022-ci il yanvarın 1-dək yaranmış işsizlikdən sığorta haqları üzrə borclarına dair məlumatları 20 (iyirmi) gün müddətində Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin;

3.3. "İşsizlikdən sığorta fondunun 2022-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 403-VIQ nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

4.1. işsizlikdən sığorta fondunun 2022-ci il büdcəsinin xərclərinin yerinə yetirilməsi üçün tədbirlər görsün və bu barədə ildə iki dəfə Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin;

4.2. "İşsizlikdən sığorta fondunun 2022-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 403-VIQ nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və büdcədən maliyyələşən təşkilatlar büdcədənkənar vəsaitlər üzrə əvvəlki illərdə yaranmış işsizlikdən sığorta haqları üzrə borclarını 2022-ci il üçün xüsusi vəsaitlərin smetalarında nəzərə alsınlar.

6. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, şəhər və rayon icra hakimiyyətləri dövlət təşkilatlarının, o cümlədən büdcədən maliyyələşən təşkilatların işsizlikdən sığorta üzrə sığorta haqlarını vaxtında və tam ödəməsini təmin etmək üçün Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyindəki qurumlarla birlikdə tədbirlər görsünlər.

7. Bu Fərman 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 dekabr 2021-ci il*

## "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 348; 1999, № 11, maddə 609; 2000, № 11, maddə 776; 2001, № 9, maddə 576, № 12, maddələr 733, 736; 2002, № 12, maddə 706; 2004, № 7, maddə 505, № 12, maddə 976; 2005, № 1, maddə 2, № 12, maddə 1082; 2006, № 11, maddə 923, № 12, maddə 1018; 2007, № 1, maddə 4, № 12, maddə 1193; 2008, № 2, maddə 49, № 4, maddə 254, № 6, maddə 462, № 7, maddə 602; 2009, № 12, maddə 970; 2010, № 4, maddə 276, № 11, maddə 949; 2011, № 10, maddə 883; 2013, № 11, maddə 1284, № 12, maddə 1487; 2014, № 10, maddə 1171; 2016, № 4, maddə 657, № 6, maddə 971; 2017, № 3, maddə 336, № 7, maddə 1279; 2018, № 3, maddələr 369, 396, № 5, maddələr 870, 894, № 12 (I kitab), maddə 2502; 2019, № 1, maddə 35, № 3, maddə 380; 2020, № 5, maddə 521, № 6, maddə 667, № 7, maddə 826, № 8, maddə 1015, № 12 (I kitab), maddə 1450; 2021, № 7, maddə 711, № 8, maddə 896) 15-ci maddəsinin birinci hissəsinin on ikinci abzasına "hədiyyə" sözündən sonra ", maddi yardım (sığortaedənin öz işçisinə ödədiyi maddi yardım istisna olmaqla)" sözləri əlavə edilsin.

**Maddə 2.** Bu Qanun 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 dekabr 2021-ci il*

## Azərbaycan Respublikasında 2022-ci il üçün yaşayış minimumu haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1. Əhalinin əsas sosial-demoqrafik qrupları üzrə yaşayış minimumunun məbləği**

2022-ci il üçün yaşayış minimumu ölkə üzrə 210 manat, əmək qabiliyyətli əhali üçün 220 manat, pensiyaçılar üçün 176 manat, uşaqlar üçün 193 manat məbləğində müəyyən edilsin.

**Maddə 2. Bu Qanunun qüvvəyə minməsi**

Bu Qanun 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 dekabr 2021-ci il*

## Azərbaycan Respublikasında 2022-ci il üçün ehtiyac meyarının həddi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1. Ehtiyac meyarının həddi**

Ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə 2022-ci il üçün ehtiyac meyarının həddi 200 manat məbləğində təsdiq edilsin.

**Maddə 2. Qanunun qüvvəyə minməsi**

Bu Qanun 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 dekabr 2021-ci il*

## İşsizlikdən sığorta fondunun 2022-ci il büdcəsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1. Büdcənin ümumi göstəriciləri**

İşsizlikdən sığorta fondunun 2022-ci il büdcəsinin gəlirləri 180 375 536,0 manat, xərcləri 180 375 536,0 manat məbləğində təsdiq edilir.

**Maddə 2. Gəlirlər**

Müəyyən edilsin ki, 2022-ci ildə işsizlikdən sığorta fondunun gəlirləri aşağıdakı daxilolmalar hesabına formalaşır:

| | Gəlirlərin mənbələri | Məbləğ (manatla) |
|---|---|---|
| 1. | İşsizlikdən sığorta üzrə sığorta haqları, cəmi o cümlədən: | 136 418 476,0 |
| 1.1. | büdcədən maliyyələşən təşkilatlar üzrə | 21 709 238,0 |
| 1.2. | büdcədən maliyyələşən təşkilatlarda işləyənlər üzrə | 21 709 238,0 |
| 1.3. | qeyri-büdcə sektoru üzrə | 93 000 000,0 |
| 2. | Sair gəlirlər | 50 000,0 |
| 3. | 2021-ci ilin sonuna işsizlikdən sığorta fondunun istifadə olunmamış vəsaiti | 43 907 060,0 |

**Maddə 3. Xərclər**

Müəyyən edilsin ki, işsizlikdən sığorta fondunun 2022-ci il büdcəsinin xərcləri aşağıdakı istiqamətlərdə həyata keçirilir:

| | Xərclərin istiqamətləri | Məbləğ (manatla) |
|---|---|---|
| 1. | İşsizliyə görə sığorta ödənişləri | 8 500 000,0 |
| 2. | Peşə hazırlığı və əlavə təhsilin təşkili | 9 000 000,0 |
| 3. | Peşə yönümünə dair məsləhət xidmətlərinin göstərilməsi | 2 000 000,0 |
| 4. | Əmək yarmarkalarının, əmək birjalarının təşkili | 1 000 000,0 |
| 5. | Haqqı ödənilən ictimai işlərin təşkili | 2 500 000,0 |
| 6. | Özünüməşğulluq tədbirlərinin təşkili | 76 109 816,0 |
| 7. | Sosial iş yerlərində işçilərin əməkhaqqının bir hissəsinin maliyyələşdirilməsi | 3 000 000,0 |
| 8. | Peşə standartlarının hazırlanması | 1 000 000,0 |
| 9. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) aparatının və onun idarə, filial və nümayəndəliklərinin, habelə tabeliyindəki digər qurumların, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) saxlanılması xərcləri | 43 765 720,0 |
| 10. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) əhaliyə sosial sahədə xidmətlərin təşkili üzrə fəaliyyətinin müştərək maliyyələşdirilməsi xərcləri | 30 000 000,0 |
| 11. | Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşların məşğulluğunun təmin olunması üçün əlavə iş yerlərinin yaradılması | 1 000 000,0 |
| 12. | Sosial müəssisələrin yaradılması və məqsədli proqramların həyata keçirilməsi | 1 500 000,0 |
| 13. | Qanunla əmək hüququnun həyata keçirilməsi üçün nəzərdə tutulmuş digər aktiv tədbirlər | 1 000 000,0 |

**Maddə 4. Qalıqlardan istifadə**

İşsizlikdən sığorta fondunun (o cümlədən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) aparatının və digər struktur bölmələrinin) hesablarında ilin sonuna qalan vəsait növbəti ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilir.

**Maddə 5. Qanunun qüvvəyə minməsi**

Bu Qanun 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 dekabr 2021-ci il*

## M.A.Abbasbəylinin Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəisi təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Məmməd Aslan oğlu Abbasbəyli Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəisi təyin edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 dekabr 2021-ci il*

## "Dövlət sosial müdafiə fondunun 2022-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 402-VIQ nömrəli Qanununun tətbiqi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Dövlət sosial müdafiə fondunun 2022-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 402-VIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Dövlət sosial müdafiə fondunun 2022-ci il büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinin 3-cü və 4-cü hissələrində, 4-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 3-cü maddəsinin 3-cü hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi nəzərdə tutulur;

1.3. həmin Qanunun 3-cü maddəsinin 4-cü hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu nəzərdə tutulur;

1.4. həmin Qanunun 4-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu və Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Dövlət sosial müdafiə fondunun 2022-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 402-VIQ nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

3.1. "Dövlət sosial müdafiə fondunun 2022-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 402-VIQ nömrəli Qanununun 2-ci maddəsinin 1-ci hissəsində nəzərdə tutulmuş məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmaların yerinə yetirilməsi üçün tədbirlər görsün və bu barədə ildə iki dəfə Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin;

3.2. həmin Qanunun 2-ci maddəsinin 1-ci hissəsində nəzərdə tutulmuş məcburi dövlət sosial sığorta haqları üzrə gəlirlərin aylıq və rüblük bölgüsünü 10 (on) gün müddətində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla təsdiq etsin;

3.3. büdcə təşkilatlarının 2022-ci il yanvarın 1-dək yaranmış məcburi dövlət sosial sığorta haqları üzrə borclarına dair məlumatları 20 (iyirmi) gün müddətində Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin;

3.4. "Dövlət sosial müdafiə fondunun 2022-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 402-VIQ nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

4.1. dövlət sosial müdafiə fondunun 2022-ci il büdcəsinin xərclərinin yerinə yetirilməsi üçün tədbirlər görsün və bu barədə ildə iki dəfə Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin;

4.2. "Dövlət sosial müdafiə fondunun 2022-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 402-VIQ nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

5.1. bu Fərmanın 3.2-ci bəndində qeyd olunan bölgü nəzərə alınmaqla, 2022-ci il üçün dövlət sosial müdafiə fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi ilə bağlı dövlət büdcəsindən ayrılan vəsaitin (transfertin) aylıq və rüblük bölgüsünü Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə razılaşdırmaqla 10 (on) gün müddətində təsdiq etsin;

5.2. büdcədən maliyyələşən təşkilatların büdcədənkənar vəsaitlər üzrə əvvəlki illərdə yaranmış məcburi dövlət sosial sığorta haqları üzrə borclarını 2022-ci il üçün xüsusi vəsaitlərin smetalarında nəzərə alsın;

5.3. "Dövlət sosial müdafiə fondunun 2022-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 402-VIQ nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

6. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, şəhər və rayon icra hakimiyyətləri dövlət təşkilatlarının, o cümlədən büdcədən maliyyələşən təşkilatların məcburi dövlət sosial sığorta haqlarını vaxtında və tam ödəməsini təmin etmək üçün Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyindəki qurumlarla birlikdə tədbirlər görsünlər.

7. Bu Fərman 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 dekabr 2021-ci il*

## "Azərbaycan Respublikası Hökuməti və Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi arasında "Kiçik şəhərlərdə su təchizatı və kanalizasiya layihəsi"nə dair 2009-cu il mayın 29-da imzalanmış AZB-P4 nömrəli Kredit Sazişinə Dəyişiklik Məktubu"nun təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2021-ci il iyulun 6-da və noyabrın 12-də imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi arasında "Kiçik şəhərlərdə su təchizatı və kanalizasiya layihəsi"nə dair 2009-cu il mayın 29-da imzalanmış AZB-P4 nömrəli Kredit Sazişinə Dəyişiklik Məktubu" təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 dekabr 2021-ci il*

## Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin və Tibb baş idarəsinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin və Tibb baş idarəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin və Tibb baş idarəsinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşlarına həmin maaşın 20 faizi məbləğində əlavə müəyyən edilsin.

2. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin və Tibb baş idarəsinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşları orta hesabla 20 faiz artırılsın.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

4. Müəyyən edilsin ki, bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan əlavə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış say və tərkibə uyğun olaraq Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar xidməti və Tibb baş idarəsi tərəfindən ödənilir.

5. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

6. Bu Fərman 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 dekabr 2021-ci il*

## Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2022-ci il büdcəsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2022-ci il büdcəsini formalaşdırmaq və Fondun valyuta vəsaitinin səmərəli idarə edilməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2022-ci il büdcəsinin gəlirləri 10 589 701,9 min manat, xərcləri isə 12 789 674,6 min manat məbləğində təsdiq edilsin.

2. Müəyyən edilsin ki, Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2022-ci il büdcəsinin gəlirləri aşağıdakı daxilolmalar hesabına formalaşır:

| Sıra №-si | Gəlir mənbələri | Gəlirlərin məbləği (min manat) |
|---|---|---|
| 2.1. | Azərbaycan Respublikasının payına düşən karbohidrogenlərin satışından əldə edilən xalis gəlir (karbohidrogenlərin nəqli üzrə məsrəflər, bank, gömrük rəsmiləşdirilməsi, müstəqil nəzarət (sörveyer), marketinq və sığorta xərcləri çıxılmaq şərtilə, habelə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin sərmayəçisi, payçısı və ya tərəfdaşı olduğu layihələrdə onun sərmayəsinə və ya iştirak payına düşən gəlirlər istisna olmaqla) | 8 578 995,4 |
| 2.2. | Karbohidrogen ehtiyatlarının işlənməsi ilə əlaqədar müqavilə sahəsindən istifadə üçün sərmayəçilərin akrhesabı ödənişləri | 5 283,6 |
| 2.3. | Neftin və qazın Azərbaycan Respublikasının ərazisi ilə ötürülməsindən əldə edilən gəlir | 23 290,0 |
| 2.4. | Dövlət Neft Fondunun valyuta aktivlərinin yerləşdirilməsindən və idarə olunmasından əldə edilən gəlir | 1 216 792,9 |
| 2.5. | Neft-qaz sazişlərinin imzalanması və ya icrası ilə bağlı sərmayəçilər tərəfindən ödənilən bonuslar | 765 340,0 |
| | **Cəmi** | **10 589 701,9** |

3. Müəyyən edilsin ki, Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2022-ci il büdcəsinin xərcləri aşağıdakı məqsədlərə yönəldilir:

| Sıra №-si | Xərc istiqamətləri | Xərclərin məbləği (min manat) |
|---|---|---|
| 3.1. | Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinə transfertin yuxarı həddi | 12 710 000,0 |
| 3.2. | "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın maliyyələşdirilməsi | 27 836,0 |
| 3.3. | "Azərbaycan gənclərinin nüfuzlu xarici ali təhsil müəssisələrində təhsil imkanlarının genişləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 30 sentyabr tarixli 2931 nömrəli Sərəncamında nəzərdə tutulan Dövlət Proqramının maliyyələşdirilməsi | 17 850,0 |
| 3.4. | Azərbaycan Respublikası Dövlət Neft Fondunun idarə edilməsi ilə bağlı xərclər | 33 988,6 |
| | **Cəmi** | **12 789 674,6** |

4. "2022-ci ildə Azərbaycan Respublikası Dövlət Neft Fondunun vəsaitindən istifadənin əsas istiqamətləri (proqramı) və investisiya siyasəti" təsdiq edilsin (əlavə olunur).

5. "Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2022-ci ildə idarə edilməsi ilə bağlı xərclər smetası" təsdiq edilsin (əlavə olunur).

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 dekabr 2021-ci il*

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 23 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir

## 2022-ci ildə Azərbaycan Respublikası Dövlət Neft Fondunun vəsaitindən istifadənin əsas istiqamətləri (proqramı) və investisiya siyasəti

**1. Azərbaycan Respublikası Dövlət Neft Fondunun (bundan sonra - Fond) vəsaitinin xərc istiqamətləri**

1.1. Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinə transfertin yuxarı həddi;

1.2. "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın maliyyələşdirilməsi;

1.3. "Azərbaycan gənclərinin nüfuzlu xarici ali təhsil müəssisələrində təhsil imkanlarının genişləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 30 sentyabr tarixli 2931 nömrəli Sərəncamında nəzərdə tutulan Dövlət Proqramının maliyyələşdirilməsi.

**2. Fondun 2022-ci il üçün investisiya siyasəti**

2.1. Fondun investisiya siyasətinin məqsədi

2022-ci ildə Fond əsas kapitalın itirilməsi riskinin aşağı olması şərtilə maksimum gəlirliliyin əldə edilməsinə imkan verən investisiya siyasəti həyata keçirəcəkdir.

2.2. Fondun investisiya portfeli

2.2.1. İnvestisiya portfelinin proqnozlaşdırılan həcmi

2022-ci il üzrə Fondun investisiya portfelinin proqnozlaşdırılan məcmu dəyəri (ortaçəkili həcmi) 42,3 milyard ABŞ dollarına bərabər götürülür.

2.2.2. İnvestisiya portfelinin valyuta tərkibi

Fondun investisiya portfelinin baza valyutası ABŞ dolları müəyyən edilir. İnvestisiya portfelinin məcmu dəyərinin minimum 90 faizinin beynəlxalq kredit agentlikləri tərəfindən verilmiş kredit reytinqi "A" (Standard &Poor's, Fitch) və ya "A2" (Moody's) dərəcəsindən aşağı olmayan ölkələrin valyutalarında ifadə edilən aktivlərdə olması şərtilə Fondun investisiya portfelinin məcmu dəyərinin:

1. 65 faizi ABŞ dollarında ifadə olunan aktivlərə;

2. 20 faizi avroda ifadə olunan aktivlərə;

3. 5 faizi İngiltərə funt sterlinqində ifadə olunan aktivlərə;

4. qalan 10 faizi isə digər valyutalarda ifadə olunan aktivlərə yerləşdirilə bilər.

2.2.3. İnvestisiya portfelinin altportfelləri

Fondun investisiya portfeli aşağıdakı altportfellərdən ibarətdir:

1. borc öhdəlikləri və pul bazarları alətləri altportfeli (kredit reytinqinə malik olmayan borc öhdəliklərinə investisiya qoyan pay fondları istisna olmaqla) - aşağı uzaqlaşma intervalı maksimum 5 faiz olmaqla, investisiya portfelinin məcmu dəyərinin 50 faizi;

2. səhm (pay) altportfeli - investisiya portfelinin məcmu dəyərinin maksimum 25 faizi (yuxarı uzaqlaşma intervalı maksimum 2 faiz olmaqla, 5 faizə qədəri səhmlərə və kredit reytinqinə malik olmayan borc öhdəliklərinə investisiya qoyan pay fondları, o cümlədən səhm (pay) üzrə müştərək investisiyalarda iştirak payları olmaqla);

3. daşınmaz əmlak altportfeli - yuxarı uzaqlaşma intervalı maksimum 2 faiz olmaqla, investisiya portfelinin məcmu dəyərinin 10 faizə qədəri (daşınmaz əmlaka və daşınmaz əmlak üzrə kredit reytinqinə malik olmayan borc öhdəliklərinə investisiya qoyan pay fondları və daşınmaz əmlak daxil olmaqla);

4. qızıl altportfeli - yuxarı uzaqlaşma intervalı maksimum 3 faiz olmaqla,investisiya portfelinin məcmu dəyərinin 15 faizə qədəri.

2.2.4. İnvestisiya portfelinin hədəf gəlirliliyi

1. Fondun borc öhdəlikləri və pul bazarları alətləri altportfelinin idarə edilməsinin hədəf gəlirliliyi (bençmark) kimi müvafiq valyuta üzrə "ICE BofAFixedIncomeIndices" əsas götürülür.

2. Səhm (pay) altportfelinin hədəf gəlirliliyi (bençmark) kimi "MSCI Stock Market Indexes" əsas götürülür.

3. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 511 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Neft Fondunun valyuta vəsaitinin saxlanılması, yerləşdirilməsi və idarə edilməsi haqqında Qaydalar"ın (bundan sonra - Qaydalar) 4.2-ci bəndinə əsasən, qızıl altportfelinə hədəf gəlirliliyi (bençmark) tətbiq edilmir.

2.3. İnvestisiya portfelinin risklərinin idarə edilməsi üzrə tələblər

2.3.1. Faiz dərəcəsi riski

Fondun borc öhdəlikləri və pul bazarları alətləri altportfelinin faktiki ortaçəkili investisiya müddətini (durasiya) dünya bazarındakı cari vəziyyətdən asılı olaraq Fond müəyyən edir və bu müddət müvafiq bençmarkınortaçəkili investisiya müddətindən artıq olmamalıdır.

2.3.2. Kredit riski

1. Depozitar banklar və bençmarka daxil olan dövlətlərin borc öhdəlikləri istisna olmaqla, bir maliyyə qurumunun və ya bir investisiya aktivinin investisiya portfelindəki maksimal xüsusi çəkisi investisiya portfelinin məcmu dəyərinin 15 faizi həddində müəyyən edilir.

2. Fondun valyuta vəsaitinin yerləşdirildiyi investisiya aktivlərinin kredit reytinqi

Qaydaların 3.3-cü bəndinin səkkizinci yarımbəndində nəzərdə tutulmuş qeyri-investisiya reytinqinə malik borc öhdəlikləri və təsisatlardakı depozitlər üzrə 5 faizlik xüsusi çəkinin yuxarı həddinə dair tələblər Azərbaycan Respublikası Prezidentinin aktları ilə nəzərdə tutulan tədbirlərin icrası məqsədilə həyata keçirilən investisiya qoyuluşları nəticəsində Fondun investisiya portfelinə daxil olan aktivlərə tətbiq edilmir.

2.3.3. Likvidlik üzrə tələblər

Fondun vəsaitinin likvidlik dərəcəsi Fondun büdcə xərcləri üzrə planlaşdırılan pul və digər köçürmələrinin tam və vaxtında yerinə yetirilməsini təmin etmək üçün yetərli səviyyədə olmalıdır. Bu səviyyəni təmin etmək məqsədilə Fondun vəsaitinin 100 milyon ABŞ dollarından az olmayan hissəsi yüksək likvidliyə malik qısamüddətli pul bazarları alətlərində saxlanılmalıdır. Bu vəsaitin göstərilən məbləğdən az olması halı 7 (yeddi) iş günündən çox davam etməməlidir.

2.3.4. Xarici menecerlər üzrə tələblər

1. Cəlb edilən xarici menecerin özünün və ya onun əsas təsisçisinin kredit reytinqi beynəlxalq kredit agentliklərinin (Standard &Poor's, Fitch və ya Moody's) investisiya dərəcəli kredit reytinqindən aşağı olmamalı və ya onun aktivlərin idarə edilməsində ən azı 5 il müsbət təcrübəsi, yaxud dəyəri 1 (bir) milyard ABŞ dolları məbləğindən az olmayan aktivlərin idarə edilməsində səriştəsi olmalıdır.

2. Xarici menecerlərə idarəetməyə verilən vəsaitin ümumi həcmi investisiya portfelinin məcmu dəyərinin 60 faizindən, bir xarici menecerə idarəetməyə verilən vəsaitin maksimum həcmi investisiya portfelinin məcmu dəyərinin 5 faizindən artıq olmamalıdır.

3. Fondun vəsaitinin idarə olunmasına cəlb edilən xarici menecerlərin səlahiyyətləri və idarəetməyə verilmə müddəti Fondla bu menecerlər arasında bağlanan sazişdə göstərilməlidir.

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 23 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir

## Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2022-ci ildə idarə edilməsi ilə bağlı XƏRCLƏR SMETASI

| Sıra №-si | Xərclər | Kod | Məbləğ (manat) |
|---|---|---|---|
| 1. | Əməyin ödənişi | 210000 | 15348440 |
| 2. | Malların (işlərin və xidmətin) satın alınması | 220000 | 15241745 |
| 2.1. | malların satın alınması | 221000 | 305151 |
| 2.2. | iş və xidmətlərin alınması | 222000 | 13634375 |
| 2.3. | beynəlxalq təşkilatlara üzvlüklə bağlı ödənişlər | 223000 | 652219 |
| 2.4. | təmsilçilik və təşviqat xərcləri | 224000 | 650000 |
| 3. | Sosial ödənişlər | 270000 | 60750 |
| 4. | Qeyri-maliyyə aktivləri | 310000 | 3337665 |
| | **Cəmi** | | **33988600** |

## Dövlət sosial müdafiə fondunun 2022-ci il büdcəsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1. Büdcənin ümumi göstəriciləri**

Dövlət sosial müdafiə fondunun 2022-ci il büdcəsinin gəlirləri 5 306 770 072,0 manat, xərcləri 5 306 770 072,0 manat məbləğində təsdiq edilir.

**Maddə 2. Gəlirlər**

Müəyyən edilsin ki, 2022-ci ildə dövlət sosial müdafiə fondunun gəlirləri aşağıdakı daxilolmalar hesabına formalaşır:

| | Gəlirlərin mənbələri | Məbləğ (manatla) |
|---|---|---|
| 1. | Məcburi dövlət sosial sığorta haqları, cəmi o cümlədən: | 4 148 202 903,0 |
| 1.1. | büdcədən maliyyələşən təşkilatlar üzrə | 1 504 298 579,0 |
| 1.2. | büdcədən maliyyələşən təşkilatlarda işləyənlər üzrə | 205 131 624,0 |
| 1.3. | qeyri-büdcə sektoru üzrə o cümlədən: | 2 438 772 700,0 |
| 1.3.1. | sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər üzrə | 60 000 000,0 |
| 2. | Sair gəlirlər, cəmi o cümlədən: | 12 600 000,0 |
| 2.1. | sanatoriya-kurort yollayışlarının qismən dəyəri üzrə daxilolmalar | 2 060 000,0 |
| 3. | Dövlət sosial müdafiə fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsait | 1 145 967 169,0 |

**Maddə 3. Xərclər**

Müəyyən edilsin ki, dövlət sosial müdafiə fondunun 2022-ci il büdcəsinin xərcləri aşağıdakı istiqamətlərdə həyata keçirilir:

| | Xərclərin istiqamətləri | Məbləğ (manatla) |
|---|---|---|
| 1. | Əhaliyə ödənişlər üzrə xərclər | 5 133 000 000,0 |
| 1.1. | əmək pensiyalarının ödənilməsi xərcləri | 4 951 000 000,0 |
| 1.2. | məcburi dövlət sosial sığorta haqları hesabına müavinət xərcləri | 182 000 000,0 |
| 1.2.1. | əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə | 52 000 000,0 |
| 1.2.2. | hamiləliyə və doğuma görə | 50 000 000,0 |
| 1.2.3. | uşağın anadan olmasına görə | 20 000 000,0 |
| 1.2.4. | 3 yaşına çatanadək uşaqlara qulluqla əlaqədar | 15 000 000,0 |
| 1.2.5. | dəfn üçün | 45 000 000,0 |
| 2. | Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası xətti ilə sığortaolunanların sanatoriya-kurort müalicəsi və sağlamlaşdırma tədbirlərinin həyata keçirilməsi üzrə xərclər | 21 500 000,0 |
| 3. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) əhaliyə sosial sahədə xidmətlərin təşkili üzrə fəaliyyətinin müştərək maliyyələşdirilməsi xərcləri, eləcə də pensiya və müavinətlər üzrə bank əməliyyatlarının aparılması və sair xidmət haqları xərcləri | 48 700 000,0 |
| 4. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) aparatının və digər struktur bölmələrinin saxlanılması xərcləri | 102 905 072,0 |
| 5. | Beynəlxalq təşkilatlara üzvlük haqlarının ödənilməsi xərcləri | 65 000,0 |
| 5.1. | Beynəlxalq Sosial Təminat Assosiasiyasına üzvlük haqqının ödənilməsi xərcləri | 35 000,0 |
| 5.2. | Pensiya və Sosial Fondların Beynəlxalq Assosiasiyasına üzvlük haqqının ödənilməsi xərcləri | 30 000,0 |
| 6. | Azərbaycan Respublikası Hökuməti ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında 2004-cü il 23 sentyabr tarixində imzalanmış "İnkişaf üçün Kredit Sazişi"nə əsasən "Pensiya və sosial təminat" layihəsi üzrə kreditin qaytarılması xərcləri | 600 000,0 |

**Maddə 4. Qalıqlardan istifadə**

Dövlət sosial müdafiə fondunun (o cümlədən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) aparatının və digər struktur bölmələrinin) hesablarında ilin sonuna qalan vəsait növbəti ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilir.

**Maddə 5. Büdcə təşkilatları üzrə sosial sığorta haqları üzrə daxilolmaların tənzimlənməsi**

Büdcə ili ərzində dövlət büdcəsindən maliyyələşən təşkilatlara nəzərdə tutulmuş məcburi dövlət sosial sığorta haqları üzrə vəsaitlər dövlət sosial müdafiə fonduna tam məbləğdə daxil olmadıqda, dövlət sosial müdafiə fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsaitin məbləği nəzərdə tutulmuş və faktiki hesablanmış məcburi dövlət sosial sığorta haqları arasındakı fərq qədər artırılır, artıq daxil olduqda isə nəzərdə tutulmuş və faktiki hesablanmış məcburi dövlət sosial sığorta haqları arasındakı fərq qədər azaldılır.

**Maddə 6. Qanunun qüvvəyə minməsi**

Bu Qanun 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 dekabr 2021-ci il*

## "Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi ilə Macarıstan Milli Arxivi arasında arxiv işi sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2021-ci il sentyabrın 22-də Nyu York şəhərində imzalanmış "Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi ilə Macarıstan Milli Arxivi arasında arxiv işi sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Macarıstan tərəfinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 dekabr 2021-ci il*

## Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 14 may tarixli 572 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının hərbi geyim forması və fərqləndirmə nişanları haqqında Əsasnamə"də və "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının hərbi geyim forması və fərqləndirmə nişanlarının təsvirləri"ndə dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 14 may tarixli 572 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 5, maddə 454; 2009, № 8, maddə 617; 2016, № 8, maddə 1382) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının hərbi geyim forması və fərqləndirmə nişanları haqqında Əsasnamə"də və "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının hərbi geyim forması və fərqləndirmə nişanlarının təsvirləri"ndə dəyişiklik təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 dekabr 2021-ci il*

## Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti haqqında Əsasnamənin, Xidmətin strukturunun, hərbi qulluqçularının və mülki işçilərinin say həddinin, ali zabit heyəti vəzifələrinin siyahısının təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti haqqında Əsasnamə" təsdiq edilsin.

2. "Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin strukturu" təsdiq edilsin.

3. "Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin hərbi qulluqçularının və mülki işçilərinin say həddi" təsdiq edilsin.

4. "Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin ali zabit heyəti vəzifələrinin siyahısı" təsdiq edilsin.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 dekabr 2021-ci il*

## Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi haqqında Əsasnamənin, Agentliyin strukturunun, hərbi qulluqçularının və mülki işçilərinin say həddinin, ali zabit heyəti vəzifələrinin siyahısının təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi haqqında Əsasnamə" təsdiq edilsin.

2. "Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin strukturu" təsdiq edilsin.

3. "Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin hərbi qulluqçularının və mülki işçilərinin say həddi" təsdiq edilsin.

4. "Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin ali zabit heyəti vəzifələrinin siyahısı" təsdiq edilsin.

5. Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi mühafizəsini təmin etdiyi şəxslərin siyahısı barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

6. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 dekabr 2021-ci il*

## Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşlarına həmin maaşın 20 faizi məbləğində əlavə müəyyən edilsin.
2. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşları orta hesabla 20 faiz artırılsın.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.
4. Müəyyən edilsin ki, bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan əlavə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış say və tərkibə uyğun olaraq, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi tərəfindən ödənilir.
5. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.
6. Bu Fərman 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 dekabr 2021-ci il*

## Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədilə **qərara alıram:**

1. 2021-ci ildə Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşlarına bir sıra əlavələrin müəyyən edildiyini nəzərə alaraq, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin həmin əlavələrin şamil olunmadığı həqiqi hərbi xidmət hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) aylıq vəzifə maaşlarına həmin maaşın 20 faizi məbləğində əlavə müəyyən edilsin.
2. Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşları orta hesabla 20 faiz artırılsın.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.
4. Müəyyən edilsin ki, bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan əlavə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış say və tərkibə uyğun olaraq, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən ödənilir.
5. Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.
6. Bu Fərman 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 dekabr 2021-ci il*

## Azərbaycan Respublikası Müdafiə Nazirliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədilə **qərara alıram:**

1. "İşğaldan azad olunmuş ərazilərdə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin həqiqi hərbi xidmət edən hərbi qulluqçularının aylıq vəzifə maaşlarına Azərbaycan Respublikası Prezidentinin əlavəsinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 25 iyun tarixli 2727 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşlarına Azərbaycan Respublikası Prezidentinin əlavəsinin müəyyən edildiyini nəzərə alaraq, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin həmin əlavənin şamil olunmadığı həqiqi hərbi xidmət hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları və Azərbaycan Respublikası Müdafiə Nazirliyinin əməliyyat briqadalarının və əlahiddə ümumqoşun ordusunun tabeliyində olan xüsusi təyinatlı briqadaların hərbi qulluqçuları istisna olmaqla) aylıq vəzifə maaşlarına həmin maaşın 20 faizi məbləğində əlavə müəyyən edilsin.
2. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşları orta hesabla 20 faiz artırılsın.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.
4. Müəyyən edilsin ki, bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan əlavə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış say və tərkibə uyğun olaraq, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi tərəfindən ödənilir.
5. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.
6. Bu Fərman 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 dekabr 2021-ci il*

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin həqiqi hərbi xidmət hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədilə **qərara alıram:**

1. "İşğaldan azad olunmuş ərazilərdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının həqiqi hərbi xidmət edən hərbi qulluqçularının aylıq vəzifə maaşlarına Azərbaycan Respublikası Prezidentinin əlavəsinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 iyul tarixli 2734 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşlarına Azərbaycan Respublikası Prezidentinin əlavəsinin müəyyən edildiyini nəzərə alaraq, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin həmin əlavənin şamil olunmadığı həqiqi hərbi xidmət hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) aylıq vəzifə maaşlarına həmin maaşın 20 faizi məbləğində əlavə müəyyən edilsin.
2. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşları orta hesabla 20 faiz artırılsın.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.
4. Müəyyən edilsin ki, bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan əlavə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış say və tərkibə uyğun olaraq, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən ödənilir.
5. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.
6. Bu Fərman 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 dekabr 2021-ci il*

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşlarına həmin maaşın 20 faizi məbləğində əlavə müəyyən edilsin.
2. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşları orta hesabla 20 faiz artırılsın.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.
4. Müəyyən edilsin ki, bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan əlavə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış say və tərkibə uyğun olaraq, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən ödənilir.
5. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.
6. Bu Fərman 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 dekabr 2021-ci il*

## Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) aylıq vəzifə maaşlarına həmin maaşın 20 faizi məbləğində əlavə müəyyən edilsin.
2. Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşları orta hesabla 20 faiz artırılsın.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.
4. Müəyyən edilsin ki, bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan əlavə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış say və tərkibə uyğun olaraq, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən ödənilir.
5. Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.
6. Bu Fərman 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 dekabr 2021-ci il*

## Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) aylıq vəzifə maaşlarına həmin maaşın 20 faizi məbləğində əlavə müəyyən edilsin.
2. Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşları orta hesabla 20 faiz artırılsın.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.
4. Müəyyən edilsin ki, bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan əlavə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış say və tərkibə uyğun olaraq, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti tərəfindən ödənilir.
5. Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.
6. Bu Fərman 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 dekabr 2021-ci il*

## Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin, Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin və Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin, Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin və Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) aylıq vəzifə maaşlarına həmin maaşın 20 faizi məbləğində əlavə müəyyən edilsin.
2. Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşları orta hesabla 20 faiz artırılsın.
3. Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin və Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə maaşları təsdiq edilənədək, həqiqi hərbi xidmət hərbi qulluqçularının mövcud aylıq vəzifə maaşlarına həmin maaşın 20 faizi məbləğində əlavə müəyyən edilsin və dövlət qulluqçusu olmayan mülki işçilərinin mövcud aylıq vəzifə (tarif) maaşları orta hesabla 20 faiz artırılsın.
4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.
5. Müəyyən edilsin ki, bu Fərmanın 1-ci və 3-cü hissələrində nəzərdə tutulan əlavə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış say və tərkibə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və ya Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi tərəfindən ödənilir.
6. Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.
7. Bu Fərman 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 dekabr 2021-ci il*

## Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif)maaşlarının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşlarına həmin maaşın 20 faizi məbləğində əlavə müəyyən edilsin.
2. Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşları orta hesabla 20 faiz artırılsın.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.
4. Müəyyən edilsin ki, bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan əlavə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış say və tərkibə uyğun olaraq, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən ödənilir.
5. Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.
6. Bu Fərman 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 dekabr 2021-ci il*

## Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının, xüsusi rütbəsi olan əməkdaşlarının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının, xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) aylıq vəzifə maaşlarına həmin maaşın 20 faizi məbləğində əlavə müəyyən edilsin.
2. Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşlarına həmin maaşın 20 faizi məbləğində əlavə müəyyən edilsin.
3. Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşları orta hesabla 20 faiz artırılsın.
4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.
5. Müəyyən edilsin ki, bu Fərmanın 1-ci və 2-ci hissələrində nəzərdə tutulan əlavə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış say və tərkibə uyğun olaraq, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi tərəfindən ödənilir.
6. Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.
7. Bu Fərman 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 dekabr 2021-ci il*

## Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşlarına həmin maaşın 20 faizi məbləğində əlavə müəyyən edilsin.
2. Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşları orta hesabla 20 faiz artırılsın.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.
4. Müəyyən edilsin ki, bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan əlavə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış say və tərkibə uyğun olaraq, Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən ödənilir.
5. Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.
6. Bu Fərman 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 dekabr 2021-ci il*

# Heydər Əliyev Mərkəzində braziliyalı rəssam Nina Pandolfonun fərdi sərgisi açılıb





Dekabrın 22-də Heydər Əliyev Mərkəzində təsviri incəsənətin küçə sənəti ("street art") üslubunda işləyən braziliyalı rəssam Nina Pandolfonun "Minnətdarlıq" ("Gratitude") adlı fərdi sərgisi açılıb.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva sərginin açılışında iştirak edib.

Mərasimdə çıxış edən Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov diqqətə çatdırıb ki, pandemiya dövründə uzun müddətdir ehtiyac duyulan belə bir sərginin məhz mərkəzdə təşkil olunması çox əhəmiyyətlidir. Bir neçə gündür Bakıda olan Nina Pandolfo ekspozisiyanın qurulmasında şəxsən iştirak edib. Həmçinin sərginin ərsəyə gəlməsində Braziliyanın Azərbaycandakı səfiri Manuel Adalberto Karlos Monteneqro Lopes da Kruzanın, Jan David Malat Qalereyasının direktoru Jan David Malatanın böyük əməyi var.

Anar Ələkbərov bütün bu əlaqələrdə, eləcə də belə tədbirlərin təşkilində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın xüsusi rolu olduğunu vurğulayıb və ona təşəkkürünü bildirib.

Sərginin konsepsiyası haqqında məlumat verən braziliyalı rəssam Nina Pandolfo əvvəlcə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevaya və sərginin təşkilində əməyi olan hər kəsə təşəkkürünü ifadə edib.

Rəssam qeyd edib ki, "Minnətdarlıq" sərgisi hər kəsin minnətdar olmasını ehtiva edən bir sərgidir, daha doğrusu, həyat tərzi anlamındadır.

"Minnətdarlıq bizi daha yüksək səviyyəyə ucaldan ülvi bir hissdir. O, bizə çətin anların keçib getdiyini, tezliklə gözəl bir şəfəqin gələcəyini öyrədir. Bizə paylaşmağı, birləşməyi, başqalarını duymağı öyrədir. Ürəyimizin sıxıldığını hiss etdiyimiz zaman gözlərimizə təbəssüm gətirən bir hissdir. Bizi digər insanlarla və həyatla unikal və sıx şəkildə əlaqələndirir. Ümidvaram ki, bütün ziyarətçilər mənim üçün heç bir etnik mənsubiyyəti yox, daha çox qadın olmaq vəziyyətini təmsil edən personajların təsirini, gücün kövrəklikdə olduğunu hiss edə bilərlər. Çünki qadın zəif deyil, kövrəkdir. Zəiflik gücün olmamasıdır. Kövrəklik isə həssaslıqdır. İşləmək, başqalarına dəstək olmaq, onlara qayğı göstərmək, bir sözlə, biz qadınların etdiyi hər şeyi etmək üçün bizə güc verən elə qadının həssaslığıdır", - deyə rəssam bildirib.

Sərginin açılış mərasimində çıxış edən Braziliyanın ölkəmizdəki səfiri Manuel Adalberto Karlos Monteneqro Lopes da Kruza Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya bu möhtəşəm təşəbbüsə görə, Fondun vitse-prezidenti Leyla Əliyevaya Nina Pandolfonu Azərbaycana dəvət etdiyi üçün təşəkkürünü bildirib.



Daha sonra sərgi ilə tanışlıq olub.

Sərgidə müəllifin multikultural dünyanı təqdim edən, etnik baxımdan müxtəlifliyi ilə seçilən qadınlara həsr olunan əsərləri nümayiş etdirilir. Ziyarətçilər həm də Nina Pandolfonun qraffiti instalyasiyaları ilə də tanış ola bilərlər.

Müəllif hesab edir ki, minnətdarlıq hissi daim ətrafa aşılanmalı və təşviq edilməlidir. Vəziyyətdən asılı olmayaraq, hər zaman minnətdar olmaq üçün səbəb tapmaq mümkündür. Nina Pandolfo onda ən güclü minnətdarlıq hissinin məhz yaradıcılıq zamanı yarandığını söyləyir.

Sərgiyə çıxarılan əsərlərdəki qadın obrazları fərqli mədəniyyətlərə mənsub olaraq geniş açılmış gözlərlə təsvir edilib. Bununla da müəllif bizi əhatə edən multikultural dünyanın seyr edilməsinin və buna minnətdarlıqla yanaşılmasının vacibliyini vurğulayır.

Braziliyalı rəssam Nina Pandolfo əsərləri ilə bağlı təəssüratlarını jurnalistlərlə də bölüşüb. O deyib: "Mənim sərgimin əsası təkcə minnətdarlıq deyil, eyni zamanda minnətdar olmaqdır. Mən cəmiyyətə bu mesajı ötürmək istəyirəm. Sərgi çərçivəsində yaratdığım qaranlıq otağın öz mənası var. Demək istəyirəm ki, biz minnətdar olsaq, qaranlıqda olan, kölgədə olan şeyləri işıq üzünə çıxaracağıq. O otağa keçən hər bir kəs öz işığını orada görəcək".

Səfir Manuel Adalberto Karlos Monteneqro Lopes da Kruza isə müsahibəsində vurğulayıb ki, pandemiya dövründə bu sərginin təşkili yeni həyatın başlanğıcıdır, yəni öncədən gələn bir yazdır, canlı aləmin oyanışıdır. "Çox xoşbəxtəm ki, bu duyğuları Braziliya rəssamı gətirdi. Azərbaycan odlar yurdu olduğu kimi, biz də buraya hisslərimizlə bir od gətirdik. Bu sərgi dünyəvi xarakter daşısa da, burada Braziliyanın nüansları var. Sərgidə nümayiş olunan əsərlərdəki obrazlar müxtəlif irqlərin nümayəndələridir - Braziliyada olduğu kimi".

Heydər Əliyev Mərkəzindəki "Minnətdarlıq" sərgisi 2022-ci il iyunun 19-dək davam edəcək.

Nina Pandolfo 1977-ci ildə Braziliyada anadan olub. Karlos de Kampos adına Dövlət Texniki Məktəbdə Vizual kommunikasiya üzrə təhsil alan Nina Pandolfo incəsənətin yeni üsulu ilə San-Paulu küçələrini bəzəməyə başlayır, qısa zamanda 1990-cı illərin Braziliya qraffiti səhnəsinin ayrılmaz nümayəndəsinə çevrilir, qraffiti sənətinin muzey və qalereyalara yol tapmasında əvəzsiz rol oynayır.

Pandolfo təkcə Braziliyada yox, dünyanın bir çox yerlərində, o cümlədən Avropanın bir sıra ölkələrinin və Amerika Birləşmiş Ştatlarının müxtəlif sənət qalereyalarında keçirilən sərgilərdə iştirak edib.

2007-ci ildə Pandolfo Şotlandiyanın 800 il yaşı olan tarixi Kelburn qəsrinin fasad və qülləsini boyamaq üçün Braziliyanın tanınmış küçə rəssamları ilə əməkdaşlıq edir. Bu təşəbbüs o qədər uğurlu olur ki, layihə 2011-ci ilin "Top-10 küçə sənəti nümunələri" siyahısına daxil edilir.

# Bisera TURKOVİÇ: "Bosniya və Herseqovina Azərbaycanla münasibətlərin inkişafında maraqlıdır"

Dekabrın 23-də Azərbaycan Respublikası xarici işlər naziri Ceyhun Bayramov Bosniya və Herseqovinanın xarici işlər naziri xanım Bisera Turkoviç ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblək ki, görüşdə Azərbaycan ilə Bosniya və Herseqovina arasında ikitərəfli münasibətlərin perspektivləri və müxtəlif sahələr üzrə hərtərəfli əməkdaşlığın inkişaf etdirilməsi yollarına dair ətraflı fikir mübadiləsi aparılıb.

Tərəflər Azərbaycan ilə Bosniya və Herseqovina arasında siyasi münasibətlərin yüksək səviyyədə olduğunu bildirərək, bu əlaqələrin daha da gücləndirilməsi üçün birgə səylərin göstəriləcəyinə əminlik ifadə ediblər.

Nazir Ceyhun Bayramov ölkələrimiz arasında mövcud olan dostluq və əməkdaşlıq münasibətlərindən məmnunluqla bəhs edib. Ölkələrimizin bir-birilərinin suverenliyinə və ərazi bütövlüklərinə verdikləri davamlı dəstəyin beynəlxalq hüququn təməl prinsiplərinə hörmətlə yanaşılması ilə bərabər, əlaqələrimizin təməlində dayandığı xüsusilə qeyd olunub. Azərbaycanın Bosniya və Herseqovina ilə qarşılıqlı maraqlara əsaslanan və hər iki ölkəyə fayda gətirəcək bütün sahələrdə əməkdaşlığı genişləndirməkdə maraqlı olduğu vurğulanıb.

Səfərindən məmnunluğunu ifadə edən nazir Bisera Turkoviç Azərbaycan Prezidenti ilə keçirilən görüşə istinad edib. Nazir ölkəsinin Azərbaycanla münasibətlərin inkişafında maraqlı olduğunu və hər iki ölkədə səfirliklərin fəaliyyətə başlaması ilə bağlı əməli addımlar atılmağa başlayanda əlaqələrin inkişafına müsbət təkan veriləcəyini bildirib.

Görüş zamanı iki ölkə arasında siyasi dialoqun daha da inkişaf etdirilməsi üçün qarşılıqlı səfərlərin və XİN-lərarası siyasi məsləhətləşmələrin keçirilməsinin vacibliyi vurğulanıb.

Tərəflər Azərbaycan ilə Bosniya və Herseqovina arasında iqtisadi sahədə əlaqələrin genişləndirilməsi barədə məsələləri müzakirə edib, həmçinin enerji, kənd təsərrüfatı, turizm, təhsil, humanitar sahələrdə əməkdaşlığın gücləndirilməsi üçün əlverişli imkanların olduğunu bildiriblər.

Nazir Ceyhun Bayramov həmkarına bölgədə mövcud olan cari vəziyyət, o cümlədən müharibə sonrası yeni reallıqlar, azad edilmiş ərazilərdəki vəziyyət, mina təhlükəsi, habelə bu torpaqlarda həyata keçirilən bərpa və yenidənqurma prosesi barədə məlumat verib.

Nazir Bisera Turkoviç COVID-19 pandemiyası ilə mübarizədə Azərbaycanın ölkəsinə göstərdiyi yardıma görə təşəkkürünü ifadə edib. Həmçinin Heydər Əliyev Fondu tərəfindən Bosniya və Herseqovinada həyata keçirilən humanitar layihələrin əhəmiyyətini vurğulayıb.

Görüşdə tərəflər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, habelə qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

Görüşdən sonra nazirlər mətbuat nümayəndələri üçün brifinq keçiriblər.

❖ ❖ ❖

Azərbaycanla Bosniya və Herseqovina arasında münasibətlər, siyasi dialoq yüksək səviyyədə inkişaf edir, eyni zamanda parlamentlərarası əlaqələr mövcuddur.

Bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Bosniya və Herseqovina Nazirlər Şurası sədrinin müavini və xarici işlər naziri Bisera Turkoviçlə keçirilən görüşdən sonra təşkil olunan brifinqdə söyləyib.

Nazir bildirib ki, görüşdə Balkan yarımadasında və Cənubi Qafqazda əməkdaşlıq məsələləri müzakirə olunub. Həmçinin iki ölkənin Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrə başlanılması ilə bağlı razılıq əldə edilib.

Ceyhun Bayramov postpandemiya dövründə ölkələrimiz arasında təhsil, mədəniyyət, turizm və digər sahələrdə əlaqələrin güclənəcəyinə əminliyini bildirib.

Nazir qeyd edib ki, Bosniya və Herseqovina nümayəndələri "Cənub qaz dəhlizi"nin Məşvərət Şurasında hər zaman iştirak edirlər. Uğurla fəaliyyətə başlamış bu layihənin Avropa İttifaqından olan həmkarlarla genişlənmə perspektivləri müzakirə olunur. 2022-ci ilin fevralında baş tutacaq Məşvərət Şurasının iclasında Bosniya və Herseqovina "Cənub qaz dəhlizi" layihəsini əlavə şaxələndirmə istiqamətlərindən biri ola bilər.

❖ ❖ ❖

Qarabağın döyüş meydanından inkişaf bölgəsinə çevrilməsi çox sevindiricidir. Bosniya və Herseqovina Azərbaycanın ərazi bütövlüyünə dair qətnamə qəbul edib. Azərbaycan da Bosniya və Herseqovinanın suverenliyini tanıyır.

Bunu Bosniya və Herseqovina Nazirlər Şurası sədrinin müavini və xarici işlər naziri Bisera Turkoviç Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla keçirilən görüşdən sonra təşkil olunan brifinqdə söyləyib.

Bosniya və Herseqovina rəhbərliyinin Azərbaycanda səfirliyin açılması ilə bağlı qərar verdiyini deyən nazir bunun ölkə vətəndaşlarının Azərbaycana turist kimi səfər etmələri üçün yaxşı imkan yaradacağını deyib.

COVID-19 pandemiyası ilə əlaqədar Azərbaycanın ölkəsinə göstərdiyi dəstəyə görə minnətdarlığını bildirən bosniyalı nazir qeyd edib ki, Bosniya və Herseqovinada investisiya üçün çox gözəl imkanlar var.

❖ ❖ ❖

Hazırda işğaldan azad edilən ərazilərdə bərpa-quruculuq işlərinin həyata keçirilməsi bizim üçün birnömrəli prioritetdir. Bosniya və Herseqovina tərəfi Qarabağda həyata keçirilən layihələrə qoşulmağa hazır olduğunu bildirdi.

Bu sözləri Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Bosniya və Herseqovina Nazirlər Şurası sədrinin müavini və xarici işlər naziri Bisera Turkoviçlə keçirilən görüşdən sonra təşkil olunan brifinqdə deyib.

Nazir qeyd edib ki, Azərbaycan və Bosniya və Herseqovina həm ikitərəfli, həm çoxtərəfli əməkdaşlığın inkişafında maraqlıdır. Bugünkü səfər münasibətlərin inkişafı üçün önəmli addımdır.

Ceyhun Bayramov həmçinin Bosniya və Herseqovinanın həm 30 illik münaqişə dövründə, həm də 44 günlük Vətən müharibəsində hər zaman Azərbaycanın ədalətli mövqeyini birmənalı şəkildə dəstəklədiyini vurğulayıb.

Nazir bildirib ki, Bosniya və Herseqovina öz təcrübəsində müharibə acılarını yaşamış ölkədir. Bu ölkənin parlamenti Xocalı ilə bağlı qətnamə qəbul edib. ANAMA ilə Bosniya və Herseqovina arasında təmaslar yaradılıb və minaların təmizlənməsi sahəsində əməkdaşlıq olacaq.

**AZƏRTAC**

# Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində 143 əməkdaşa Yeni Azərbaycan Partiyasının üzvlük vəsiqələri təqdim edilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində Yeni Azərbaycan Partiyasının (YAP) Yasamal rayonu, S.Əsgərova küçəsi, 85 ərazi partiya təşkilatının iclasında əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov, YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev də iştirak ediblər.



Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, S.Babayev 1992-ci ilin noyabrında xalqımızın Ümummilli Lideri Heydər Əliyevin sədrliyi ilə yaradılan Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli inkişaf yolundan bəhs edərək bu gün Prezident İlham Əliyevin rəhbərlik etdiyi partiyanın cəmiyyətdə böyük inam və etimada sahib olduğunu vurğulayıb.

Nazir Ulu Öndər Heydər Əliyevin müdrik siyasətinin 2003-cü ildən Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə davam və inkişaf etdirildiyini, ötən 18 ildə əldə olunan mühüm uğurları, xüsusilə Vətən müharibəsində qazanılan möhtəşəm Zəfəri diqqətə çatdırıb. Həmçinin sosial uğurları, sosial proqramların əhəmiyyətli dərəcədə genişləndiyini, sosial ödənişlər üzrə xərclərin son 3 ildə 60 faiz və ya 2,4 milyard manat artdığını qeyd edib.

S.Babayev bu günlərdə Prezident İlham Əliyevin imzaladığı 10 fərman və sərəncamla sosial islahatların yeni mərhələsinə başlandığını, 2,1 milyondan çox şəxsi əhatə edən sosial ödənişlərdə növbəti dəfə ciddi artımlar edildiyini bildirib.

O, nazirlik əməkdaşlarından YAP sıralarına daxil olanların artmaqda olduğunu, 2018-ci ilin aprelindən nazirlik sistemi üzrə 900-ə yaxın işçinin partiya sıralarına qəbul edildiyini, nazirlik və qurumlardan 4 min əməkdaşın YAP üzvü olduğunu bildirib.

Nazir partiyaya yeni üzv qəbul olunan əməkdaşları təbrik edib. Tədbirdə partiyanın üzvlüyünə qəbul olunan nazirlik əməkdaşları çıxış ediblər. Ümumilikdə nazirlik sistemində çalışan 143 əməkdaş partiyaya üzv qəbul olunub, onlara üzvlük vəsiqələri verilib. Daha 107 əməkdaşın YAP-a üzv qəbul olunmaq üçün ərizələri qəbul edilib.

İclasda çıxış edən T.Budaqov 1990-cı illərin əvvəllərində, Azərbaycanın ağır vəziyyətdə olduğu bir vaxtda Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə yaradılan YAP-ın ölkəmizin bütün sahələrdə inkişafında mühüm rolunu vurğulayıb. O, Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində Azərbaycanın əldə etdiyi tarixi nailiyyət və qələbələri diqqətə çatdırıb.

T.Budaqov YAP-ın qarşıya qoyulan vəzifələrinin yerinə yetirilməsində rayon və ərazi partiya təşkilatlarının da rolunu, onların mütəşəkkil, aktiv fəaliyyətinin vacibliyini qeyd edib. O, partiyaya yeni üzv qəbul olunanları təbrik edib.

Nazirlik sistemində çalışan əməkdaşlara Yeni Azərbaycan Partiyasının üzvlük vəsiqələri təqdim edilib.

# Azərbaycan Fransaya nota verib

**Fransanın Azərbaycandakı müvəqqəti işlər vəkili Xarici İşlər Nazirliyinə çağırılıb və ona etiraz notası təqdim edilib. Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.**

Bildirilib ki, dekabrın 22-də Fransanın İl-dö-Frans regionunun prezidenti, Fransada keçiriləcək prezident seçkilərinə Respublikaçılar Partiyasının namizədi Valeri Pekrez Azərbaycan Respublikasının Xankəndi şəhərinə qanunsuz səfər edib.

Seçkiqabağı kampaniya çərçivəsində digər fransız siyasətçilərin müşayiəti ilə həyata keçirilən bu səfər Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı yönəlməklə ölkənin milli qanunvericiliyinin pozulması halıdır.

Xarici İşlər Nazirliyi qanunsuz səfərlə bağlı Fransa səfirliyinə qəti etirazını bildirib və Azərbaycan Respublikasının müvafiq qanunlarının tələblərini ciddi şəkildə pozan sözügedən Fransa vətəndaşlarının milli qanunvericiliyimizə uyğun olaraq məsuliyyət daşıdığını xatırladıb. Fransadan olan bir qrup siyasətçinin bu addımının Azərbaycan-Fransa ikitərəfli əlaqələrinə ziyan vurduğu, eyni zamanda Fransanın regionda nüfuzuna və münaqişənin başa çatmasından sonra Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasında oynaya biləcəyi rola ciddi xələl gətirdiyi qarşı tərəfin diqqətinə çatdırılıb.

Həmçinin qeyd olunub ki, Azərbaycan ərazilərinə qanunsuz səfər edən Fransa vətəndaşlarının adları ölkəmizə girişi arzuolunmaz şəxslər siyahısına daxil edilib.


## "Bank Respublika" ASC səhmdarlarının nəzərinə!

**"Bank Respublika" ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı 24 yanvar 2022-ci il saat 12:00-da Xaqani küçəsi, 21 ünvanında yerləşən bankın Baş ofisində keçiriləcək.**

**Gündəlikdəki məsələlər:**

1. İclasın sədrinin və katibinin təyin edilməsi.
2. İclasın gündəliyinin təsdiq edilməsi.
3. "Bank Respublika" ASC-də Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında.
4. "Bank Respublika" ASC-nin Nizamnaməsinə əlavə və dəyişikliklərin edilməsi haqqında.
5. "Bank Respublika" ASC-nin Səhmdarların Ümumi Yığıncağının Əsasnaməsinin təsdiq edilməsi haqqında.
6. "Bank Respublika" ASC-nin Müşahidə Şurasının Əsasnaməsinin təsdiq edilməsi haqqında.
7. "Bank Respublika" ASC-nin ilin maliyyə nəticələri və mükafatın ödənilməsi haqqında.
8. Xalis mənfəətin bölüşdürülməsi haqqında.

*İdarə Heyəti*

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin kollektivi iş yoldaşları Leyla Əliyevaya atası

**MƏZAHİR ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"TuranBank" ASC-nin rəhbərliyi və kollektivi bankın Maliyyə Menecmenti Departamentinin direktoru Əlizaman Mətləb oğlu İbrahimova anası

**SEVDA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail: secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5586
Sifariş 2710
Qiyməti 40 qəpik